AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# ELMİ MƏNBƏLƏR
# XXIV TEZİSLƏR TOPLUSU
## ELMİ İŞ Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı

# SCIENTIFIC SOURCES
# XXIV COLLECTION OF THESES
## Special issue of the International Scientific Journal of SCIENTIFIC WORK

Bakı, Azərbaycan
24 mart 2026

# ELMİ MƏNBƏLƏR
# XXIV TEZİSLƏR TOPLUSU
# ELMİ İŞ Beynəlxalq Elmi Jurnalın xüsusi buraxılışı

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

# SCIENTIFIC SOURCES
# XXIV COLLECTION OF THESES
# Special issue of the International Scientific Journal of SCIENTIFIC WORK

**24 mart 2026**

# Beynəlxalq indekslər / International Indices

ISSN: 2663-4619
e-ISSN: 2708-986X
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© tezis.aem@aem.az
© aem.az

## TƏŞKİLAT KOMİTƏSİ

### Sədr

**Assoc. Prof. Dr. Vüqar ƏLİYEV,** Bakı Dövlət Universiteti / Azərbaycan

### Sədr müavinləri

**Assoc. Prof. Dr. Sevinc VƏLİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Aydan XƏNDAN**, Bakı Dövlət Universiteti / Azərbaycan

### Məsul katib

**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu / Azərbaycan

### ÜZVLƏR

**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Əziz SANCAR,** Çapel-Hill Şimali Karolina Universiteti / ABŞ
**Prof. Dr. İntiqam CƏBRAYILOV,** Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Dr. Georgi DUKA,** Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Şaiq İBRAHİMOV,** ARETN Zoologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Arzu SƏRDARLI,** Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Əliəddin ABBASOV,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Rajeş KUMAR,** Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Dünya BABANLI,** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan
**Prof. Dr. Cihan ÖZDEMİR,** Biləcik Şeyx Edəbali Universiteti / Türkiyə
**Prof. Dr. Rüfət RÜSTƏMOV,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Kairbek ARISTANBEKOV,** İqtisadi Siyasət İnstitutu / Qazaxıstan
**Prof. Dr. Afət MƏMMƏDOVA,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Əkbər AĞAYEV,** Sumqayıt Dövlət Universiteti / Azərbacan
**Prof. Dr. İya ZUMBULADZE,** Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Dr. Mehdi BAĞIROV,** Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan

**Prof. Dr. Rafiq ÇOBANOV,** Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Afaq MƏMMƏDOVA,** Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Fəxrəddin YUSUBOV,** Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Valeriy LİSENKO,** Ümumrusiya Meteoroloji Xidmət Elmi-Tədqiqat İnstitutu / Rusiya
**Prof. Dr. Adil BAXŞƏLİYEV,** Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mətanət ƏFƏNDİYEVA,** Milli İdman Tibbi və Reabilitasiya İnstitutu / Rusiya
**Assoc. Prof. Dr. Nuralı ÇƏLƏBİYEV,** Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şəki filialı / Azərbaycan
**Assoc. Prof. Dr Büşra BİLAL,** Ali Cinnah Universiteti / Pakistan İslam Respublikası
**Assoc. Prof. Dr. Salatın HACIYEVA,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Mehriban İMANOVA,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Aytac ZEYNALOVA,** Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN,** Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevda AXUNDOVA,** Bakı Slavyan Universiteti / Azərbaycan
**Assos. Prof. Dr. İosefina BLAZSANİ-BATTO,** Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Şəlalə ZEYNALOVA,** Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Fəxrəddin AĞAYEV,** Əkinçilik Elmi Tədqiqat İnstitutu /Azərbaycan
**Assoc. Prof. Dr. Aliyə RZAYEVA,** ARETN Təbii Ehtiyatlar İnstitutu / Azərbaycan
**Dr. Afaq ƏLİYEVA,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Dr. Billurə HACIYEVA,** Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA,** Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**PhD Tomas SMEDLEY,** Cenevrə Kolleci, Pensilvaniya / ABŞ
**PhD Qəmər İSAYEVA,** Azərbaycan Texniki Universiteti/ Azərbaycan

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Assoc. Prof. Dr. Vugar ALIYEV**, Baku State University / Azerbaijan

### Deputy chairmen

**Assoc. Prof. Dr. Sevinj VALIYEVA**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Aydan KHANDAN**, Baku State University / Azerbaijan

### Executive secretary

**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature named after Nizami Ganjavi / Azerbaijan

### MEMBERS

**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Aziz SANJAR,** University of North Karolina at Chapel Hill / USA
**Prof. Dr. Intigam JABRAYILOV,** Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Georgi DUKA,** Moldova Academy of Sciences / Moldova
**Prof. Dr. Shaig IBRAHIMOV,** Institute of Zoology of MSERA / Azerbaijan
**Prof. Dr. Arzu SARDARLI,** First Nations University of Canada / Canada
**Prof. Dr. Aliaddin ABBASOV,** Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Rajesh KUMAR,** Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Dunya BABANLI,** Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Jihan OZDEMIR,** Bilecik Şeykh Edebali University / Turkey
**Prof. Dr. Rufat RUSTAMOV,** Baku State University / Azerbaijan
**Prof. Dr. Kairbek ARISTANBEKOV,** Institute of Economic Policy / Kazakhstan
**Prof. Dr. Afat MAMMADOVA,** Baku State University / Azerbaijan
**Prof. Dr. Akbar AGHAYEV,** Sumgait State University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE,** Kutaisi State University / Georgia
**Prof. Dr. Mehdi BAGHIROV,** Azerbaijan State Oil and Industry University / Azerbaijan
**Prof. Dr. Rafig CHOBANOV,** Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Fakhraddin YUSUBOV,** Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Valery LISENKO,** All-Russian Metrological Service Research Institute / Russia
**Prof. Dr. Matanat AFANDIYEVA,** National Institute of Sports Medicine and Rehabilitation / Russia
**Assoc. Prof. Dr. Nuralı CHALABIYEV,** Shaki branch of Azerbaijan State Pedagogical University / Azerbaijan

**Assoc. Prof. Dr. Bushra BILAL,** Muhammad Ali Jinnah University / Pakistan
**Assoc. Prof. Dr. Salatin HAJIYEVA,** Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Mehriban IMANOVA,** Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Aytaj ZEYNALOVA,** Azerbaijan University of Languages / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj RUINTAN,** Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevda AKHUNDOVA,** Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO,** Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Shalala ZEYNALOVA,** Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Fakhraddin AGHAYEV,** Scientific Research Institute of Agriculture / Azerbaijan
**Assoc. Prof. Dr. Aliya RZAYEVA,** Institute of Natural Resources of MSERA/ Azerbaijan
**Dr. Afag ALIYEVA,** Nakhchivan State University / Azerbaijan
**Dr. Billura HAJIYEVA,** Nakhchivan State University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA,** Beloserkovsk National Agrarian University / Ukraine
**PhD Thomas SMEDLEY,** Geneva College in Beaver Falls, Pennsylvania / USA
**PhD Gamar ISAYEVA,** Azerbaijan Technical University/ Azerbaijan

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 6-12
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 6-12
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
# HUMANITIES AND SOCIAL SCIENCES

**Sədaqət Həsənova**
Naxçıvan Dövlət Universiteti
filologiya elmləri doktoru
https://orcid.org/0009-0002-9996-6229
sedagethesenova@gmail.com

## "Qonşuluq" mövzusundakı atalar sözlərinin semantik xüsusiyyətləri

***Açar sözlər:*** *dil, üslub, atalar sözləri, məna, qonşuluq*
***Keywords:*** *language, style, proverbs, meaning, neighborhood*

Beynəlxalq dilçilikdə atalar sözlərinin semiotik və semantik aspektləri sistemli şəkildə təhlil edilmiş (Grzybek, 2021), atalar sözlərinin semantik strukturuna dair fundamental nəzəri çərçivə verilmişdir (Grzybek, 2014). Atalar sözləri ilə bağlı araşdırmalarda adı xüsusi vurğulanan Wolfgang Mieder atalar sözü tədqiqatları üzrə annotasiyalı biblioqrafiya, semantik və paremioloji işlərin geniş siyahısını təqdim edir (Mieder, 1993). Bir sıra araşdırmaların əsasında korpus dilçiliyi vasitəsilə atalar sözlərinin semantik istifadəsi və tezliyi məsələsi dayanır (Kljajevic və Šarić, 2025) və konkret kateqoriyada atalar sözləri üzərində semantik strukturlaşdırma işi aparılır (AlBader, 2024). Müxtəlif dillərdə və mədəniyyətlərdə atalar sözlərinin semantik və üslubi təhlili problemi üzərində elmi təhlillərə də rast gəlirik (Hussain, 2025). Tədqiqatlarda beynəlxalq səviyyədə atalar sözlərinin dilçilikdə yeri, struktur və semantikası haqqında geniş

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

təhlil təqdim edilir (Hossan, 2025), onların semantik və praqmatik funksiyalarından danışılır (Ibodova, 2026) və gizli məna aspektləri araşdırılır (Jgharkava, 2025). Müxtəlif dillərdə, məsələn, ingilis və rus dillərində atalar sözlərinin struktural-semantik xüsusiyyətləri müqayisəli şəkildə təhlil edilir (Orlova, 2023), türk və qazax atalar sözlərinin semantik quruluşu araşdırılır (Kaliyev, 2019). Tədqiqatlarda atalar sözlərinin mədəni-kultural aspektlərinə də diqqət edilir (Ashurova, 2024), sintaktik və semantik xüsusiyyətlərinə nəzər salınır (Ibrokhimjonova, 2022). Atalar sözləri mədəni biliklərin qısa ifadələri kimi xidmət edir, sosial normaları, dəyərləri və hikməti yüksək səviyyədə strukturlaşdırılmış semantik formada özündə ehtiva edir" (Gotthardt və Varga, 2014, s. 73). Elmi əsərlərdə yaş konseptlərini ifadə edən ingilis və rus atalar sözlərinin həm ümumdünya semantik çalarları, həm də onların struktur tərkibindəki xüsusi mədəni nüansları ortaya qoyması məsələsi vurğulanır (Orlova, 2023, s. 1242). Lakin qonşuluq mövzusunda atalar sözlərinin linqvistik xüsusiyyətləri ilə bağlı araşdırmalarla qarşılaşmırıq.

Qonşuluq mövzusunda atalar sözləri müxtəlif xalqların paremioloji irsində mühüm yer tutur. Bu tip paremioloji vahidlər bir yerdə yaşayan insanların birlikdə təşkil etdiyi topluluq həyatının sosial, etik və psixoloji ölçülərini yığcam və metaforik baxımdan zəngin dil strukturları vasitəsilə əks etdirir. Belə atalar sözlərində gündəlik danışıq dilindən geniş istifadə olunur.

Qonşuluqdan bəhs edən atalar sözləri mənəvi və sosial anlayışları ifadə edir. Onların semantik təşkili göstərir ki, "qonşu" anlayışı öz ilkin, birbaşa mənasını aşaraq əxlaqi normaları, sosial mənanı və kollektiv təcrübəni özündə cəmləşdirən çoxqatlı məzmun qazanır. Bu mövzuda olan atalar sözlərinin semantik xüsusiyyətlərinin təhlili dilin cəmiyyət

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

yönümlü dəyərləri hansı dərinlikdə kodlaşdırdığını nümayiş etdirir:

*Qonşunun dərdi evin damına düşən yağış kimidir (Məlikova, 2016, s. 34).*

*Qonşun tox, sən də tox (Atalar sözləri, 2013, s. 296).*

Bu atalar sözlərinin mərkəzində "qonşu" leksik vahidi dayanır. Həmin vahid daha geniş semantik sahəyə daxildir. Bir çox dillərdə bu leksik sahə həm məkan, həm də sosial məna daşıyır. Semantik baxımdan "qonşu" anlayışı yaxınlıq (fiziki məkan baxımından), qarşılıqlı asılılıq (praktik və funksional əməkdaşlıq) və mənəvi öhdəlik (mədəniyyət tərəfindən müəyyənləşdirilən vəzifələr) kimi ən azı üç əsas anlayışı əhatə edir:

*Yaxın qonşuya yaman söz demə (Atalar sözləri, 2013, s. 408).*

*Qonşu aşı – könül xoşu (Atalar sözləri, 2013, s. 295).*

*Qonşu qonşu olsa, keçini camış qiymətinə satarsan.*

*Qonşu qonşudan namus çəkməsə, acından ölər (Atalar sözləri, 2013, s. 296).*

*Qonşun kim isə, qardaşın odur (Atalar sözləri, 2013, s. 296).*

Qonşuluq mövzusundakı atalar sözlərində məkan yaxınlığı emosional və praktik etibarlılıq kimi yenidən şərh olunur. "Yaxın qonşu uzaq qohumdan yaxşıdır" atalar sözündə yaxın və uzaq antonimləri semantik qarşılaşdırma yaradaraq sosial dəstəyin dəyərini vurğulayır. Beləliklə, coğrafi yaxınlıq sosial zərurətin simvoluna çevrilir. Qonşuluqla bağlı atalar sözlərinin mühüm semantik xüsusiyyətlərindən biri çoxmənalılıqdır. "Qonşu" leksik vahidi çox vaxt yalnız birbaşa mənada işlənmir. O, eyni toplumun üzvü, eyni dini və ya etnik qrupa mənsub şəxs, mənəvi diskursda "başqası" anlayışını, ümumilikdə insanlığın məna çalarlarını ifadə edə bilir. Dini ənənələrdə "qonşunu özün kimi sev" prinsipi "qonşu" anlayışının semantik sərhədlərini

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

bütün insanlara şamil edir. Eyni şəkildə, İslam təlimlərində Məhəmməd peyğəmbər tərəfindən vurğulanan qonşu hüquqları bu anlayışı əxlaqi kateqoriyaya çevirir. Bu semantik genişlənmə göstərir ki, yaxın məkan termini tədricən abstrakt və ümumbəşəri mənəvi kateqoriya kimi dəyişir. Qonşuluqla əlaqəli atalar sözlərinin müsbət semantik göstəriciləri xeyirxahlıq, səxavət, əməkdaşlıq, qonaqpərvərlikdir:

Qonşu haqqı, Tanrı haqqı.

*Qonşu qonşunun gülünə möhtacdır (Atalar sözləri, 2013, s. 296).*

*Qonşu qonşunun itiyini bayatı çağıra-çağıra tapar (Atalar sözü, 2004, s. 169).*

*Qonşunun haqqı, axirət haqqıdır (Atalar sözləri, 2013, s. 297).*

Qonşuluqla əlaqəli atalar sözlərinin mənfi semantik göstəriciləri paxıllıq, sözgəzdirənlik, münaqişədir:

*Qonşunun toyuğu qaz, özününkü az görünər.*

*Qonşuya ağac dəydi, elə bildik, saman çuvalına dəydi.*

*Qonşuya gülə-gülə gedən, ağlaya-ağlaya gələr.*

*Qonşuya ümidli olan şamsız yatar (Atalar sözləri, 2013, s. 297).*

*Qonşu çırağı qonşuya işıq salmaz (Atalar sözü, 2004, s. 169).*

*Qonşu paxıl olmasa, bağ çəpəri neylər?!*

*Qonşunun quzusu qonşuya qoç görünər.*

*Qonşunun şamından işıq düşməz (Atalar sözü, 2004, s. 170).*

Lakin mürəkkəb sosial reallıqları aydın qiymətləndirmə kateqoriyaları baxımından müsbət mənalı atalar sözləri daha çoxdur. Burada semantik fərqlənmə qiymətləndirici funksiyanı gücləndirir. Qonşu obrazı uyğunluğun göstəricisinə çevrilir və onun davranışı cəmiyyətin sabitliyinə birbaşa təsir edən amil kimi təqdim olunur.

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Metafor qonşuluqla bağlı atalar sözlərinin əsas semantik məziyyətlərindən biridir. Qonşuluq anlayışı çox vaxt sosial həmrəylik, mənəvi məsuliyyət, kollektiv təhlükəsizlik anlayışlarının simvolu kimi çıxış edir. Qonşuluq mövzusundakı atalar sözlərinin mətnində şam, duz, çörək, ocaq, pay kimi məişət elementləri qarşılıqlı yardım və birgə yaşamağın simvolik göstəricilərinə çevrilir. Bu metaforik dəyişmə atalar sözlərinin semantik dərinliyini artırır və abstrakt sosial prinsiplərin konkret obrazlar vasitəsilə ifadəsinə imkan yaradır. Bu cür atalar sözləri güclü dəyər xarakteri daşıyır. Örnəklər göstərir ki, qonşuluq mövzusundakı atalar sözlərinin əsas xüsusiyyətlərindən biri onların nəsillər boyu qorunan semantik sabitliyidir. Sosial strukturlar dəyişsə də, yaxınlıq, qarşılıqlı asılılıq və mənəvi borc kimi əsas semantik mənalar saxlanılır. Atalar sözləri kollektiv yaddaşı qoruyur və mədəni normaları təkrarolunan dil strukturları vasitəsilə çatdırır.

Qonşuluq mövzusunda atalar sözlərinin semantik xüsusiyyətləri məkan anlayışları, əxlaqi qiymətləndirmə, metaforik təqdimat və mədəni məxsusluq arasında mürəkkəb qarşılıqlı əlaqəni üzə çıxarır. “Qonşu” leksik vahidi fiziki yaxınlıq göstəricisindən etik məsuliyyət və sosial həmrəylik simvoluna qədər inkişaf edir. Onların semantik zənginliyi müxtəlif tarixi mərhələlərdə aktual qalmasına imkan yaradır. Beləliklə, qonşuluqla bağlı atalar sözlərinin semantik təhlili dilin müəyyən ərazi və ya maraq sahəsinə görə birləşmiş insanlar qrupu anlayışını necə formalaşdırdığını və cəmiyyətin mənəvi quruluşunu necə qoruduğunu daha yaxşı anlamağa imkan verir.

## Ədəbiyyat

1. AlBader, Y. B. (2024). *Semantic structure of Kuwaiti maritime proverbs*. *Cogent Social Sciences, 10*(1), 1–15. https://doi.org/10.1080/23311886.2024.XXXXX
2. Ashurova, M. (2024). Semantic and linguocultural features of English and Uzbek proverbs with the concept of happiness. *Multidisciplinary Journal of Science and Technology, 4*(5), 322–327. https://mjstjournal.com/index.php/mjst/article/view/1400
3. Atalar sözləri (2013). Nurlan, 476 s.
4. Atalar sözü (2004). Öndər, 264 s.
5. Gotthardt, H. H., & Varga, M. A. (Eds.). (2014). *Introduction to paremiology: A comprehensive guide to proverb studies*. Walter de Gruyter, 382 s. https://doi.org/10.1515/9783110410167
6. Grzybek, P. (2014). Semiotic and semantic aspects of the proverb. In H. H. Gotthardt & M. A. Varga (Eds.), *Introduction to paremiology: A comprehensive guide to proverb studies* (pp. 68–111). Walter de Gruyter. https://doi.org/10.1515/9783110410167-004
7. Grzybek, P. (2021). Semiotic and semantic aspects of the proverb. *Proverbium: Yearbook of International Proverb Scholarship, 38*(1), 67–123.
8. Hossan, A. M. (2025). The place of proverbs in linguistic studies. *International Research Journal of Language and Linguistics, 7*(2), 45–60.
9. Hussain, I., Issa, M., & Hussain, S. (2025). Cross-cultural stylistic and semantic analysis of proverbs: A comparative study of Balti and English. *Pakistan Languages and Humanities Review, 9*(3), 296–308. https://doi.org/10.47205/plhr.2025(9-III)26 (Pakistan Languages and Humanities Review)

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

10. Ibodova, M. G. (2026). Semantic and pragmatic aspects of proverbs and sayings. *International Journal of Literature and Languages, 10*(1), 133–136. https://theusajournals.com/index.php/ijll/article/view/9265
11. Ibrokhimjonova, Z. B. Q. (2022). Folk proverbs and their syntactic and semantic properties. *Academicia Globe: Inderscience Research, 3*(4), 51–56. https://doi.org/10.17605/OSF.IO/P2GKE
12. Jgharkava, G. (2025). The implicit meaning of a proverb and the main issues of semantic interpretations. *The International Scientific Journal of Humanities, 7*(2), 88–102. https://doi.org/10.55804/TSU-ti-2/Jgharkava
13. Kaliyev, A. K. (2019). Semantic nature of Turkish and Kazakh proverbs and sayings. *Journal of Oriental Studies, 88*(1), 75–94.
14. Kljajevic, V., & Šarić, L. (2025). Corpus-based investigation of proverbs: Challenges and new directions. *Corpus Pragmatics, 9*, 135–163. https://doi.org/10.1007/s41701-025-00123-x
15. Məlikova İ. (2016). Azərbaycanda yaşayan xalqların atalar sözləri və deyimləri. Bakı Ecoprint nəşriyyatı, 168 s.
16. Mieder, W. (1993). *International proverb scholarship: An annotated bibliography*. Garland Publishing.
17. Orlova, T. G. (2023). Structural and semantic features and national specificity of English and Russian proverbs with the meaning ‘old’, ‘young’. *RUDN Journal of Language Studies, Semiotics and Semantics, 14*(4), 1235–1252. https://doi.org/10.22363/2313-2299-2023-14-4-1235-1252

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 13-15
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 13-15
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Ülviyyə İbrahimova**
Bakı Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0008-2182-9949
ibrahimovaulviyy546@gmail.com

# Azərbaycan ədəbi dilinin formalaşmasında Kitabi Dədə Qorqud dastanının rolu

***Açar sözlər:*** *Kitabi Dədə Qorqud, Azərbaycan ədəbi dili, Oğuz türkcəsi, dil xüsusiyyətləri, arxaik sözlər*
***Keywords:*** *The Book of Dede Korkut, Azerbaijani literary language, Oghuz Turkic, linguistic features, archaic words*

Türk xalqlarının zəngin mədəni və ədəbi irsinin ən mühüm nümunələrindən biri olan Kitabi Dədə Qorqud dastanı yalnız folklor abidəsi kimi deyil, həm də dilçilik baxımından böyük əhəmiyyətə malikdir. Bu abidə Oğuz türklərinin həyat tərzini, dünyagörüşünü və sosial münasibətlərini əks etdirməklə yanaşı, qədim türk dilinin xüsusiyyətlərini də özündə qoruyub saxlamışdır.

Dastanın dili Azərbaycan ədəbi dilinin inkişaf tarixinin öyrənilməsi üçün mühüm mənbə hesab olunur. Burada istifadə olunan sözlər, ifadələr və qrammatik formalar Azərbaycan dilinin qədim mərhələləri haqqında məlumat verir. Bu tezisdə dastanın dil xüsusiyyətləri və onun Azərbaycan ədəbi dilinin formalaşmasındakı rolu araşdırılır.

**Dastanın leksik xüsusiyyətləri**

"Kitabi Dədə Qorqud" dastanının dili zəngin leksikaya malikdir. Dastanda Oğuz türklərinin gündəlik həyatı, məişəti və ictimai münasibətləri ilə bağlı çoxsaylı sözlər işlədilmişdir. Bu

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

sözlərin böyük hissəsi türk mənşəlidir və müasir Azərbaycan dilində də istifadə olunur.

Məsələn, “igid”, “alp”, “bəy”, “qılınc”, “ordu”, “yurd”, “toy”, “oba” kimi sözlər Oğuz cəmiyyətinin həyatını və sosial quruluşunu əks etdirir. Bu sözlərin müasir Azərbaycan dilində də işlənməsi dilimizin qədim köklərə malik olduğunu göstərir.

Dastanın leksikasında həmçinin arxaik sözlərə də rast gəlinir. “Ər”, “yağı”, “sancaq”, “qopuz” kimi sözlər qədim türk həyat tərzini və mədəniyyətini əks etdirir. Bu sözlər dil tarixinin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

**Qrammatik xüsusiyyətlər**

Dastanın dilində qrammatik quruluş da diqqətəlayiqdir. “Kitabi Dədə Qorqud”un dili əsasən Oğuz türkcəsinin qrammatik xüsusiyyətlərini əks etdirir. İsimlərin hallanması, feillərin zaman və şəxs şəkilçiləri müasir Azərbaycan dilinə olduqca yaxın formadadır.

Məsələn, yönlük, yerlik və çıxışlıq hallarının işlənməsi müasir Azərbaycan dilindəki qrammatik quruluşa uyğun gəlir. Feillərin müxtəlif zaman formalarının istifadəsi də dilin inkişaf mərhələsini göstərir. Bu xüsusiyyətlər Azərbaycan ədəbi dilinin formalaşma prosesində qədim türk dilinin mühüm rol oynadığını göstərir.

**Azərbaycan ədəbi dilinin formalaşmasında rolu**

Dastanın dili Oğuz türkcəsinə əsaslandığı üçün Azərbaycan dilinin qədim mərhələlərinin öyrənilməsində əsas mənbələrdən biri hesab edilir.

Dastanda istifadə olunan sözlər, ifadələr və qrammatik formalar sonrakı dövrlərdə Azərbaycan ədəbi dilinin inkişafına təsir göstərmiş və dilimizin qədim mərhələlərinin öyrənilməsi üçün mühüm mənbə olmuşdur. Xalq danışıq dilinə yaxın ifadələr Azərbaycan dilinin canlı və ifadəli xüsusiyyətlərinin formalaşmasına kömək etmişdir.

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Bu baxımdan ‘Kitabi Dədə Qorqud’ dastanı yalnız ədəbi abidə deyil, həm də Azərbaycan ədəbi dilinin formalaşma tarixinin öyrənilməsi üçün mühüm mənbə hesab olunur.

Nəticə etibarilə, Kitabi Dədə Qorqud dastanı Azərbaycan ədəbi dilinin formalaşmasında mühüm rol oynamışdır. Dastanın dili zəngin leksikaya, qədim türk dilinin izlərini əks etdirən arxaik sözlərə və müasir Azərbaycan dilinə yaxın qrammatik xüsusiyyətlərə malikdir.

Dastanda istifadə olunan dil elementləri müasir Azərbaycan dilinin qədim Oğuz türkcəsi ilə sıx bağlı olduğunu nümayiş etdirir.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Arzu Xəlilzadə**
Bakı Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0006-4221-7808
arzuxelilzade89@gmail.com

# Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun əsas inkişaf tendensiyaları (2001-2021-ci illər)

***Açar sözlər:*** *Azərbaycan iqtisadiyyatı, qeyri-neft sektoru, turizm sektoru, dövlət proqramları, sənaye, iqtisadiyyatın şaxələnməsi*

***Keywords:*** *Azerbaijani economy, non-oil sector, tourism sector, state programs, industry, economic diversification*

Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun inkişafı müasir dövrün prioritetləri sırasına daxildir. Bu sahədə qarşıda duran əsas məsələ Azərbaycanın dünya ölkələrinin inkişaf sürəti ilə müqayisədə geriləməsinə mane olmaqdır. Buna ilk növbədə, iqtisadiyyatın karbohidrogen ehtiyatların ixracından mövcud asılılığı aradan qaldırmaq, orta və uzunmüddətli perspektivdə dünya iqtisadiyyatının xammal əlavəsinə çevrilmək təhlükəsinin qarşısını almaqla nail olmaq mümkündür. Azərbaycan uzunmüddətli və davamlı iqtisadi inkişafa nail olmaq üçün özünün enerji siyasətindən qeyri-neft sektorunun inkişafı üçün aparıcı qüvvə olan insan kapitalına çevrilməsi, gələcəkdə neft-qaz gəlirlərindən asılı olmayan güclü, rəqabətədavamlı iqtisadiyyat qurulması strategiyasını uğurla həyata keçirir. Prezident İlham Əliyevin dediyi kimi: “Azərbaycanda iqtisadi inkişafın istiqamətləri çoxşaxəlidir və biz bu gün qeyri-neft

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

sektorunun inkişafına üstünlük veririk. Bu bizim prioritet məsələmizdir" (Əsgərov, 2013).

Azərbaycanda iqtisadi artımın əsas hərəkətverici amili 2010-cu ildən etibarən neft sektorundan qeyri-neft sektoruna transformasiya olmuş, 2010–2014-cü illərdə neft sektorunda 2,9 faizlik geriləmə olduğu halda, qeyri-neft sektoru 8,8 faiz artmaqla, ümumi 3 faizlik iqtisadi artım əldə edilmişdir. 2004–2014-cü illərdə Azərbaycan iqtisadiyyatına 52 milyard ABŞ dolları birbaşa xarici investisiya yatırılmış, onun 85 faizi neft sektoruna, 15 faizi isə qeyri-neft sektoruna yönəldilmişdir (Azərbaycan Respublikası, 2016).

Qeyri-neft sektorunun inkişafı ilə bağlı mühüm sənədlərdən biri *"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiya-sı*dır. Burada qeyri-neft sektorunun inkişafı üçün xarici ticarət prosedurlarının sadələşdirilməsi, beynəlxalq bazarlara çıxışda rəqabətin inkişafında sahibkarlara dövlət dəstəyinin artırılması istiqamətində tədbirlərin həyata keçiriləcəyi göstərilmişdir.

Qeyri-neft sektorunun inkişafı Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir. *"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı"* (Azərbaycan Respublikası, 2014), habelə *"Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi"* (Azərbaycan Respublikası, 2016) kimi mühüm əhəmiyyətli sənədlərin qəbul edilməsi bu sahənin xüsusi əhəmiyyətini göstərir.

Azərbaycanda qeyri-neft sektorunda əsas məsələ qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payının artırılması olmuşdur. İqtisadiyyatda uzunmüddətli investisiya resurslarının başlıca mənbəyi olan kapital və sığorta bazarının inkişafının sürətləndirilməsi, milli bank sektorunun dayanıqlığının təmin olunması, iqtisadiyyatın maliyyələşdirilməsində bankların

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

rolunun artırılması və sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi də prioritetlər sırasında olmuşdur.

Qeyri-neft sektoru sahəsində diqqət yetirilən sahələrdən biri turizm sektorudur. Bütün dünyada olduğu kimi, Azərbaycanda da turizmin inkişaf tendensiyası müşahidə olunur. Bu sektorun inkişafı Avropa və Şimali Amerikada mövcud olan ənənəvi turizm mərkəzləri ilə yanaşı, yeni turizm mərkəzlərinin də yaranmasına səbəb olmuşdur. Azərbaycanda turizm sahəsinin inkişaf tendensiyasından geri qalmamış və bu sektorun inkişafına xüsusi diqqət yetirilmişdir. Bu məqsədlə Nazirlər Kabinetinin nəzdində Turizm Şurası fəaliyyət göstərmişdir. 2001-ci ildə Dünya Turizm Təşkilatının 14-cü Baş Assambleyasında Azərbaycan həmin quruma üzv qəbul edilmişdir (Bayramov, n.d.). Turizm sahəsində mühüm layihələr – *"Böyük İpək yolu"*, *"Şərab yolu"*, *"Xalçaçılıq"*, *"Aleksandr Düma Qafqazda"*, *"Azərbaycanda alman məskənləri"* adlı layihələr həyata keçirilmişdir. Azərbaycanda 2011-ci ilin "Turizm ili" elan edilməsi turizm infrastrukturunun genişlənməsi və inkişafı üçün mühüm imkanlar yaratmışdır (Abbasov, 2018, s. 196–200).

Araşdırılan illərdə iqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafına zəmin yaratmaq üçün kiçik və orta sahibkarlığın dəstəklənməsinə, sahibkarlara güzəştli dövlət kreditlərinin, kənd təsərrüfatına subsidiyaların ayrılmasına, ölkə boyu nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulmasına milyardlarla dollar vəsait xərclənmişdir. İqtisadiyyatın diversifikasiyası ilə bağlı nəzərdə tutulmuş tədbirlərin reallaşdırılması üçün *"Azərbaycan Respublikası iqtisadi rayonlarının 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"*, *"2008–2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"*, *"2008–2015-ci illərdə Azərbaycan*

*Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”* və digər proqramlar qəbul olunmuşdur (Əliyev, 2015). Bu proqramların qəbul edilməsi və həyata keçirilməsi nəticəsində 2003–2011-ci illərdə Azərbaycanda sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı məhsullarının istehsalı 1,3 dəfə, tikinti sektorunda iş həcmi 3,2 dəfə, nəqliyyat xidmətlərinin həcmi 2,3 dəfə, rabitə və informasiya sektorunda xidmətlər isə 6,4 dəfə artmışdır (Əliyev, 2015).

Beləliklə, Azərbaycan özünün zəngin neft-qaz ehtiyatlarından uzunmüddətli və davamlı iqtisadi inkişafa nail olmaq üçün uğurla istifadə edir. Neft və qazın qeyri-neft sektorunun inkişafı üçün aparıcı qüvvə olan insan kapitalına çevrilməsi, neft-qaz gəlirlərindən istifadə etməklə gələcəkdə bu gəlirlərdən asılı olmayan güclü, rəqabətədavamlı iqtisadiyyat qurulması strategiyası həyata keçirilməkdədir.

## Ədəbiyyat

1. Abbasov, İ. M. (2018). *Qeyri-neft sənayesinin iqtisadiyyatı*. Bakı Biznes Universiteti.
2. Azərbaycan Respublikası. (2014, 26 dekabr). *Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı*. https://e-qanun.az/framework/28964
3. Azərbaycan Respublikası. (2016, 6 dekabr). *Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi*. https://mida.gov.az/documents/_A%C4%9F%C4%B1r_senaye_ve_ma%C5%9F%C4%B1nqay%C4%B1rman%C4%B1n_inki%C5%9Faf%C4%B1na_dair_strateji_yol_xeritesi.pdf

4. Azərbaycan Respublikası. (2016, 6 dekabr). *Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi*. https://azertag.az/store/files/untitled%20folder/_STRATEJI%20YOL%20XERITESI_.pdf
5. Bayramov, V. (n.d.). *Prezident İlham Əliyev: Bu gün ölkəmizdə sənayeləşmə siyasəti uğurla aparılır*. https://xalqqazeti.com/mobile/az/news/518
6. Əliyev, İ. (2015). *Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclası*. https://president.az/articles/15823
7. Əsgərov, R. (2013, 25 iyun). Qeyri-neft sektorunun inkişafı prioritet məsələdir. *Respublika*, 2.

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Yaqub Səmədov**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Ağcabədi filialı
tarix üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-1584-9317
yaqub.semedov63@mail.ru

# Azərbaycan-Özbəkistan iqtisadi əməkdaşlığı: reallıqlar, perspektivlər

***Açar sözlər:*** *Azərbaycan, Özbəkistan, respublika, müstəqillik, əməkdaşlıq, iqtisadi*
***Keywords:*** *Azerbaijan, Uzbekistan, republic, independence, cooperation, economic*

Müstəqillik illərində Azərbaycanla Özbəkistan arasında dövlət səviyyəsində ilk iqtisadi əlaqələr İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində baş tutdu. 1985-ci ildə yaranan bu təşkilatın üzvlüyünə digər ölkələrlə yanaşı, 1992-ci ildə Azərbaycan və Özbəkistan da daxil oldu. Lakin zaman keçdikcə hər iki ölkənin iqtisadi əlaqələri regional təşkilati çərçivədə deyil, onların mənafeyinə uyğun şəkildə xüsusi formada öz əksini tapdı. Azərbaycanla Özbəkistan Respublikası arasında iqtisadi əlaqələrin genişləndirilməsində ilk növbədə 1997-ci il iyunun 18-də Daşkənd şəhərində yaradılmış yeni Birgə Hökumətlərarası Komissiyanın mühüm rolu oldu. Bu komissiyanın işçi qrupunun səmərəli fəaliyyəti nəticəsində qısa müddət ərzində hər iki ölkə arasında iqtisadi sahəni də əhatə edən demək olar ki, çoxsaylı müqavilələr imzalandı.

2003-cü ildə İlham Əliyev Respublika Prezidenti seçildikdən sonra Azərbaycan-Özbəkistan iqtisadi əməkdaşlığına daha böyük önəm verildi. 2008-ci il sentyabr

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

ayının 11-də məhz onun təşəbbüsü ilə Bakıda prezidentlər səviyyəsində görüşlər keçirildi və müxtəlif sahələr üzrə hər iki ölkənin iqtisadi maraqlarına cavab verən 7 müqavilə imzalandı.

2022-ci ildə bağlanmış "Strateji tərəfdaşlığın dərinləşməsi" (Həsənov, 2025) müqaviləsi, 29 avqust 2022-ci ildə isə hər iki respublikanın iştirakı ilə iqtisadi əməkdaşlığı özündə ehtiva edən "Yol Xəritəsi"nin qəbulu və bu sazişdən irəli gələn 30 müxtəlif sahəni əhatə edən müddəalar Azərbaycan-Özbəkistan əməkdaşlığına yeni töhfələr verdi. Həmin sənəddə qeyd olunur ki, Özbəkistanla Azərbaycan xalqları arasındakı "ənənəvi dostluq münasibətləri və birgə səylər hər iki ölkədə energetika sektorunun, ümumilikdə iqtisadiyyatın inkişafına xidmət edəcəkdir" (Ana səhifə, 2022). 2023-cü ilin avqustunda yenidən Bakıda Azərbaycanla Özbəkistan arasında tükənməyən, yəni bərpa olunan enerji sahəsində birgə əməkdaşlığın yaradılması istiqamətində mühüm danışıqların aparılmasını da bu istiqamətdə həyata keçirilən ən mühüm təşəbbüslərdən biri hesab etmək olar. 2023-cü il avqustun 22-də Bakıda hər iki ölkənin nümayəndələrinin iştirakı ilə bağlanan müqavilədə də Azərbaycan-Özbəkistan iqtisadi əməkdaşlığı ilə bağlı problemlərə bir daha təkrarən toxunuldu. Son illərdə həyata keçirilməsi nəzərdə tutulan "Xəzər dənizi Yaşıl Enerji Dəhlizi" layihəsi də hər iki ölkənin enerji sahəsi üzrə birgə regional (5 aprel 2025-ci il) əməkdaşlığına müsbət təsir göstərdi. Qısa müddət ərzində ümumi kapitalı 500 milyon dollar olan Azərbaycan-Özbəkistan birgə İnvestisiya Fondu (2023-cü ilin fevral ayında) yaradıldı ki, bu fondun da büdcəsinə daxil olan bütün vəsait hər iki ölkənin innovativ, eləcə də emal sənayesi sahələrinin inkişafına yönəldilməsi nəzərdə tutuldu (Özbəkistan və Azərbaycan arasında əməkdaşlıq bütün region üçün uzunmüddətli iqtisadi bağın formalaşmasına xidmət edəcək, 2025).

2025-ci il avqust ayının 22-də Aşqabad şəhərində Türkmənistan, Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə keçirilən üçtərəfli görüşdə nəqliyyat-logistika və özəl bölmə üzrə müştərək müəssisələrin təşkilinə dair mühüm müqavilələr imzalanmasını da Azərbaycan-Özbəkistan iqtisadi əməkdaşlığında mühüm tarixi hadisə hesab etmək olar (Azərbaycan, Türkmənistan və Özbəkistan liderlərinin iştirakı ilə Türkmənbaşı şəhərində sənədlərin imzalanması mərasimi olub, 2025).

Həyata keçirilən uğurlu iqtisadi siyasət qısa müddət ərzində öz müsbət bəhrəsini verdi. Məsələn, 2024-cü ildə əmtəə dövriyyəsi 252 milyon ABŞ dolları olduğu halda, artıq 2025-ci ilin yanvar-sentyabr aylarında bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon ABŞ dolları təşkil etdi (Prezident: Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir, 2025).

Ümumiyyətlə, müasir dövrdə Azərbaycanla Özbəkistan respublikaları arasındakı iqtisadi əlaqələr (ümumilikdə təxminən 200 saziş çərçivəsində) hər iki qardaş xalqın maddi rifahının yüksəldilməsinə xidmət etməklə yanaşı, çoxşaxəli olub, ticarət, investisiya, nəqliyyat, enerji, gömrük, kənd təsərrüfatı, sənaye və s. bu kimi mühüm sahələri əhatə edir.

Qarşılıqlı əməkdaşlıqda əsas yer tutan iqtisadi əlaqələr və bu əlaqələrin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi, həmçinin göstərilən istiqamətdə gələcəkdə əldə ediləcək daha yüksək uğurlu nəticələr perspektivdə hər iki ölkəni sabit və uzunmüddətli inkişafın etibarlı təminatçısına çevirir.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

## Ədəbiyyat

1. Ana səhifə (xəbərlər arxivi). (2022, 29 avqust). *Azərbaycan və Özbəkistan arasında enerji əməkdaşlığının yol xəritəsi imzalanıb*. https://minenergy.gov.az/az/xeberler-arxivi/azerbaycan-ve-ozbekistan-arasinda-enerji-emekdasliginin-yol-xeritesi-imzalanib
2. Azərbaycan, Türkmənistan və Özbəkistan liderlərinin iştirakı ilə Türkmənbaşı şəhərində sənədlərin imzalanması mərasimi olub. (2025, 22 avqust). *Azərtac*. https://azertag.az/xeber/azerbaycan_turkmenistan_ve_ozbekistan_liderlerinin_istiraki_ile_turkmenbasi_seherinde_senedlerin_imzalanmasi_merasimi_olub_yenilenib_video-3711063
3. Həsənov, Ş. (2025, 7 iyul). *Bu gün Azərbaycan-Özbəkistan əlaqələri yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir*. https://sesqazeti.az/news/politics/1267556.html
4. Özbəkistan və Azərbaycan arasında əməkdaşlıq bütün region üçün uzunmüddətli iqtisadi bağın formalaşmasına xidmət edəcək. (2025, 1 dekabr). *Azərtac*. https://azertag.az/xeber/ozbekistan_ve_azerbaycan_arasinda_emekdasliq_butun_region_uchun_uzunmuddetli_iqtisadi_bagin_formalasmasina_xidmet_edecek-3891451
5. Prezident: Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir. (2025, 13 noyabr). *APA*. https://apa.az/resmi-xeber/prezident-azerbaycanla-ozbekistan-arasinda-ticaret-suretli-temple-inkisaf-edir-926016

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Məhsəti Əsgərova**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0001-1899-3325
mahsati554@gmail.com

# Yaşıl iqtisadiyyat şəraitində innovativ infrastrukturun formalaşdırılması və dayanıqlı inkişaf strategiyaları

***Açar sözlər:*** *yaşıl iqtisadiyyat, innovativ infrastruktur, dayanıqlı inkişaf, enerji təhlükəsizliyi, dekarbonizasiya, bərpa olunan enerji, resurs səmərəliliyi*

***Keywords:*** *green economy, innovative infrastructure, sustainable development, energy security, decarbonization, renewable energy, resource efficiency*

Qlobal iqtisadi sistemdə baş verən struktur dəyişiklikləri, iqlim dəyişiklikləri, enerji təhlükəsizliyi və resursların məhdudluğu müasir inkişaf modelinin yenidən nəzərdən keçirilməsini zəruri etmişdir. Bu kontekstdə United Nations tərəfindən qəbul edilmiş Dayanıqlı İnkişaf Məqsədləri yaşıl iqtisadiyyat modelinin formalaşdırılmasını prioritet istiqamət kimi müəyyən etmişdir (Sachs, 2015). Yaşıl iqtisadiyyat iqtisadi artımı ekoloji təhlükəsizlik, sosial inklüzivlik və resursların səmərəli istifadəsi ilə uzlaşdıran inkişaf modelidir. Bu modelin effektiv tətbiqi isə innovativ infrastrukturun yaradılmasını tələb edir (Barbier, 2012).

Tədqiqatın əsas məqsədi yaşıl iqtisadiyyat şəraitində innovativ infrastrukturun formalaşdırılması mexanizmlərini, onun iqtisadi artıma və ekoloji davamlılığa təsirini sistemli şəkildə təhlil etməkdir. Araşdırmada sistemli ədəbiyyat icmalı,

müqayisəli təhlil, institusional yanaşma və konseptual modelləşdirmə metodlarından istifadə edilmişdir (Bina, 2013).

Təhlillər göstərir ki, yaşıl innovasiya və infrastruktur investisiyaları karbon emissiyalarının azaldılması, enerji effektivliyinin artırılması və "ağıllı" iqtisadiyyat modelinə keçid üçün əsas platformadır (Geels, 2011).

Müasir iqtisadi inkişaf ənənəvi "resurs-istehsal-tullantı" modelindən "resurs-səmərəlilik-dövriyyə" modelinə transformasiya olunur. Yaşıl iqtisadiyyat konsepsiyası ekoloji risklərin azaldılması və iqtisadi artımın uzunmüddətli dayanıqlığının təmin edilməsinə yönəlmişdir. Bu modeldə infrastruktur yalnız fiziki obyektlər toplusu deyil, həm də texnoloji, rəqəmsal və institusional sistemlərin inteqrasiya olunmuş forması kimi çıxış edir (Hepburn və b., 2020).

*İnnovativ infrastruktur dedikdə aşağıdakılar nəzərdə tutulur:*

- Bərpa olunan enerji sistemləri (günəş, külək, hidro və bioenerji);
- Ağıllı şəhər və rəqəmsal idarəetmə platformaları;
- Enerji səmərəli nəqliyyat və logistika sistemləri;
- Su və tullantıların idarə olunmasında innovativ texnologiyalar;
- Rəqəmsal maliyyə və yaşıl investisiya mexanizmləri.

Bu komponentlər iqtisadiyyatın dekarbonizasiyasını sürətləndirərək davamlı inkişaf strategiyalarının reallaşmasına zəmin yaradır (IEA, 2023).

Yaşıl iqtisadiyyat nəzəriyyəsi ekoloji iqtisadiyyat, institusional iqtisadiyyat və innovasiya nəzəriyyələrinin sintezinə əsaslanır. Bu yanaşmaya görə iqtisadi artım yalnız kapital və əmək amilləri ilə deyil, həm də texnoloji yenilik və ekoloji effektivliklə müəyyən edilir (OECD, 2011).

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

*İnnovativ infrastrukturun formalaşdırılması aşağıdakı əsas prinsiplərə əsaslanır:*

Resurs səmərəliliyi – enerji və xammalın minimum itki ilə istifadəsi.

Aşağı karbonlu inkişaf – emissiyaların azaldılması.

Texnoloji modernləşmə – rəqəmsallaşma və avtomatlaşdırma.

İnstitusional dəstək – hüquqi və maliyyə mexanizmlərinin yaradılması.

Sosial inklüzivlik – məşğulluğun və insan kapitalının inkişafı.

*Araşdırma göstərir ki:*

- Yaşıl innovasiyalar iqtisadi artımı stimullaşdırmaqla yanaşı karbon intensivliyini azaldır;
- Rəqəmsal və enerji infrastrukturu arasında sinerji iqtisadi səmərəliliyi artırır;
- Dövlət-özəl tərəfdaşlıqları yaşıl layihələrin maliyyələşdirilməsində effektiv mexanizmdir;
- Yaşıl maliyyə alətləri (yaşıl istiqrazlar, karbon bazarları) infrastrukturun modernləşməsini sürətləndirir.

Bundan əlavə, institusional zəiflik və maliyyə çatışmazlığı yaşıl transformasiyanın əsas məhdudiyyətləri kimi müəyyən edilmişdir. Dayanıqlı inkişaf strategiyalarının effektivliyi isə innovasiya potensialından və insan kapitalının keyfiyyətindən birbaşa asılıdır (Porter və van der Linde, 1995).

Yaşıl iqtisadiyyat şəraitində innovativ infrastrukturun formalaşdırılması davamlı inkişaf strategiyalarının əsas dayağıdır. Bu proses yalnız ekoloji deyil, həm də iqtisadi və sosial transformasiya mexanizmidir. İnnovasiya, rəqəmsallaşma və yaşıl maliyyələşmə alətləri birlikdə tətbiq olunduqda iqtisadiyyatın rəqabət qabiliyyəti yüksəlir və uzunmüddətli sabitlik təmin olunur (UNEP, 2011; United Nations, 2015).

Beləliklə, yaşıl iqtisadi modelə keçid strateji planlaşdırma, institusional islahatlar və texnoloji modernləşmə tələb edən kompleks prosesdir. İnnovativ infrastruktur isə bu transformasiyanın praktik əsasını təşkil edən fundamental mexanizmdir (Zhang və b., 2021).

**Təkliflər**

1. Yaşıl investisiyalara vergi güzəştlərinin tətbiqi;
2. Bərpa olunan enerji layihələrinin genişləndirilməsi;
3. Rəqəmsal infrastrukturun regionlar üzrə balanslı inkişafı;
4. Dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin gücləndirilməsi;
5. Yaşıl texnologiyalar üzrə elmi-tədqiqat və innovasiya mərkəzlərinin yaradılması.

## Ədəbiyyat

1. Barbier, E. B. (2012). The green economy post Rio+20. *Science, 338*(6109), 887–888. https://doi.org/10.1126/science.1227360
2. Bina, O. (2013). The green economy and sustainable development: An uneasy balance? *Environment and Planning C: Government and Policy, 31*(6), 1023–1047. https://doi.org/10.1068/c1310j
3. Geels, F. W. (2011). The multi-level perspective on sustainability transitions: Responses to seven criticisms. *Environmental Innovation and Societal Transitions, 1*(1), 24–40. https://doi.org/10.1016/j.eist.2011.02.002
4. Hepburn, C., O'Callaghan, B., Stern, N., Stiglitz, J., & Zenghelis, D. (2020). Will COVID-19 fiscal recovery packages accelerate or retard progress on climate change? *Oxford Review of Economic Policy, 36*(S1), S359–S381. https://doi.org/10.1093/oxrep/graa015

5. IEA. (2023). *World Energy Outlook 2023*. International Energy Agency.
6. OECD. (2011). *Towards Green Growth*. Organisation for Economic Co-operation and Development.
7. Porter, M. E., & van der Linde, C. (1995). Toward a new conception of the environment-competitiveness relationship. *Journal of Economic Perspectives, 9*(4), 97–118. https://doi.org/10.1257/jep.9.4.97
8. Sachs, J. D. (2015). *The Age of Sustainable Development*. Columbia University Press.
9. UNEP. (2011). *Towards a Green Economy: Pathways to Sustainable Development and Poverty Eradication*. United Nations Environment Programme.
10. United Nations. (2015). *Transforming our world: The 2030 Agenda for Sustainable Development*. United Nations.
11. Zhang, D., Mohsin, M., Rasheed, A. K., et al. (2021). Public spending and green economic growth in BRI region: Mediating role of green finance. *Energy Policy, 153*, 112256. https://doi.org/10.1016/j.enpol.2021.112256

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 30-36**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 30-36**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Qənirə Əsgərova**
Naxçıvan Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0005-7756-8029
asgerovaganira@gmail.com

# Bayatı dilində onomastik vahidlərdən istifadə

***Açar sözlər:*** *bayatı, onomastika, toponim, semantik məna, milli yaddaş*
***Keywords:*** *bayati, onomastics, toponym, semantic meaning, national memory*

Bütün xalqların folkloru özünəxas xüsusiyyətləri ilə seçilir. Beynəlxalq jurnallarda çap olunan elmi əsərlərdə Adıgey (Circassian) folklor mətnlərində landşaft terminologiyası və toponimikanın funksional istifadəsi, folklor nağıllarının tipologiyasını kompüterlə öyrənmək problemi tədqiq edilir (Emykova və b., 2024; Eklund və b., 2023), folklor tədqiqatlarının kompüterləşdirilmiş statistik və linqvistik yanaşmasına dair tarixi icmal (Lauer, 2023), nağıllarda antroponimlərin strukturu və funksiyası haqqında empirik məlumat (Musayeva, 2025) və nağıllarında geniş korpus analizi aparan tədqiqlər verilir (Kallio və b., 2023). Beynəlxalq tədqiqatlarda nağıl korpusları və onomastik elementlərin multilinqvistik arxivlənməsi üzrə beynəlxalq layihənin təsvirinə də rast gəlirik (Meder və b., 2023). Müxtəlif folklor örnəklərində onomastik vahidlərdən geniş yayılan toponimlər haqqında da fikirlər geniş yayılmışdır. Onomastika, xüsusilə də toponimlər bayatı mətnlərində şəxsiyyət, tarix və əxlaq anlayışlarını ifadə edir. Toponimlər yalnız coğrafi işarələr deyil, xalqların tarixi

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

yaddaşının formalaşmasında, etnik və mədəni şəxsiyyətin yaranmasında vacib elm obyekti olaraq çıxış edir (Məmmədov, 2007). Elmi ədəbiyyatlarda toponimika bir xalqın tarixi təcrübəsinin dil arxivi kimi dəyərləndirilir. Toponimlər xalqın mədəni və mənəvi dəyərlərini, qədim yaşayış məntəqələrinin tarixini və linqvistik xüsusiyyətlərini özündə əks etdirən dil vahidləridir" (Tapdıqov, 2013, s. 15). Araşdırmalarda toponimlərin elmi izahından başqa, tədris əhəmiyyətindən də bəhs edilir: "Toponimik məlumat tələbələrin biliklərini zənginləşdirir və onlara tarix, mədəniyyət və coğrafi xüsusiyyətləri daha dərindən anlamağa kömək edir." (Jabborov və Meliyev, 2025). Ümumiyyətlə, yer adları bir millətin tarixi, mədəni və etnolinqvistik irsini əks etdirən dil vahidi kimi təhlil edilir (Boltaboeva, 2025). Toponimlərə dil və mədəniyyət baxımından yanaşma məkan adları tədqiqatında qavrayış mexanizmlərini və funksional ölçüləri ön plana çıxarır." (Khakimova, 2023). Bundan başqa, toponimlərin məkana ad verməde mədəni kimliyi və ideoloji qatları əks etdirməsi məsələsinə də diqqət edilir (Usmonova və Xujboyeva, 2025). Azərbaycan folklorunda bayatı janrının dili diqqəti cəlb edir. Bayatılar folklorun dil və mədəni irs baxımından zəngin mənbələrindən biridir və onu yaradan xalqın dəyərlərini, inanclarını və dünyagörüşünü əks etdirir. Bayatıların ən maraqlı cəhətlərindən biri onların məzmununda onomastik vahidlərdən istifadədir ki, bunlar yalnız həqiqi mənaya malik olmayıb, həm də məcazi, simvolik və mətn daxilində hadisələrin, obrazların və ya dil vahidlərinin süjetin inkişafında yerinə yetirdiyi funksiyaları daşıyır. Toponimlər haqqında çox sayda tədqiqat aparılıb. Lakin bayatıların dilindəki toponimlər tədqiq edilməyib.

Bayatı dilində toponimlərdən istifadə xalqın tarixi yaddaşının və coğrafi təfəkkürünün və dilinin qorunmasında

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

mühüm rol oynayır. Toponimlər yalnız məkan göstəricisi deyil, həm də kollektiv kimliyin daşıyıcısıdır. Məsələn, bayatılarda yer adlarının çəkilməsi hadisələri konkret coğrafi məkana bağlayır və mətnə tarixi-realistik fon qazandırır. Bu cür adlar folklor mətnində milli yaddaşın bərpasına xidmət edir:

Mən aşıq, xanə bada,
Gedibdi xanə bada.
Zalıma bir söz desəm,
Sürərlər Xanabada (Abbaslı, 2004, s. 13).

Bayatıların dilindəki onomastik sözlər yalnız toponimlərlə məhdudlaşmır. Folklor, xüsusilə də bayatılar onomastikanın müxtəlif sahələrinə aid sözlərlə zəngindir:

Apardı Bayat məni,
Bir zülfü sayat məni.
Aparırsan sən apar,
Apamasın yad məni (Abbaslı, 2004, s. 8).

Bayatıların dili göstərir ki, onomastik vahidlər folklorun poetik strukturunda mühüm funksiyaya malikdir. Onlar mətnin emosional-ekspressiv yükünü artırır, simvolik məna yaradır və bədii təsviri gücləndirir. Xüsusilə Araz çayı adı folklor nümunələrində ayrılıq və nisgil simvolu kimi çıxış edir:

Keçmə, Araz dərindir,
İçmə suyun, sərindir.
Həsrət baxan bu ellər
Sənin də ellərindir
(Azərbaycan bayatıları, 2004, s. 22).

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Bayatıların dilində ən çox işlənən onomastik vahidlər toponimlərdir.

Əzizim Ala dağa,
Gün düşür Ala dağa.
Mən Qaradağ əhliyəm,
Yaz məni Qaradağa
(Azərbaycan bayatıları, 2004, s. 15).

Nümunələr göstərir ki, toponimlər həm real məkan bildirir, həm də emosional-semantik məna yaradır. Bayatı dilində toponimlərin işlənməsi etnoqrafik və mədəni informasiyanın qorunmasına xidmət edir:

Zəhmətim getdi bada,
El gəldi çatdı dada.
Yarın gözü yoldadı,
Həsrətdi Ordubada
(Azərbaycan bayatıları, 2004, s. 15).

Yer adları vasitəsilə xalqın köç yolları, yaşayış arealı, sosial münasibətləri və dünyagörüşü haqqında məlumat əldə etmək mümkündür. Toponimlərin sabit şəkildə təkrarlanması onları bayatı mətninin struktur elementi səviyyəsinə qaldırır və kollektiv şüurun ayrılmaz hissəsinə çevirir. Bu baxımdan, bayatı dilində toponimlər həm dil faktı, həm də mədəni-tarixi məlumat kimi xüsusi əhəmiyyət daşıyır:

Mən aşiqəm, Qarabağ,
Şəki, Çirvan, Qarabağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ
(Azərbaycan bayatıları, 2004, s. 15).

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 30-36**
***Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 30-36**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Bayatıların konkret coğrafi və ya simvolik kontekstdə yerləşməsini təmin edən yer adlarından biri kimi "Təbriz" toponimi diqqəti cəlb edir:

Yol vermə yada, Təbriz,
El gedər bada, Təbriz.
Sənin həsrətindəyəm,
Can sənə fəda, Təbriz
(Azərbaycan bayatıları, 2004, s. 16).

Araşdırma təsdiq edir ki, bayatıların dilindəki toponimlər daha çox vətən anlayıcını ifadə edir:

Əzizim, kətan sarı,
Ağ sarı, kətan sarı.
Çıxaydım Şah dağına,
Baxaydım Vətən sarı
(Azərbaycan bayatıları, 2004, s. 18).

Bayatıların dilində işlənən toponimlər dil sistemi ilə folklor təsəvvürü arasında körpü rolunu oynayır. Onlar çox vaxt konkret coğrafiyanı simvolik mənalarla birləşdirən məkan metaforu yaradır.

Araşdırma göstərir ki, folklorda toponimlər yalnız yer adı deyil, onlar maraqlı dil vasitələridir, mənanı çatdırır, təsəvvür yaradır və mədəni kimliyi qoruyur. Onomastik vahidlər vasitəsilə bayatılar folklor dəyərlərini qoruyur və çatdırır. Adların rolunu başa düşmək dil, mədəniyyət və insan təsəvvürü arasında kəsişmələri dərindən anlamağa imkan yaradır. Folklor inkişaf etdikcə, onomastik vahidlərin tədqiqi cəmiyyətlərin kollektiv şüuru və mənəvi baxışlarını ifadə etməsinin vacib vasitəsi kimi dəyərini saxlayacaq.

## Ədəbiyyat

1. Abbaslı, İ. (2004). Ön söz. Azərbaycan bayatıları. XXI-Yeni Nəşrlər Evi, 4–14.
2. Azərbaycan bayatıları. (2004). XXI-Yeni Nəşrlər Evi, 304.
3. Boltaboeva, Nargizakhon Makhamadjon kizi. (2025). *Structural and Derivational Aspects of Recreational Place Names in English and Uzbek*. *American Journal of Philological Sciences*, *5*(06), 166–169.
4. Emykova, N. K., Pashtova, M. M., Unarokova, R. B., & Tseeva, Z. A. (2024). Circassian (Adyghe) landscape terminology and toponymy in folklore texts and vernacular communication. *Voprosy onomastiki*, *21*(1), 131–151. https://doi.org/10.15826/vopr_onom.2024.21.1.006
5. Eklund, J., Hagedorn, J., & Darányi, S. (2023). Teaching tale types to a computer: A first experiment with the annotated folktales collection. *Fabula*, *64*(1–2), 92–106. https://doi.org/10.1515/fabula-2023-0005
6. Məmmədov N. (2007). *Toponimika (dərslik).* Bakı: Bakı Dövlət Universiteti Nəşriyyatı, 408 s.
7. Jabborov, A. M., & Meliyev, M. S. (2025). *The use of toponymic information in school geography lessons*. *International Journal of Artificial Intelligence*, *5*(3), 465–468.
8. Kallio, K., Sarv, M., Janicki, M., & Mäkelä, E. (2023). Disentangling the folklore hairball: A network approach to the characterization of a large folktale corpus. *Fabula*, *64*(1–2), 64–91. https://doi.org/10.1515/fabula-2023-0004
9. Khakimova, K. B. (2023). *Linguocultural Aspect of Research Toponyms*. International Journal of Social Science & Interdisciplinary Research, *12*(12), 50–52. ISSN: 2277-3630. Vol. 12 No. 12, 19 dekabr 2023. PDF-ə bax: https://gejournal.net/index.php/IJSSIR/article/view/2194

10. Lauer, G. (2023). Computational folktale studies: A very brief history. *Fabula*, *64*(1–2), 1–6. https://doi.org/10.1515/fabula-2023-0001
11. Meder, T., Himstedt-Vaid, P., & Meyer, H. (2023). The ISEBEL project: Collecting international narrative heritage in a multilingual search engine. *Fabula*, *64*(1–2), 107–127. https://doi.org/10.1515/fabula-2023-0006
12. Musayeva, R. A. (2025). Anthroponyms in the onomastic space Kumyk folklore tales. *Kavkazologiya*, (1), 298–311. https://doi.org/10.31143/2542-212X-2025-1-298-311
13. Usmonova M., Xujboyeva M. *Symbolism and Identity in Toponyms: Cultural and Ideological Layers in Place Naming. Development and Innovations in Science,* No. 6, 84–87. https://econferences.ru/index.php/dis/article/view/30251

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 37-42**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 37-42**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Maya Qasımova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0001-9116-4331
maya0866@gmail.com

# İbtidai siniflərdə nitq ləngimələrinin pedaqoji-psixoloji xüsusiyyətləri, erkən diaqnostika və korreksiya strategiyaları

***Açar sözlər:*** *nitq ləngiməsi, ibtidai təhsil, inklüziv təlim, erkən diaqnostika, loqopedik müdaxilə, pedaqoji dəstək*
***Keywords:*** *speech delay, primary education, inclusive education, early diagnosis, logopedic assistance, pedagogical support*

Nitq insanın sosiallaşmasının, idrak fəaliyyətinin və təlim prosesində uğur qazanmasının əsas vasitəsidir. İbtidai məktəb dövrü (6–10 yaş) nitq bacarıqlarının sistemli şəkildə inkişaf etdiyi və yazılı nitqə keçidin baş verdiyi mərhələdir. Bu mərhələdə nitq ləngimələri şagirdin akademik fəaliyyətinə mənfi təsir göstərir.

Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı ilə bağlı qəbul edilmiş normativ sənədlər xüsusi təhsil ehtiyaclı uşaqların təhsil sisteminə inteqrasiyasını prioritet istiqamət kimi müəyyənləşdirir. Bu kontekstdə nitq inkişafı pozuntularının pedaqoji aspektdən araşdırılması aktuallıq kəsb edir. Bu səbəbdən uşaqlarda nitq ləngiməsinin nəzəri əsaslarını sistemləşdirmək; onun ibtidai təhsil prosesinə təsir mexanizmini təhlil etmək; Azərbaycan məktəb mühiti üçün praktik müdaxilə modelini əsaslandırmaq vacibdir.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

Nitq koqnitiv, sosial və bioloji faktorların qarşılıqlı təsiri nəticəsində inkişaf edir. Koqnitiv yanaşma nitqi idrak inkişafının nəticəsi kimi izah edir. Bu nəzəriyyəyə görə, uşağın təfəkkür səviyyəsi artdıqca dil strukturları da mürəkkəbləşir. Sosial-interaksionist yanaşma nitqi sosial qarşılıqlı əlaqənin məhsulu hesab edir və "yaxın inkişaf zonası" anlayışını irəli sürür. Bu yanaşma ibtidai sinif müəlliminin istiqamətləndirici rolunu əsaslandırır.

Azərbaycan pedaqoqları şəxsiyyətin formalaşmasında nitqin rolunu xüsusi vurğulamışlar: nitqi şagirdin mənəvi və intellektual inkişafının aparıcı amili kimi qiymətləndirmiş; ibtidai təhsildə dil bacarıqlarının mərhələli formalaşmasını pedaqoji prosesin əsas istiqaməti kimi müəyyən etmişlər. Bu yanaşmalar göstərir ki, nitqin inkişafı yalnız loqopedik deyil, həm də pedaqoji problemdir.

*Nitq ləngimələri aşağıdakı formalarda müşahidə edilir:*

- Fonetik-fonematik inkişafın ləngiməsi
- Leksik-qrammatik inkişafın gecikməsi
- Ümumi nitq inkişafının ləngiməsi

Bir sözlə, nitq ləngiməsi yaş normasına uyğun olaraq formalaşmalı olan fonetik-fonematik, leksik və qrammatik bacarıqların gecikmiş inkişafı kimi izah edilir.

Nitq ləngimələrinin səbəblərini aşağıdakı şəkildə qruplaşdırmaq olar:

1. **Bioloji faktorlar:**

• Mərkəzi sinir sisteminin yetkinləşməsinin gecikməsi
• Eşitmə analizatorunun zəifliyi
• Perinatal risk faktorları

2. **Psixoloji amillər:**

• Emosional travma
• Ünsiyyət defisiti
• Autizm spektri xüsusiyyətləri

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**3. Sosial-mühit faktorları:**

• Ailədə zəif kommunikativ mühit
• Rəqəmsal asılılıq
• İkidilli mühitdə sistemsiz dil öyrənmə

Azərbaycan məktəblərində müşahidələr göstərir ki, şəhər mühitində texnoloji cihazlardan həddən artıq istifadə də leksik ehtiyatın məhdudlaşmasına səbəb olur.

Nitq ləngimələrinin ibtidai təhsil prosesinə təsiri özünü bir sıra məqamlarda göstərir. Belə ki, həmin uşaqlarda fonematik qavrayış zəif olduqda onlar hərf-səs uyğunluğunu çətin mənimsəyir. Bu isə oxu sürətinin və mətni anlama səviyyəsinin azalmasına səbəb olur. Digər tərəfdən, Azərbaycan dili dərsliklərində verilmiş mətn qurma tapşırıqları şifahi nitqin inkişaf səviyyəsindən birbaşa asılı olduğu üçün bu şagirdlərdə mətn strukturunda zəiflik, fikir ardıcıllığının pozulması, qrammatik səhvlər müşahidə olunur. Qeyd edilənlər problemin yalnız tibbi deyil, həmçinin pedaqoji mahiyyət kəsb etdiyini sübut edir. Nitq ləngiməsi olan şagirdlər psixoloji fonda da çətinliklər yaşayırlar: sinif müzakirələrində passiv iştirak edir, özünə inam problemi yaşayır, aqressiv və ya qapalı davranış göstərə bilir, sosial təcrid riski daşıyırlar. Bu nəticə psixoloji tədqiqatlarla da təsdiqlənmişdir.

Nitq geriləmələrində erkən diaqnostikanın qoyulması vacibdir. Erkən diaqnostika və diferensiallaşdırılmış təlim effektiv müdaxilə mexanizmləridir.

*Erkən diaqnostika aşağıdakı mərhələləri əhatə etməlidir:*

1. Müəllim müşahidəsi
2. Loqopedik qiymətləndirmə
3. Psixoloji testdən keçmə
4. Valideynlə söhbət

Məktəbəqədər mərhələdə aşkarlanan nitq problemlərinin korreksiyası daha effektivdir.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

*İbtidai sinif müəllimi aşağıdakı məqamlara diqqət yetirməlidir:*

- Söz ehtiyatının yaş normasından geri qalması
- Səs tələffüzü problemləri
- Təlimatları başa düşməkdə çətinlik
- Mətnin nəql edilməsində ardıcıllığın pozulması

Nitqində ləngimələr müşahidə edilən uşaqların vaxt itirilmədən uşaq nevropatoloqu, psixonevroloq, defektoloq, loqopedin müayinəsindən keçməsi vacibdir. Bu uşaqların nitqi üzərində aparılan korreksiya işləri onlara qoyulan diaqnozdan əsaslı şəkildə asılıdır.

Məktəb mühitində nitq ləngimələrini korreksiya etmək məqsədilə diferensiallaşdırılmış təlim modelindən: vizual sxemlərdən, qısa və strukturlaşdırılmış tapşırıqlardan, təkrar və möhkəmləndirmə mexanizmindən; oyun əsaslı loqopedik məşğələlərdən istifadə etmək lazımdır. Məktəbdə multidissiplinar əməkdaşlıq modeli qurulmalı, müəllim-loqoped-psixoloq-valideyn əməkdaşlığı sistemli plan əsasında həyata keçirilməlidir. Valideynlərin müalicə prosesinə cəlb edilməsi müsbət nəticənin alınmasında mühüm rol oynayır. Loqoped valideynlərə evdə gündəlik olaraq istifadə edilə bilən metodları öyrətməlidir. Mütəxəssislərin təlimatlarına ciddi şəkildə əməl etməklə valideynlər loqopedin, defektoloqun, uşaq psixoloqunun müalicələrinin effektivliyini əhəmiyyətli dərəcədə artıra bilərlər.

*Nitq problemləri olan 6 yaşlı uşaqlarla işləmək üçün bir neçə loqopedik məşq növü tövsiyə etmək olar:*

- Uşaqlara şəkildə təsvir olunmuş əşya adlarına yaxın və ya əksmənalı sözlər tapmağı təklif etmək;
- Əşyaları qruplaşdırmağı öyrətmək – məsələn, “nə yumru (şirin, ağır, mavi və s.) olur?”;

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

- “Canlı-cansız”, “Yeyilən-yeyilməyən” oyununu təşkil etmək olar;
- Uşağı əhatə edən əşyalarla bağlı tapmacalar düşünmək (əvvəl tapmacaları uşağa izah edərək qurmaq, daha sonra isə bu işi uşaqla birgə etmək lazımdır);
- “Enli-dar”, “tək-çox” məfhumları ilə bağlı sözlər tapdırmaq;
- Uşağa onu əhatə edən əşyalarla bağlı 2 sözdən ibarət cümlə qurmağı təklif etmək, daha sonra cümlədə sözlərin sayını 3-ə, 4-ə və s. çatdırmaq;
- Uşaqla ekskursiyada (teatrda, muzeydə) gördükləri barədə təəssüratları bölüşmək, gəzinti zamanı ətrafdakı əşyalar, fəsillər və onların xüsusiyyətləri haqqında söhbət etmək;
- Uşaqlarla birgə şəkillərə baxaraq, əvvəlcə onların əsasında cümlələr, sonra isə hekayə qurmağa sövq etmək;
- Uşağa tez-tez uşaq ədəbiyyatının ən gözəl nümunələrini oxuyub əsərlərin məzmununu müzakirə etmək;
- Uşağa adında müəyyən səs olan sözü tapmağı və həmin səslə yeni sözlər düşünməyi təklif etmək;
- Dil və dodaq əzələlərinin dəqiq koordinə edilmiş hərəkətlərinə, mütəhərrikliyinə nail olmaq məqsədilə vaxtaşırı olaraq uşaqlarla birgə tanış yanıltmacların, sanamaların, düzgülərin söylənilməsini təşkil etmək.

Vaxtında qoyulmuş diaqnoz və aktiv korreksiya işləri uşağın nitqində müşahidə olunan qüsurları düzəltməyə və ya ən azından minimuma endirməyə kömək edəcək. Bu da uşağın məktəbdə normal təhsil almasına imkan verəcəkdir. Unutmaq olmaz ki, erkən aşkar etmə korreksiya işinin effektivliyini artırır.

Azərbaycan təhsil sistemində tədqiq olunan məsələ ilə bağlı bir sıra problemlər müşahidə olunur: müəllimlərin xüsusi təhsil üzrə hazırlıq səviyyəsinin yetərli olmaması; erkən müdaxilə proqramlarının sistemsizliyi; peşəkar loqoped çatışmazlığı və s.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 37-42**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 37-42**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Perspektiv olaraq məktəblərdə loqoped kabinetlərinin yaradılması; müəllimlərin bu sahədə ixtisasartırma kurslarına, xüsusi təlimlərə cəlb edilməsi; valideyn maarifləndirilməsi proqramlarının həyata keçirilməsi problemin müsbət həllinə kömək ola bilər. Azərbaycan təhsil sistemində institusional dəstəyin gücləndirilməsi vacibdir.

Nitq ləngimələrinin vaxtında aşkarlanması və məqsədyönlü pedaqoji dəstək ibtidai təhsil mərhələsində şagirdlərin akademik uğurunun və sosial inteqrasiyasının təmin edilməsində həlledici rol oynaya bilər.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Aysan Ağayeva**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-3392-2439
aysanzakari@gmail.com
**Əfqan Kərimov**
Lənkəran Dövlət Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0002-2875-3197
efgan.karimov@gmail.com

# Fənlərarası əlaqənin klassik pedaqoqlar və müasir metodistlərin elmi əsərlərində işlənməsi

***Açar sözlər:*** *fənlərarası əlaqə, təlimin inteqrasiyası, klassik pedaqoqlar, müasir metodistlər, fizikanın tədrisi, didaktik prinsip, kompetensiyaya əsaslanan təhsil, elmi dünyagörüş, STEAM yanaşması*

***Keywords:*** *interdisciplinary connection, integration of learning, classical educators, modern methodologists, physics teaching, didactic principle, competency-based education, scientific worldview, STEAM approach*

Müasir təhsil sistemində biliklərin inteqrasiyası və şagirdlərdə bütöv dünyagörüşünün formalaşdırılması əsas pedaqoji problemlərdən biri kimi çıxış edir. Bu baxımdan fənlərarası əlaqə (interdisciplanary connection) anlayışı həm klassik pedaqoji irsdə, həm də müasir metodiki yanaşmalarda xüsusi yer tutur. Fənlərarası əlaqə tədris prosesində müxtəlif fənlər arasında məzmun, bacarıq və metod baxımından əlaqələrin yaradılmasını, biliklərin sistemli və məqsədyönlü şəkildə mənimsənilməsini təmin edir. Tezisdə fənlərarası əlaqə

anlayışının klassik pedaqoqların elmi irsində formalaşması və müasir metodistlərin əsərlərində inkişaf istiqamətləri elmi-nəzəri aspektdən təhlil edilir.

**Klassik pedaqoqların əsərlərində fənlərarası əlaqə ideyası**

Fənlərarası əlaqənin elmi əsasları ilk növbədə klassik pedaqoqların təlim haqqında konsepsiyasında öz əksini tapmışdır. XVII əsr pedaqoji fikrinin görkəmli nümayəndəsi Yan Amons Komenski "təhsilin sistemliliyi və ardıcıllığı" ideyasını irəli sürərək fənlər arasında daxili əlaqələrin yaradılmasının vacibliyini irəli sürmüşdür. Onun *Didactica Magna* ("Böyük Didaktika") əsərində təlimin təbiətə uyğun təşkili, biliklərin sadədən mürəkkəbə doğru verilməsi və elmlərin qarşılıqlı əlaqədə öyrədilməsi əsas prinsip kimi təqdim olunur (Komenski, 1982).

İohan Henrix Pestalozzi isə təlimin inteqral xarakterini "baş-ürək-əl" vəhdəti əsasında izah edərək, biliyin yalnız ayrı-ayrı fənlər çərçivəsində deyil, həyatla əlaqədə mənimsənilməsini əsaslandırmışdır. Pestalozzinin pedaqoji sistemində fənlərarası əlaqə şagirdlərin idrak fəaliyyətinin inkişafında mühüm vasitə kimi çıxış edir (Pestalozzi, 1976).

XIX əsr rus pedaqoji fikrinin banilərindən biri olan Konstantin Dmitriyeviç Uşinski fənlərarası əlaqəni təlimin elmi və psixoloji əsaslarının ayrılmaz tərkib hissəsi hesab etmişdir. O, biliklərin parçalanmış şəkildə verilməsinin şagirdlərin təfəkkürünün inkişafına maneə olduğunu qeyd edərək, müxtəlif fənlərin bir-birini tamamlanmasının zəruriliyini göstərmişdir. Uşinskiyə görə, təlim prosesində fənlərarası əlaqə şagirdlərin müşahidə, müqayisə və ümumiləşdirmə bacarıqlarını gücləndirir (Uşinski, 1988).

Beləliklə, klassik pedaqoqların elmi irsində fənlərarası əlaqə ideyası təlimin sistemliliyi, həyata bağlılığı və şagird şəxsiyyətinin hərtərəfli inkişafı kontekstində əsaslandırılmışdır.

**Sovet pedaqogikasında fənlərarası əlaqənin inkişafı**

XX əsrdə fənlərarası əlaqə problemi sovet pedaqogikasında elmi-nəzəri və metodik baxımdan daha dərindən işlənmişdir. Bu dövrdə təhsil məzmununun elmi əsaslarla inteqrasiyası məsələsi aktuallaşmışdır. M.A.Danilov və B.P.Yesipov fənlərarası əlaqəni təlim prosesində biliklərin möhkəmləndirilməsi və tətbiqi üçün mühüm didaktik şərt kimi qiymətləndirmişlər (Danilov və Yesipov, 1957).

İ.Y.Larner və M.N.Skatkin təlimin məzmununun strukturlaşmasında fənlərarası əlaqələrin rolunu xüsusi vurğulamış, bu əlaqələrin şagirdlərin idrak müstəqilliyinin formalaşmasına xidmət etdiyini qeyd etmişlər. Onların fikrincə, fənlərarası əlaqə yalnız mövzuların uyğunlaşdırılması deyil, həm də ümumi anlayışlar, qanunauyğunluqlar və fəaliyyət üsulları səviyyəsində qurulmalıdır (Lerner, 1981; Skatkin, 1980).

Bu mərhələdə fənlərarası əlaqə didaktik prinsip kimi formalaşaraq təlimin planlaşdırılması, dərsliklərin hazırlanması və tədris metodlarının seçilməsində nəzərə alınmışdır.

**Müasir metodistlərin əsərlərində fənlərarası əlaqə**

Müasir təhsil konsepsiyalarında fənlərarası əlaqə kompetensiyaya əsaslanan yanaşmanın əsas elementlərindən biri kimi çıxış edir. XXI əsr metodistləri fənlərarası əlaqəni şagirdlərdə funksional savadlılığın, tənqidi və yaradıcı təfəkkürün formalaşdırılması baxımından qiymətləndirirlər.

V.V.Krayevski və A.V.Xutorskoy fənlərarası əlaqəni təhsil məzmununun inteqrasiyası və şagirdlərin universal təlim fəaliyyətlərinin formalaşdırılması ilə əlaqələndirirlər. Onların fikrincə, fənlərarası yanaşma şagirdin bilikləri real həyat

problemlərinin həllində tətbiq etməsinə şərait yaradır (Krayevski, 2007; Xutorskoy, 2010).

Azərbaycan pedaqoji fikrində də fənlərarası əlaqə problemi aktual elmi istiqamətlərdən biridir. M.Ə.Muradxanov və A.H.Abbasov təlim prosesində fənlərarası əlaqənin şagirdlərin idrak fəallığının artırılmasında və elmi dünyagörüşünün formalaşdırılmasında mühüm rol oynadığını qeyd edirlər (Muradxanov, 2012; Abbasov, 2015).

Müasir metodik yanaşmalarda fənlərarası əlaqə STEAM, layihə əsaslı təlim və problem əsaslı təlim kimi innovativ modellər vasitəsilə həyata keçirilir. Bu modellər müxtəlif fənlərin inteqrasiyasını təmin etməklə təlimin praktik yönümlülüyünü gücləndirir.

Aparılan təhlillər göstərir ki, fənlərarası əlaqə anlayışı klassik pedaqoqların elmi irsindən başlayaraq müasir metodik sistemlərə qədər davamlı inkişaf yolunu keçmişdir. Klassik pedaqoqlar fənlərarası əlaqəni təlimin sistemliliyi və həyatla bağlı kontekstində əsaslandırmış, müasir metodistlər isə bu anlayışı kompetensiya və inteqrativ təhsil modeli çərçivəsində inkişaf etdirmişlər. Fənlərarası əlaqənin məqsədyönlü şəkildə tətbiqi şagirdlərin biliklərinin dərinləşməsinə, idrak bacarıqlarının formalaşmasına və müasir cəmiyyətin tələblərinə cavab verən şəxsiyyətin yetişdirilməsinə xidmət edir.

## Ədəbiyyat

1. Abbasov, A. H. (2015). *Müasir təlim texnologiyaları*. ADPU nəşriyyatı.
2. Danilov, M. A., & Yesipov, B. P. (1957). *Didaktika*. Pedaqogika.
3. Komenski, Y. A. (1982). *Böyük didaktika*. Pedaqogika.
4. Krayevski, V. V. (2007). *Təhsil məzmununun nəzəriyyəsi*. Akademiya.

5. Lerner, İ. Y. (1981). *Təlimin məzmunu*. Pedaqogika.
6. Muradxanov, M. Ə. (2012). *Pedaqogikanın aktual problemləri*. Elm.
7. Pestalozzi, İ. H. (1976). *Seçilmiş pedaqoji əsərlər*.
8. Skatkin, M. N. (1980). *Ümumtəhsil məktəbində təlimin nəzəriyyəsi*. Pedaqogika.
9. Uşinski, K. D. (1988). *İnsan tərbiyənin predmeti kimi*. Pedaqogika.
10. Xutorskoy, A. V. (2010). *Müasir pedaqogika*.

**Vüqar Teymurxanlı**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Quba filialı
filologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-2597-4015
vuqarteymurxanli@gmail.com

# Mirzə Fətəli Axundzadə irsində milli düşüncə

***Açar sözlər:*** *Axundzadə, milli kimlik, özünüdərk, müasirləşmək, milli düşüncə*
***Keywords:*** *Akhundzadeh, national identity, self-awareness, modernization, national thought*

Məlumdur ki, M.F.Axundzadə Qərb ədəbiyyatı və ictimai fikri ilə tanış olduqca yaradıcılığı da Qərb kontekstinə daxil olur və yeni bədii formalardan istifadə edir. Əlbəttə, M.F.Axundzadəni bu mərhələyə gətirən müəyyən amillər olmuşdur ki, bunu da nəzərdən qaçırmaq olmaz. Belə ki, buna qədər M.F.Axundzadə dörd il, yəni 1836-cı ildən 1840-cı ilədək Tiflis rus qəza məktəbində türk dili və şəriət müəllimi işləmişdir. Belə görünür ki, M.F.Axundzadə həyatının və fəaliyyətinin ilk illərində müəllimliyə fokuslanmış və doğma türkcəmizi tədris etməklə milli kimliyimizin ilk əlifbasını öyrənməyə və öyrətməyə çalışmışdır. 1841-ci ildə M.Ş.Vazeh ilə birgə Zaqafqaziya təhsil ocaqları üçün şərq dilləri, eləcə də türk dilində dərsliklər nəşr etmək məqsədilə nəşriyyat yaratmaq istəyi də buradan irəli gəlirdi. Lakin onun bu istəyi də yerinə yetirilməmiş qalmışdı; ona bildirilmişdi ki, nə litoqrafiya üzrə təcrübəli mütəxəssis, nə də dəzgah vermək imkanı vardır (Axundov, 1988a).

M.F.Axundzadənin dramaturgiya yaradıcılığı ilə ədəbiyyatımızda milli kimlik düşüncəsi yeni inkişaf mərhələsinə daxil olur. XIX əsrin 50-ci illərində bir-birinin ardınca yazdığı komediyaların təkcə ideya-estetik məzmunu deyil, həm də təsvir etdiyi hadisələr, gətirdiyi obrazlar, ən başlıcası isə dil xalqın özü idi və onun milli düşüncəsini əks etdirməyə xidmət edirdi. Bununla həm də milli bədii düşüncədə yeni ədəbi növdən istifadə edilirdi. Məsələ təkcə formada deyildi, onun yaradıcılığı ilə ədəbiyyatın məzmunu da dəyişir və yeniləşirdi. Sadə xalq həyatını təsvir etməklə yanaşı, milli mənlik şüurunun inikasında maarifçi (teatr, dramaturgiya vasitəsilə!) əhəmiyyətli rol oynayır. Doğrudur, M.F.Axundzadənin zamanında ümmətçilikdən millətçiliyə keçid prosesi tam olaraq başlamamışdı, özünün ilk mərhələsini yaşayırdı. Bununla belə, milli özünüdərk prosesində M.F.Axundzadənin fəaliyyəti və əsərləri misilsiz rol oynayır. “Müsəlman tayfaları”, “islam milləti”, “müsəlmanlar”, “islam xalqı” kimi terminlərdən istifadə edən M.F.Axundzadə həm yazdığı əsərləri, həm gördüyü əməli işlərlə xalqı müasirləşməyə səsləyir və milli özünüdərkin əsasını qoyurdu (Axundov, 1988b).

Millətçilik M.F.Axundzadədə daha çox milli dildə komediyalarını yazmasında bütün qabarıqlığı ilə ortaya çıxır. Bunu nəzərdə tutan Z.Göyalp *Türkçülüyün əsasları* əsərində yazırdı: “Türkiyədə Əbdülhəmid bu müqəddəs axımı - cərəyanı dayandırmağa çalışarkən Rusiyada iki böyük türkçü yetişirdi. Bunlardan birincisi Mirzə Fətəli Axundzadədir ki, azəri türkcəsində yazdığı orijinal güldürülər - komediyalar bütün avropa dillərinə çevrilmişdir. İkincisi isə Krımda “Tərcüman” qəzetini çıxaran Qaspıralı İsmaildir” (Göyalp, 1991, s. 27).

Ziya Göyalpın bu dəyərləndirməsi olduqca qiymətlidir: türkçülüyün əsaslarını işləyib hazırlayan bu görkəmli fikir adamının M.F.Axundzadəni “ilk türkçü” hesab etməsində ilk

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

baxışdan bir qəribəlik vardır. Lakin Z.Göyalp türkçülüyü daha dərinlərdə axtarır və tapırdı. Avropada XIX yüzilliyin başlarında meydana gələn millət, irq mübahisələri hələ tam olaraq regiona gəlmədiyi bir zamanda M.F.Axundzadə yazdığı komediyaları, irəli sürdüyü qərbləşmə düşüncələri ilə milli özünüdərkin əsasını qoydu. Maraqlıdır ki, türkçülük probleminin araşdırıcılarından biri Yusif Akçura da bu nöqtədə Z.Göyalpla birləşir. Y.Akçura *Türkçlüyün tarixi* əsərində M.F.Axundzadənin bu sahədəki xidmətini belə ifadə edirdi: "...Saf və həqiqi azəri ləhcəsindən Mirzə əsərlərində ustalıqla istifadə etmiş imiş. Bu vəziyyətdə Axundzadə Mirzə Fətəli dildə feilən türkçülük etmiş olur. Fəqət Mirzənin türk millətçiliyi ilə bağlı düşüncə və görüşlərinə dair mənim əlimdə ciddi məlumatlar yoxdur" (Akçura, 2010, s. 61).

Olsun ki, Y.Akçuranın sonuncu fikrində müəyyən həqiqət vardır. M.F.Axundzadənin zamanında bizim indi başa düşdüyümüz kimi türkçülük, millətçilik axımı yox idi və bu axımı onun yaradıcılığında da axtarmaq düzgün olmazdı. Bu məsələdə M.Ə.Rəsulzadənin fikri də Z.Göyalpın fikri ilə üst-üstə düşür. M.Ə.Rəsulzadə M.F.Axundzadə haqqında yazırdı: "Rusiya imperiyasının müsəlman xalqlarının türk özünüdərki çoxdan - ilk dramaturqumuz Mirzə Fətəli Axundzadənin 1850-ci illərdə sadə xalq dilində yazdığı vaxtdan başlamışdır" (Rəsulzadə, 1991, s. 116).

Burada həm Z.Göyalpın, həm də M.Ə.Rəsulzadənin milli özünüdərk, millilik, türkçülük barədə düşüncələri ifadə olunur. Yəni hər iki fikir adamı M.F.Axundzadənin türkçülüyünü daha dərinlərdə axtarır və görürdü.

M.F.Axundzadənin yazdığı əsərlərində, məktublarında mənsub olduğu xalqın psixologiyası, düşüncəsi, xarakteri təsvir edilirdi. M.F.Axundzadə milli kulturoloji oyanışın əsasını qoyur və ortaya atdığı Şərq-Qərb diskursu ilə problemi ədəbi, ictimai, siyasi fikir arenasına daxil edir. İlk dəfə olaraq bədii düşüncədə

Azərbaycan türkcəsi öz qılıfından çıxaraq dünya arenasına boylanır (Axundzadə, 2005).

Digər əsərlərindən və məqalələrindən fərqli olaraq, komediyalarında xalq dilindən istifadə milli kimliyin ən yaxşı ifadəsi kimi mənalana bilər. Firudin bəy Köçərli onun haqqında: "Qoqol rus və Molyer firəng dram yazanların ustad və pişvəri olduğu kimi, mərhum Axundov da türk Azərbaycan ədiblərinin və komediyanəvislərinin atası və yol göstərəni olubdur", - qənaətinə gəlirdi (Köçərli, 1971, s. 435).

M.F.Axundzadə bu altı komediyası ilə Azərbaycan ədəbi fikrində dil problemini həll etməklə milli düşüncənin inkişafına öz töhfəsini vermiş oldu. Lakin o da məlumdur ki, M.F.Axundzadə altı komediya ilə kifayətlənir, bundan sonra yeni komedik əsərlər yazmır. Bunun başlıca səbəbi ondan ibarət idi ki, onun yazdığı komediyalar səhnədə göstərilmirdi. Komedioqraf bu komediyaları yazanda düşünürdü ki, Azərbaycan həyatı üçün bir yenilik olacaq. Lakin peşəkar aktyorlar olmadığı və teatr inkişaf etmədiyi üçün bu şəkildə yeni komediyalar yazmağın əhəmiyyəti olmur. M.F.Axundzadə Azərbaycan mühiti və cəmiyyəti üçün yeni ifadə imkanlarına baş vurur (Azərbaycan ədəbiyyatı tarixi, 2011).

Sonrakı əsərləri (*Kəmalüddövlə məktubları*, tənqidi məqalələri və digər yazışmaları) və fəaliyyəti (əlifba islahatı) isə Şərq sərhədlərini aşaraq, ümumən, yeni milli düşüncə stereotipləri formalaşdırmaqla yanaşı, ictimai, siyasi, ədəbi, bədii, fəlsəfi, mədəni-kulturoloji dövriyyəyə yenilik gətirir, əsərlərindəki cəmiyyət və idarəetmə problemi ilə siyasi təfəkkürün, məfkurəçiliyin əsasını qoyur (Cəfərov və b., 2016).

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

## Ədəbiyyat

1. Axundov, M. F. (1988a). *Əsərləri* (I cild). Elm.
2. Axundov, M. F. (1988b). *Əsərləri* (3 cilddə, III cild).
3. Axundzadə, M. F. (2005). *Əsərləri.*
4. Akçura, Y. (2010). *Türküçülüyün tarixi.*
5. Azərbaycan ədəbiyyatı tarixi. (2011). *6 cilddə* (4-cü cild).
6. Cəfərov, N., Sərdarov, V., & Cəfərov, A. (2016). *Azərbaycançılıq ideologiyasının etnoqrafik əsasları.*
7. Göyalp, Z. (1991). *Türküçülüyün əsasları.*
8. Köçərli, F. (1971). *Azərbaycan ədəbiyyatı* (I cild). Elm.
9. Rəsulzadə, M. Ə. (1991). Panturanizm haqqında. *Azərbaycan* jurnalı.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Səidə Qafarova**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0009-0001-6611-1331
saida.gafarova@sport.edu.az

# Universitet mühitində şahmatın intellektual inkişaf vasitəsi kimi rolu

***Açar sözlər:*** *şahmat, intellektual inkişaf, ali təhsil, strateji düşünmə, tənqidi təfəkkür*

***Keywords:*** *chess, intellectual development, higher education, strategic thinking, critical thinking*

Müasir ali təhsil sistemi yalnız ixtisas biliklərinin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda tələbələrin analitik təfəkkürü-nün, tənqidi düşünmə qabiliyyətinin, strateji qərarvermə bacarıqlarının və yaradıcılıq potensialının inkişafını prioritet istiqamət kimi müəyyənləşdirir. Qloballaşma və rəqəmsallaşma şəraitində informasiyanın sürətlə artması və mürəkkəbləşməsi universitet mühitində intellektual bacarıqların sistemli şəkildə formalaşdırılmasını zəruri edir. Bu kontekstdə şahmat yalnız idman növü kimi deyil, həm də intellektual inkişafın səmərəli vasitəsi kimi çıxış edir. Şahmatın strukturlaşdırılmış məntiqi sistemi, çoxvariantlı qərarvermə mexanizmi və uzunmüddətli strateji planlaşdırma tələbi onu ali təhsil mühitində pedaqoji baxımdan əhəmiyyətli alətə çevirir.

Şahmatın intellektual inkişafla əlaqəsi ilk növbədə onun koqnitiv proseslərə təsiri ilə izah olunur. Psixologiya və neyroelm sahəsində aparılmış tədqiqatlar göstərir ki, şahmatla müntəzəm məşğul olmaq diqqətin davamlılığını, işçi yaddaşı və məntiqi təhlil bacarıqlarını gücləndirir. Şahmat partiyası zamanı tələbə müxtəlif variantları eyni vaxtda qiymətləndirməli,

mümkün riskləri proqnozlaşdırmalı və optimal qərar seçməlidir. Bu proses analitik düşünmə ilə yanaşı, səbəb-nəticə əlaqələrinin dərk edilməsini də möhkəmləndirir. Universitet mühitində isə bu bacarıqlar elmi-tədqiqat fəaliyyətində, layihə əsaslı təlimdə və mürəkkəb problemlərin həllində mühüm rol oynayır.

Şahmatın tədris mühitində tətbiqi tələbələrin tənqidi düşünmə qabiliyyətinin inkişafına da əhəmiyyətli təsir göstərir. Tənqidi düşünmə informasiyanın obyektiv təhlili, arqumentlərin qiymətləndirilməsi və alternativ mövqelərin müqayisəsi kimi bacarıqları əhatə edir. Şahmat oyununda hər bir gediş əvvəlki vəziyyətin təhlili və gələcək perspektivin proqnozu əsasında qurulur. Səhv qərar dərhal və ya müəyyən müddətdən sonra mənfi nəticə ilə üzləşir ki, bu da tələbəyə öz düşüncə modelini yenidən nəzərdən keçirmək imkanı yaradır. Beləliklə, şahmat özünürefleksiya və metakoqnitiv bacarıqların inkişafına şərait yaradır ki, bu da ali təhsildə öyrənmənin keyfiyyətini artıran mühüm amillərdən biridir.

Universitet mühitində şahmatın rolu yalnız fərdi koqnitiv bacarıqların inkişafı ilə məhdudlaşmır. O, həm də sosial-intellektual bacarıqların formalaşmasına təsir göstərir. Şahmat turnirləri və komanda yarışları tələbələr arasında ünsiyyət, qarşılıqlı hörmət və sağlam rəqabət mühitini təşviq edir. Rəqibin düşüncə tərzini anlamaq və onun strategiyasını təhlil etmək empatik təfəkkürün inkişafına xidmət edir. Bu isə müasir ali təhsildə vacib hesab olunan kommunikativ və sosial səriştələrin formalaşmasına müsbət təsir göstərir. Xüsusilə idarəetmə, beynəlxalq münasibətlər və iqtisadiyyat kimi sahələrdə təhsil alan tələbələr üçün strateji düşünmə və rəqib davranışının modelləşdirilməsi mühüm əhəmiyyət daşıyır.

Şahmatın strateji planlaşdırma bacarıqlarına təsiri də xüsusi qeyd olunmalıdır. Hər bir şahmat partiyası qısa və uzunmüddətli planların qurulmasını tələb edir. Açılış mərhələsində mövqenin

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 53-56
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 53-56
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

düzgün qurulması, orta oyunda təşəbbüsün ələ alınması və sonluqda üstünlüyün reallaşdırılması ardıcıl və sistemli düşüncəni zəruri edir. Bu mərhələli yanaşma universitet təhsilində layihələrin idarə olunması, elmi işlərin planlaşdırılması və karyera strategiyasının müəyyənləşdirilməsi baxımından analoji model kimi çıxış edə bilər. Tələbə şahmat vasitəsilə məqsəd qoyma, resursların optimal bölüşdürülməsi və risklərin qiymətləndirilməsi kimi bacarıqları praktik şəkildə mənimsəyir.

Rəqəmsal texnologiyaların inkişafı şahmatın universitet mühitində tətbiq imkanlarını daha da genişləndirmişdir. Onlayn platformalar, süni intellekt əsaslı analiz proqramları və interaktiv təlim modulları tələbələrin fərdi inkişaf trayektoriyasını izləməyə və təhlil etməyə imkan verir. Bu, fərdiləşdirilmiş təlim yanaşmasının tətbiqini asanlaşdırır və tələbənin zəif və güclü tərəflərini obyektiv qiymətləndirməyə şərait yaradır. Eyni zamanda, rəqəmsal şahmat mühiti informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə bacarıqlarını da inkişaf etdirir ki, bu da müasir ali təhsilin əsas kompetensiyalarından biridir.

Şahmatın intellektual inkişaf vasitəsi kimi əhəmiyyəti onun multidissiplinar xarakteri ilə də bağlıdır. Riyaziyyat, məntiq, psixologiya və hətta fəlsəfə ilə əlaqəli elementlər şahmat oyununda inteqrasiya olunmuş şəkildə təzahür edir. Bu xüsusiyyət universitet mühitində fənlərarası əlaqələrin qurulmasına töhfə verir. Məsələn, ehtimal nəzəriyyəsi və kombinatorika elementləri şahmat variantlarının hesablanmasında tətbiq oluna bilər, psixoloji aspektlər isə qərarvermə prosesinin emosional komponentlərini anlamağa imkan yaradır. Beləliklə, şahmat yalnız ayrıca fəaliyyət sahəsi deyil, həm də müxtəlif elmi istiqamətləri birləşdirən intellektual platformadır.

Ali təhsil müəssisələrində şahmatın seçmə fənn və ya əlavə təlim modulu kimi tətbiqi tələbələrin akademik göstəricilərinə də müsbət təsir göstərə bilər. Araşdırmalar göstərir ki, şahmatla məşğul olan tələbələrdə konsentrasiya səviyyəsi yüksəlir, informasiyanın emalı sürətlənir və mürəkkəb problemlərin həlli zamanı daha sistemli yanaşma müşahidə olunur. Bu isə imtahan nəticələrində və elmi fəaliyyət göstəricilərində öz əksini tapa bilər. Bundan əlavə, şahmat stresin idarə olunmasına və emosional dayanıqlılığın güclənməsinə də yardım edir. Partiya zamanı yaranan gərginlik şəraitində soyuqqanlı qərar vermək bacarığı tələbənin real həyat və peşə fəaliyyəti üçün də dəyərli təcrübə yaradır.

Nəticə etibarilə, şahmat universitet mühitində intellektual inkişafın çoxşaxəli və effektiv vasitəsi kimi dəyərləndirilə bilər. Onun koqnitiv, strateji, sosial və emosional komponentləri tələbələrin kompleks inkişafına şərait yaradır. Şahmatın sistemli şəkildə ali təhsil proqramlarına inteqrasiyası, innovativ tədris metodları ilə birgə tətbiqi və rəqəmsal imkanlardan istifadə edilməsi tələbələrin analitik və yaradıcı potensialının gücləndirilməsinə mühüm töhfə verə bilər. Müasir ali təhsil konsepsiyası çərçivəsində şahmatın rolu yalnız əlavə fəaliyyət kimi deyil, intellektual kapitalın formalaşdırılmasına xidmət edən strateji pedaqoji alət kimi qiymətləndirilməlidir.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 57-61**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 57-61**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Nərmin Heydərova**
Naxçıvan Dövlət Universiteti
doktorant
https://orcid.org/0009-0000-2948-9389
narminheydarova596@gmail.com

# Müasir dövrdə Azərbaycanda ailə institutunun sosial funksiyaları və inkişaf problemlərinin təhlili (Naxçıvan Muxtar Respublikası nümunəsində)

***Açar sözlər:*** *ailə, sosial funksiyalar, ailə münasibətləri, müasir cəmiyyət, sosial dəyişikliklər, ailə problemləri, demoqrafik proseslər, ailə siyasəti, sosial müdafiə*
***Keywords:*** *family, social functions, family relations, modern society, social changes, family problems, demographic processes, family policy, social protection*

Ailə cəmiyyətin ən qədim və ən mühüm sosial institutlarından biri hesab olunur. O, insanın sosiallaşmasının, mənəvi dəyərlərinin formalaşmasının və cəmiyyətin davamlı inkişafının əsas dayaqlarından biridir. Ailə institutunun möhkəmliyi cəmiyyətin sosial sabitliyinin qorunmasında, yeni nəslin tərbiyəsində və milli-mənəvi dəyərlərin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır. Buna görə də müasir dövrdə ailə institutunun inkişaf xüsusiyyətlərinin və onun qarşılaşdığı problemlərin araşdırılması aktual elmi və sosial məsələlərdən biri hesab olunur.

Müasir dövrdə qloballaşma, urbanizasiya, iqtisadi münasibətlərin dəyişməsi, texnologiyaların inkişafı və sosial transformasiyalar ailə institutuna müəyyən təsirlər göstərmişdir. Bu dəyişikliklər ailənin sosial funksiyalarında, ailədaxili münasibətlərdə və ailənin cəmiyyətdəki rolunda yeni

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

xüsusiyyətlərin meydana çıxmasına səbəb olmuşdur. Bəzi hallarda bu proseslər ailə münasibətlərinin möhkəmlənməsinə şərait yaratsa da, digər hallarda boşanmaların artması, demoqrafik problemlər, ailədaxili münaqişələr və sosial-psixoloji çətinliklər kimi problemlərin yaranmasına gətirib çıxarmışdır (İsmayılov, 2016).

Azərbaycanda ailə institutu tarixən milli-mənəvi dəyərlərə, adət-ənənələrə və qarşılıqlı hörmət prinsiplərinə əsaslanmışdır. Xüsusilə regional xüsusiyyətlər ailə münasibətlərinin formalaşmasında mühüm rol oynayır. Bu baxımdan Naxçıvan Muxtar Respublikasında ailə münasibətləri, ailə dəyərləri və sosial münasibətlər müəyyən spesifik xüsusiyyətlərə malikdir. Regionun sosial-mədəni mühiti, ənənəvi dəyərlərin qorunması və ailə münasibətlərindəki özünəməxsus xüsusiyyətlər bu mövzunun ayrıca tədqiq edilməsini zəruri edir.

Bu tədqiqatın məqsədi müasir dövrdə Azərbaycanda ailə institutunun sosial funksiyalarını və inkişaf problemlərini təhlil etmək, həmçinin Naxçıvan Muxtar Respublikası nümunəsində ailə münasibətlərinin mövcud vəziyyətini araşdırmaqdır. Tədqiqat nəticəsində ailə institutunun cəmiyyətdəki rolunun daha dərindən öyrənilməsi və mövcud problemlərin həlli istiqamətində müəyyən elmi nəticələrin əldə edilməsi nəzərdə tutulur.

Müasir dövrdə cəmiyyətin inkişafı ilə paralel olaraq ailə institutunun funksiyaları və strukturu da müəyyən dəyişikliklərə məruz qalır. Ailə yalnız insanların birgə yaşayış forması deyil, həm də sosial münasibətlərin formalaşdığı, mənəvi dəyərlərin qorunduğu və gələcək nəsillərin yetişdirildiyi əsas sosial mühitdir. Buna görə də ailə institutunun sabitliyi və inkişafı cəmiyyətin ümumi sosial inkişaf səviyyəsinin göstəricilərindən biri hesab olunur.

Ailə institutunun əsas sosial funksiyalarından biri reproduktiv funksiyadır. Bu funksiya cəmiyyətin demoqrafik inkişafını təmin edir və yeni nəslin formalaşmasına xidmət edir. Azərbaycanda ailə ənənəvi olaraq çoxuşaqlı modelə üstünlük verən sosial institut kimi tanınsa da, son illərdə sosial-iqtisadi dəyişikliklər, urbanizasiya və həyat tərzinin dəyişməsi nəticəsində doğum səviyyəsində müəyyən dəyişikliklər müşahidə olunur. Bu proses ailənin strukturuna və demoqrafik göstəricilərə təsir göstərən mühüm amillərdən biridir.

Ailə institutunun digər mühüm funksiyalarından biri tərbiyəedici və sosiallaşdırıcı funksiyadır. Uşaqlar ilk sosial davranış qaydalarını məhz ailə mühitində öyrənir, mənəvi və milli dəyərlərlə tanış olur, cəmiyyətin qəbul etdiyi normaları mənimsəyirlər. Valideynlərin uşaqların tərbiyəsində rolu olduqca böyükdür. Ailədə formalaşan münasibətlər, valideynlərin davranış modeli və ailədaxili ünsiyyət uşağın şəxsiyyət kimi formalaşmasına birbaşa təsir göstərir.

Ailə institutunun mühüm funksiyalarından biri də iqtisadi funksiyadır. Ailə üzvləri bir-birinə iqtisadi dəstək göstərir, ailənin maddi rifahının təmin olunmasında birgə iştirak edirlər. Müasir dövrdə ailənin iqtisadi funksiyası daha da genişlənmişdir. Əvvəllər əsas iqtisadi məsuliyyət ailə başçısının üzərinə düşürdüsə, hazırda qadınların əmək bazarında fəal iştirak etməsi nəticəsində ailənin iqtisadi strukturu dəyişmiş və ailə büdcəsinin formalaşmasında hər iki tərəfin rolu artmışdır.

Bununla yanaşı, ailə emosional və psixoloji dəstək funksiyasını da yerinə yetirir. Ailə üzvləri arasında qarşılıqlı hörmət, sevgi və etimad münasibətləri insanların psixoloji sabitliyinin qorunmasında mühüm rol oynayır. Müasir həyatın sürətli tempi və sosial gərginlik şəraitində ailə insanların emosional dayaq nöqtəsi kimi çıxış edir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2023).

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

Lakin müasir dövrdə ailə institutu müəyyən sosial problemlərlə də qarşılaşır. Bu problemlər sırasında boşanmaların artması, ailədaxili münaqişələr, gənc ailələrin sosial-iqtisadi çətinlikləri, miqrasiya prosesləri və demoqrafik dəyişikliklər xüsusi yer tutur. Bu problemlər ailə münasibətlərinin sabitliyinə təsir göstərərək cəmiyyətin sosial strukturunda müəyyən dəyişikliklərə səbəb ola bilər.

Azərbaycanda ailə institutunun inkişafı dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Dövlət ailənin sosial müdafiəsinin gücləndirilməsi, gənc ailələrin dəstəklənməsi və ailə dəyərlərinin qorunması istiqamətində müxtəlif proqramlar və layihələr həyata keçirir. Bu siyasət ailə institutunun möhkəmlənməsinə və cəmiyyətin sosial rifahının yüksəlməsinə xidmət edir.

Naxçıvan Muxtar Respublikası nümunəsində ailə münasibətlərinin araşdırılması göstərir ki, bu regionda ailə dəyərləri və ənənələri daha çox qorunub saxlanılmışdır. Ailədaxili münasibətlərdə qarşılıqlı hörmət, böyüklərə ehtiram və ailə birliyinin qorunması kimi dəyərlər mühüm yer tutur. Bununla belə, müasir sosial dəyişikliklər bu regionda da ailə institutunun fəaliyyətinə müəyyən təsirlər göstərir (Naxçıvan Muxtar Respublikası Statistika Komitəsi, 2022).

Beləliklə, müasir dövrdə ailə institutu həm sosial sabitliyin təmin olunmasında, həm də cəmiyyətin mənəvi və demoqrafik inkişafında mühüm rol oynamağa davam edir. Ailə institutunun sosial funksiyalarının düzgün yerinə yetirilməsi və mövcud problemlərin aradan qaldırılması cəmiyyətin davamlı inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Bu baxımdan ailə institutunun elmi şəkildə araşdırılması və onun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi mühüm sosial və elmi əhəmiyyətə malikdir.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 57-61**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 57-61**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2023). *Demoqrafik göstəricilər və ailə statistikası*.
2. İsmayılov, M. (2016). *Sosial institutlar və onların cəmiyyətdə rolu*. Təhsil.
3. Naxçıvan Muxtar Respublikası Statistika Komitəsi. (2022). *Əhali və ailə statistikası üzrə məlumatlar*.

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 62-66
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 62-66
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Fazil Hümbətli**
Azərbaycan Memarlıq və İnşaat Universiteti
doktorant
https://orcid.org/0009-0009-2791-6311
fazil@fontanagrande.com

# İrəvan qalasının tarixi və memarlıq xüsusiyyətləri

***Açar sözlər:*** *İrəvan qalası, qala memarlığı, tarixi abidələr, müdafiə tikililəri, memarlıq üslubu, orta əsr qalaları, şəhər qalaları, tarixi irs*
***Keywords:*** *Yerevan Fortress, fortress architecture, historical monuments, defensive structures, architectural style, medieval fortresses, city fortresses, historical heritage*

İrəvan qalası Cənubi Qafqaz regionunda mövcud olmuş qədim müdafiə tikililərindən biri kimi tanınır. Qala şəhərsalma və müdafiə memarlığının mühüm nümunələrindən hesab olunur.

Memarlıq baxımından İrəvan qalası dövrünün qala tikililəri üçün xarakterik olan elementləri özündə birləşdirirdi. Qalanın əsas hissəsi qalın daş və kərpic divarlardan ibarət idi. Divarların hündürlüyü və qalınlığı düşmən hücumlarının qarşısını almaq üçün nəzərdə tutulmuşdu.

Memarlıq xüsusiyyətlərinə görə qala əsasən daş və bişmiş kərpic materiallarından tikilmişdir. Divarların bəzi hissələrində dekorativ elementlərə və sadə memarlıq naxışlarına rast gəlinirdi. Bu elementlər qalaya həm funksional, həm də estetik görünüş verirdi. Qapılar isə qalın taxta və metal elementlərlə möhkəmləndirilmişdi ki, bu da təhlükəsizlik baxımından mühüm rol oynayırdı.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026



İrəvan qalası. 1796. (açıqca)

**Mənbə:** Prezident Kitabxanası, n.d.

İrəvan qalası həm də şəhər həyatının formalaşmasında mühüm rol oynamışdır.

Qalanın tikinti quruluşu, müdafiə divarları, qüllələri və daxili tikililəri orta əsr şəhər qalalarının memarlıq xüsusiyyətlərini əks etdirir. Bu cür abidələr tarix və memarlıq baxımından mühüm əhəmiyyət daşıyır və qədim şəhər mədəniyyətinin inkişafını öyrənmək üçün dəyərli məlumatlar verir.

İrəvan qalası Cənubi Qafqaz regionunda mövcud olmuş mühüm tarixi müdafiə tikililərindən biri hesab edilir. Bu qala şəhər memarlığının və orta əsr istehkam sistemlərinin inkişafını öyrənmək baxımından əhəmiyyətli abidələrdən biri olmuşdur. Memarlıq baxımından İrəvan qalası öz dövrünün istehkam quruluşunun klassik xüsusiyyətlərini özündə birləşdirirdi. Qala ikiqat müdafiə divarları ilə əhatə olunmuşdu. Bu divarlar daş və kərpic materiallarından tikilmişdi və onların qalınlığı düşmən hücumlarına davam gətirəcək səviyyədə idi. Qalanın xarici divarının hündürlüyü 10–12 metrə çatırdı və divarlar boyunca çoxsaylı bürclər yerləşirdi. Bu bürclər müdafiə məqsədilə

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

istifadə olunur və qalaya yaxınlaşan təhlükələri izləməyə imkan verirdi.

Qalanın plan quruluşu təxminən kvadrat formasında idi və təqribən 7 hektar ərazini əhatə edirdi. Onun uzunluğu təxminən 850 metr, eni isə 790 metr idi. Qala üç əsas qapıya malik idi. Bu qapılar şəhərlə əlaqəni təmin edir və ticarət yollarına çıxışı mümkün edirdi. Qapılar möhkəm taxta və metal konstruksiyalarla hazırlanmışdı ki, bu da təhlükəsizlik baxımından mühüm rol oynayırdı.

İrəvan qalasının memarlığında həm müdafiə funksiyası, həm də estetik elementlər diqqət çəkirdi. Qalanın bəzi hissələrində dekorativ naxışlar, memarlıq ornamentləri və bəzək elementləri istifadə olunmuşdur. Bu isə qalaya yalnız hərbi tikili kimi deyil, həm də memarlıq abidəsi kimi xüsusi dəyər qazandırırdı.

Tarixi mənbələrdə qalada müxtəlif dövrlərdə yüzlərlə yaşayış evi və ictimai bina olduğu qeyd olunur. Bu fakt göstərir ki, qala ətrafında şəhər həyatının inkişafı üçün əlverişli şərait mövcud olmuşdur. Qalanın daxilində su təminatı üçün quyular və su anbarları da mövcud idi. Bu cür qurğular uzunmüddətli mühasirə zamanı qalada yaşayan insanların həyatını təmin etmək üçün nəzərdə tutulmuşdu.

İrəvan qalası orta əsr şəhər qalalarının memarlıq xüsusiyyətlərini əks etdirən mühüm nümunələrdən biri hesab olunur. Qalanın qalın divarları, müdafiə bürcləri, qapıları və daxili tikililəri həmin dövrün şəhərsalma və istehkam memarlığını aydın şəkildə nümayiş etdirir. XIX əsrdə şəhərin planlaşdırılması və yenidən qurulması prosesi nəticəsində qaladakı bir çox tikililər öz əvvəlki funksiyasını itirmişdir.

1827-ci ildə İrəvan qalasının rus qoşunları tərəfindən tutulması (1827) nəticəsində şəhərin siyasi və inzibati vəziyyəti köklü şəkildə dəyişdi. Bu hadisə Rus-İran müharibəsi (1826–1828) dövründə baş verdi və regionun taleyində mühüm dönüş

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

nöqtəsi oldu. Qalanın tutulmasından sonra bölgə Rusiya imperiyasının nəzarətinə keçdi və ardınca baş verən hadisələr şəhərin etnik və mədəni mənzərəsinin dəyişməsinə səbəb oldu.

Növbəti illərdə həyata keçirilən köçürmə siyasəti və inzibati dəyişikliklər nəticəsində şəhərin demoqrafik tərkibi tədricən dəyişdi. 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsi regionda yeni siyasi şərait yaratdı və bunun ardınca İran və Osmanlı ərazilərindən erməni əhalinin kütləvi şəkildə köçürülməsi həyata keçirildi. Bu proseslər şəhərin sosial və mədəni mühitinə də ciddi təsir göstərdi.

Qalanın bəzi hissələri istifadə olunmadığı üçün zamanla köhnəlmiş və dağıntılara məruz qalmışdır. Şəhərin genişlənməsi ilə əlaqədar olaraq qala divarlarının bir hissəsi sökülmüş, ərazi isə yeni yaşayış və inzibati tikililərin inşası üçün istifadə edilmişdir. Tarixi mənbələrdə qeyd olunur ki, qalanın daxilində yerləşən bir sıra memarlıq abidələri, o cümlədən saray kompleksləri və digər tikililər zamanla dağıdılmış və ya dəyişdirilmişdir. Bunun nəticəsində qaladan günümüzə qədər yalnız müəyyən arxeoloji izlər və tarixi mənbələrdə verilən təsvirlər qalmışdır.


İrəvan qalasının ərazisində müasir tikililər

**Mənbə:** Prezident Kitabxanası, n.d.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

Regionda baş verən hərbi münaqişələr, eləcə də həyata keçirilən tikinti və şəhərsalma işləri nəticəsində İrəvan qalasına aid qalıqların böyük bir hissəsi tamamilə aradan qalxmışdır. Bununla belə, tarixçilər və tədqiqatçılar müxtəlif arxiv sənədləri, xəritələr və təsvirlər vasitəsilə qalanın memarlıq quruluşunu və tarixi xüsusiyyətlərini araşdırmağa davam etmişlər.

Bu gün İrəvan qalası əsasən tarix kitablarında, elmi tədqiqatlarda və arxiv materiallarında təsvir olunan bir memarlıq abidəsi kimi tanınır. Qalanın mövcudluğu regionun orta əsr şəhər memarlığı və müdafiə tikililəri haqqında mühüm məlumatlar verir.

Ümumilikdə İrəvan qalasının sonrakı taleyi göstərir ki, qədim müdafiə tikililəri zaman keçdikcə siyasi, hərbi və sosial-iqtisadi məsələlər şəhər həyatının dəyişməsi ilə öz əvvəlki funksiyalarını itirə bilər. Buna baxmayaraq, belə abidələr tarix və memarlıq baxımından böyük əhəmiyyət daşıyır və keçmiş dövrlərin şəhərsalma ənənələrini öyrənmək üçün dəyərli mənbə hesab olunur.

## Ədəbiyyat

1. Prezident Kitabxanası. (n.d.). *İrəvan qalası.* https://iravan.preslib.az/irevan_qalasi.html

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 67-74**
***Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 67-74**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Brilyant Abbasova**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0004-5459-4198
brilyantabbas@gmail.com
**Mehriban Həsənova**
Azərbaycan Dövlət Aqrar Universiteti
https://orcid.org/0009-0000-0950-1934
mehribanks@mail.ru

# Korporativ idarəetmə konsepsiyası və üstünlükləri

***Açar sözlər:*** *korporativ idarəetmə, konsepsiya, biznes, işgüzar etika, prinsiplər, idarəetmə mexanizmi*

***Keywords:*** *corporate governance, concept, business, business ethics, principles, governance mechanism*

Biznesdə olan ciddi rəqabət və sürətli inkişaf şəraitində uzunmüddətli inkişafın təməl daşlarından biri korporativ idarəetmə və dayanıqlı inkişaf modeli arasında balansın olmasıdır (Hörisch və Burritt, 2017). Korporativ idarəetmə biznesin həyata keçirilməsi standartlarından başlayaraq maldaşımanın idarə edilməsinə qədər və ya potensial maliyyə qəzalarının aradan qaldırılmasından irimiqyaslı makroiqtisadi dayanıqlığın təmin olunmasına qədər bir çox məsələnin ayrılmaz hissəsi olmuşdur. Korporativ idarəetmə dəyişir. O sadəcə dəbli meyl olmaqdan daha çox etibarlı sistemə çevrilir (Hashim, 2020).

Korporativ idarəetmə sözsüz ki, müasir şirkətlərin uğurlu olmasının və dayanıqlılığının ən vacib göstəricilərindən biridir. Lakin bu anlayış hətta təcrübəli biznesmenlər üçün sirr olaraq qalır. Çoxlarının bu anlayışı dəqiq müəyyən etməsi və onun

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 67-74
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 67-74
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

səmərəli mexanizminin qurulması üçün kömək lazımdır (Turekulova və b., 2022).

Korporativ idarəetməyə dəqiq tərif vermək çətindir, çünki hər bir şirkət onu öz konsepsiyasına uyğun anlatmağa çalışır. Bu onunla bağlıdır ki, korporativ idarəetmə təşkilatın siyasətini, idarəetmə proseslərini və rəhbər tutduğu prinsipləri müəyyən edir. Bir çox tədqiqatçılar isbat edir ki, korporativ idarəetmə korporasiyanın maliyyəçilərinə investisiyalarından gəlir əldə etməyə təminat verən strategiyasıdır. Beləliklə demək olar ki, korporativ idarəetmə əvvəlcədən müəyyən olunan rəhbər prinsiplərin siyahısını təqdim edən elə bir prosesdir ki, o menecerlərin hərəkətlərini investorların maraqlarına tərəf yönəldir (Srivastava və b., 2018). Deməli, korporativ idarəetməni tətbiq edən şirkətin qərarları həm cari, həm də potensial investorların maraqlarına müsbət təsir edəcəkdir. Worldcom, Enron və Adolphia kimi ABŞ şirkətlərinin çöküşü və cəmiyyətin bu kimi maliyyə qəzalarından məlumatlandırılması investorların korporativ idarəetmədən istifadə edən şirkətlər barədə maraqlanmasına səbəb oldu. Bu, korporativ idarəetmə mexanizminin şirkətlərin səmərəliliyində vacib rol oynamasını göstərir və onu müasir təşkilat menecmentinin ən vacib ünsürlərindən olduğunu bildirir (Alabdullah, 2016).

Şirkətin necə idarə edildiyini, nəzarət olunduğunu və marağı olan tərəflər qarşısında necə məsuliyyət daşıdığını korporativ idarəetmə müəyyən edir. Müasir zamanda bu milli və ya transmilli, artan, kiçik və ya iri biznesi olan, kommersiya və qeyri-kommersiya fəaliyyəti ilə məşğul olmasından asılı olmayaraq bütün şirkətlərdə belədir. Korporativ idarəetməni tətbiq edən şirkətlərin aşkarlığı, strateji uyğunluğu, etik davranışı və dayanıqlı artımı təmin edən etibarlı idarəetmə sistemləri var. Onlar şirkətin məqsədlərinə uyğun fəaliyyət

göstərməsinin təmin edilməsinə istiqamətlənən təcrübə və prosedurlarda fokuslaşırlar və eyni zamanda maraqlı tərəfi kompaniyaya qoyduqları investisiyaların özünü doğrultduğuna inandırırlar (Koutoupis və b., 2019).

Korporativ idarəetmə təşkilatın necə idarə olunmasını və bu idarəetmənin məqsədləri nədən ibarət olduğunu ifadə edir (Herrera-Echeverri və b., 2025). O bütün tərəflərin maraqlarının balansını təmin etmək üçün təşkilatın əlində qərar qəbul etmə və nəzarət mexanizminin olmasına təminat verir (Elshandidy və b., 2025).

Korporativ idarəetməyə hansı nöqteyi-nəzərdən baxılmasından asılı olaraq korporativ idarəetmə anlayışı müxtəlif mənalar ala bilər. İqtisadi nöqteyi-nəzərdən korporativ idarəetmə səhmdarların maraqlarının müdafiəsi kimi başa düşülür. Bir halda ki, korporativ idarəetmə konsepsiyası idarəetmə, etik, hüquqi, normativ, struktur və davranış aspektləri kimi qarşılıqlı hərəkətlərin müxtəlif sahələrini əhatə edir, tədqiqat zamanı araşdırdığımız müəlliflər korporativ idarəetmənin konsepsiyasına birbaşa tərif verməyərək onu anladırlar. Səhmdarın və ya digər maraqlı tərəfin qəbul etdiyi yanaşma şirkətdə və ya ölkədə olacaq korporativ idarəetmənin tipini və vasitəsilə uyğunluğu yoxlayacağı mexanizmləri müəyyən edir. Beləliklə, korporativ idarəetmə vəziyyət deyil, prosesdir. Eyni zamanda yadda saxlamaq lazımdır ki, korporativ idarəetmə konsepsiyasına işgüzar etika çapından baxılır.

İşgüzar etika təşkilat sahəsində istifadə olunan və insan amilinin keyfiyyətinə, insanların və onların burada iş çərçivəsində hərəkətlərinin mükəmməlliyinə aid edilən etikadır. Bu sistemdə biznesin aparılmasının dəyərlər dəstini nəzərdə tutan qabaqcıl üsullar etika kodekslərində öz əksini tapırlar (Hossain və b., 2024). Beləliklə, işgüzar etika kontekstində korporativ idarəetmə vasitəsilə şirkət idarə edilən bir sistem kimi

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 67-74
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 67-74
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

müəyyən edilir və mükəmməl idarəetmə kodekslərində öz əksini tapır. Həmin kodekslərin məqsədi səhmdarları menecerlərin hakimiyyətindən müdafiə etmək və agentlərarası problemlərdən qaçaraq birincilərin ikincilər üzərində lazımi nəzarətini təmin etməkdir.

Səhmdarlar və menecerlər arasında ümumi məqsədləri razılaşdırmaq üçün direktorlar şurası yaradılır. O, daxili mexanizmlərdə şirkətin öz rəhbərlərinə nəzarət etməsi üçün əsas elementdir. Direktorlar şurasının tərkibinə daxil olan müdirlər bu şuraların korporativ idarəetmə məsələləri barədə müəyyən səviyyədə məlumata malikdirlər. Direktorlar şurasının xüsusiyyətləri korporativ idarəetmənin mədəniyyət səviyyəsini müəyyən edir. Beləliklə də, direktorlar şurasının tərkibi, korporativ idarəetmənin mədəniyyət səviyyəsi yüksək olarsa, səhmdarlar və menecerlər arasında problemlər daha az olar. Müxtəlif ölkələrdə düzgün idarəetmə kodekslərinin qəbul edilməsi şirkətlərin korporativ idarə olunması mədəniyyətini artırır və sonda biznesdə daha yaxşı nəticələr əldə olunur. Nəticədə şirkətin son məqsədinə nail olunur.

Korporasiyanın müxtəlif iştirakçıları arasında hüquq və məsuliyyətin düzgün bölüşdürülməsi korporativ idarəetmənin strukturu ilə müəyyən olunur. Korporativ idarəetmə strukturu korporativ məsələlər barədə qərarların qəbulunun necə olmasını izah edir.

1999-cu ildə İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı (İƏİT) korporativ idarəetmənin prinsiplərini işləyib hazırladı. Bu prinsiplər siyasətçilər, sərmayəçilər və digər maraqlı tərəflər üçün sənəd şəklini aldı və ixtisaslaşmış rəhbərlik üçün gündəmi genişləndirməklə yanaşı qabaqcıl təcrübəni tətbiq etməkdə rəhbər oldu.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 67-74**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 67-74**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

*Bu prinsipləri aşağıdakı kimi ümumiləşdirmək olar:*

- Səhmdarların hüquqlarının müdafiəsi və azlıqlar və xaricilər də daxil olmaqla onların hamısı ilə ədalətli davranışı təmin etmək;
- Onlara hüquqlarının pozulmasının gətirdiyi ziyana görə kompensasiya almaq imkanını vermək;
- Maraqlı üçüncü tərəflərin hüquqlarının tanınması və onlar arasında sərvətin yaradılmasında, iş yerlərinin yaradılmasında və şirkətin dayanıqlı maliyyə vəziyyətinə nail olmaqda onlar arasında fəal əməkdaşlığın baş tutmasına kömək etmək;
- Şirkət barədə bütün vacib məsələlər barədə (maliyyə vəziyyəti, fəaliyyətin nəticələri, səhmdar kapitalı və idarəetmə) vaxtında və uyğun tərzdə məlumatlı olmaq;
- Şirkət üçün strateji rəhbərliyə, idarəetməyə, Direktorlar şurası tərəfindən səmərəli nəzarətə və onun səhmdarlar qarşısında məsuliyyətinə malik olmaq.

Birinci prinsipin mahiyyəti ondan ibarətdir ki, korporativ idarəetmənin strukturunda mərkəzi yeri şirkətdən kənardakı investorların maraqlarının müdafiəsi tutduqda onlar korporativ səhmlər üçün daha çox pul verməyə razı olacaqlar, şirkətləri yeni layihələrini maliyyələşdirmək üçün bu alətlərdən istifadə etməyə həvəsləndirəcəklər.

Səhmdarların müdafiə səviyyəsi yüksək olan ölkələrdə daha yüksək fond bazarlarının olması müşahidə edilir və birjalarda daha çox şirkətlər ticarət aparır. Beləliklə də, korporativ idarəetmə şirkəti məqsədlərini, onlara nail olmaq üçün mexanizmləri müəyyən etmək və bütün fəaliyyətinin monitorinqini aparmaq üçün vəsaitlə təmin edir. Şirkətin sahiblərinə isə şirkətin idarə olunmasında iştirak etmək hüququ verir. Hal-hazırda doxsana yaxın ölkədə onların səciyyəvi

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

xüsusiyyətlərinə uyğun tövsiyələr işlənib hazırlanmış və nəşr edilmişdir.

Hər bir ölkənin özünəməxsus emitentləri vardır: fond bazarları (emissiya barədə qərara təşəbbüs fond bazarının rəhbər orqanından irəli gəldikdə); hökumət (emitent qismində hökumət və ya onun ayrıca bir nazirliyi); direktorlar assosiasiyası, peşə assosiasiyaları, səhmdarlar assosiasiyası.

Lakin korporativ idarəetmə kodeksləri bütün ölkələrdə qanun şəklini almamışdır. Bu, ölkələrin hüquqi və institusional mühitindəki şəraitlə və investorların hüquqi müdafiəsinin olub-olmaması ilə şərtlənir.

Tədqiqatımız zamanı apardığımız iqtisadi ədəbiyyatın təhlili göstərdi ki, korporativ idarəetmə şirkətin səmərəliliyini və dəyərini artırır. İqtisadi ədəbiyyatda qeyd olunur ki, şirkərin səmərəliliyi və korporativ idarəetmə mexanizmi arasında qarşılıqlı əlaqə vardır və korporativ idarəetmə səmərəliliyə müsbət təsir edir. Beləliklə, korporativ idarəetmə biznes böhranlarının yumşaldılmasında faydalı alətdir və rəqabət üstünlüyü yaratdığı üçün şirkətin dəyərini maksimallaşdırmaq üçün istifadə oluna bilər.

Geniş spektrdən iqtisadi ədəbiyyatda korporativ idarəetmə anlamı müxtəlif tərzdə başa salınır. Lakin korporativ idarəetmə nəzəriyyələrinin məqsədi menecerin necə idarə etdiyini öyrənməkdən ibarət deyil, onların özlərinin necə idarə olunduğunu göstərməkdir. Zaman keçdikcə korporativ idarəetmə maliyyə modelindən daha mürəkkəb modellər tərəfə inkişaf etmişdir. Bu modellər bütün maraqlı tərəfləri əhatə edir: səhmdarlar, menecerlər, direktorlar şurası və s. Rəqabət inkişaf etdikcə korporativ idarəetmənin nöqteyi-nəzəri insan kapitalına tərəf dəyişir. Korporativ idarəetməyə yanaşmalar elə bir münasibətlər və şərtlər dəstinin təyin edilməsinə hədəflənir ki,

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

burada üstünlük səhmdarların əlavə dəyərin yaradılmasında iştirakına verilir.

Beləliklə, bu nəticəyə gəlirik ki, korporativ idarəetmə elə bir sistemdir ki, burada əməkdaşlar və menecerlər şirkətin ümumi məqsədinə nail olmaq üçün öz məqsədlərini və səmərəliliyin əsas göstəricilərini işləyib hazırlayırlar, KPI (Key Performance Indicators) nəticələrini hesablamağa və faktlar və məlumat əsasında qərar qəbul etməyə kömək edirlər. Nəticədə şirkətin fəaliyyəti daha səmərəli və müvəffəqiyyətli olur.

## Ədəbiyyat

1. Alabdullah, Y. T. (2016). Corporate governance from the perspective of the past and the present and the need to fill an international gap. *Risk Governance and Control: Financial Markets & Institutions, 6*(4).
2. Elshandidy, T., Eldash, H., & Allam, N. (2025). Do firm, governance, and country characteristics predict financial constraints across GCC stock markets? *Cogent Business & Management, 12*(1).
3. Herrera-Echeverri, H., Cueto, & others. (2025). Private equity activity and corporate governance's spillover. *Journal of Economics, Finance and Administrative Science*.
4. Hossain, M. Z., Hasan, L., & Hasan, M. H. (2024). Corporate governance as a global phenomenon: Evolution, theoretical foundations, and practical implications. *Journal of Financial Risk Management, 13*, 342–375.
5. Hörisch, J., Burritt, R. L., Christ, K. L., & Schaltegger, S. (2017). Legal systems, internationalization, and corporate sustainability. *Journal of Business in Society, 17*, 861–875.
6. Koutoupis, A., Pazarskis, & others. (2019). Financial crisis and corporate governance: The role of internal auditing in

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

the Greek context. *Corporate Board: Role, Duties and Composition, 15*(2), 45–55.
7. Rehman, A., & Hashim, F. (2020). Is corporate governance maturity measurable? *Journal of Business in Society, 17*, 861–875.
8. Srivastava, V., Das, N., & Pattanayak, J. K. (2018). Corporate governance: Mapping the change. *International Journal of Law and Management, 60*, 19–33.
9. Turekulova, D., Beisengaliyev, B., et al. (2022). *Journal of Environmental Management and Tourism, 13*(1), 211–222.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 75-78**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 75-78**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Şəhla Quliyeva**
Naxçıvan Dövlət Universiteti
https://orcid.org/0009-0006-3200-4024
quliyevasehla@ndu.edu.az

# Stresin idarə edilməsində texnologiyadan istifadənin əhəmiyyəti

***Açar sözlər:*** *stres, idarə, texnologiya, sadə alətlər, fizioloji proses*
***Keywords:*** *stress, management, technology, simple tools, physiological process*

Stres insan həyatının təbii bir hissəsidir, müəyyən səviyyədə stres motivasiyanı qorumağa kömək edir, lakin xroniki və ya həddindən artıq stress əhval-ruhiyyəyə, sağlamlığa, yuxuya, diqqətə və sosial münasibətlərə mənfi təsir göstərir. Beynəlxalq elmi araşdırmalarda stresin avtomatik izlənməsi üçün istifadə olunan texnologiyaların gündəlik həyatda necə istifadə edildiyi öyrənilir (Ding və b., 2021), stresin idarə edilməsində çalışanın özünü qeyd etmə texnologiyaları və geyilə bilən texnoloji cihazlardan istifadənin nəticələri təqdim edilir (Neupane və b., 2024) və süni intellektlə real zamanlı stres müdaxilələrinin effektivliyi araşdırılır (Neupane və b., 2025). Tədqiqatlarda əməkdaşlarda texnologiya istifadəsi ilə bağlı yaranan "texno stres" və psixoloji rifah arasındakı əlaqənin təhlilinə və hibrid texnologiyaların tətbiqi və bunun tələbələrdə texnostres rolunun təhlilinə də rast gəlmək olar (Wang və Yao, 2025; Mohd Daud, 2025). Bundan başqa, rəqəmsal texnologiyalar və real zamanlı iş psixologiyası kontekstində yaranan streslə başa çıxma strategiyalarından istifadə məsələləri (Jahangeer və b., 2024), stresi müəyyən etmək və izləmək üçün geyilən cihazlardan

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

istifadə texnologiyaları sistematik şəkildə nəzərdən keçirilir. Son zamanlar stresin ölçülməsi üçün EEG (beyin dalğalarını ölçən texnologiya) kimi texnologiyalarla geniş tədqiqatlar aparılır və onlara münasibət bildirilir (Attallah, 2025). Rəqəmsal texnologiya ilə bağlı rifah və stressin təhlili tələbələr arasında həm stress, həm psixoloji göstəricilər baxımından araşdırılır (Neagu və Vieriu, 2025).

Müasir həyat bir çox stres mənbələri ilə doludur, lakin stresi ağıllı yollarla idarə etmək, azaltmaq və izləmək üçün texnologiyanı da təmin edir. Duyğularınızı yalnız təxmin etmək əvəzinə, müasir texnologiya stresin fiziki göstəricilərini ölçə bilir. Geyilə bilən cihazlar əsas stress göstəricisi olan ürək ritminin dəyişkənliyi (HRV), stres altında yüksələn tərləmə, yuxu nümunələri və REM sikllləri, nəfəsalma sürəti kimi göstəriciləri izləyə bilir. Stresin azaldılmasında praktik vasitələr kimi dəyərləndirilən texnologiya mühüm rola malikdir. Stresin texnologiya vasitəsilə aşkarlanması və izlənməsi artıq vacib proseslərdən biri sayılır. Ona görə ki, ölçülməyən şeyi düzəltmək mümkün deyil. Əhval və stresi qiymətləndirən tətbiqlər günlük əhvalını qeyd edə bilər, qısa stres qiymətləndirmələrini cavablandıra bilər və stresi çoxaldanları izləyə bilər (məsələn, məktəb günləri, tapşırıq üçün son tarixlər). İzləmə vasitəsilə nümunələri tanımaq, yüksək stresli vəziyyətləri müəyyən etmək, zamanla irəliləyişi görmək mümkün olur. Biofeedback (orqanizmdə baş verən fizioloji prosesləri ölçüb ondan xəbərdar olmaq və idarə etmək texnikası) və rahatlama texnologiyaları ürək döyüntüsü arasındakı vaxt fərqini ölçür, nəfəs sürətini göstərir və istifadəçi bu göstəriciyə uyğun nəfəsini tənzimləyir. Bu, bədənin stres reaksiyasını birbaşa tənzimləməyə öyrədir. Geyilə bilən cihazlar və ağıllı geyimlər gərginliyi hiss edir, nəfəs fasilələri təklif edir və vibrasiya siqnalları ilə sakitləşdirir. Bu, kiçik fasilələrə

həvəsləndirərək zamanla ümumi gərginliyi azaldır. Effektiv stres idarəetməsi təsadüfi deyil, davamlı olmalıdır. Belə ki, vərdiş izləmə, vaxt idarəsi, xatırlatma sistemləri kimi tətbiqlər narahatlığı azaldan məşqlər yaratmağa kömək edir. Stres çox vaxt çox sayda bildiriş və tapşırıqla yüklənmədən yaranır. Bu baxımdan, diqqət dağıdan saytları bloklamaq, sosial media istifadə vaxtını məhdudlaşdırmaq faydalı texnologiya vərdişləri sayılır. Bunun üçün Fokus rejimi tətbiqləri ilə Screen Time (iOS) və Digital Wellbeing (Android) cihazlarda istifadəni izləmək və idarə etmək mümkündür.

Təcrübə və araşdırmalar göstərir ki, stresin idarə olunmasında texnologiya faydalıdır, amma bəzi məqamlar nəzərə alınmalıdır. Sadə alətlər əsl müalicənin yerini verə bilməz və həddindən artıq asılılıq yaradır. Məlumatın yüklənməsi, çox sayda izləmə stres haqqında əlavə narahatlıq əmələ gətirir. Texnologiya hər şeyin dərmanı deyil, lakin stresin ölçülməsi, ruh yüksəkliyi və dəstək yaratmaq üçün imkan verir. Biofeedback və meditasiya, yuxu dəstəyi, vərdiş sistemi, hüdud alətləri vasitəsi ilə streslə strukturlaşdırılmış şəkildə mübarizə aparmaq mümkündür.

## Ədəbiyyat

1. Attallah, O. (2025). *Cross-Context Stress Detection: Evaluating Machine ...*. MDPI Sensors, 2025. https://doi.org/10.3390/2673-2688/6/4/79
2. Ding, X., Wei, S., Gui, X., Gu, N., & Zhang, P. (2021). *Data Engagement Reconsidered: A Study of Automatic Stress Tracking Technology in Use*. (arXiv preprint). Jan 14 2021. https://arxiv.org/abs/2101.05450

3. Jahangeer, M., Raheem, M. A., & Naz, S. (2024). *Harnessing Digital Tools with Real-Time Feedback for Modern Coping Strategies….* Pakistan Social Sciences Review, 2024(8-IV). https://doi.org/10.35484/pssr.2024(8-IV)43
4. Mohd Daud, N. (2025). *From innovation to stress: analyzing hybrid technology adoption and its role in technostress among students*. International Journal of Educational Technology in Higher Education, Vol 22, Articl№ 31, May 23 2025. https://doi.org/10.1186/s41239-025-00529-x
5. Neagu, S. N. & Vieriu, A. M. (2025). *Digital and Psychological Well-Being….* Education Sciences, 15(9): 1192.. (MDPI). https://doi.org/10.3390/educsci15091192
6. Neupane, S., Dongre, P., Gracanin, D., & Kumar, S. (2025). *Wearable Meets LLM for Stress Management: A Duoethnographic Study….* (arXiv preprint). Feb 24 2025. https://arxiv.org/abs/2502.17650
7. Neupane, S., Saha, M., Ali, N., Hnat, T., Samiei, S. A., Nandugudi, A. N., Almeida, D. M., & Kumar, S. (2024). *Momentary Stressor Logging and Reflective Visualizations: Implications for Stress Management with Wearables*. (arXiv preprint). Jan 29 2024. https://arxiv.org/abs/2401.16307
8. Pinge, A. (2024). *Detection and monitoring of stress using wearables*. Frontiers in Computer Science. https://www.frontiersin.org/journals/computer-science/articles/10.3389/fcomp.2024.1478851/full
9. Wang, Q., & Yao, N. (2025). *Understanding the impact of technology usage at work on academics' psychological well-being: a perspective of technostress*. BMC Psychology, 13(1):130, Feb 17 2025. https://doi.org/10.1186/s40359-025-02461-1

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 79-83**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 79-83**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Firuzə Həsənova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0001-3264-6688
hsnova47@gmail.com

# "Tarixi Azərbaycan torpağı Qərbi Zəngəzur" kitabının tarixi-elmi təhlili

***Açar sözlər:*** *Zəngəzur bölgəsi, tarixi-coğrafi tədqiqat, toponimlərin etimologiyası, kameral və arxiv sənədləri, Azərbaycanın tarixi torpaqları*

***Keywords:*** *Zangezur region, historical-geographical research, etymology of toponyms, cameral and archival documents, historical lands of Azerbaijan*

Azərbaycan tarixşünaslığında milli yaddaşın, tarixi torpaqların və etno-siyasi proseslərin obyektiv şəkildə araşdırılması xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan professor İbrahim Bayramovun elmi yaradıcılığı Azərbaycan tarixinin mürəkkəb və uzun müddət təhrif olunmuş səhifələrinin araşdırılmasına mühüm töhfələr vermişdir. Müəllifin *Tarixi Azərbaycan Torpağı Qərbi Zəngəzur* adlı əsəri məhz bu istiqamətdə aparılan sistemli və ardıcıl elmi tədqiqatların davamı kimi diqqəti cəlb edir.

Kitabda Qərbi Zəngəzurun tarixi-coğrafi mövqeyi, inzibati-ərazi bölgüsü, etnik tərkibi və XX əsrin əvvəllərində baş vermiş siyasi proseslər elmi mənbələr və arxiv materialları əsasında araşdırılır. Əsərin əsas məqsədi Zəngəzurun Azərbaycan torpağı kimi tarixi reallıqlarını faktlara söykənərək ortaya qoymaq və bu bölgənin tarixi ilə bağlı mövcud elmi mübahisələrə aydınlıq gətirməkdir. Təqdim olunan araşdırma işinin məqsədi isə kitabın əsas məzmununu şərh etmək, onun tarixi-elmi əhəmiyyətini

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 79-83
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 79-83
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

göstərmək və müəllifin irəli sürdüyü əsas fikirləri sistemli şəkildə təqdim etməkdən ibarətdir.

Kitabda Zəngəzur bölgəsinin tarixi coğrafiyası geniş şəkildə araşdırılır. Müəllif göstərir ki, Zəngəzur Azərbaycanın Qubadlı, Laçın, Zəngilan rayonlarını, eləcə də hazırda Ermənistan Respublikası adlandırılan ərazidə yerləşən Qafan, Gorus, Sisyan və Meğri bölgələrini əhatə etmişdir. Qədim dövrlərdə bu ərazi "Sünik" adı ilə tanınmış və bu ad qədim Azərbaycan mənbələrində də öz əksini tapmışdır.

Zəngəzur tarix boyu Qafqaz Albaniyasının, sonrakı dövrlərdə isə Azərbaycan ərazisində mövcud olmuş müxtəlif dövlət və siyasi birliklərin tərkibində olmuşdur. Sacilər, Salarilər, Rəvvadilər, Azərbaycan Atabəyləri, Hülakülər, Cəlairilər, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri dövründə bu ərazi Azərbaycan siyasi-mədəni məkanının ayrılmaz hissəsi kimi fəaliyyət göstərmişdir. Xanlıqlar dövründə isə Zəngəzur Qarabağ xanlığının idarəçiliyinə daxil olmuşdur.

Müəllif inzibati bölgülərə xüsusi diqqət yetirərək qeyd edir ki, Zəngəzur qəzası XIX əsrdə Rusiya imperiyasının inzibati islahatları çərçivəsində Yelizavetpol (Gəncə) quberniyasının tərkibində fəaliyyət göstərmiş, Azərbaycan Xalq Cümhuriyyəti dövründə də Azərbaycanın inzibati vahidi kimi mövcud olmuşdur. Bu faktlar Zəngəzurun tarixi baxımdan Ermənistanla inzibati və siyasi bağlılığının olmadığını göstərir.

Kitabın mühüm bölmələrindən biri Qərbi Zəngəzurun XX əsrin əvvəllərində baş vermiş siyasi proseslər nəticəsində Ermənistana verilməsi məsələsinə həsr olunmuşdur. Müəllif bu prosesi Sovet Rusiyasının regionda apardığı məqsədyönlü siyasətin tərkib hissəsi kimi dəyərləndirir. 1920–1921-ci illərdə qəbul edilmiş qərarlar nəticəsində Zəngəzurun əhəmiyyətli bir hissəsi Azərbaycan xalqının iradəsi nəzərə alınmadan Ermənistan SSR-in tərkibinə daxil edilmişdir. Əsərdə konkret

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 79-83**
***Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 79-83**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

statistik rəqəmlər, inzibati bölgülər və arxiv materialları əsasında göstərilir ki, Zəngəzur qəzasının böyük hissəsi Azərbaycanın tərkibindən çıxarılmış, bununla da ölkənin ərazi bütövlüyünə ciddi zərbə vurulmuşdur. Müəllif bu qərarların yalnız regional deyil, həm də ümumtürk dünyası baxımından ağır nəticələrə səbəb olduğunu vurğulayır. Bu mövzu müasir Azərbaycan dövlətçilik düşüncəsi kontekstində də qiymətləndirilir. Azərbaycan Respublikasının siyasi rəhbərliyi tərəfindən Zəngəzur məsələsinə verilən qiymət əsərdə xatırladılır və bu problemin yalnız tarixi deyil, həm də siyasi-ideoloji əhəmiyyət daşıdığı qeyd olunur.

Kitabın elmi baxımdan maraqlı hissələrindən biri Zəngəzur toponiminin etimologiyasına həsr olunmuş bölmədir. Müəllif müxtəlif erməni və Azərbaycan müəlliflərinin yanaşmalarını müqayisəli şəkildə təhlil edərək göstərir ki, Zəngəzur adının mənşəyi Azərbaycan-türk etnik mühiti ilə sıx bağlıdır.

"Zəngi" komponenti qədim türk tayfalarının adı ilə əlaqələndirilir, "zur" komponentinin isə müxtəlif dillərdə fərqli mənaları müzakirə olunur. Müəllifin gəldiyi nəticə ondan ibarətdir ki, toponimin ümumi semantikası bu ərazinin tarixən Azərbaycan türklərinə məxsus olduğunu təsdiqləyir. Bu yanaşma toponimika sahəsində aparılan elmi tədqiqatlara uyğun olmaqla yanaşı, Zəngəzurun etnik tarixinin izahında da mühüm rol oynayır.

*Tarixi Azərbaycan Torpağı Qərbi Zəngəzur* əsəri yalnız tarixi faktların toplanması ilə kifayətlənmir, eyni zamanda bölgənin coğrafi mövqeyi və strateji əhəmiyyəti də dərindən təhlil edilir. Müəllif əsərin ilk bölmələrində Zəngəzurun qədim Azərbaycan dövlətləri dövründəki tarixi statusuna diqqət çəkir və göstərir ki, bu ərazi e.ə. IV əsrdən başlayaraq müxtəlif dövlətlərin, o cümlədən Qafqaz Albaniyası, Azərbaycan Atabəyləri, Cəlairilər və Teymurilər imperiyasının tərkibində

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

olmuşdur. Bu faktlar əsərdə istifadə olunan mənbələr vasitəsilə də dəqiqliklə təsdiqlənir. Kitabın əhəmiyyətli cəhətlərindən biri də Zəngəzurun inzibati bölgüsü və sosial-iqtisadi strukturu ilə bağlı geniş material təqdim etməsidir. Müəllif 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tarixi inkişafını, onun Gəncə quberniyasına daxil edilməsini, həmçinin XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti dövründəki statusunu sistemli şəkildə araşdırır. Burada xüsusilə demoqrafik məlumatlar əhəmiyyətlidir: kəndlərin etnik tərkibi, əhalinin sayı və sosial vəziyyəti, eləcə də sovet dövründə baş vermiş dəyişikliklər təhlil olunur. Bu yanaşma tədqiqatçıya həm tarix, həm də demoqrafiya sahəsində zəngin məlumatlar təqdim edir. Əsərdə toponimlərin etimologiyasına verilən xüsusi önəm də diqqət çəkir. Müəllif Zəngəzur, İncəvar, Keçəl təpə və s. kimi məkan adlarının mənşəyini elmi əsaslarla izah edir, müxtəlif nəzəriyyələri müqayisə edir və onların türk mənşəli olduğunu əsaslandırır. Bu, kitabın Azərbaycanşünaslıq baxımından əhəmiyyətini artırır, çünki Zəngəzurun tarixi və etno-mədəni mənzərəsi yalnız coğrafi və siyasi aspektlərdən deyil, həm də dil və mədəniyyət kontekstindən öyrənilir. Kitabın metodoloji yanaşması da yüksək qiymətə layiqdir. Professor İbrahim Bayramov istifadə etdiyi kameral və arxiv sənədlər, həmçinin mövcud ədəbi və elmi mənbələr əsasında analitik və sistemli təhlil aparır. Əsərdə faktların ardıcıllığı, tarixlər və məkan adlarının düzgün təsnifatı oxucuya kompleks baxış imkanı verir. Bu yanaşma tədqiqatın yalnız akademik ictimaiyyət üçün deyil, həm də gənc alimlər və tələbələr üçün praktik dəyərini artırır. Müəllifin diqqət yetirdiyi digər mühüm məsələ Zəngəzurun Ermənistanla indiki sərhəd məsələlərinin tarixi kontekstidir. Kitab göstərir ki, 1920-ci ildə Sovet Rusiyasının qərarları nəticəsində Azərbaycan xalqının iradəsi əleyhinə ərazilərin qoparılması baş vermiş və Zəngəzurun böyük bir hissəsi Ermənistan SSR-ə

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

birləşdirilmişdir. Bu tarixi həqiqətin elmi əsaslarla təqdim olunması əsərin tarixi obyektivliyi baxımından əhəmiyyətini daha da artırır. Əsərin elmi cəhətdən üstünlüklərindən biri də müəllifin Zəngəzur probleminin sistemli şəkildə araşdırılmasıdır. Burada tarixi, coğrafi, etno-demoqrafik və siyasi aspektlər bir-biri ilə əlaqələndirilərək təqdim olunur. Bu isə kitabı yalnız məlumat mənbəyi olmaqla kifayətlənməyib, həm də tədqiqatçıya analitik düşüncə qurmaq üçün zəngin material verir. Nəticə etibarı ilə *Tarixi Azərbaycan Torpağı Qərbi Zəngəzur* əsəri həm elmi ictimaiyyət, həm də gənc tədqiqatçılar üçün etibarlı istinad mənbəyidir. Kitab Zəngəzurun tarixi-coğrafi və etno-siyasi statusunu dərindən araşdırmaqla yanaşı, Azərbaycanın tarixi torpaqlarının yaddaşını qorumağa xidmət edir və gələcək nəsillərə ötürülməsi baxımından da böyük əhəmiyyət daşıyır. Əsərin hər bir bölməsi sistemli və elmi metodologiyaya uyğun olaraq tərtib edilmişdir ki, bu da kitabın akademik dəyərini artırır.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 84-86**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 84-86**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Nicat Mustafayev**
Azərbaycan İdman Akademiyası
https://orcid.org/0009-0009-0218-306X
mnicat9696@gmail.com

# Fiziki hərəkətlərin təlimində müasir pedaqoji yanaşmalar

***Açar sözlər:*** *fiziki hərəkətlər, təlim metodları, müasir pedaqoji yanaşmalar, motor bacarıqlar, fərdiləşdirilmiş təlim*
***Keywords:*** *physical movements, training methods, modern pedagogical approaches, motor skills, individualized training*

Müasir təhsil sistemində fiziki hərəkətlərin təlimi yalnız bədən inkişafını təmin edən fəaliyyət kimi qəbul edilmir, eyni zamanda tələbələrin koqnitiv, emosional və sosial səriştələrinin inkişafına xidmət edən kompleks pedaqoji proses kimi qiymətləndirilir. Fiziki hərəkətlərin öyrədilməsi tələbələrin motor bacarıqlarının, koordinasiya və balans qabiliyyətlərinin formalaşmasına, sağlam həyat tərzinin mənimsənilməsinə və psixofiziki dayanıqlığın yüksəldilməsinə töhfə verir. Müasir pedaqoji yanaşmalar isə bu prosesi yalnız təkrarlamalı məşqlərdən ibarət kimi deyil, sistemli, fərdiləşdirilmiş və texnologiyalarla dəstəklənmiş metodlar vasitəsilə həyata keçirir.

Fiziki hərəkətlərin təlimində pedaqoji prosesin effektivliyi ilk növbədə fərdin inkişaf səviyyəsinə uyğunlaşdırılmış proqramların hazırlanmasından asılıdır. Hər bir tələbənin motor qabiliyyətləri, fizioloji xüsusiyyətləri və psixoloji hazırlığı nəzərə alınaraq təlim planları qurulur. Bu yanaşma tələbənin uğur qazanma motivasiyasını artırır və fiziki hərəkətlərin mənimsənilməsini optimallaşdırır. Müasir pedaqoji yanaşmalar həmçinin fərdi və qrup təlim strategiyalarının birləşdirilməsini

vacib hesab edir. Qrup təlimləri sosial bacarıqların inkişafına, qarşılıqlı dəstəyin formalaşmasına və komanda işinə yönəlmiş kompetensiyaların güclənməsinə xidmət edir.

Texnologiyaların inteqrasiyası müasir fiziki təlim prosesinin əhəmiyyətli elementinə çevrilmişdir. Video-analiz proqramları, hərəkət sensorları və virtual simulyatorlar tələbənin texnika və hərəkət keyfiyyətini obyektiv qiymətləndirməyə imkan verir. Bu, müəllimə dərs prosesini fərdiləşdirməyə və tələbənin zəif tərəflərinə fokuslanmağa şərait yaradır. Eyni zamanda, rəqəmsal vasitələr tələbənin özünüqiymətləndirməsini və irəliləyişin vizual monitorinqini təmin edir ki, bu da motivasiyanın yüksəlməsinə və məşq prosesinə daha fəal iştirakına səbəb olur.

Müasir pedaqoji yanaşmalar həmçinin fiziki hərəkətlərin təlimində inteqrativ modelin tətbiqinə önəm verir. Bu model çərçivəsində idman, rəqs, hərbi hazırlıq və oyun elementləri birləşdirilərək tələbələrin motor, koqnitiv və emosional bacarıqlarının paralel inkişafı təmin edilir. Hərəkətlərin müxtəlifliyi və situativlik tələbələrin yaradıcılıq qabiliyyətlərini artırır, stres vəziyyətlərində çevik qərarvermə bacarığını inkişaf etdirir. Beləliklə, təlim yalnız mexaniki məşqlərdən ibarət olmur, həm də şəxsi bacarıqların kompleks şəkildə formalaşmasına xidmət edən sistemli prosesə çevrilir.

Psixoloji komponent müasir fiziki hərəkətlərin təlimində xüsusi əhəmiyyət kəsb edir. Fərdlərin özünəinamını artıran, motivasiyasını yüksəldən və diqqətini cəmləməyə yardım edən təlim metodları tətbiq edilir. Hərəkətlərin mərhələli şəkildə təqdim edilməsi, uğur və nailiyyətlərin dəyərləndirilməsi, tələbənin inkişaf tempinə uyğun yüklənmənin tənzimlənməsi psixoloji sabitliyi gücləndirir. Bu yanaşma həmçinin tələbələrin intrapersonal və interpersonal bacarıqlarını inkişaf etdirir, çünki qrup fəaliyyəti zamanı əməkdaşlıq, ünsiyyət və sosial dəstək zəruri olur.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 84-86**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 84-86**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Fiziki hərəkətlərin təlimində innovativ pedaqoji metodların tətbiqi, həmçinin tədqiqat nəticələrinin dərslərə inteqrasiyası ilə reallaşır. Müasir elmi araşdırmalar motor bacarıqların inkişafında optimal yüklənmə həddini, hərəkət təkrarlamasının effektivliyini və bərpa proseslərinin vacibliyini müəyyən etmişdir. Bu nəticələr dərs planlarının strukturlaşdırılmasında və təlim metodlarının seçilməsində əsas götürülür. Eyni zamanda, interaktiv məşqlər, problem əsaslı tapşırıqlar və oyun metodları tələbələrin iştirakını aktivləşdirir və öyrənmə nəticələrinin uzunmüddətli yadda saxlanmasını təmin edir.

Müasir pedaqoji yanaşmaların əsas məqsədi fiziki hərəkətlərin təlimini yalnız bədən inkişafı ilə məhdudlaşdırmamaq, həm də tələbələrin hərtərəfli intellektual, emosional və sosial inkişafına xidmət edən kompleks proses kimi qurmaqdır. Bu yanaşma tələbələrin motor bacarıqlarının inkişafını, psixoloji dayanıqlığını, yaradıcılıq qabiliyyətini və sosial səriştələrini eyni zamanda təmin edir. Nəticədə, fiziki hərəkətlərin təlimi yalnız idman və sağlamlıq aspektindən deyil, həm də pedaqoji, psixoloji və sosial baxımdan tələbələrin bütün potensialının inkişafına yönəlmiş strateji təlim vasitəsinə çevrilir.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 87-91**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 87-91**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Nigar Gasimova**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0000-0002-2458-2469
gasimovanigar90@gmail.com

# Content and Language Integrated Learning Essentials

***Keywords:*** *content and language integrated learning, meaningful context, vocabulary development, basic interpersonal communication skills, cognitive academic language proficiency, critical thinking skills*
***Açar sözlər:*** *məzmun və dilin inteqrə olunmuş tədrisi, mənalı kontekst, söz ehtiyatının inkişafı, əsas şəxslərarası ünsiyyət bacarıqları, akademik idraki dil bacarığı, tənqidi düşünmə bacarıqları*

Content and language integrated learning (CLIL) is an approach to education in which a subject and a language are taught simultaneously. It is a methodology that promotes bilingual education while blending language and content. This method is typically used to teach English to adults. CLIL has a broad definition because it is an approach customized to the student's needs; for example, teaching science to a group of children when English is their second language. It is important to note that when a teacher focuses on content and language integrated learning, they are only teaching new material. CLIL is not a way to simplify content or to go over topics the students already know; rather, it is a way to introduce new subjects and a new language at the same time. Success in CLIL is when a student successfully learns new language skills and has a comprehensive understanding of the topic at hand.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

The technique of learning a language and another topic concurrently has been used since the beginning of time. Any time someone tries to learn how to cook, paint, engineer and build something in a language other than their own, they are practicing CLIL. This method has been used across cultures when merging ideas between people and places, long before the invention of mass-produced written language with the printing press. The term "content and language integrated learning" was developed in the middle of 1990s by university professors David Marsh and Do Coyle in Finland. The idea of CLIL came during a time when schools and governments were realizing the benefits that came with understanding more than one language. At first, this educational movement was particularly strong in Europe, but it has since gained popularity worldwide in response to the rapid globalization taking place over the past 20 years.

There are a few underlying principles to how and why content and language integrated learning is successful in students of all ages. 1. By this method language is learned in context. It can be hard for language learners to truly grasp a new language if they don't have any context for what they are studying. After all, lists of vocabulary words cannot be impactful if the student doesn't have a place or situation to utilize them in. When a student learns with CLIL, every new word and grammatical concept is immediately relevant and useful. When the subject matter and lesson become tangible for the student, each word and phrase they learn becomes meaningful. Instead of presenting a vocabulary list to a student and they have to imagine a situation where they can utilize what they learn, a CLIL lesson gives a framework for immediate use of the language. 2. Language is learned authentically and naturally. CLIL ensures that the student can hear and grasp the language as it is actually spoken and written. It can be hard for students to

grasp a new language without relating it to a real-life experience. CLIL allows students to hear how the language is used in a native setting. This method mimics how we learned our language when we were kids. With CLIL, there are no formal grammar lessons; rather the teacher will just use the new language in action as a force of communication. You're not dedicating a slot of time purely to learning a language, such as a traditional English class. Instead, the focus is on the subject matter at hand as it is being taught in the target language. 3. Language is tied to motivation. Typically, students who learn via CLIL are intrinsically motivated because they enjoy the topic at hand. And because the subject matter and new language are taught hand in hand, a student is more willing to focus and be inspired to learn. CLIL works hard to fuel a more in-depth type of learning, as the student is driven to succeed.

*There are so many benefits of CLIL for learners, no matter the age of the student or subject matter taught:*

1. A second language increases memory. Learning a second language has proven to improve one's memory. A study completed by Dr. Thomas Bak, a professor at the Edinburgh School of Philosophy, Psychology and Language, further proves this theory. He found that bilingual students performed better on attention tests and had a stronger memory compared to those who only spoke one language. Dr. Bak's study spanned decades of research; he started his study back in 1947 by testing 835 11-year-old participants on a multitude of cognitive tests. The same group was retested in 2008 and 2010 when the participants were in their 70s. The results showed that the bilingual students performed better than expected, with the strongest effects being seen in general intelligence and reading. It is believed that a person's memory is improved because learning a second

language works to develop different areas of the mind, while strengthening the brain's ability to focus.

2. CLIL develops critical thinking skills. When a student learns a subject and a language at the same time, they are forced to develop critical thinking skills. This is because learning a language exercises our brain as our brain works out meaning.

3. CLIL increases motivation. It only makes sense that when a student is learning about a subject they are interested in, they're going to be more inclined to pay attention to the lesson. That means they will dedicate themselves to learning the language as it is being taught to them because they genuinely want to learn about the subject.

4. CLIL allows students to become better problem solvers. With a CLIL lesson, a student is constantly problem-solving. They're realizing which words they understand, which phrases they don't and the value of circumlocution while making connections between what is going on in their brain and what is right in front of them.

5. Learning a second language strengthens the mind. Learning a second language will help the mind stay sharper, for longer. For monolingual adults, the average age of the first signs of dementia is 71.5 years old. Comparatively, those first signs happen after 75.5 years for those who speak two or more languages.

6. CLIL helps improve academic skills. Language skills are often divided into two different groups: BICS (basic interpersonal communication skills) and CALP (cognitive academic language proficiency). BICS is the easiest to develop and includes personal communications. CALP on the other hand can take 5–7 years to fully form. In order to develop these skills, students will need to digest, evaluate and synthesize information in a foreign language. Academic content and newspapers can

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

help students learn English or other foreign languages by helping them dissect and interpret information in the target language.

Getting started with content and language integrated learning isn't that difficult. Here are two steps that can lead teachers down the right path. Teachers can create many educational resources that align with the CLIL approach. This can be anything from interactive puzzles and games to hands-on activities.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 92-95**
***Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 92-95**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Toğrul Bədurayev**
Azərbaycan İdman Akademiyası
magistrant
https://orcid.org/0009-0009-3166-4284
bdurayevtogrul@gmail.com

# Yeniyetmələrin onurğa sağlamlığının qorunmasında interdisiplinar yanaşma

***Açar sözlər:*** *onurğa sağlamlığı, yeniyetmələr, interdisiplinar yanaşma, profilaktik müayinə, postural pozuntular*
***Keywords:*** *spinal health, adolescents, interdisciplinary approach, preventive examination, postural disorders*

Yeniyetmələrin onurğa sağlamlığının qorunması müasir ictimai səhiyyə və təhsil sisteminin prioritet istiqamətlərindən biri kimi aktuallıq kəsb edir. Yeniyetməlik dövrü orqanizmin intensiv bioloji, morfoloji və psixososial dəyişikliklərlə xarakterizə olunduğu mərhələdir. Bu dövrdə dayaq-hərəkət sistemi, xüsusilə onurğa sütunu sürətli inkişaf və formalaşma prosesi keçirir. Skelet sisteminin tam ossifikasiyası başa çatmadığından və əzələ-korset mexanizmi hələ tam möhkəmlənmədiyindən, müxtəlif daxili və xarici amillərin təsiri nəticəsində postural pozuntular, skolioz, kifoz, lordoz və digər deformasiya halları yarana bilər. Statistik müşahidələr göstərir ki, məktəb yaşlı uşaqlar və yeniyetmələr arasında onurğa əyriliklərinin yayılma tezliyi artma tendensiyası nümayiş etdirir. Bu isə problemin yalnız tibbi deyil, eyni zamanda sosial, pedaqoji və psixoloji aspektlərinin də nəzərə alınmasını zəruri edir. Məhz bu kontekstdə yeniyetmələrin onurğa sağlamlığının qorunmasında interdisiplinar yanaşmanın tətbiqi elmi və praktik baxımdan xüsusi əhəmiyyət kəsb edir.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

İnterdisiplinar yanaşma müxtəlif sahələrin – tibb, pedaqogika, psixologiya, fizioterapiya, idman elmləri, ergonomika və sosial iş sahələrinin qarşılıqlı əməkdaşlığı əsasında problemin kompleks həllini nəzərdə tutur. Onurğa sağlamlığı yalnız ortopedik müayinə və müalicə tədbirləri ilə məhdudlaşmır; bu proses sağlam həyat tərzinin formalaşdırılması, düzgün fiziki aktivliyin təşkili, məktəb mühitinin ergonomik optimallaşdırılması və valideyn maarifləndirilməsi kimi çoxşaxəli tədbirləri əhatə edir. Belə yanaşma profilaktikanın effektivliyini artırır, erkən diaqnostikanı təmin edir və mümkün ağırlaşmaların qarşısının alınmasına şərait yaradır.

Pedaqoji komponent interdisiplinar yanaşmanın əsas sütunlarından biridir. Müəllimlər və xüsusilə fiziki tərbiyə müəllimləri yeniyetmələrin düzgün qamət vərdişlərinin formalaşdırılmasında mühüm rol oynayırlar. Dərs prosesində şagirdlərin oturuş vəziyyətinə nəzarət, fasilələrdə aktiv hərəkətlərin təşviqi və fiziki tərbiyə dərslərində onurğa əzələlərini möhkəmləndirən məşqlərin sistemli tətbiqi müsbət nəticələr verir. Bundan əlavə, sağlamlıq təhsili çərçivəsində şagirdlərə onurğa sağlamlığının əhəmiyyəti barədə məlumatların verilməsi onların öz sağlamlıqlarına məsuliyyətli yanaşmasını formalaşdırır. Pedaqoji maarifləndirmə preventiv tədbirlərin davamlılığını təmin edən mühüm amildir.

Psixoloji aspekt də nəzərdən qaçırılmamalıdır. Yeniyetməlik dövründə bədən obrazı və özünüdərk prosesi intensiv inkişaf edir. Onurğa deformasiyaları bəzi hallarda estetik narahatlıq, özünə inamsızlıq və sosial adaptasiya çətinlikləri yarada bilər. Bu baxımdan məktəb psixoloqlarının prosesə cəlb olunması vacibdir. Psixoloji dəstək yeniyetmələrin reabilitasiya prosesinə motivasiyasını artırır və müalicə tədbirlərinə riayət olunmasını

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 92-95
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 92-95
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

stimullaşdırır. Beləliklə, interdisiplinar model yalnız fiziki deyil, həm də psixososial sağlamlığın qorunmasına yönəlir.

Erqonomik yanaşma məktəb mühitinin fiziki şəraitinin optimallaşdırılmasını nəzərdə tutur. Sinif otaqlarında parta və stulların antropometrik göstəricilərə uyğun seçilməsi, işıqlandırmanın düzgün təşkili və tədris prosesində texniki vasitələrdən istifadənin normativ əsaslara uyğunlaşdırılması onurğa sağlamlığının qorunmasına müsbət təsir göstərir. Bundan əlavə, məktəb çantalarının çəkisinin normativlərə uyğun olması və iki çiyin üzərində daşınmasının təşviqi vacibdir. Erqonomik tədbirlər interdisiplinar əməkdaşlıq çərçivəsində mühəndislik, səhiyyə və təhsil sahələrinin birgə fəaliyyəti ilə həyata keçirilməlidir.

Fiziki aktivliyin təşkili interdisiplinar yanaşmanın praktik müstəvidə ən effektiv komponentlərindən biridir. Müntəzəm idman məşğələləri, xüsusilə üzgüçülük, gimnastika və postural məşqlər onurğa ətrafı əzələlərin güclənməsinə və elastikliyinin artmasına şərait yaradır. Elmi tədqiqatlar göstərir ki, sistemli fiziki fəaliyyət skoliozun proqressiyasını ləngidə və bəzi hallarda funksional pozuntuların aradan qalxmasına səbəb ola bilər. Buna görə də məktəblərdə sağlamlıqyönümlü fiziki tərbiyə proqramlarının tətbiqi strateji əhəmiyyət daşıyır.

Valideynlərin rolu da interdisiplinar modelin mühüm elementidir. Ev mühitində uşağın düzgün oturma və yatma şəraitinin təmin olunması, fiziki aktivliyə təşviqi və tibbi tövsiyələrə əməl edilməsi ailə-məktəb əməkdaşlığının vacib istiqamətlərindəndir. Maarifləndirici seminarlar və valideyn iclasları vasitəsilə onurğa sağlamlığı ilə bağlı məlumatların yayılması preventiv tədbirlərin effektivliyini artırır. Beləliklə, sosial mühitin bütün subyektlərinin prosesə cəlb edilməsi davamlı nəticələrin əldə olunmasına imkan verir.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 92-95**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 92-95**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Müasir dövrdə rəqəmsal texnologiyaların tətbiqi interdisiplinar yanaşmanı daha da gücləndirə bilər. Rəqəmsal posturoqrafiya, 3D skan sistemləri və mobil tətbiqlər vasitəsilə qamət monitorinqinin aparılması erkən diaqnostikanı asanlaşdırır və fərdiləşdirilmiş reabilitasiya proqramlarının hazırlanmasına şərait yaradır. Eyni zamanda, məlumat bazalarının yaradılması epidemioloji təhlillərin aparılmasına və risk qruplarının müəyyənləşdirilməsinə imkan verir. Bu isə qərarvermə prosesində elmi əsaslandırılmış strategiyaların formalaşdırılmasına xidmət edir.

Nəticə etibarilə, yeniyetmələrin onurğa sağlamlığının qorunması kompleks və çoxsəviyyəli yanaşma tələb edən bir prosesdir. Problemin yalnız tibbi müstəvidə həlli mümkün deyil; pedaqoji, psixoloji, erqonomik və sosial komponentlərin inteqrasiyası zəruridir. İnterdisiplinar əməkdaşlıq erkən diaqnostika, effektiv profilaktika və davamlı reabilitasiya tədbirlərinin həyata keçirilməsinə şərait yaradır. Bu modelin tətbiqi yeniyetmələrin fiziki inkişafının harmonikliyini təmin edir, gələcəkdə xroniki dayaq-hərəkət sistemi xəstəliklərinin riskini azaldır və cəmiyyətin ümumi sağlamlıq göstəricilərinin yaxşılaşmasına töhfə verir. Beləliklə, yeniyetmələrin onurğa sağlamlığının qorunması sahəsində interdisiplinar yanaşma yalnız elmi cəhətdən əsaslandırılmış deyil, həm də sosial-iqtisadi baxımdan məqsədəuyğun strateji istiqamət kimi qiymətləndirilməlidir.

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 96-101
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 96-101
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Nərmin Məmmədova**
Bakı Mühəndislik Universiteti
magistrant
https://orcid.org/0009-0006-4881-9885
nmemmedova28@std.beu.edu.az

# Biznesin informasiya təhlükəsizliyinin təmin edilməsində rəqəmsal texnologiyanın tətbiqi imkanları

***Açar sözlər:*** *biznes, rəqəmsal, kibertəhlükəsizlik, blockchain, şifrələmə, data*
***Keywords:*** *business, digital, cybersecurity, blockchain, encryption, data*

Biznesin informasiya təhlükəsizliyi müasir dövrün ən əhəmiyyətli məsələlərindən biri halına gəlmişdir. Son illərdə sürətlə inkişaf edən rəqəmsal texnologiyalar təşkilatların iş fəaliyyətlərini daha sürətli və səmərəli həyata keçirmələrinə imkan tanımışdır. Bununla yanaşı, bu texnologiyaların geniş istifadəsi məlumatların və informasiya sistemlərinin təhlükəsizliyinə dair ciddi riskləri də ortaya çıxarmışdır. Hər bir təşkilat özünün daxili və xarici fəaliyyətlərində istifadə etdiyi məlumatları qorumaq üçün müxtəlif təhlükəsizlik tədbirləri almalıdır. İnformasiya təhlükəsizliyi bizneslərin əsas dayanaqları olan məlumatların icazəsiz istifadəsinin, dəyişdirilməsinin, məhv edilməsinin və oğurlanmasının qarşısını almağa yönəlmiş bir sıra texniki, hüquqi və inzibati tədbirləri əhatə edir (Nowicka və b., 2024, s. 471).

Rəqəmsal texnologiyaların tətbiqi bu sahədə yeni imkanlar yaratmış və bizneslərin informasiya təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynamışdır. İnternetin geniş yayılması,

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

sosial şəbəkələrin və elektron ticarətin sürətlə inkişafı ilə birlikdə informasiya texnologiyaları və kibertəhlükəsizlik sahələri arasında əlaqələr daha da güclənmişdir. Bu səbəbdən informasiya təhlükəsizliyi yalnız IT mütəxəssislərinin və kibertəhlükəsizlik mütəxəssislərinin məsuliyyəti deyil, həm də bütün təşkilatların üzləşdiyi, hərtərəfli yanaşılmalı bir məsələdir. İnformasiya təhlükəsizliyinin qorunması şirkətlərin nüfuzunun və müştərilərinin məlumatlarının qorunması baxımından həyati əhəmiyyət daşıyır.

Rəqəmsal texnologiyaların biznesin informasiya təhlükəsizliyinə təsiri çoxşaxəlidir. Bu texnologiyalar arasında bulud hesablama, məlumatların şifrələnməsi, blokçeyn texnologiyaları, süni intellekt (AI), avtomatlaşdırılmış təhlükəsizlik sistemləri və şəbəkə monitorinqi kimi innovativ həllər xüsusilə önə çıxır. Bulud texnologiyalarının tətbiqi müəssisələrə məlumatlarını daha çevik şəkildə saxlamağa və idarə etməyə imkan verir, lakin eyni zamanda məlumatların mərkəzləşdirilmiş bir yerdə saxlanması təhlükəsizlik risklərini artırır. Blokçeyn texnologiyası isə məlumatların dəyişdirilə bilməz şəkildə saxlanması və bu məlumatların manipulyasiya edilməsi risklərinin minimuma endirilməsi baxımından böyük potensiala malikdir. Süni intellektin tətbiqi isə kibertəhlükəsizlik sahəsində avtomatik mühafizə tədbirlərinin görülməsi, real vaxtda təhlil və təhlükə aşkarlanmasında mühüm rol oynayır (Azərbaycan Respublikası..., 2019a, s. 35).

Eyni zamanda rəqəmsal təhlükəsizlik tədbirlərinin uğurla tətbiq edilməsi üçün təşkilatların həm daxili siyasətləri, həm də beynəlxalq təhlükəsizlik standartlarına riayət etmələri zəruridir. ISO 27001, GDPR (Ümumi Məlumatların Qorunması Qaydaları) kimi beynəlxalq təhlükəsizlik standartları bizneslərin informasiya təhlükəsizliyi sahəsində əməl etməli olduğu əhəmiyyətli prinsipləri müəyyən edir. Bu qaydalar məlumatların

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

toplanması, saxlanması və paylaşılması proseslərində istifadəçilərin hüquqlarını qorumağa və məlumatların düzgün idarə edilməsini təmin etməyə yönəlmişdir.

Bu araşdırmanın əsas məqsədi rəqəmsal texnologiyaların biznesin informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsindəki tətbiq imkanlarını təhlil etməkdir. Araşdırmada rəqəmsal texnologiyaların müxtəlif aspektlərindən istifadə edərək təşkilatların təhlükəsizliyini necə artırmalarına dair nəzəri və praktik yanaşmalar təqdim ediləcəkdir. Beləliklə, məlumatların qorunması və təhlükəsizliyi sahəsində rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı mövcud təcrübələr və gələcək istiqamətlər müzakirə ediləcəkdir (Azərbaycan Respublikası..., 2019b, s. 28).

Rəqəmsal texnologiyaların tətbiqi bizneslərə yalnız əməliyyat effektivliyini artırmaqla kifayətlənmir, eyni zamanda bu texnologiyalar biznesin informasiya təhlükəsizliyinə yeni risklər və çağırışlar gətirir. Belə ki, rəqəmsal transformasiya prosesində təşkilatlar böyük həcmlərdə məlumat toplayır, emal edir və saxlayır ki, bu da məlumatların kənar şəxslər tərəfindən ələ keçirilməsi, sızıntılar və kiberhücumlar kimi təhlükələrə məruz qalma riskini artırır. Müasir dövrdə informasiya aktivləri biznes üçün ən dəyərli resurslardan biri sayılır və bu aktivlərin təhlükəsizliyi təmin edilmədikdə şirkətlərin nüfuzu, maliyyə göstəriciləri və hüquqi mövqeyi ciddi zərər görə bilər. Müəssisələr rəqəmsallaşma prosesini həyata keçirərkən kibertəhlükələrə qarşı dayanıqlı strategiyalar hazırlamalı və təhlükəsizlik tədbirlərini sistemləşdirməlidirlər (Hacırəhimova, 2016, s. 56).

Rəqəmsal texnologiyalar biznesdə informasiya təhlükəsizliyinin təmin olunması üçün müxtəlif imkanlar təqdim edir. Məsələn, bulud hesablama texnologiyaları məlumatların çevik şəkildə saxlanması və idarə edilməsinə şərait yaradır, lakin

eyni zamanda bulud mühitindəki məlumatların üçüncü tərəf təminatçılar tərəfindən idarə olunması əlavə təhlükəsizlik tələbləri yaradır. Bu səbəbdən təşkilatlar bulud təhlükəsizliyi, identifikasiya və giriş nəzarəti kimi sahələrdə müasir həllər tətbiq etməlidirlər.

Eyni zamanda süni intellekt (AI), maşın öyrənməsi və böyük məlumatların təhlili kimi innovativ rəqəmsal texnologiyalar kibertəhlükələrə qarşı daha yüksək səviyyədə qorunma təmin edə bilər. AI əsaslı sistemlər real vaxtda anomaliyaları aşkar edə, şəbəkə trafiki üzərində təhlillər edə və potensial hücumları əvvəlcədən müəyyən edə bilir. Bu isə biznesin risk idarəetmə strategiyalarını daha çevik və səmərəli etməklə yanaşı təhlükəsizlik idarəetməsini optimallaşdırır (Ağayeva, 2025, s. 330).

Bununla yanaşı, rəqəmsal texnologiyaların tətbiqi biznes informasiya təhlükəsizliyi sahəsində müəyyən çətinlikləri də ortaya qoyur. Məsələn, rəqəmsal transformasiya prosesində maliyyə məhdudiyyətləri, təhlükəsizlik təhdidlərinin çoxluğu, peşəkar kadr çatışmazlığı və dinamik təhlükəsizlik idarəetmə tələbləri kimi çətinliklər müşahidə olunur. Bu hallar təşkilatların rəqəmsal yenilikləri təhlükəsiz şəkildə tətbiq etməsini çətinləşdirə bilər.

Nəticə etibarilə, rəqəmsal texnologiyaların biznesin informasiya təhlükəsizliyində tətbiqi həm fürsətlər, həm də çağırışlarla müşayiət olunur. Müasir dövrdə rəqəmsal texnologiyalar vasitəsilə bizneslər öz əməliyyatlarını genişləndirmək, informasiya aktivlərini qorumaq və kibertəhlükələrə qarşı qabaqlayıcı tədbirlər görmək imkanlarına malikdirlər. Bununla belə, təşkilatlar həm texniki, həm təşkilati, həm də hüquqi aspektlərdə kompleks yanaşma tətbiq edərək rəqəmsal təhlükəsizlik strategiyalarını inkişaf etdirməlidirlər (SCIS, 2021, s. 40).

Biznesin informasiya təhlükəsizliyi müasir dövrdə hər bir təşkilat üçün həyati əhəmiyyət kəsb edən bir məsələdir. Rəqəmsal texnologiyaların sürətlə inkişafı və geniş yayılması ilə məlumatların qorunması və təhlükəsizliyi məsələsi daha da mürəkkəbləşmişdir. İnformasiya texnologiyaları və kibertəhlükəsizlik sahələrindəki yeniliklər bizneslərə daha çevik və effektiv fəaliyyət göstərmək üçün imkanlar yaratsa da, eyni zamanda müxtəlif təhlükəsizlik risklərini də üzə çıxarmışdır. Bu baxımdan rəqəmsal texnologiyaların tətbiqi informasiya təhlükəsizliyinin təmin edilməsi üçün yeni imkanlar təqdim edir.

Bulud texnologiyaları, şifrələmə, blokçeyn, süni intellekt və avtomatlaşdırılmış təhlükəsizlik sistemləri kimi rəqəmsal həllər təşkilatların məlumatlarını qorumağa və kibertəhlükəsizlik hücumlarına qarşı daha yaxşı mübarizə aparmağa imkan verir. Eyni zamanda beynəlxalq təhlükəsizlik standartlarının və yerli siyasətlərin tətbiqi təşkilatların məlumat təhlükəsizliyi sahəsində düzgün strategiyalar izləməsini təmin edir.

Rəqəmsal texnologiyaların tətbiqi yalnız informasiya təhlükəsizliyini təmin etməklə yanaşı, həm də bizneslərin etibarını artırır, müştəri məlumatlarını qoruyur və bazar mühitində uzunmüddətli uğur əldə etmələrinə kömək edir. Lakin təhlükəsizlik sistemlərinin effektivliyi yalnız texnologiyaların tətbiqi ilə məhdudlaşmamalıdır. O, həmçinin düzgün idarəetmə, müntəzəm təhlil və proaktiv risk idarəetmə yanaşmalarını tələb edir.

Bu araşdırma göstərir ki, rəqəmsal texnologiyaların biznesin informasiya təhlükəsizliyində tətbiqi yalnız texnoloji bir addım deyil, eyni zamanda təşkilatların ümumi strateji yanaşmalarına inteqrasiya edilmiş bir təhlil və strateji planlamadır. Bu sahədə irəliləyiş əldə etmək üçün şirkətlər həmçinin əməkdaşlarını təhlükəsizlik məsələlərində maarifləndirməli, təhlükəsizlik

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

məsələlərini mütəmadi olaraq nəzərdən keçirməli və təkmilləşdirməlidirlər.

Beləliklə, rəqəmsal texnologiyaların biznesin informasiya təhlükəsizliyində tətbiqi təşkilatların mövcud risklərə qarşı daha hazırlıqlı olmalarına və müştəri məlumatlarının təhlükəsizliyini təmin etmələrinə imkan verir. Gələcəkdə yeni texnoloji inkişaflar və innovativ həllər bu sahədə daha da irəliləyişlərə və təhlükəsiz iş mühitlərinin yaradılmasına imkan yaradacaqdır.

## Ədəbiyyat

1. Ağayeva, Ə. E. (2025). *Rəqəmsallaşma dərəcəsinə görə müəssisələrin qruplaşdırılması yeni reytinq modeli. ResearchGate.* Elmi əsərlər toplusu, 315–330.
2. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi. (2019). *İnformasiya təhlükəsizliyi və texnologiyalar. İnformasiya Təhlükəsizliyi Jurnalı, 1*, 25–35.
3. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyi. (2019). *İnformasiya texnologiyaları və təhlükəsizliyi. İnformasiya Təhlükəsizliyi Jurnalı, 2,* 13–28.
4. Hacırəhimova, M. (2016). *Big Data texnologiyalarının təhlükəsizlik problemləri və həlli yolları. ResearchGate,* 49–56.
5. Nowicka, J., Ciekanowski, Z., Kudins, J., & Dąbrowski, P. J. (2024). *Managing Organizational Security in the Era of Digital Transformation.* European Research Studies Journal, 27(3), 460–471.
6. SCIS — "İnformasiya Təhlükəsizliyi" Jurnalı. (2021). *İnformasiya Təhlükəsizliyi Jurnalı, 1,* 30–40.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 102-106**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 102-106**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Xumarə Nəcəfli**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0002-6606-6216
neceflixumar97@gmail.com

# İngilis dilində sifət haqqında müxtəlif alimlərin fikirləri

***Açar sözlər:*** *sifət, qrammatika, sintaksis, semantika, funksional rol*
***Keywords:*** *adjective, grammar, syntax, semantics, functional role*

İngilis dili qrammatikasında sifət kateqoriyası dilin strukturunda mühüm yer tutan və müxtəlif elmi yanaşmalarla izah edilən qrammatik vahidlərdən biridir. Sifətin semantik xüsusiyyətləri, sintaktik funksiyaları və digər nitq hissələri ilə qarşılıqlı əlaqəsi dilçilər tərəfindən fərqli aspektlərdən araşdırılmışdır. Müxtəlif dövrlərdə fəaliyyət göstərmiş alimlər sifət anlayışına fərqli meyarlar əsasında yanaşaraq bu kateqoriyanın ingilis dilindəki yerini və funksional imkanlarını müəyyənləşdirməyə çalışmışlar.

*Ənənəvi qrammatika nümayəndələrinin baxışları.*

Ənənəvi ingilis qrammatikasında sifət kateqoriyası əsasən isimlə əlaqəsi kontekstində tədqiq edilmişdir. Bu yanaşmanın nümayəndələrindən olan H. Sweet sifətləri ismin mənasını tamamlayan və onu müxtəlif baxımlardan dəqiqləşdirən sözlər kimi xarakterizə etmişdir. Sweet sifətlərin əsas xüsusiyyətini onların isimdən əvvəl və ya sonra işlənə bilməsi ilə əlaqələndirmiş, mövqeyin sifətin funksional roluna təsir etdiyini qeyd etmişdir (Sweet, 1891).

O. Jespersen sifət kateqoriyasına daha geniş semantik baxımdan yanaşmışdır. O, sifətlərin yalnız obyektin daimi xüsusiyyətlərini deyil, həm də danışanın subyektiv münasibətini ifadə edə bildiyini vurğulamışdır. Jespersenin fikrincə, sifətlər nitq prosesində qiymətləndirmə funksiyası daşıyaraq kommunikativ məqsədlərin reallaşmasında mühüm rol oynayır (Jespersen, 1924).

*Struktur yanaşma və sifət anlayışı.*

Struktur dilçilik məktəbinin nümayəndələri sifətləri əsasən cümlə daxilində tutduğu mövqeyə və digər vahidlərlə əlaqəsinə görə izah etmişlər. L. Bloomfield sifətləri formal meyarlar əsasında təhlil edərək, onların isimlə birləşmə imkanlarını əsas götürmüşdür. Bloomfield üçün sifətin əsas göstəricisi onun sintaktik davranışı olmuşdur; semantik xüsusiyyətlər isə ikinci dərəcəli hesab edilmişdir. Bu yanaşma sifət kateqoriyasının struktur cəhətdən öyrənilməsinə imkan yaratmış, lakin bəzi alimlər tərəfindən məna aspektinin kölgədə qalması səbəbilə tənqid olunmuşdur (Bloomfield, 1933).

*Funksional və semantik yanaşmalar.*

Müasir ingilis dilçiliyində sifət kateqoriyası funksional-semantik aspektdən daha geniş şəkildə araşdırılır. M. Halliday sifətləri funksional qrammatika çərçivəsində qiymətləndirərək, onların diskurs daxilindəki rolunu ön plana çıxarmışdır. Halliday sifətlərin məlumatın yeniliyi, vurğu və mövzu-rema münasibətlərində iştirak etdiyini qeyd etmişdir (Halliday, 1994).

R. Quirk və onun həmkarları tərəfindən hazırlanan *A Comprehensive Grammar of the English Language* əsərində sifətlərin ingilis dilindəki mövqeyi sistemli şəkildə təhlil olunmuşdur. Quirk sifətlərin predikativ və atributiv funksiyalarını fərqləndirərək, bu xüsusiyyətlərin sifətlərin qrammatik davranışına birbaşa təsir etdiyini göstərmişdir (Quirk, 1985).

*Müasir yanaşmalar və koqnitiv aspekt.*

Müasir dilçilikdə sifət kateqoriyasına koqnitiv yanaşma da tətbiq olunur. G. Lakoff sifətlərin insanın dünyanı qavrama və təsnif etmə mexanizmləri ilə sıx bağlı olduğunu bildirir. Lakoffun fikrincə, sifətlər yalnız obyektiv xüsusiyyətləri deyil, insan təcrübəsinə əsaslanan konseptual modelləri də əks etdirir (Lakoff, 1987).

Bu baxımdan sifətlər dilin yalnız qrammatik elementi deyil, həm də düşüncə proseslərinin dil vasitəsilə ifadə forması kimi qiymətləndirilir.

Biber, D., Johansson, S., Leech, G., Conrad, S. və Finegan, E. (1999) ingilis dilində sifətlərin atributiv və predikativ funksiyalarını korpus əsaslı tədqiqatlarla araşdıraraq, onların cümlə daxilində informasiya quruluşunu formalaşdırmaqda əhəmiyyətini qeyd edirlər. Onlar vurğulayırlar ki, sifətlərin istifadəsi həm məna dəqiqliyi, həm də nitqin stilistik xüsusiyyətləri üçün vacibdir.

Huddleston, R. və Pullum, G. K. (2002) sifətləri sintaksis və semantika aspektindən geniş təhlil etmiş, onların isimlərlə birləşmə imkanlarını və cümlədəki mövqelərinin məna ilə necə bağlı olduğunu göstərmişlər. Alimlərin fikrincə, sifətlərin müxtəlif formaları nitqdə vurğu və məna çalarlarını idarə edir.

Crystal, D. (2003) ingilis dilinin qrammatikası və leksikası baxımından sifətləri analiz edərək, onların funksional müxtəlifliyini ortaya qoyur. Crystal sifətlərin dilin kommunikativ imkanlarını artıran əsas vasitələrdən biri olduğunu vurğulayır və onların kontekstual istifadə imkanlarına diqqət çəkir.

Greenbaum, S. (1996) isə sifət kateqoriyasının tarixi inkişafını araşdıraraq, müasir ingilis dilində onların sintaktik elastikliyini və mənaca dəyişkənliyini göstərmişdir. Greenbaumın tədqiqatı göstərir ki, sifətlər təkcə əşyanın

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

keyfiyyətini deyil, həm də nitq şəraitindən asılı olaraq əlavə semantik xüsusiyyətləri ifadə edə bilir.

Bu yanaşmalar göstərir ki, ingilis dili qrammatikasında sifət kateqoriyası yalnız qrammatik vahid deyil, həm də semantik, funksional və stilistik baxımdan çoxşaxəli elementdir. Müxtəlif alimlərin fikirləri sifətlərin nitqdəki rolunu, cümlə daxilindəki davranışını və konseptual təsvir imkanlarını geniş şəkildə əks etdirir.

Müxtəlif alimlərin fikirlərindən aydın olur ki, ingilis dili qrammatikasında sifət kateqoriyası təkcə forma və mövqe ilə məhdudlaşmır. Sifətlər semantik, funksional və koqnitiv xüsusiyyətləri ilə dilin kommunikativ imkanlarını genişləndirən mühüm vasitədir. Alimlərin fərqli yanaşmaları sifət kateqoriyasının çoxşaxəli təbiətini üzə çıxarır və bu sahədə aparılan tədqiqatların aktuallığını qoruyub saxladığını göstərir.

## Ədəbiyyat

1. Biber, D., Johansson, S., Leech, G., Conrad, S., & Finegan, E. (1999). *Longman grammar of spoken and written English*. Longman.
2. Bloomfield, L. (1933). *Language*. Henry Holt and Company.
3. Crystal, D. (2003). *The Cambridge encyclopedia of the English language* (2nd ed.). Cambridge University Press.
4. Greenbaum, S. (1996). *The Oxford English grammar*. Oxford University Press.
5. Halliday, M. A. K. (1994). *An introduction to functional grammar* (2nd ed.). Edward Arnold.
6. Huddleston, R., & Pullum, G. K. (2002). *The Cambridge grammar of the English language*. Cambridge University Press.
7. Jespersen, O. (1924). *The philosophy of grammar*. George Allen & Unwin.

8. Quirk, R., Greenbaum, S., Leech, G., & Svartvik, J. (1985). *A comprehensive grammar of the English language*. Longman.
9. Lakoff, G. (1987). *Women, fire, and dangerous things: What categories reveal about the mind*. University of Chicago Press.
10. Sweet, H. (1891). *A new English grammar: Logical and historical*. Clarendon Press.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 107-109**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 107-109**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Tale Verdiyev**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0002-1913-3973
taleverdiyev114@gmail.com

# Azərbaycanın beynəlxalq imicinin formalaşmasında yumşaq güc və ictimai diplomatiyanın rolu

***Açar sözlər:*** *Azərbaycan diplomatiyası, beynəlxalq imic, yumşaq güc, ictimai diplomatiya, strateji kommunikasiya, dövlət brendinqi, mədəni diplomatiya*
***Keywords:*** *Azerbaijani diplomacy, international image, soft power, public diplomacy, strategic communication, nation branding, cultural diplomacy*

Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin beynəlxalq nüfuzu və təsir imkanları onların beynəlxalq imici ilə sıx bağlıdır. Qloballaşma və informasiya texnologiyalarının inkişafı dövlətlərin beynəlxalq auditoriya ilə kommunikasiya qurmaq imkanlarını genişləndirmişdir. Bu baxımdan yumşaq güc və ictimai diplomatiya müasir diplomatiyanın əsas alətlərindən biri hesab olunur (Nye, 2004, s. 19). Yumşaq güc anlayışı dövlətlərin hərbi və iqtisadi vasitələrdən istifadə etmədən, mədəniyyət, dəyərlər və diplomatik fəaliyyət vasitəsilə beynəlxalq təsir imkanlarını artırmasını ifadə edir. Cozef Nay tərəfindən irəli sürülmüş bu konsepsiya müasir beynəlxalq münasibətlərdə geniş tətbiq olunur. Dövlətlərin mədəni və humanitar təşəbbüsləri onların beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayır (Nye, 2004, s. 21).

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra beynəlxalq imicinin formalaşdırılması istiqamətində ardıcıl siyasət həyata keçirmişdir. Xüsusilə son illərdə Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi etməsi ölkənin qlobal səviyyədə tanınmasına mühüm töhfə vermişdir. 2015-ci ildə Bakıda keçirilən Birinci Avropa Oyunları, 2017-ci ildə təşkil olunan IV İslam Həmrəyliyi Oyunları, həmçinin Formula 1 Azərbaycan Qran-Prisi kimi beynəlxalq idman tədbirləri Azərbaycanın beynəlxalq nüfuzunun artmasına xidmət etmişdir.

Eyni zamanda, Azərbaycan müxtəlif beynəlxalq forum və humanitar tədbirlərin keçirilməsi ilə də diqqət çəkir. Bakı Beynəlxalq Humanitar Forumu, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin tədbirləri və digər qlobal platformalar ölkənin mədəni və humanitar diplomatiyasının inkişafına töhfə verir. Bu tədbirlər Azərbaycanın tolerantlıq, multikulturalizm və beynəlxalq əməkdaşlıq prinsiplərinə sadiq dövlət kimi tanınmasına şərait yaradır (Cull, 2009).

İctimai diplomatiya Azərbaycanın xarici siyasətində mühüm istiqamətlərdən biridir. Dövlət qurumları və diaspor təşkilatları vasitəsilə Azərbaycanın mövqeyi və milli maraqları beynəlxalq ictimaiyyətə təqdim olunur. Sosial media və rəqəmsal kommunikasiya vasitələrinin inkişafı da ictimai diplomatiyanın təsir imkanlarını genişləndirmişdir. Azərbaycanın beynəlxalq təşkilatlarda fəal iştirakı və müxtəlif regional layihələrdə təşəbbüskar rol oynaması ölkənin diplomatik nüfuzunun artmasına səbəb olmuşdur.

Beləliklə, yumşaq güc və ictimai diplomatiya Azərbaycanın beynəlxalq imicinin formalaşmasında mühüm rol oynayır. Mədəni diplomatiya, beynəlxalq tədbirlər və strateji kommunikasiya siyasəti ölkənin qlobal səviyyədə tanınmasına və etibarlı tərəfdaş kimi qəbul olunmasına mühüm töhfə verir (Melissen, 2005, s. 25).

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 107-109
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 107-109
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

## Ədəbiyyat

1. Nye, J. S. (2004). *Soft Power: The Means to Success in World Politics.* PublicAffairs.
2. Cull, N. J. (2009). *Public Diplomacy: Lessons from the Past.* Figueroa Press.
3. Melissen, J. (2005). *The New Public Diplomacy: Soft Power in International Relations.* Palgrave Macmillan.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Fatimə Rəhimova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0000-9558-7307
fatime.rehimova29@gmail.com

# Müasir qlobal təhsil yanaşmaları və onların Azərbaycanda tətbiq imkanları

***Açar sözlər:*** *kompetensiya əsaslı təlim, qlobal təhsil tendensiyaları, kurikulum islahatları, kommunikasiya bacarıqları*
***Keywords:*** *competency-based learning, global educational trends, curriculum reforms, communication skills*

Müasir dövrdə qlobal təhsil tendensiyaları sürətlə dəyişir və ölkələr təhsil sistemlərini yeni çağırışlara uyğunlaşdırmaq üçün genişmiqyaslı islahatlar həyata keçirirlər. Azərbaycanda da təhsil siyasətinin modernləşdirilməsi, rəqəmsal bacarıqların artırılması, insan kapitalının gücləndirilməsi və innovativ pedaqoji metodların tətbiqi prioritet istiqamətlər kimi müəyyən edilir. Qlobal trendlərin milli təhsil sisteminə inteqrasiyası həm keyfiyyətin yüksəldilməsinə, həm də ölkənin rəqabətqabiliyyətli insan kapitalı yaratmasına mühüm təkan verir (Nəzərov, 2012).

Müasir dövrdə qlobal miqyasda gedən rəqəmsal transformasiya prosesləri təhsil sistemlərinin strukturunu, idarəetmə mexanizmlərini və tədris metodologiyasını əsaslı şəkildə dəyişir. Dünyanın aparıcı ölkələrində tətbiq olunan rəqəmsal təhsil platformaları, süni intellekt (AI) texnologiyalarına əsaslanan tədris vasitələri, adaptiv öyrənmə (adaptive learning) sistemləri və virtual sinif modelləri öyrənmə

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

prosesini daha çevik, interaktiv və fərdiləşdirilmiş hala gətirir (Darling-Hammond və Cook-Harvey, 2020).

Azərbaycan təhsil sistemi də bu qlobal tendensiyalardan geri qalmayaraq genişmiqyaslı rəqəmsal inkişaf strategiyalarını həyata keçirməkdədir. Xüsusilə "Virtual məktəb" platformasının pandemiya dövründə tətbiqi ölkədə rəqəmsal tədrisin praktiki əsasını formalaşdırdı və distant təhsilin təşkili üçün mühüm baza yaratdı. Bunun davamı olaraq, "Rəqəmsal bacarıqlar" layihəsi məktəblərdə informatika fənninin məzmununu müasirləşdirməyə, şagirdlərə proqramlaşdırma, robototexnika və məlumat analitikası kimi XXI əsrin bacarıqlarını aşılamağa yönəlib. Eyni zamanda, ölkə üzrə STEAM mərkəzlərinin yaradılması şagirdlərin layihəəsaslı öyrənməyə cəlb olunmasını, elmi-texniki yaradıcılıq vərdişlərinin formalaşdırılmasını və praktik düşüncənin inkişafını təmin edir (Mərdanov, 2009).

Rəqəmsal kontentlərin tədris prosesində geniş tətbiqi müəllimlərin pedaqoji fəaliyyətində yüksək dinamizm yaratmaqla təlimi daha çevik və texnoloji cəhətdən zəngin edir. Elektron dərsliklər, interaktiv tapşırıqlar, onlayn laboratoriya modelləri və rəqəmsal qiymətləndirmə alətləri müəllimlərə fərqli səviyyədə olan şagirdlərlə daha fərdi şəkildə işləmək imkanı verir. Bu proses təlimin fərdiləşdirilməsinə, hər bir şagirdin öyrənmə tempinə uyğunlaşdırılmasına və tədris nəticələrinin daha obyektiv qiymətləndirilməsinə şərait yaradır (Fullan, 2021).

Bundan başqa, rəqəmsal transformasiya müəllim–şagird və məktəb–valideyn kommunikasiyasını da gücləndirir. Elektron gündəliklər, LMS (Learning Management System) platformaları, onlayn geri bildirim mexanizmləri təhsil prosesini şəffaflaşdırır, məlumat axınını sürətləndirir və idarəetməni optimallaşdırır.

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 110-113
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 110-113
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

Qlobal təhsil sistemlərində hazırda əsas diqqət faktoloji biliklərin sadəcə əzbərlənməsinə deyil, daha çox geniş spektrli bacarıqların formalaşdırılmasına yönəlir. OECD ölkələrinin təcrübəsi göstərir ki, kompetensiya əsaslı təlim modeli müasir əmək bazarının tələblərinə cavab verən insan kapitalının formalaşdırılmasında mühüm rol oynayır. Bu modelə əsasən, şagirdlər yalnız informasiya əldə etmir, həm də həmin bilikləri yeni situasiyalarda tətbiq etməyi, problemləri müstəqil həll etməyi və yaradıcı düşünməyi öyrənirlər (Sahlberg, 2021).

Finlandiya bu sahədə ən uğurlu nümunələrdən biridir. Bu ölkədə dərslər daha çox problem əsaslı öyrənmə metodikasına uyğun təşkil olunur. Şagirdlər real həyatdan götürülmüş situasiyalar üzərində işləyir, qrup layihələri hazırlayır və fənlərarası əlaqələri gündəlik tədris prosesində tətbiq edirlər. Finlandiya məktəblərində qiymətləndirmə prosesi də fərqlidir: burada summativ imtahanlardan çox formativ qiymətləndirmə üstünlük təşkil edir və bu, şagirdin inkişaf dinamikasını izləməyə, həmçinin onun güclü və zəif tərəflərini daha erkən müəyyənləşdirməyə imkan yaradır. Eyni zamanda, sosial-emosional bacarıqlar – empatiya, ünsiyyət, özünüidarəetmə və komanda fəaliyyəti Finlandiya təhsil sistemində xüsusi əhəmiyyət daşıyır və ayrıca təlim komponenti kimi inkişaf etdirilir (OECD, 2020).

Azərbaycan təhsil sistemi də yeni kurikulum islahatları çərçivəsində kompetensiya əsaslı təlimə keçid etmişdir. Kurikulumda kommunikasiya bacarıqları, kreativlik və yenilikçilik, əməkdaşlıq, rəqəmsal savadlılıq və sosial-emosional bacarıqlar əsas kompetensiyalar kimi müəyyən olunmuşdur. Bu istiqamətin beynəlxalq nümunələrlə uyğunlaşdırılması üçün bir sıra addımların atılması məqsədəuyğundur. İlk növbədə, fənlərarası təlimin təşkili genişləndirilməli, təbiət fənləri, riyaziyyat və humanitar fənlər

üzrə inteqrativ layihələr tətbiq olunmalıdır. Bu, Finlandiya modelində olduğu kimi şagirdlərin bilikləri real həyatla əlaqələndirmək bacarığını gücləndirəcək.

Müəllim hazırlığının beynəlxalq standartlara uyğunlaşdırılması isə kompetensiya əsaslı modelin uğurlu tətbiqinin əsas şərtidir. Müəllimlər problem əsaslı öyrənmə, layihə əsaslı təlim və formativ qiymətləndirmə metodlarına dair daha geniş təlimlərə cəlb olunmalı, ixtisasartırma proqramlarında Finlandiya və Estoniya kimi qabaqcıl ölkələrin təcrübəsinə uyğun modullar tətbiq edilməlidir.

## Ədəbiyyat

1. Darling-Hammond, L., & Cook-Harvey, C. (2020). *Educating the whole child: Improving school climate to support student success*. Learning Policy Institute.
2. Fullan, M. (2021). *The right drivers for whole system success*. Corwin Press.
3. Mərdanov, M. (2009). *Azərbaycan təhsili yeni inkişaf mərhələsində*. Çaşıoğlu.
4. Nəzərov, A. M. (2012). *Müasir təlim texnologiyaları* (Dərs vəsaiti). ADPU nəşriyyatı.
5. OECD. (2020). *Future of education and skills 2030: OECD learning compass framework*. OECD Publishing.
6. Sahlberg, P. (2021). *Finnish lessons 3.0: What can the world learn from educational change in Finland?* Teachers College Press.
7. Schneider, R., & Stern, E. (2022). Competency-based learning and cognitive development: New evidence from international research. *Educational Research Review, 36*, 100452.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 114-117**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 114-117**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Aysel Məmmədli**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0002-8909-1801
ayselmemmedli783@gmail.com

# Məktəbəqədər yaşlı uşaqlarda ünsiyyət mədəniyyətinin formalaşması yolları

***Açar sözlər:*** *kommunikativ mədəniyyət, uşaq inkişafı, nitq inkişafı, sosial qarşılıqlı əlaqə, ünsiyyət bacarıqları, pedaqogika, təhsil*
***Keywords:*** *communicative culture, child development, speech development, social interaction, communication skills, pedagogy, education*

Ünsiyyət mədəniyyəti insanların qarşılıqlı əlaqəsini tənzimləyən bilik, bacarıq, dəyərlər və davranış normalarının məcmusu kimi müəyyən edilə bilər. Uşaqlıqda bu, dildən düzgün istifadə etmək, diqqətlə dinləmək, dialoqda iştirak etmək, başqalarına hörmət göstərmək və duyğuları lazımi şəkildə ifadə etmək bacarığını əhatə edir. Ünsiyyət mədəniyyətinin inkişafı nitqin inkişafı, emosional intellekt, əxlaqi tərbiyə, sosial təcrübə ilə sıx bağlıdır (Nazarova, 2024; Ullrich, Marten, 2025).

Ünsiyyət mədəniyyətinin formalaşmasına bir sıra amillər təsir edir. Ailə aparıcı rol oynayır, çünki uşağın ünsiyyət nümunələrini öyrəndiyi ilk mühitdir. Valideynlərin qarşılıqlı əlaqə tərzi, emosional dəstək və dil zənginliyi uşağın kommunikativ davranışına əhəmiyyətli dərəcədə təsir göstərir. Təhsil müəssisələrinin də böyük təsiri var, çünki onlar öyrənmə fəaliyyəti, qrup işi və müəllim-şagird qarşılıqlı əlaqəsi vasitəsilə

ünsiyyət üçün mütəşəkkil şərait yaradırlar. Həmyaşıdlarla ünsiyyət digər mühüm amildir, çünki digər məktəbəqədər yaşlı uşaqlarla qarşılıqlı əlaqə əməkdaşlıq bacarıqlarını, münaqişələrin həlli bacarıqlarını və sosial uyğunlaşma qabiliyyətini inkişaf etdirməyə kömək edir. Mədəni və sosial şərait əlavə olaraq ünsiyyət norma və dəyərlərini formalaşdırır (Montero Ramirez, 2024).

Məktəbəqədər yaşlı uşaqlarda kommunikativ mədəniyyətin formalaşmasının əsas yollarından biri nitq və dil bacarıqlarının sistemli inkişafıdır. Bura lüğətin genişləndirilməsi, qrammatik cəhətdən düzgün nitqin formalaşdırılması, ardıcıl şifahi ifadənin inkişafı, nitqin dialoq və monoloq formalarının məşq edilməsi daxildir. Hekayələr, müzakirələr və ifadəli oxu bu prosesdə təsirli üsullardır (Nazarova, 2024; Ullrich və Marten, 2025).

İnteraktiv və birgə öyrənmə metodları da mühüm rol oynayır. Qrup tapşırıqları, müzakirələr və layihə əsaslı fəaliyyətlər uşaqları ünsiyyət qurmağa, fikir mübadiləsi aparmağa və başqalarını dinləməyi öyrənməyə təşviq edir. Bu cür öyrənmə formaları kollektiv nəticələrə görə qarşılıqlı hörmət və məsuliyyəti təşviq edir (Granone, Pollarolo, 2024).

Oyuna əsaslanan və rol oynayan fəaliyyətlər uşaqlıq dövründə xüsusilə təsirlidir, çünki oyun uşaqlar üçün təbii öyrənmə formasıdır. Rol oyunları vasitəsilə uşaqlar rahat və həvəsləndirici mühitdə sosial rolları mənimsəyir, ünsiyyət qaydalarını məşq edir, dialoq nitqini inkişaf etdirirlər.

Kommunikativ mədəniyyətin formalaşmasının digər mühüm yolu emosional və sosial bacarıqların inkişafıdır. Uşaqlara emosiyaları tanımağa, hissləri konstruktiv şəkildə ifadə etməyə və başqaları ilə empatiya qurmağa öyrətmək ünsiyyətin emosional aspektini gücləndirir və şəxsiyyətlərarası anlaşmanı yaxşılaşdırır (Nigmatullayeva, 2024; Granone, Pollarolo, 2024).

Məktəbəqədər yaşlı uşaqlarda kommunikativ mədəniyyətin formalaşması onların uğurlu sosial və şəxsi inkişafında həlledici rol oynayan mürəkkəb, çoxşaxəli və uzunmüddətli prosesdir. Ünsiyyət mədəniyyəti nitq səriştəsini, sosial qarşılıqlı əlaqə bacarıqlarını, emosional reaksiyanı və ünsiyyətin etik normalarını əhatə edir. Onun effektiv inkişafı əlaqələndirilmiş pedaqoji səylərdən, dəstəkləyici ailə mühitindən və həmyaşıdların mənalı qarşılıqlı fəaliyyətindən asılıdır. Nitq inkişafı fəaliyyətləri, interaktiv və birgə öyrənmə, rollu oyunlar, emosional tərbiyə, böyüklərin müsbət modelləşdirilməsi kimi üsullar uşaqların kommunikativ qabiliyyətlərinin inkişafına əhəmiyyətli dərəcədə kömək edir. Sistemli və vahid yanaşma uşaqların səmərəli qarşılıqlı əlaqə, öyrənmə və cəmiyyətə inteqrasiyası üçün zəruri olan sabit ünsiyyət bacarıqlarını əldə etmələrini təmin edir (Nigmatullayeva, 2024).

## Ədəbiyyat

1. Granone, F., & Pollarolo, E. (2024). *Kodlaşdırma oyuncağı ilə problem həlli fəaliyyətlərində uşaqların ünsiyyətinin təşviqi: Erkən uşaqlıq təhsili və qayğısında müəllimlərin semiotik vasitəçiliyi*. Frontiers in Psychology.
2. Montero Ramirez, A. M. (2024). *Erkən uşaqlıq təhsilində kommunikativ bacarıqların inkişafı: Şifahi ənənə və fonikanın rolu*. Child Studies, (4), 89–102.
3. Nazarova, E. N. (2024). *ni uşaqlarda nitq və ünsiyyət bacarıqlarının mövcud vəziyyəti*. International Journal of Pedagogics, *4*(09), 30–34. https://doi.org/10.37547/ijp/Volume04Issue09-06

4. Nigmatullayeva, M. (2024). *Kommunikativ oyunların təşkili vasitəsilə uşaqlarda ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi metodikası*. International Multidisciplinary Journal for Research & Development, *11*(08).
5. Ullrich, D., & Marten, M. (2025). *Nitq terapiyası bağçasında inkişaf edən dil pozuntusu olan məktəbəqədər yaşlı uşaqlarda dil və praqmatik ünsiyyət bacarıqlarının inkişafı: Real mühitdə aparılan tədqiqat*. Children, *12*(7), 921.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 118-121**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 118-121**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Səbinə Məlikzadə**
Azərbaycan İdman Akademiyası
magistrant
https://orcid.org/0009-0009-9228-0903
sabi.17.m@gmail.com

# Məktəbəqədər dövrdə uşaqların fiziki inkişafı və psixoloji yetkinləşmə dinamikası

***Açar sözlər:*** *məktəbəqədər yaş, fiziki inkişaf, psixoloji yetkinləşmə, psixofizioloji inkişaf, hərəkət aktivliyi*

***Keywords:*** *preschool age, physical development, psychological maturation, psychophysiological development, motor activity*

Məktəbəqədər dövr insan həyatının ən intensiv və çoxşaxəli inkişaf mərhələlərindən biri kimi səciyyələnir və bu mərhələdə baş verən fiziki dəyişikliklər ilə psixoloji yetkinləşmə prosesləri bir-biri ilə sıx qarşılıqlı əlaqədə formalaşır. Həyatın ilk altı-yeddi ilini əhatə edən bu mərhələ orqanizmin morfoloji strukturlarının, funksional sistemlərinin və ali psixi fəaliyyət formalarının sürətli təşəkkülü ilə xarakterizə olunur. Uşağın fiziki inkişaf göstəriciləri yalnız somatik sağlamlığın vəziyyətini deyil, eyni zamanda onun emosional sabitliyini, idrak fəallığını, sosial uyğunlaşma səviyyəsini və ümumi psixoloji rifahını müəyyən edən əsas amillərdən biri kimi çıxış edir. Bu baxımdan məktəbəqədər yaşlı uşaqlarda fiziki inkişafın dinamikası ilə psixoloji yetkinləşmə arasında mövcud olan qanunauyğunluqların öyrənilməsi müasir pedaqogika, inkişaf psixologiyası və uşaq fiziologiyası üçün mühüm elmi-praktik əhəmiyyət kəsb edir.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

Məktəbəqədər dövrdə fiziki inkişaf ilk növbədə boy artımı, bədən kütləsinin dəyişməsi, skelet-əzələ sisteminin möhkəmlənməsi, sinir sisteminin funksional yetkinləşməsi və vegetativ sistemlərin stabilləşməsi ilə özünü göstərir. Bu dövrdə mərkəzi sinir sistemində sinaptik əlaqələrin sürətli artımı, neyron şəbəkələrinin diferensiasiyası və neyrofizioloji mexanizmlərin təkmilləşməsi baş verir. Beyin qabığının müxtəlif sahələri arasında funksional əlaqələrin güclənməsi uşağın hərəkət koordinasiyasının, incə motor bacarıqlarının və sensor inteqrasiyanın inkişafına zəmin yaradır. Fiziki inkişafın bu komponentləri yalnız motor fəaliyyətlə məhdudlaşmır, eyni zamanda idrak proseslərinin, xüsusilə diqqət, yaddaş və qavrayışın səmərəliliyinə birbaşa təsir göstərir. Beləliklə, somatik yetkinləşmə psixoloji funksiyaların formalaşmasının bioloji əsasını təşkil edir.

Psixoloji yetkinləşmə məktəbəqədər dövrdə emosional-sferanın diferensiasiyası, özünüdərk elementlərinin yaranması, iradi davranışın ilkin formalarının təşəkkülü və sosial münasibətlərin genişlənməsi ilə səciyyələnir. Uşaq bu mərhələdə impulsiv reaksiyalardan daha tənzimlənmiş davranış modellərinə keçid edir, emosiyalarını qismən idarə etməyi, gözləməyi və sosial normalara uyğunlaşmağı öyrənir. Bu proseslərin uğurlu inkişafı bir tərəfdən sinir sisteminin funksional yetkinliyindən, digər tərəfdən isə fiziki sağlamlıq vəziyyətindən asılıdır. Xroniki somatik problemlər, zəif fiziki dözümlülük və ya hərəkət məhdudiyyətləri uşağın emosional gərginliyini artıraraq onun sosial münasibətlərində çətinliklər yarada bilər. Əksinə, kifayət qədər fiziki aktivlik, optimal qidalanma və sağlam həyat tərzi psixoloji sabitliyin və müsbət emosional fonun formalaşmasına kömək edir.

Hərəkət aktivliyi məktəbəqədər dövrdə fiziki və psixoloji inkişafı birləşdirən əsas mexanizmlərdən biri hesab olunur.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

Dinamik oyunlar, koordinasiya tələb edən hərəkətlər, ritmik fəaliyyət formaları və açıq havada keçirilən məşğələlər təkcə əzələ-skelet sistemini möhkəmləndirmir, eyni zamanda beynin icraedici funksiyalarının inkişafını stimullaşdırır. Tədqiqatlar göstərir ki, müntəzəm fiziki fəaliyyət uşaqlarda diqqətin davamlılığını artırır, hiperaktiv davranışların azalmasına səbəb olur və emosional gərginliyin tənzimlənməsinə müsbət təsir göstərir. Bu baxımdan fiziki inkişaf dinamikası psixoloji özünütənzimləmə mexanizmlərinin formalaşması ilə paralel şəkildə gedir.

Məktəbəqədər yaşlı uşaqlarda psixoloji yetkinləşmənin mühüm göstəricilərindən biri də idrak proseslərinin strukturlaşmasıdır. Qavrayış daha sistemli xarakter alır, yaddaşın məzmunu genişlənir, təsəvvür və fantaziya aktivləşir, nitq inkişaf edir. Nitqin inkişafı isə öz növbəsində sosial münasibətlərin qurulmasına, emosiyaların ifadəsinə və davranışın şüurlu tənzimlənməsinə imkan yaradır. Bu psixi funksiyaların effektiv formalaşması üçün beynin enerji təminatı, qan dövranı, tənəffüs sisteminin funksional vəziyyəti kimi fiziki amillər mühüm rol oynayır. Orqanizmdə hipodinamiya, oksigen çatışmazlığı və ya qeyri-düzgün gün rejimi idrak fəaliyyətinin məhsuldarlığını azalda, tez yorulmaya və diqqət dağınıqlığına səbəb ola bilər.

Məktəbəqədər dövrdə fiziki inkişafın dinamikası ilə psixoloji yetkinləşmə arasında qarşılıqlı təsir ikitərəfli xarakter daşıyır. Bir tərəfdən somatik sağlamlıq psixi funksiyaların inkişafı üçün baza yaradırsa, digər tərəfdən psixoloji vəziyyət də fiziki göstəricilərə təsir edir. Uzunmüddətli emosional gərginlik, qorxu və ya stress vegetativ sinir sisteminin balansını pozaraq iştaha, yuxu rejimi və immun müqavimətə mənfi təsir göstərə bilər.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

Təhsil mühiti bu qarşılıqlı təsirin tənzimlənməsində mühüm rol oynayır. Məktəbəqədər təhsil müəssisələrində düzgün təşkil olunmuş gün rejimi, balanslaşdırılmış hərəkət və istirahət mərhələləri, sağlam qidalanma, emosional cəhətdən təhlükəsiz atmosfer və inkişafetdirici oyun mühiti uşağın həm fiziki, həm də psixoloji inkişaf dinamikasına müsbət təsir göstərir. Pedaqoqların və valideynlərin uşağın fərdi xüsusiyyətlərini nəzərə alaraq fəaliyyət planlaşdırması, yüklənmənin optimal səviyyədə saxlanılması və müsbət motivasiya mühitinin yaradılması inkişafın harmonikliyini təmin edir.

Nəticə etibarilə, məktəbəqədər dövrdə uşaqların fiziki inkişafı ilə psixoloji yetkinləşmə dinamikası vahid, qarşılıqlı şərtlənmiş sistem kimi çıxış edir. Orqanizmin morfofunksional yetkinləşməsi psixi funksiyaların formalaşmasının bioloji əsasını təşkil edir, psixoloji sabitlik və müsbət emosional fon isə fiziki sağlamlığın qorunmasına və inkişafın optimallaşmasına kömək edir. Bu mərhələdə kompleks yanaşmanın tətbiqi, yəni fiziki, psixoloji və sosial amillərin vəhdətdə nəzərə alınması uşağın gələcək məktəb adaptasiyasının, şəxsiyyət kimi formalaşmasının və ümumi həyat keyfiyyətinin təmin olunması baxımından həlledici əhəmiyyətə malikdir. Məktəbəqədər yaş dövründə yaradılan sağlam inkişaf bazası sonrakı mərhələlərdə intellektual potensialın reallaşmasına, sosial inteqrasiyaya və psixoloji dayanıqlığın möhkəmlənməsinə zəmin yaradır.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 122-124**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 122-124**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Şahanə Salayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0007-9979-2042
shneslyeva@gmail.com

# "Cəngi" termininin semantikası

***Açar sözlər:*** *cəng, cəngi, pəhləvani, "Koroğlu" dastanı, Qazi Bürhanəddin*
***Keywords:*** *battle tradition, martial dance music, heroic wrestling tradition, The Epic of Koroghlu, Kadi Burhan al-Din*

"Cəngi" qədim Azərbaycan xalq musiqi janrı və rəqsi hesab olunur. "Cəngi" termininin tarixi eramızdan əvvəlki dövrə dayanır. İlk "cəngi" nümunələri zurnaçılar tərəfindən bəstələnmişdir. "Cəngi" termini fars mənşəli "cəng" sözündən yaranmışdır, vuruşmaq, döyüşmək mənasındadır. Qəhrəmanlıq, döyüşkənlik ruhunda çalınan musiqi havasıdır. "Cəngi" qəhrəmanlıq yarışlarında çalındığı üçün bəzən ona "pəhləvani" də deyirlər. Bu sözün türk arxaik mənasında "zəngi" kəlməsi dayanır. İndiki dövrdə bu söz bəzi toponimlərdə və hidronimlərdə hələ də öz izlərini saxlamaqdadır. Məsələn, Zəngibasar, Zəngəzur (Qərbi Azərbaycan mahalları), Zəngi çayı (Qərbi Azərbaycanda çay) və s. (Badalbayli, 2017).

Azərbaycan musiqisində "cəngi" motivindən ilk dəfə Üzeyir Hacıbəyov *Koroğlu* operasında istifadə etmişdir. Bundan sonra bəstəkarlar arasında cəngilər yaranmağa başladı: Süleyman Ələkbərov, Vasif Adıgözəlov, Soltan Hacıbəyov və digərləri.

"Cəngi" sözünün tarixi qədimliyini biz ədəbi əsərlərlə sübut edə bilərik. Nizami Gəncəvi *Xosrov və Şirin*, Məhəmməd Füzuli

*Bəngü-Badə* əsərlərində, "Koroğlu" dastanında, Mirzə Fətəli Axundzadənin və digərlərinin əsərlərində rast gəlirik.

*Qazi Bürhanəddinin aşağıdakı misralarla başlayan bir qəzəli yer alır:*

Sübhdəmdür al ələ çəngi, bəgüm
Gedərəlüm arada "Cəngi", bəgüm
(Sivasi, 2005, s. 258).

Burada işlənən "cəngi" sözü qəhrəmanlıq mənasında işlənib. Arada bir cəngi gedəlim, yəni arada cəng havalarının ifa olunmasını bildirir. Misrada "al ələ çəngi" ifadəsi musiqi və ritmik elementə işarə edir. "Çəngi" burada həm musiqi, həm də döyüşkənlik mənasını daşıyır. Gördüyümüz kimi, "cəngi" sözünün işlənməsi klassik Azərbaycan şeir dilində sabit termin kimi formalaşmışdır. Bu, həm musiqi, həm folklor, həm də hərbi motivləri özündə birləşdirir (Explanatory dictionary of the Azerbaijani language, 2006).

Biz "Cəngi" terminınə "Koroğlu" dastanında da rast gəlirik. Dastanın çox yerində – Koroğlunun İstanbul səfəri, Koroğlunun Rum səfəri, Hasan paşanın Çənlibelə gəlməyi, Mahru xanımın Çənlibelə gəlməyi, Ağcaquzu hissələrində istifadə olunmuşdur. Dastandan belə bir nümunə göstərmək olar: "Koroğlu Qıratı sürhasür gəlib, birbaş Təkə-Türkmana çıxdı. Gördü ki, bir meydandı sulanıb, iki cavan oğlan bir tərəfdə, bir qarımış pəhləvan bir tərəfdə cəng eliyirlər. Ancaq bu ölüm-dirim cəngi döy, yıxım-qaldırım cəngidi" (Koroğlu, 2005, s. 49). Nümunədəki "cəng" sözü savaşmaq mənasında işlənmişdir. Cümlədə deyilir ki, bu savaş ölüm-qalım savaşı deyil, sadəcə yıxım-qaldırım savaşıdır. Bu hissə qədim dövrlərdə igidlərin güc nümayişi məqsədi ilə apardıqları döyüşləri əks etdirir.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

"Cəngi" termini Azərbaycan mədəniyyətində həm semantik, həm də terminoloji baxımdan çoxşaxəli rola malikdir. O, musiqidə döyüş havası, rəqsdə igidlik, hərbi sahədə əsgərlərin ruhlandırılması və ədəbiyyatda qəhrəmanlıq obrazı kimi çıxış edir. Bu söz musiqi və hərbi termini kimi işlənir. Beləliklə, "cəngi" Azərbaycan milli terminologiyasında zəngin və çoxfunksiyalı termin kimi çıxış edir (State Statistical Committee of the Republic of Azerbaijan, 2024).

## Ədəbiyyat

1. Badalbayli, A. (2017). *Explanatory monographic dictionary of music*. Sharq-Gharb.
2. Explanatory dictionary of the Azerbaijani language (Vol. I). (2006). Sharq-Gharb.
3. Koroğlu. (2005). Lider.
4. Sivasi, K. B. (Kadi Burhan al-Din). (2005). *Divan*. Onder.
5. State Statistical Committee of the Republic of Azerbaijan. (2024). *Classification of administrative-territorial divisions*.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 125-128**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 125-128**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Ruqiyyə Qafarlı**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0006-3572-0034
gafarliirugy@gmail.com

# Akkreditasiyanın təhsil keyfiyyətinin təmin olunmasında rolu və tətbiqi prosesində yaranan problemlər

***Açar sözlər:*** *akkreditasiya, təhsil, problem, inkişaf, keyfiyyətin artırılması, şəffaflıq*
***Keywords:*** *accreditation, education, problem, development, quality improvement, transparency*

Akkreditasiya — hər hansı bir təhsil müəssisəsinin, təhsil proqramının və ya təşkilatın müəyyən edilmiş standartlara və keyfiyyət tələblərinə uyğun olub-olmadığının rəsmi şəkildə yoxlanılması və tanınması prosesidir. Akkreditasiya təhsil müəssisəsinin fəaliyyəti müstəqil qurum tərəfindən qiymətləndirilir. Qiymətləndirmə qanunvericilik və beynəlxalq standartlar əsasında aparılır. Müsbət nəticə olduqda müəssisəyə akkreditasiya statusu verilir. Akkreditasiyanın keyfiyyəti ilkin olaraq müəyyən edilmiş milli və beynəlxalq standartlara uyğunluq səviyyəsi ilə ölçülür. Qiymətləndirmə prosesində daxili keyfiyyət təminatı mexanizmlərinin mövcudluğu mühüm rol oynayır. Müəssisədə davamlı özünüqiymətləndirmə sisteminin olması akkreditasiyanın səmərəliliyini artırır. Akkreditasiya komissiyalarının obyektivliyi və peşəkarlığı keyfiyyətin ölçülməsində əsas amillərdəndir. Beynəlxalq əməkdaşlıqlar və mübadilə proqramları akkreditasiyanın keyfiyyətini yüksəldən göstəricilərdəndir. Tədris proqramlarının

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

mütəmadi yenilənməsi keyfiyyətin göstəricisi hesab olunur. Akkreditasiya nəticələrinin şəffaf şəkildə ictimaiyyətə açıqlanması vacibdir. Təhsil prosesində etik normalara riayət olunması da ölçmə kriteriyasıdır. Qiymətləndirmənin yalnız sənədlərə deyil, real tədris mühitinə əsaslanması keyfiyyəti artırır. Müəssisənin sosial məsuliyyət fəaliyyətləri də nəzərə alınır. Bütün bu göstəricilər akkreditasiyanın keyfiyyətini kompleks şəkildə ölçməyə imkan verir. Akkreditasiya prosesində problemlərin yaranmasının əsas səbəblərindən biri normativ tələblərə real təhsil mühitinin uyğun gəlməməsidir. Bəzi hallarda standartlar yerli şərait nəzərə alınmadan hazırlanır. Akademik heyətin akkreditasiya barədə kifayət qədər məlumatlı olmaması, resurs çatışmazlığı, maddi və texniki imkanların azlığı əsas səbəblərdəndir. Bundan əlavə olaraq, şəffaflığın tam təmin olunmaması, müəllimlərin iş yükünün çoxluğu, təcrübə və təlimlərin azlığı başlıca problemlərdəndir. Problemlərin aradan qaldırılması üçün ilk növbədə standartlar real təhsil mühitinə uyğunlaşdırılmalıdır.

Akkreditasiya prosesi yalnız yoxlama deyil, inkişaf vasitəsi kimi təqdim edilməlidir. Akademik heyət üçün mütəmadi maarifləndirici təlimlər təşkil olunmalıdır. Sənədləşmə prosesi sadələşdirilməli və rəqəmsallaşdırılmalıdır. Qiymətləndirmə meyarları aydın və başa düşülən olmalı, akkreditasiya komissiyalarının peşəkarlığı artırılmalı, şəffaflıq və nəzarət güclənməli, daxili keyfiyyət təminatı gücləndirilməli və maddi-texniki bazanın inkişafına dəstək verilməlidir. Belə ki, beynəlxalq təcrübədən faydalanmaq, akkreditasiya prosesində iş birliyi, əməkdaşlıq, dialoq yaratmaq, texnoloji infrastrukturu gücləndirmək problemlərin azalmasına kömək edər və təhsilin keyfiyyətinin real yüksəlməsinə yardım edər.

Akkreditasiyanın təhsil keyfiyyətinin artırılması və yaranan problemlərin aradan qaldırılmasının həll yollarının müzakirəsi

ilə bağlı bir çox konfranslar, görüşlər, tədbirlər və təlimlər həyata keçirilir. 2026-cı ilin 2 dekabrında Azərbaycan Respublikası Təhsil Nazirliyinin Akkreditasiya və Nostrifikasiya İdarəsinin təşkilatçılığı ilə "Təhsilin keyfiyyətinin təminatında rolu" mövzusunda beynəlxalq konfrans keçirilib. Bu tədbirdə ali təhsil müəssisələrinin rəhbərləri, yerli və beynəlxalq ekspertlər, akkreditasiya agentliklərinin nümayəndələri iştirak ediblər. Konfransın əsas məqsədi təhsildə keyfiyyətin idarə olunması, akkreditasiya sahəsində qarşıya çıxan problemlər və uğurlu təcrübələrin müzakirəsi olub. 2025-ci ilin noyabrın 27-də Azərbaycan Dövlət Pedaqoji Universitetində Türkiyənin Ali Təhsilin Keyfiyyəti Şurası, Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Türkiyənin Sakarya və Çankaya universitetlərinin birgə təşkilatçılığı ilə keçirilən "Ali Təhsildə Keyfiyyət üzrə Beynəlxalq Konfrans (ICQH)" və "Beynəlxalq Müəllim Hazırlığı Konfransı (İTEC)"nın açılış mərasimi keçirilib. Tədbirdə elm və təhsil ictimaiyyətinin nümayəndələri, ali təhsil və elmi-tədqiqat müəssisələrinin rəhbərləri, millət vəkilləri, diplomatik korpusların nümayəndələri, Azərbaycan və digər ölkələrdən olan alim və tədqiqatçılar iştirak ediblər. Çıxışçılar və məruzəçilər arasında Cəfər Cəfərov, Hadi Hakan Maraş, Hamza Al, Ümit Kocabıçak, Tural Əhmədov olmuşdur. Tədbirdə institusional və proqram akkreditasiyasının trendləri, tələbə yönümlü tədris və rəqəmsal transformasiya, regionda keyfiyyət mədəniyyətinin gücləndirilməsi kimi mövzular müzakirə olunub. Nəticədə regional və beynəlxalq mütəxəssislərin təcrübə mübadiləsi həyata keçirilib, ali təhsildə keyfiyyət strategiyalarının gələcək istiqamətləri müəyyənləşib, region üzrə əməkdaşlıq və akkreditasiya standartlarının uyğunlaşdırılması üçün təkliflər qəbul olunub.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

Təhsil keyfiyyətinin artırılması üçün Azərbaycanda və dünya ölkələrində son illər tədbirlər və konfransların sayı çoxalmışdır.

*Bunlara daxildir:*

1. CHEA/CIQ6 Annual Conference (Keyfiyyət təminatı və akkreditasiyası ilə bağlı)
2. YÖKAK 2024 – Keyfiyyət təminatı (Keyfiyyət və akkreditasiya ilə bağlı)
3. THEQH International Conference (Akkreditasiya və keyfiyyət təminatı ilə bağlı)
4. First Quality Assurance Symposium (Ali təhsildə keyfiyyətlə bağlı)
5. CHEA/CIQ6 2025 (Keyfiyyət təminatında yeni çağırışlarla bağlı)
6. INQAAHE Biennial Conference (Keyfiyyət təminatında transformasiyalarla bağlı)
7. VIII Eurasian Forum (Yeni texnologiyalar və çağırışlarla bağlı) və s.

Belə nəticəyə gəlmək olur ki, akkreditasiya sadəcə normativ uyğunluğu yoxlamır, təhsil keyfiyyətinin strategiyasını formalaşdırır. Sadəcə bir ölkənin təhsil səviyyəsinin artırılmasına deyil, dünya təhsil sisteminin keyfiyyətinin artırılmasına xidmət edir. Ona görə əməkdaşlıq, beynəlxalq ekspert mübadiləsi, keyfiyyət məlumatlarının paylanması və akkreditasiya sistemlərinin qlobal standartlarla birləşdirilməsi əsas plan olaraq qəbul edilir. Keyfiyyət etibarlılığın göstəricisidir. Akkreditasiya təhsil müəssisələrində keyfiyyətin təmin olunması, şəffaflığın artırılması və tədris prosesində beynəlxalq standartlara uyğunlaşdırılması baxımından mühüm mexanizmdir. Bu proses zamanı yaranan problemlər yalnız inkişafyönümlü strategiya ilə aradan qalxa bilər.

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 129-131
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 129-131
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Rəfiqə İmanzadə**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0003-0460-280X
imanova.refiqe035@icloud.com

# Oxu təliminin nəzəri məsələləri

***Açar sözlər:*** *Ana dili, təlim, oxu, priyomlar, sinifdənxaric*
***Keyswords:*** *Mother tongue, instruction, reading, techniques, extracurricular*

Azərbaycan dilinin tədrisinin əsas funksiyalarından biri də oxu təlimidir. Oxu təlimi ibtidai siniflərdən başlayır, şagirdlərin oxu vərdişinə və nitq inkişafına zəmin yaradır, mövzunun ideya-istiqamətini düzgün anlamağı öyrədir, söz ehtiyatını zənginləşdirir.

Oxu dərslərində şagirdlərdə vətənə məhəbbət və sədaqət tərbiyə olunur, onlara ədalətlilik, mərdlik, düzlük və s. kimi sosial-əxlaqi keyfiyyətlər aşılanır. Beləliklə, oxu dərsləri doğma vətənimizin gələcək qurucularının düzgün tərbiyə olunmasını təmin edir. Oxu dərsləri şagirdlərin kitaba olan marağını və mütaliəyə olan meylini artırır. Bədii və elmi-kütləvi ədəbiyyatın oxunması şagirdlərin idrak qabiliyyətini inkişaf etdirir, əqli fəallığını yüksəldir.

Oxu təlimini yüksək səviyyədə təşkil etmək üçün müəllim yalnız ana dili dərslərində deyil, digər fənlərin tədrisində, həmçinin şagirdlərin sinifdənxaric fəaliyyətində də ona xüsusi əhəmiyyət verməlidir.

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 129-131
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 129-131
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

*Şagirdləri fəallaşdırmaq üçün müəllim oxu dərslərində aşağıdakı priyomlardan istifadə edir:*

1. İfadəli oxu;
2. Sualların qoyulması;
3. Oxunmuş materialların məzmununun sözlə rəsminin “çəkilməsi”;
4. Mətnin bənzər mətnlə müqayisə olunması;
5. Əsərin səhnələşdirilməsi və s.

Həm məktəb praktikasında, həm də nəzəri ədəbiyyatda tez-tez metod və priyom anlayışları eyniləşdirilir. Metod priyomların məcmusu olmaqla şagirdlərin zəruri biliklərə yiyələnməsini təmin edirsə, priyomlar həmin bilikləri asanlıqla tətbiqetmə bacarıqlarının yaranmasına kömək göstərir.

Oxu təlimində əsasən aşağıdakı priyomlardan istifadə olunur: müqayisə, tutuşdurma, ümumiləşdirmə, mətni hissələrə ayırma, kublaşdırma, əqli hücum, BİBÖ, Venn diaqramı, debat və s.

Təlim metodları oxunun məqsədi və məzmunundan asılı olaraq seçilir, tətbiq edilir. İbtidai təlim didaktikasında iki növ təlim metodu vardır: 1) Doqmatik metod; 2) İnkişafetdirici metod. Müəllim tədris prosesində materialı doqmatik metodlara əsasən izah edir. İnkişafetdirici metodlar prosesində isə sual-cavabdan, diskusiyadan istifadə olunur. Şagirdlər müəyyən problemin həlli üçün düşünməli, araşdırmalı, öz mövqeyini bildirməli olurlar. Oxu dərslərində metod və priyomların seçilməsi əsərin janrından da asılı olur. Nəsr parçasında nəzm əsərlərindən fərqli olaraq planın tərtibi və məzmunun nəql edilməsi tələb olunur. Nəsr əsərlərində təsvir üstünlük təşkil edirsə, müfəssəl nəql etməyə və sözlərlə “şəkil çəkməyə” üstünlük verilir. Əgər mətn mükəmməl süjetli və dialoqludursa, diskusiya, debat, seçmə, nəqletmə, səhnələşdirmə kimi priyomlardan istifadə edilir.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 129-131**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 129-131**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

İbtidai siniflərdə tətbiq olunan ənənəvi təlim metodlarından imtina etmək və interaktiv metodları onlara qarşı qoymaq olmaz. Yeri gəldikdə, ənənəvi metodlara məktəb mühazirəsi, izah, şərh metodlarına da müraciət etmək məsləhətdir.

Müəllimlər bəzən yenilik xatirinə izahdan qaçır, müsahibəni şərhin yeganə yolu hesab edirlər. V.N.Bezdenejnıx yazır: "Belə düşünmək olmaz ki, şagirdlərin təfəkkürü müsahibə zamanı fəal, müəllimin şərhi zamanı qeyri-fəal olur. Təfəkkür prosesinin fəallaşdırılması müəllimin materialın izahını müsahibə və ya məlumat şəklində verməsi deyil, metodik cəhətdən düşündürücü şəkildə verməsi ilə, müəllimin müsahibəsinin, həmçinin məlumatın keyfiyyəti ilə müəyyən edilir".

İzah prosesində müəllim uzun-uzadı danışmamalı, materialı ətraflı şərh etməsinə yol verməməli, müxtəlif replikalar və tapşırıqlarla şagirdləri işə cəlb etməli, onların fəallığı təmin etməlidir.

Beləliklə, oxu dərsləri zamanı müəllim qeyd olunan tələbləri nəzərə alarsa, daha optimal nəticələr əldə edər.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 132-134**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 132-134**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Aytac İmanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0008-3348-8926
imanovaaytac2003@gmail.com

# Təhsildə rəqəmsal monitorinq sistemlərinin tətbiqi zamanı yaranan əsas problemlər və institusional çağırışlar

***Açar sözlər:*** *rəqəmsal monitorinq, təhsil idarəetməsi, rəqəmsal bərabərsizlik, müəllimlərin rəqəmsal səriştələri, təhsildə məlumat savadlılığı, şəxsi məlumatların qorunması, təhsil siyasəti, təhsildə bürokratik yüklənmə*

***Keywords:*** *digital monitoring, educational management, digital inequality, digital competencies of teachers, information literacy in education, personal data protection, educational policy, bureaucratic burden in education*

Rəqəmsal monitorinq sistemlərinin təhsildə tətbiqi son onillikdə dövlət idarəçiliyinin rəqəmsallaşdırılması, nəticəyönümlü təhsil siyasəti və keyfiyyət təminatı mexanizmlərinin gücləndirilməsi kontekstində prioritet istiqamətlərdən birinə çevrilmişdir. Bu sistemlər şagird nailiyyətlərinin, müəllim fəaliyyətinin, tədris prosesinin effektivliyinin və institusional performansın real vaxt rejimində izlənməsinə imkan versə də, onların praktiki tətbiqi bir sıra ciddi problemlərlə müşayiət olunur.

Ən əsas problemlərdən biri məlumatların keyfiyyəti və etibarlılığı ilə bağlıdır. Rəqəmsal monitorinq sistemlərinin effektivliyi birbaşa olaraq daxil edilən məlumatların dəqiqliyindən asılıdır. Beynəlxalq tədqiqatlar göstərir ki, məktəblər səviyyəsində məlumatların əl ilə daxil edilməsi

hallarında statistik səhvlərin və subyektiv manipulyasiyaların riski yüksək olur. UNESCO tərəfindən aparılan araşdırmalara görə, inkişaf etməkdə olan ölkələrdə təhsil üzrə idarəetmə informasiya sistemlərinə (EMIS) daxil edilən məlumatların təxminən 20–30%-i ya natamam, ya da gecikmiş formada təqdim olunur (UNESCO, 2021). Bu isə rəqəmsal monitorinqin analitik və proqnozlaşdırıcı funksiyasını ciddi şəkildə zəiflədir.

Digər mühüm problem texnoloji infrastrukturun qeyri-bərabərliyidir. Rəqəmsal monitorinq sistemlərinin tətbiqi stabil internet bağlantısı, müasir server infrastrukturu və təhlükəsiz proqram təminatı tələb edir. World Bank-ın hesabatlarında qeyd olunur ki, bir çox ölkələrdə, xüsusilə region və kənd məktəblərində internet sürətinin aşağı olması və texniki avadanlıqların köhnəlməsi səbəbindən rəqəmsal monitorinq sistemləri yalnız formal xarakter daşıyır və real vaxtlı qərar qəbuletməyə xidmət etmir (World Bank, 2022). Bu vəziyyət təhsil sistemində rəqəmsal bərabərsizliyi daha da dərinləşdirir.

Üçüncü ciddi problem müəllim və idarəçi heyətinin rəqəmsal səriştələrinin yetərsizliyidir. Rəqəmsal monitorinq sistemləri sadəcə texniki platforma deyil, eyni zamanda analitik düşüncə və məlumat savadlılığı tələb edən idarəetmə alətidir. OECD tərəfindən aparılmış PISA çərçivəli tədqiqatlar göstərir ki, müəllimlərin əhəmiyyətli hissəsi rəqəmsal sistemlərdən toplanan məlumatları tədrisin təkmilləşdirilməsi üçün necə şərh etməli olduqlarını bilmir (OECD, 2020). Nəticədə monitorinq sistemi nəzarət mexanizminə çevrilir, inkişaf aləti funksiyasını itirir.

Etik və hüquqi risklər də xüsusi əhəmiyyət kəsb edir. Rəqəmsal monitorinq prosesində şagirdlərin akademik göstəriciləri, davranış məlumatları və şəxsi informasiyaları toplanır. Məlumatların qorunması mexanizmlərinin zəif olması hallarında bu məlumatların sızması və ya qeyri-qanuni istifadəsi riski artır. Avropa Şurasının və UNESCO-nun birgə

hesabatlarında qeyd olunur ki, bir çox ölkələrdə təhsildə rəqəmsal monitorinq sistemləri şəxsi məlumatların qorunması üzrə milli qanunvericiliklə tam uyğunlaşdırılmamışdır (UNESCO, 2022). Bu isə valideyn etimadının azalmasına və sistemə müqavimətin artmasına səbəb olur.

Nəhayət, monitorinqin həddindən artıq bürokratikləşməsi problemi də geniş yayılmışdır. Rəqəmsal sistemlərin tətbiqi ilə müəllimlərin hesabat yükünün azalacağı gözlənilsə də, praktiki müşahidələr əksini göstərir. Bir çox hallarda rəqəmsal monitorinq ənənəvi kağız hesabatlarını əvəz etmir, sadəcə onların rəqəmsal formasını yaradır. OECD (2021) araşdırmalarında vurğulanır ki, bu cür paralel hesabat mexanizmləri müəllimlərin pedaqoji fəaliyyətinə ayrılan vaxtı azaldır və tədris keyfiyyətinə dolayı mənfi təsir göstərir.

Beləliklə, rəqəmsal monitorinq sistemlərinin təhsildə tətbiqi texnoloji innovasiya olmaqla yanaşı, kompleks idarəetmə, hüquqi və pedaqoji problemlər yaradır. Bu problemlərin aradan qaldırılması yalnız texniki yenilənmə ilə deyil, eyni zamanda institusional islahatlar, kadr hazırlığı və normativ-hüquqi bazanın təkmilləşdirilməsi ilə mümkündür.

## Ədəbiyyat

1. OECD. (2020). *Teachers' professional learning and data literacy*. OECD Publishing.
2. OECD. (2021). *Education policy outlook*. OECD Publishing.
3. UNESCO. (2021). *Education management information systems: Data quality and use*. UNESCO Publishing.
4. UNESCO. (2022). *Ethics of data and AI in education*. UNESCO.
5. World Bank. (2022). *Digital infrastructure and education systems*. Washington, DC: World Bank.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 135-137**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 135-137**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Bəlqız Musayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0008-3119-4334
musayevabalqiz@gmail.com

# Formativ və summativ qiymətləndirmənin effektivliyinin pedaqoji təhlili

***Açar sözlər:*** *məktəbdaxili qiymətləndirmə, formativ qiymətləndirmə, summativ qiymətləndirmə, təlim keyfiyyəti, pedaqoji effektivlik, tədris strategiyaları*
***Keywords:*** *school-based assessment, formative assessment, summative assessment, learning quality, pedagogical effectiveness, teaching strategies*

Müasir təhsil sistemində qiymətləndirmə yalnız şagirdlərin bilik və bacarıqlarının ölçülməsi vasitəsi deyil, həm də təlim prosesinin keyfiyyətini təmin edən əsas pedaqoji mexanizm hesab olunur. Qiymətləndirmə müəllimə təlim məqsədlərinə nail olma səviyyəsini müəyyənləşdirməyə, tətbiq olunan metodların səmərəliliyini qiymətləndirməyə və şagirdlərin fərdi öyrənmə ehtiyaclarını nəzərə almağa imkan verir. Məktəbdaxili qiymətləndirmə çərçivəsində formativ və summativ qiymətləndirmə yanaşmaları təlimin həm gedişinə, həm də nəticələrinə təsir göstərən əsas komponentlərdir. Bu baxımdan onların pedaqoji effektivliyinin təhlili təlim keyfiyyətinin yüksəldilməsi baxımından aktual elmi problem kimi çıxış edir (Black və Wiliam, 2006).

Formativ qiymətləndirmə öyrənmə prosesi zamanı şagirdin inkişafını izləmək, çətinliklərini aşkar etmək və dəstək təmin etmək məqsədini güdür. Bu yanaşma davamlı geribildirim və

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 135-137
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 135-137
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

inkişafyönümlü qiymətləndirməyə əsaslanır. Müəllim şagirdin tapşırıqlarını təhlil edir, nəticələri izah edir və növbəti addımlar üçün tövsiyələr verir. Beləliklə, qiymətləndirmə yalnız nəticəyə deyil, öyrənmə prosesinə yönəlmiş olur. Formativ qiymətləndirmə şagirdin səhvlərdən öyrənməsini, öz fəaliyyətini dərk etməsini və müstəqil öyrənmə bacarıqlarını inkişaf etdirməsini təmin edir. Davamlı müəllimin rəy bildirməsi isə motivasiyanı artırır, çünki şagird irəliləyişini görür və öz inkişaf imkanlarını müşahidə edir (Ağayev, 2020).

Summativ qiymətləndirmə isə təlim mərhələsinin sonunda şagirdin nailiyyətlərini ümumiləşdirmək və standartlarla müqayisə etmək məqsədini daşıyır. Bu qiymətləndirmə test, imtahan, layihə və yekun tapşırıq formasında həyata keçirilir. Summativ yanaşmanın effektivliyi onun obyektiv ölçmə və nəticələrin sənədləşdirilməsi funksiyasında özünü göstərir. Təlim nəticələrinin qiymətləndirilməsi müəllim və məktəb rəhbərliyi üçün məlumat bazası yaradır, tədris proqramlarının və metodların təkmilləşdirilməsinə imkan verir.

Formativ və summativ qiymətləndirmə qarşılıqlı tamamlayıcı xarakter daşıyır. Formativ qiymətləndirmə öyrənmə prosesində inkişafı təmin edir, summativ qiymətləndirmə isə bu inkişafın nəticəsini ölçür. Təkcə summativ qiymətləndirməyə əsaslanan təlimdə şagirdin çətinlikləri vaxtında aşkar edilmir, yalnız formativ qiymətləndirməyə əsaslanan təlimdə isə yekun qiymətləndirmə obyektiv olmaya bilər. Buna görə də onların inteqrasiyası təlimin həm prosesinə, həm də nəticələrinə sistemli təsir göstərir (Əlizadə, 2016).

Effektiv məktəbdaxili qiymətləndirmə sistemində hər iki qiymətləndirmə növü bir-birini tamamlayaraq şagirdin öyrənmə trayektoriyasını izləməyə və fərdi dəstək strategiyaları hazırlamağa imkan verir. Formativ qiymətləndirmə şagirdi öz fəaliyyətini analiz etməyə və inkişafını qiymətləndirməyə təşviq

edir, summativ qiymətləndirmə isə məsuliyyət və nəticəyönümlülük hissini gücləndirir. Bu yanaşma şagirdin akademik müstəqilliyini artırır və təlim keyfiyyətinin yüksəlməsini təmin edir (Hacıyeva, 2018).

Nəticə olaraq, formativ və summativ qiymətləndirmə məktəbdaxili qiymətləndirmənin iki əsas və qarşılıqlı tamamlayıcı komponenti kimi çıxış edir. Onların balanslı və məqsədyönlü tətbiqi təlim prosesinin həm keyfiyyətini, həm də nəticəyönümlülüyünü artırır, müəllimə şagirdin öyrənmə fəaliyyətini kompleks şəkildə qiymətləndirməyə və təlimi fərdiləşdirməyə imkan yaradır. Beləliklə, bu yanaşmalar məktəbdaxili qiymətləndirmənin effektivliyinin və təlim keyfiyyətinin əsas göstəricisi hesab olunur (Harlen, 2007).

## Ədəbiyyat

1. Ağayev, R. (2020). *Müasir təlimdə formativ qiymətləndirmə yanaşmaları*. Təhsil Nəşriyyatı.
2. Black, P., & Wiliam, D. (2006). *Assessment for learning: Putting it into practice*. Open University Press.
3. Əlizadə, Ə. Ə. (2016). *Müasir Azərbaycan məktəbində təlim və qiymətləndirmə problemləri*. Pedaqogika.
4. Hacıyeva, N. (2018). *Təlim nəticələrinin qiymətləndirilməsi nəzəriyyəsi və praktikası*. Elm və təhsil.
5. Harlen, W. (2007). *Assessment of learning*. Sage Publications.

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 138-140
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 138-140
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Cavid Əfəndizadə**
Azərbaycan İdman Akademiyası
magistrant
https://orcid.org/0009-0005-8888-8781
cavid.efenzadeqqqqq@gmail.com

# Ünsiyyət və psixoloji dayanıqlığın inkişafında pedaqoji təcrübənin metodoloji əhəmiyyəti

***Açar sözlər:*** *pedaqoji təcrübə, metodoloji yanaşmalar, psixoloji dayanıqlılıq, ünsiyyət bacarıqları, təcrübəçi tələbələr*
***Keywords:*** *pedagogical experience, methodological approaches, psychological resilience, communication skills, interns*

Pedaqoji təcrübə, təcrübəçi tələbələrin peşəkar bacarıqlarını inkişaf etdirməklə yanaşı, onların psixoloji dayanıqlılığı və ünsiyyət bacarıqlarının formalaşmasında da mühüm rol oynayır. Bu proses yalnız biliklərin tətbiqi ilə məhdudlaşmır, eyni zamanda tələbələrin şəxsi və sosial bacarıqlarının inkişafını təmin edən metodoloji çərçivədir. Metodoloji yanaşmalar, təcrübəçi tələbələrin öyrənmə prosesini sistemləşdirmək, onların tədris situasiyalarında aktiv iştirakını təmin etmək və qarşıya çıxan çətinliklərlə səmərəli mübarizə aparmaq bacarıqlarını inkişaf etdirmək üçün əsas vasitədir. Pedaqoji təcrübənin metodoloji əhəmiyyəti həm də tələbələrin analitik və reflektiv düşüncə qabiliyyətlərinin formalaşmasında özünü göstərir.

Pedaqoji təcrübə zamanı tələbələr müxtəlif tədris mühitlərində fəaliyyət göstərir, bu da onların sosial qarşılıqlı əlaqələrini və kommunikativ bacarıqlarını gücləndirir. Ünsiyyət bacarıqlarının inkişafı, tələbələrin həm müəllimlə, həm də şagirdlərlə konstruktiv əlaqə qurma qabiliyyətindən asılıdır.

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Təcrübəçi tələbələr müxtəlif yaş və sosial qruplardan olan şagirdlərlə işləyərək, situativ ünsiyyət bacarıqlarını sınaqdan keçirir və inkişaf etdirirlər. Bu prosesdə metodoloji yanaşmalar, tələbələrin effektiv ünsiyyət strategiyalarını öyrənməsi, qeyri-verbal ünsiyyət vasitələrini mənimsəməsi və empatiya bacarıqlarını gücləndirməsi üçün vacib rol oynayır.

Psixoloji dayanıqlılığın formalaşması pedaqoji təcrübənin ən əhəmiyyətli nəticələrindən biridir. Təcrübəçi tələbələr real sinif şəraitində qarşıya çıxan çətinliklərlə, məsuliyyətlərlə və gözlənilməz situasiyalarla üzləşirlər. Bu təcrübələr onların stressə qarşı dözümlülüyünü artırır və adaptiv davranış modellərinin formalaşmasına səbəb olur. Metodoloji yanaşmalar, tələbələrin təcrübə prosesində refleksiya etməsini, öz fəaliyyətini qiymətləndirməsini və qarşıya çıxan problemləri analiz etməsini təmin edir. Bu isə onların psixoloji dayanıqlılıq səviyyəsini sistemli şəkildə yüksəldir.

Təcrübəçi tələbələrin inkişafında pedaqoji təcrübənin metodoloji əhəmiyyəti həm də təlimin planlaşdırılması və strukturlaşdırılması ilə bağlıdır. Təcrübə prosesində mentorların rolu, fəaliyyət planlarının hazırlanması, müşahidə və rəy mexanizmlərinin tətbiqi tələbələrin öyrənmə effektivliyini artırır. Tələbələr yalnız nəzəri bilikləri praktikada sınamır, həm də sinif idarəetmə, konflikt həll etmə və qərarvermə bacarıqlarını inkişaf etdirirlər. Bu bacarıqlar, onların gələcək peşə fəaliyyətində adaptiv və elastik olmalarını təmin edir.

Metodoloji yanaşmalar, həmçinin tələbələrin reflektiv və kritik düşünmə qabiliyyətlərinin formalaşmasına xidmət edir. Təcrübəçi tələbələr hər bir pedaqoji situasiyanı analiz edərək, hansı üsulların daha səmərəli olduğunu müəyyənləşdirir və öz pedaqoji fəaliyyətini təkmilləşdirir. Bu proses onların həm psixoloji dayanıqlılığını, həm də ünsiyyət bacarıqlarını davamlı şəkildə inkişaf etdirir. Pedaqoji təcrübə nəticəsində tələbələr

adaptiv, məsuliyyətli və ünsiyyətcil mütəxəssis kimi formalaşır, stresli situasiyalarda konstruktiv qərarlar qəbul etmək qabiliyyətinə yiyələnirlər.

Nəticə olaraq, pedaqoji təcrübə tələbələrin psixoloji dayanıqlılığı və ünsiyyət bacarıqlarının inkişafında metodoloji baxımdan əhəmiyyətli bir vasitədir. Təcrübəçi tələbələr real tədris mühitində bilik və bacarıqlarını tətbiq edərək, sosial və emosional bacarıqlarını təkmilləşdirir, adaptiv davranış modelləri yaradır və peşəkar fəaliyyətə hazırlanır. Metodoloji yanaşmaların tətbiqi tələbələrin reflektiv düşüncə qabiliyyətini gücləndirir, təcrübənin strukturlaşdırılmış və planlı şəkildə həyata keçirilməsini təmin edir və onların psixoloji dayanıqlılığı və ünsiyyət bacarıqlarını sistemli şəkildə inkişaf etdirir. Bu isə təcrübəçi tələbələrin həm şəxsi, həm də peşəkar inkişafını təmin edən vacib bir mexanizmdir.

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Lamiyə Mövlüdova**
Azərbaycan İdman Akademiyası
magistrant
https://orcid.org/0009-0009-3576-1460
lamiyemovludova@gmail.com

# Təlim nəticələrinin formalaşma mexanizmləri

***Açar sözlər:*** *təlim nəticələri, fiziki hazırlıq, formalaşma mexanizmləri, psixomotor inkişaf, motivasiya və qiymətləndirmə*
***Keywords:*** *learning outcomes, physical training, formation mechanisms, psychomotor development, motivation and assessment*

Təlim nəticələrinin formalaşma mexanizmləri müasir pedaqoji nəzəriyyədə və təhsil praktikasında xüsusi əhəmiyyət kəsb edən problemlərdən biridir. Təlim prosesinin məqsədyönlü və sistemli təşkili nəticəyönümlü təhsil modelinin əsasını təşkil edir. Bu baxımdan təlim nəticələri yalnız proqram sənədlərində müəyyənləşdirilən gözlənilən bilik, bacarıq və vərdişlərin məcmusu deyil, həm də şagirdin idrak, emosional-iradi və psixomotor sferalarında baş verən keyfiyyət dəyişikliklərinin inteqrativ göstəricisidir. Xüsusilə 9-cu sinif səviyyəsində fiziki hazırlıq fənninin tədrisi kontekstində təlim nəticələrinin formalaşma mexanizmlərinin elmi əsaslarla araşdırılması həm ümumtəhsil məktəblərinin qarşısında duran vəzifələrin reallaşdırılması, həm də yeniyetmələrin sağlam və harmonik inkişafının təmin olunması baxımından aktualdır.

Təlim nəticələrinin formalaşması ilk növbədə məqsədin düzgün müəyyənləşdirilməsi ilə bağlıdır. Didaktik ədəbiyyatda qeyd olunduğu kimi, məqsəd təlim prosesinin istiqamətverici komponentidir və onun konkret, ölçüləbilən və şagirdin yaş

xüsusiyyətlərinə uyğun müəyyənləşdirilməsi nəticələrin real əldə olunmasını şərtləndirir. 9-cu sinif şagirdləri yeniyetməlik dövrünün son mərhələsində olduqlarından, onların fiziki, psixoloji və sosial inkişafında dinamik dəyişikliklər müşahidə olunur. Bu dövrdə özünüqiymətləndirmə, sosial identiklik və müstəqillik meyilləri güclənir. Fiziki hazırlıq dərslərində təlim nəticələrinin formalaşması mexanizmi həmin inkişaf xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir. Əks halda, təlim məqsədləri formal xarakter daşıyacaq və gözlənilən nəticələr tam şəkildə reallaşmayacaqdır.

Fiziki hazırlıq fənni öz mahiyyətinə görə psixomotor sahənin inkişafına yönəlsə də, onun təlim nəticələri yalnız hərəkət bacarıqları ilə məhdudlaşmır. Bu fənn şagirdlərdə sağlam həyat tərzinə münasibət, komanda işi bacarığı, intizamlılıq, məsuliyyət və iradə keyfiyyətlərinin formalaşmasına xidmət edir. Buna görə də təlim nəticələrinin formalaşma mexanizmi kompleks xarakter daşıyır və koqnitiv, affektiv və psixomotor komponentlərin qarşılıqlı təsiri əsasında reallaşır. Şagirdin müəyyən fiziki hərəkəti yerinə yetirməsi üçün yalnız əzələ gücü və ya texniki bacarıq kifayət etmir; o, hərəkətin məntiqini anlamalı, öz fəaliyyətinə nəzarət etməli və motivasiya səviyyəsini qorumalıdır.

Təlim nəticələrinin formalaşmasında motivasiya mexanizmi aparıcı rol oynayır. Motivasiya təlim fəaliyyətinin daxili enerjisini təmin edən psixoloji amildir. 9-cu sinif şagirdlərində fiziki hazırlıq dərslərinə marağın artırılması üçün dərs prosesində rəqabət elementləri, fərdi nailiyyətlərin qeyd olunması və özünüinkişaf perspektivlərinin göstərilməsi mühüm əhəmiyyət daşıyır. Daxili motivasiya gücləndikcə şagirdlərin fəaliyyətə cəlb olunma səviyyəsi yüksəlir və nəticələrin davamlılığı təmin olunur. Bu baxımdan müəllimin pedaqoji ustalığı, ünsiyyət bacarığı və ədalətli qiymətləndirmə mövqeyi

formalaşma mexanizminin effektivliyini müəyyən edən əsas şərtlərdəndir.

Qiymətləndirmə mexanizmi də təlim nəticələrinin formalaşmasına birbaşa təsir göstərir. Əgər qiymətləndirmə yalnız normativ göstəricilərə əsaslanarsa və fərdi inkişaf dinamikasını nəzərə almazsa, bu zaman bəzi şagirdlərdə motivasiya zəifləyə bilər. Buna görə də formativ qiymətləndirmə üsullarının tətbiqi, fərdi irəliləyişin izlənilməsi və konstruktiv rəyin verilməsi nəticələrin davamlı inkişafını təmin edir. 9-cu sinifdə fiziki hazırlıq üzrə nəticələrin ölçülməsi zamanı həm normativ testlər, həm də fərdi inkişaf göstəriciləri kompleks şəkildə nəzərə alınmalıdır.

Formalaşma mexanizminin effektivliyi müəllimin metodik fəaliyyətindən də asılıdır. Təlim prosesinin planlaşdırılması, dərs strukturunun düzgün qurulması, yüklənmənin yaş xüsusiyyətlərinə uyğun tənzimlənməsi və təhlükəsizlik qaydalarına riayət edilməsi nəticələrin keyfiyyətinə təsir göstərir. Metodik cəhətdən əsaslandırılmış dərs modeli şagirdlərin fəallığını artırır və onların fiziki imkanlarının optimal inkişafına şərait yaradır. Bununla yanaşı, diferensial yanaşma mexanizmi də mühüm rol oynayır. 9-cu sinif şagirdləri arasında fiziki inkişaf səviyyəsi fərqli olduğundan, tapşırıqların fərdiləşdirilməsi və adaptiv məşq proqramlarının tətbiqi nəticələrin daha obyektiv formalaşmasına imkan verir.

Psixoloji təhlükəsizlik və emosional komfort mühiti də nəticələrin formalaşmasında əhəmiyyətli amildir. Şagird özünü təhlükəsiz və dəyərli hiss etdikdə fəaliyyətə daha fəal qoşulur. Əks halda, qorxu və utancaqlıq kimi emosional baryerlər nəticələrin əldə olunmasına mane ola bilər. Müəllimin dəstəkləyici və empatik münasibəti formalaşma mexanizminin humanist əsaslarını təmin edir.

Fiziki hazırlıq fənnində təlim nəticələrinin formalaşması mərhələli xarakter daşıyır. İlkin mərhələdə hərəkətlərin mənimsənilməsi, sonrakı mərhələdə onların təkmilləşdirilməsi və nəhayət, müxtəlif situasiyalarda tətbiqi baş verir. Bu mərhələlilik prinsipi sistemlilik və ardıcıllıq mexanizminin təzahürüdür. Əgər mərhələlər arasında əlaqə pozularsa, nəticələrin davamlılığı zəifləyə bilər.

Beləliklə, 9-cu sinif fiziki hazırlıq fənni üzrə təlim nəticələrinin formalaşma mexanizmləri çoxkomponentli və qarşılıqlı əlaqəli sistem kimi çıxış edir. Bu sistemdə məqsədin düzgün qoyuluşu, motivasiya, idrak prosesləri, sosial mühit, qiymətləndirmə, metodik təminat və psixoloji amillər inteqrativ şəkildə fəaliyyət göstərir. Mexanizmlərin harmonik işləməsi nəticəyönümlü və keyfiyyətli təhsil mühitinin formalaşmasına, yeniyetmələrin fiziki və şəxsiyyət inkişafının təmin olunmasına xidmət edir. Bu baxımdan fiziki hazırlıq dərslərində təlim nəticələrinin formalaşması yalnız normativ göstəricilərin əldə edilməsi deyil, həm də sağlam, məsuliyyətli və sosial fəal vətəndaşın yetişdirilməsi prosesinin ayrılmaz tərkib hissəsidir.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 145-147**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 145-147**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Aişə Rzayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0007-4500-5808
rzayevaaise6@gmail.com

# Media və ailədaxili problemlər: Etik normaların pozulmasını şərtləndirən amillər

***Açar sözlər:*** *media, etik normalar, ailə, cəmiyyət, sosial proqramlar*

***Keywords:*** *media, ethical norms, family, society, social programs*

Əhatə dairəsi geniş olan media cəmiyyətin dəyərlərinə, ailə institutuna birbaşa təsir göstərir. Xüsusilə ailə problemlərinin televiziyaya, ayrı-ayrı verilişlərə daşınması, şəxsi həyatın müzakirə predmetinə çevrilməsi və məişət qayğılarının geniş və açıq şəkildə təqdim olunması izləyicilər üçün bəzi sosial nəticələr doğurur. Son vaxtlar bu səpkidə fəaliyyət göstərən proqramların artması məsələnin aktuallığını daha da gücləndirir. "Azad Azərbaycan" (ATV) televiziya kanalında yayımlanan "Bizimləsən", "Xəzər" TV-də "Təsir dairəsi" proqramlarını cəmiyyət üzvləri artıq "çıxış yolu" kimi görürlər. Bəzi ailələrin kiçik mübahisələrdə belə ilk üz tutduqları yer məhz həmin verilişlər olur. Qayınana-gəlin, övlad-valideyn münasibətləri milyonların gözü önündə debat formasında həll edilməyə cəhd olunur (Osmanlı, n.d.). Ekspertlər və aparıcı tərəfindən bir qədər də şişirdilən bu olaylar izləyicilərə guya sosial problem kimi təqdim olunur. Dəvət olunan cütlüyə və ya şəxsə aparıcı tərəfindən əlaqəsiz suallar verilərək "maraqlı" cavablar almağa səy göstərilir. Müşahidələr göstərir ki, bəzən qonağın hansısa

sözü yanlış tələffüz etməsi onu pis vəziyyətə salır; aparıcı həmin sözü təkrarlatmaqla qonağı ən azı gülüş obyektinə çevirməyə çalışır. Bir neçə dəfə ailə quran şəxsə keçmiş həyat yoldaşları, keçmiş qayınanaları haqqında suallar verərək, guya gülüş yaratmağa çalışırlar. Ailədə sözləri çəp gələn gəlin və qayınananın davranışlarını telefon xəttinə bağlanan hansısa qohum çatdırır. Hətta övladının əslində öz övladı olmadığını düşünən ata belə DNT analizi üçün canlı efiri seçir. Bütün bunlar milli ailə dəyərlərinə ziddir, onu aşındırır (Azərbaycan jurnalistlərinin etik davranış qaydaları, n.d.). Təcrübə göstərir ki, ailədaxili problemlər məhz ailədə həll olunmalıdır. Şəxsi həyatın bu formada sərgilənməsi doğru deyil. Reytinq xatirinə aparıcılar, layihə rəhbərləri və televiziya kanalının rəhbərləri tərəfindən göz yumulan bu məsələlər cəmiyyəti uçuruma aparır. Baş verənlər Azərbaycanda ailə institutuna ciddi mənfi təsir göstərir. Bir vaxtlar televiziya əyləndirən, maarifləndirən, məlumatlandıran mövqedən çıxış edirdisə, bu gün onun həmin funksiyaları sözügedən verilişlər ucbatından dəyişməyə başlayıb. Məsələ artıq o yerdədir ki, bəzi televiziya kanallarında hətta səhər və axşam olmaqla iki oxşar formatda veriliş təqdim olunur. Bu isə insanların həm zövqünü korlayır, həm də onların düşüncə tərzinə mənfi təsir edir, gənc ailələrə pis örnək olur (Vəlibəyov, 2011).

Ailədaxili münasibətlərə dair ictimai elmlərin ayrı-ayrı sahələri üzrə kifayət qədər ciddi araşdırmalar aparılıb və aparılmaqdadır. Zənnimizcə, cəmiyyəti narahat edən müəyyən sosial problemlərin televiziya verilişləri vasitəsilə gündəmə gətirilməsi və həlli yollarının axtarılmasında araşdırmaçı alimlərin, sosioloq, psixoloq və pedaqoqların iştirakı çox vacibdir. Bu qəbildən olan məsələlərin təhlilini diletantların, yaxud həvəskarların ixtiyarına vermək olmaz (Ömərov, 2020).

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

Təhlillər göstərir ki, ailədaxili münasibətlərin, xüsusilə də münaqişəli halların birbaşa efirə daşınması və efirdə müzakirə üçün qeyri-peşəkarların ixtiyarına verilməsi əlavə fəsadlar yaratmaqla bərabər, mediada etik normaların pozulması hallarına gətirib çıxarır (Çələbiyev, 2015).

Televiziya kanallarında sərgilənəcək zəngin mədəniyyətimiz, təqdim olunacaq yaradıcı insanlarımız var. Efirləri bəsitləşdirmək yolverilməzdir. Son günlərdə ictimaiyyətin rəyləri kontekstində məqsədyönlü islahatların aparılması problemin həll ediləcəyinə, mənəvi deqradasiyanın qarşısının alınacağına ümid yaradır. Bəzi aparıcıların verilişlərinin bağlanması və ya məhdudiyyətlər qoyulması həmin tədbirlərin tərkib hissəsi kimi diqqəti çəkir (Azərbaycan Respublikası jurnalistlərinin peşə etikası kodeksi, n.d.).

## Ədəbiyyat

1. Azərbaycan jurnalistlərinin etik davranış qaydaları. (n.d.). https://presscouncil.az/az/code-of-professional-ethics-for-journalists-in-azerbaijan
2. Azərbaycan Respublikası jurnalistlərinin peşə etikası kodeksi. (n.d.). https://communicationacademy.az/azerbaycan-respublikasi-jurnalistinin-pese-etikasi_kodeksi/
3. Çələbiyev, N. (2015). *Ailə psixologiyası: Ali pedaqoji məktəb tələbələri üçün dərs vəsaiti*. Mütərcim.
4. Osmanlı, A. (n.d.). *Müasir dövrdə ailələrdə qarşılıqlı münasibətlərə təsir edən amillər*.
5. Ömərov, V. (2020, 18 avqust). Müasir milli ailə dəyərlərinin problemləri. *SİA.az*.
6. Vəlibəyov, R. (2011). Ailə sağlam cəmiyyətin və güclü dövlətin təməlidir. *Yeni Azərbaycan qəzeti*.

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 148-151
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 148-151
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Ləman Zeynalova**
Naxçıvan Müəllimlər İnstitutu
magistrant
https://orcid.org/0009-0002-2339-4850
ugurmelos2016@gmail.com

# Klassik irsdən rəqəmsal təhsilə: Nizami Gəncəvi pedaqogikası və innovativ metodların vəhdəti

***Açar sözlər:*** *Nizami Gəncəvi, pedaqoji irs, rəqəmsal təhsil, innovativ təlim, etik dəyərlər, humanist yanaşma, analitik düşüncə*

***Keywords:*** *Nizami Ganjavi, pedagogical heritage, digital education, innovative teaching, ethical values, humanistic approach, critical thinking*

Nizami Gəncəvinin pedaqoji irsi yalnız klassik ədəbiyyat və fəlsəfə kontekstində deyil, həm də müasir təhsil prosesində aktual və praktik əhəmiyyətə malikdir. Onun əsərlərində insanın mənəvi və intellektual inkişafı, etik və sosial məsuliyyətə yönəlmiş öyrənmə prinsipləri xüsusi vurğulanır. Nizami pedaqogikasında bilik və hikmət bir-birindən ayrılmaz elementlər kimi təqdim olunur, öyrənən yalnız məlumat toplamaqla kifayətlənməməli, onu mənəvi və etik çərçivədə tətbiq etməyi bacarmalıdır. Bu yanaşma şagirdlərin analitik düşüncə, səbəb-nəticə əlaqələrini dərk etmə və sosial davranış bacarıqlarını inkişaf etdirməyə imkan verir. Müasir dövrdə texnologiyaların sürətli inkişafı və rəqəmsal təhsil platformalarının geniş tətbiqi Nizami pedaqogikasının prinsipləri ilə innovativ metodların vəhdətini daha əlçatan edir. Rəqəmsal təhsil vasitələri öyrənənlərin qabiliyyətlərinə uyğun

adaptiv öyrənmə imkanları təqdim edir, interaktiv dərs materialları, simulyasiyalar və oyunlaşdırma metodları analitik və kreativ düşüncəni stimullaşdırır, eyni zamanda Nizami irsindəki etik və humanist prinsiplərlə uyğunlaşır. Onlayn seminarlar, diskussiya platformaları və rəqəmsal kitabxanalar şagirdlərin yalnız informasiya qəbul etməsini deyil, onu mənimsəmə və praktiki tətbiq etmə bacarıqlarını artırır, həmçinin etik və sosial mövzular üzrə tənqidi düşüncənin inkişafına xidmət edir (Məmmədzadə və b., 2022).

Nizami pedaqogikasının əsas prinsipləri ilə rəqəmsal texnologiyaların inteqrasiyası öyrənənlərin həm intellektual, həm də mənəvi inkişafını təmin edən çevik və davamlı təhsil mühitinin yaradılmasına imkan verir. Bu yanaşma klassik irsi müasir dövrün tələbləri ilə uzlaşdırır, milli-mənəvi dəyərlərin qorunmasını təmin edir və beynəlxalq təhsil standartlarının yüksəldilməsinə töhfə verir. Beləliklə, Nizami Gəncəvinin irsi və innovativ təhsil metodlarının vəhdəti öyrənmənin yalnız informativ deyil, həm də humanist, etik və sosial yönümlü olmasını təmin edən müasir təhsil modelinin formalaşmasına xidmət edir.

Bu inteqrativ yanaşma öyrənənlərin yalnız akademik bilik səviyyəsini artırmaqla kifayətlənmir, eyni zamanda onların etik və sosial bacarıqlarının inkişafına da xidmət edir (Bostrom, 2014).

Rəqəmsal təhsil vasitələri Nizami Gəncəvinin pedaqoji prinsiplərini daha interaktiv və vizual şəkildə təqdim etməyə imkan yaradır. Məsələn, şagirdlər *Xəmsə* və digər əsərləri rəqəmsal kitabxanalardan oxuyarkən, əsərlərdəki etik və humanist nüansları interaktiv müzakirə və layihələr vasitəsilə tətbiq edə bilərlər. Simulyasiya və oyunlaşdırma metodları isə Nizaminin səbəb-nəticə əlaqələri və etik seçim prinsiplərini

praktik situasiyalarda sınaqdan keçirməyə şərait yaradır, bu da şagirdlərdə tənqidi və analitik düşüncənin inkişafını təmin edir.

Rəqəmsal platformaların təqdim etdiyi fərdi öyrənmə imkanları, Nizami pedaqogikasının insan mərkəzli yanaşması ilə uyğunlaşaraq hər bir şagirdin qabiliyyətinə və maraqlarına uyğun təhsil prosesinin təşkilinə imkan verir. Bu yanaşma öyrənənlərin motivasiyasını artırır, onların bilik və bacarıqları ilə mənəvi inkişafını birləşdirir. Eyni zamanda, onlayn seminarlar, forumlar və diskussiya platformaları şagirdlərdə kollektiv düşüncə və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir, Nizami irsindəki humanist və sosial prinsiplərin tədrisə inteqrasiyasını təmin edir.

Müasir texnologiyalar Nizami irsinin pedaqoji potensialını yalnız tədris prosesində deyil, həm də davamlı təhsil və ömürboyu öyrənmə üçün də əlçatan edir. Şagirdlər və müəllimlər rəqəmsal resurslar vasitəsilə klassik irsi öz öyrənmə prosesinə daxil edə, etik və humanist prinsipləri gündəlik təcrübədə tətbiq edə bilərlər. Bu yanaşma həm milli-mədəni irsi qoruyur, həm də şagirdləri qlobal təhsil mühitinə hazırlayır (Əliyeva, 2024).

Beləliklə, Nizami Gəncəvinin pedaqoji prinsipləri ilə rəqəmsal təhsil metodlarının vəhdəti öyrənməni yalnız informativ proses deyil, həm də mənəvi, etik və sosial inkişafı təmin edən kompleks bir modelə çevirir. Bu yanaşma həm müəllimlər üçün təlim strategiyasını, həm də şagirdlər üçün öyrənmə təcrübəsini zənginləşdirir, klassik ədəbiyyatın müasir təhsil prosesində praktik tətbiqini təmin edir. Rəqəmsal texnologiyalar Nizami irsini daha əlçatan və interaktiv şəkildə təqdim etməklə, onun universal pedaqoji dəyərlərinin gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Bu yanaşma eyni zamanda təhsil sistemində innovativ dəyişikliklərin tətbiqinə, pedaqoji metodların modernləş-

dirilməsinə və öyrənmə prosesinin daha adaptiv, fərdi və humanist yönümlü olmasına imkan yaradır. Nəticədə, klassik irsin və rəqəmsal təhsil texnologiyalarının vəhdəti müasir dövrdə təhsil prosesində həm intellektual, həm də mənəvi inkişafı dəstəkləyən davamlı və çevik bir modelin yaradılmasına zəmin hazırlayır.

## Ədəbiyyat

1. Bostrom, N. (2014). *Superintelligence: Paths, dangers, strategies*. Oxford University Press.
2. Əliyeva, Ş. (2024). İntertekstuallıq və multidissiplinar əlaqələr: Süni intellektin ədəbiyyatşünaslığa tətbiqi. *Poetika.izm, 2024*(1).
3. Məmmədzadə, İ. R., Abbasov, Ə. F., & Abasov, Ə. S. (2022). *Müasir fəlsəfə, süni intellekt və qeyri-səlis məntiq*. Elm və Təhsil.

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 152-154
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 152-154
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Cahan Mehrəliyeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0005-0005-1064
cahanmehraliyevas@gmail.com

# Türk xalqlarının ənənəvi oyunlarının məktəbəqədər yaşlı uşaqların sosiallaşma prosesinə təsiri

***Açar sözlər:*** *Türk xalqlarının ənənəvi oyunları, uşaq sosiallaşması, məktəbəqədər təhsil, folklor, sosial tərbiyə, empatiya, milli-mənəvi dəyərlər*

***Keywords:*** *Traditional Turkic games, child socialization, preschool education, folklore, social upbringing, empathy, national values*

Türk xalqlarının ənənəvi oyunları tarixi inkişaf prosesi ərzində uşaqların sosial tərbiyəsində mühüm pedaqoji vasitə kimi formalaşmışdır. Bu oyunlar etnik-mədəni dəyərlərin, sosial normaların və davranış modellərinin daşıyıcısıdır. Məktəbəqədər yaş dövrü şəxsiyyətin sosial əsaslarının qoyulduğu kritik inkişaf mərhələsi hesab olunur. Həmin dövrdə sosiallaşma prosesi əsasən oyun fəaliyyəti çərçivəsində reallaşır. Ənənəvi türk oyunları uşaqlar arasında qarşılıqlı ünsiyyətin təşkili üçün əlverişli mühit yaradır. Oyun prosesində uşaqlar sosial qaydalara uyğun davranma bacarıqları qazanırlar. Bu bacarıqlar onların gələcək sosial münasibətlərinin əsasını təşkil edir. Ənənəvi oyunlar kollektiv fəaliyyətə adaptasiyanı stimullaşdırır. Uşaqlar oyun zamanı qarşılıqlı dinləmə və anlaşma vərdişlərini inkişaf etdirirlər. Bu proses empatik davranışların formalaşmasına zəmin yaradır.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

Türk xalqlarının ənənəvi oyunlarında etik və əxlaqi dəyərlər mühüm yer tutur. Bayram günlərində xalq bir yerə toplaşar, şənlik edər, müxtəlif oyunlar oynanılardı. Bu oyunlarda elin güclü, qüvvətli igidləri öz bacarıqlarını nümayiş etdirərdilər. Azərbaycanda lap qədimlərdən Novruz şənliklərində "İynə-iynə", "Sayaçı", "Yuğlama", "Yel baba", "Cütçü şumu", "Kəvkəs", "Kosa-kosa", "Qaravəlli", "Qurd oyunu", "Aşıq oyunu", "Dirə döymə" və s. kimi milli xalq oyunları keçirilib (Azərbaycan Milli Kitabxanası, 2019). Oyun fəaliyyəti uşaqlarda sosial məsuliyyət və liderlik keyfiyyətlərinin inkişafına şərait yaradır. Eyni zamanda, ənənəvi oyunlar uşaqların münaqişə vəziyyətlərini konstruktiv yollarla həll etmə bacarıqlarını artırır. Sosial rolların paylaşılması uşaqların cəmiyyətə uyğunlaşma prosesini asanlaşdırır. Bu oyunlar uşaqların özünəinam səviyyəsinin yüksəlməsinə səbəb olur. Ənənəvi oyun mühiti uşaqlar arasında sosial bərabərliyi təşviq edir. Oyun prosesində uşaqlar fərdi xüsusiyyətləri qəbul etməyi öyrənirlər. Türk xalqlarının oyunları milli-mənəvi irsin ötürülməsində effektiv mexanizm kimi çıxış edir. Uşaq folkloru Azərbaycan mədəniyyətinin zəngin və tədqiqata dəyər sahələrindən biridir. Folklorşünaslar tərəfindən qeyd edilir ki, uşaq folkloru təkcə nağıl və laylalardan deyil, həm də oyunlardan, dil və davranış nümunələrindən, kollektiv münasibət qaydalarından ibarətdir. Bu kontekstdə "öcəşmələr" xüsusi folklor hadisəsi kimi diqqəti cəlb edir. Öcəşmə uşaqlar arasında qarşılıqlı münasibətlərin, ədalət hissinin və bərabərliyin qorunmasında vacib rol oynayır, həmçinin oyunlarda sosial qaydaları tənzimləyən mexanizmdir.

Folklor terminologiyasında "öcəşmə" – uşaq oyunlarında iştirakçıların, komanda və ya fərdi şəkildə, bərabərliyi təmin etmək, oyunun ədalətli və maraqlı keçməsi üçün bir-birinin yerini dəyişməsi, qarşılıqlı razılaşma əsasında rol və mövqe

dəyişməsi deməkdir. Burada məqsəd – iştirakçılar arasında növbəliliyi, ədalətli bölgünü və qarşılıqlı anlaşmanı təmin etməkdir. Ənənəvi Azərbaycan oyunlarında öcəşmələr əsasən komandaların və ya oyunçuların öz aralarında rolu, vəzifəni və növbəni dəyişməsinə xidmət edir. Məsələn, "daş atma", "gizlənpaç", "çərpiş", "gəlin-gedək", "şaxta baba", "çiling aşı", "bəbək-bəbək", "düymə", "çörək-çörək", "pambıq-pambıq", "saqqız-saqqız" və başqa oyunlarda öcəşmə məqamları tez-tez rast gəlinir (Qəbulol.az, n.d.). Türk xalqlarının ənənəvi oyunları milli dəyərlərə hörmət münasibətinin formalaşmasına təsir göstərir. Sosiallaşma prosesində bu oyunların rolu elmi baxımdan əsaslandırılmışdır.

## Ədəbiyyat

1. Azərbaycan Milli Kitabxanası. (2019). *Olimpiya dünyası*. http://www.anl.az/down/meqale/olimpiya_dunyasi/2019/mart/640698.htm
2. Qəbulol.az. (n.d.). *Öçmələr*. https://qebulol.az/ocesmeler/

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 155-158**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 155-158**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Səidə Göyçəyeva**
Azərbaycan İdman Akademiyası
magistrant
https://orcid.org/0009-0004-1667-3821
saidaovchu@gmail.com

# Hərbi mühitdə idmanın mənəvi-psixoloji hazırlığa təsiri

***Açar sözlər:*** *hərbi mühit, idman fəaliyyəti, mənəvi-psixoloji hazırlıq, stressə davamlılıq, kollektiv ruh*
***Keywords:*** *military environment, sports activity, moral-psychological readiness, stress resilience, team spirit*

Müasir təhlükəsizlik mühitinin mürəkkəbləşməsi, qeyri-xətti münaqişə formalarının artması və hibrid təhdidlərin genişlənməsi hərbi qulluqçuların yalnız fiziki deyil, eyni zamanda yüksək mənəvi-psixoloji hazırlığa malik olmasını zəruri edir. Döyüş tapşırıqlarının icrası zamanı qeyri-müəyyənlik, risk, informasiya yüklənməsi və emosional gərginlik hərbi personalın psixoloji dayanıqlılığını əsas amilə çevirir. Bu kontekstdə idman hərbi mühitdə yalnız fiziki hazırlıq vasitəsi kimi deyil, həm də mənəvi-psixoloji sabitliyin formalaşdırılmasında mühüm sosial-pedaqoji mexanizm kimi çıxış edir. İdman fəaliyyəti fərdin iradi keyfiyyətlərini möhkəmləndirir, kollektiv ruhu gücləndirir və ekstremal şəraitdə adekvat qərarvermə bacarığını inkişaf etdirir.

Hərbi mühitdə mənəvi-psixoloji hazırlıq anlayışı döyüş ruhu, vətənpərvərlik motivasiyası, emosional sabitlik, stressə davamlılıq və kollektiv həmrəyliyin vəhdətini əhatə edir. Bu komponentlərin formalaşması sistemli təlim və tərbiyə prosesini tələb edir. İdman bu prosesdə praktik fəaliyyət mühiti yaradaraq

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 155-158
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 155-158
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

nəzəri biliklərin real davranış modelləri ilə möhkəmləndirilməsinə imkan verir. Məsələn, yarış şəraitində gərgin mübarizə aparmaq bacarığı hərbi qulluqçuda risk vəziyyətində özünüidarəetmə və emosional nəzarət mexanizmlərini inkişaf etdirir. Bu baxımdan idman psixoloji adaptasiya vasitəsi kimi çıxış edərək şəxsi heyətin ekstremal amillərə qarşı dözümlülüyünü artırır.

İdmanın mənəvi komponentə təsiri ilk növbədə iradi keyfiyyətlərin formalaşması ilə bağlıdır. Dözümlülük, qətiyyət, məsuliyyət, intizam və məqsədyönlülük idman prosesində sistemli şəkildə inkişaf edir. Hərbi xidmət isə məhz bu keyfiyyətlərin yüksək səviyyədə olmasını tələb edir. Məşq və yarış prosesində qarşıya qoyulan məqsədə çatmaq üçün ardıcıl və planlı fəaliyyət göstərmək bacarığı döyüş tapşırıqlarının icrasında da öz əksini tapır. İdman fəaliyyətində məğlubiyyətlə üzləşmək və ondan nəticə çıxarmaq qabiliyyəti isə hərbi qulluqçunun psixoloji elastikliyini artırır və uğursuzluq şəraitində motivasiyanın qorunmasına xidmət edir.

Hərbi kollektivdə idman fəaliyyətinin təşkili sosial-psixoloji iqlimin sağlamlaşdırılmasına da mühüm təsir göstərir. Komanda oyunları və kollektiv məşqlər qarşılıqlı etimadın möhkəmlənməsinə, liderlik bacarıqlarının üzə çıxmasına və qeyri-formal ünsiyyətin inkişafına şərait yaradır. Bu proseslər bölmə daxilində sosial birliyi gücləndirir və qarşılıqlı dəstək mexanizmlərini aktivləşdirir. Döyüş şəraitində isə qarşılıqlı etimad və koordinasiya həyati əhəmiyyət kəsb edir. Beləliklə, idman hərbi kollektivdə sosial kapitalın formalaşmasına və birgə fəaliyyətin effektivliyinin yüksəldilməsinə xidmət edir.

Psixoloji baxımdan idman fəaliyyəti stressin idarə olunmasında mühüm rol oynayır. Məşq zamanı fiziki yüklənmə nəticəsində yaranan adaptiv mexanizmlər orqanizmin stres faktorlarına qarşı davamlılığını artırır. Eyni zamanda, idman

fəaliyyəti endorfin və digər neyrobioloji mexanizmlər vasitəsilə emosional vəziyyətin stabilləşməsinə təsir göstərir. Bu isə hərbi qulluqçularda təşviş səviyyəsinin azalmasına, diqqətin cəmlənməsinə və qərarvermə prosesinin optimallaşdırılmasına səbəb olur. Xüsusilə intensiv təlim və döyüş hazırlığı mərhələlərində idman məşğələlərinin psixoloji reabilitasiya vasitəsi kimi tətbiqi şəxsi heyətin funksional vəziyyətinin bərpasına müsbət təsir edir.

İdman həm də motivasiya mexanizmlərinin gücləndirilməsində effektiv vasitədir. Hərbi qulluqçunun daxili motivasiyası onun xidmətə münasibətini və peşəkar fəaliyyət keyfiyyətini müəyyənləşdirir. Yarış ruhu, nailiyyət əldə etmə istəyi və fərdi göstəricilərin yaxşılaşdırılması motivasion dinamikanı artırır. İdman mühitində əldə olunan uğurlar hərbi qulluqçuda özünəinamı möhkəmləndirir və şəxsi potensialın reallaşdırılmasına stimul yaradır. Bu isə xidmət prosesində təşəbbüskarlığın və məsuliyyət hissinin artmasına səbəb olur.

Müasir hərbi hazırlıq konsepsiyalarında kompleks yanaşma prinsipi üstünlük təşkil edir. Bu yanaşma fiziki, psixoloji və mənəvi komponentlərin inteqrasiyasını nəzərdə tutur. İdman fəaliyyəti həmin komponentlərin vəhdətini təmin edən universal vasitə kimi çıxış edir. Məsələn, taktiki-idman yarışları və hərbi-idman oyunları real döyüş şəraitini modelləşdirərək həm fiziki dözümlülüyü, həm də psixoloji çevikliyi inkişaf etdirir. Bu cür simulyativ fəaliyyətlər qərarvermə sürətini artırır və qeyri-standart situasiyalarda davranış strategiyalarının formalaşmasına kömək edir.

Hərbi mühitdə idmanın mənəvi-psixoloji hazırlığa təsiri eyni zamanda dəyərlər sisteminin möhkəmləndirilməsi ilə də əlaqədardır. İdman etikası, ədalətli mübarizə prinsipi, rəqibə hörmət və qaydalara riayət kimi normalar hərbi etik davranış modelləri ilə səsləşir. Bu dəyərlərin gündəlik fəaliyyət

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

mühitində tətbiqi hərbi qulluqçularda hüquqi və etik məsuliyyət hissini gücləndirir. Nəticədə, idman fəaliyyəti tərbiyəvi funksiya daşıyaraq hərbi kollektivdə sağlam mənəvi mühitin formalaşmasına töhfə verir.

Beləliklə, idman hərbi mühitdə mənəvi-psixoloji hazırlığın formalaşmasında çoxşaxəli və sistemli təsirə malikdir. O, iradi keyfiyyətlərin inkişafına, kollektiv birliyin möhkəmlənməsinə, stressə davamlılığın artırılmasına və motivasiya səviyyəsinin yüksəldilməsinə xidmət edir. Müasir hərbi çağırışlar şəraitində idmanın yalnız fiziki hazırlıq elementi kimi deyil, həm də strateji əhəmiyyətli psixoloji-tərbiyəvi vasitə kimi qiymətləndirilməsi məqsədəuyğundur. Hərbi təlim sistemində idmanın elmi əsaslarla inteqrasiyası şəxsi heyətin döyüş qabiliyyətinin və mənəvi-psixoloji dayanıqlılığının gücləndirilməsinə mühüm töhfə verə bilər.

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Diana Qasımova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0006-4570-4732
diana.qasimova@icloud.com

# Lüğət ehtiyatının zənginləşdirilməsi, dəqiqləşdirilməsi, fəallaşdırılması və təmizliyi üzrə iş

***Açar sözlər:*** *lüğət ehtiyatı, leksik zənginləşmə, semantik dəqiqlik, aktiv lüğət, nitq mədəniyyəti*
***Keywords:*** *vocabulary, lexical enrichment, semantic accuracy, active vocabulary, speech culture*

Lüğət ehtiyatı dil sisteminin leksik qatını təşkil edən söz və ifadələrin bütövlükdə mənimsənilməsi və şüurlu şəkildə istifadəsi ilə bağlı dilçilik kateqoriyasıdır. Lüğət üzərində aparılan işin nəzəri əsasları leksikologiya, semasiologiya, üslubiyyət və nitq mədəniyyəti kimi dilçilik sahələri ilə əlaqəlidir. Bu istiqamətdə aparılan fəaliyyət dilin funksional imkanlarının artırılmasına, nitqin məzmun və forma baxımından təkmilləşdirilməsinə xidmət edir. Lüğət ehtiyatının zənginləşdirilməsi dilin leksik sisteminin şagirdin və ya danışanın idrak sahəsində genişlənməsi deməkdir. Leksik sistemin genişlənməsi semantik sahələrin artması, yeni söz vahidlərinin mənimsənilməsi və dilin leksik strukturunda təmsil olunan anlayışların sayının çoxalması ilə xarakterizə olunur. Nəzəri baxımdan lüğət zənginliyi danışanın dil təcrübəsinin və dil mənzərəsinin genişliyini müəyyən edən əsas göstəricilərdən biridir.

Bu proses leksik vahidlərin müxtəlif semantik çalarlarla mənimsənilməsi, sinonimik və antonimik sıraların dərk olunması, frazeoloji vahidlərin qavranılması ilə əlaqəlidir. Leksik sistemdəki çoxmənalılıq, məcazilik və semantik dəyişmələr lüğət ehtiyatının genişlənməsinin nəzəri əsasını təşkil edir.

"Lüğət dəqiqliyi sözün leksik, məcazi və kontekstual mənalarının dil normasına uyğun şəkildə dərk edilməsi və fərqləndirilməsi ilə bağlıdır. Dilçilikdə bu anlayış semasiologiya ilə əlaqəlidir və sözün semantik strukturunun şüurlu şəkildə mənimsənilməsini nəzərdə tutur. Dəqiqləşdirmə prosesi sözlərin semantik sərhədlərinin müəyyənləşdirilməsi, yaxınmənalı sözlərin mənaca fərqləndirilməsi və kontekst daxilində funksional yüklərinin dərk edilməsi ilə xarakterizə olunur. Bu, danışanın nitqində semantik uyğunsuzluqların qarşısını almağa, məna dəqiqliyini təmin etməyə və mətnin məntiqi bütövlüyünü qorumağa imkan yaradır. Lüğətin dəqiqləşdirilməsi dil vahidlərinin düzgün seçilməsi və normativ işlədilməsi baxımından mühüm nəzəri əhəmiyyət daşıyır." (Bayramov və Əlizadə, 2009, s. 189)

Lüğət fəallaşdırılması dilin leksik vahidlərinin passiv vəziyyətdən çıxaraq kommunikativ fəaliyyət prosesində aktiv işlənməsi ilə bağlı dilçilik kateqoriyasıdır. Bu proses psixolinqvistika və funksional dilçilik aspektlərinə əsaslanır. Nitq fəaliyyəti nəzəriyyəsinə görə hər bir dil vahidi idrak yaddaşında mövcud olsa da, həmin vahidin aktiv nitqə keçməsi müəyyən idrak mexanizmləri ilə bağlıdır.

"Fəallaşdırma sözün semantik strukturu ilə danışanın kommunikativ niyyətinin uzlaşması nəticəsində baş verir. Bu baxımdan lüğətin fəallaşdırılması, danışanın leksik arsenalının geniş diapazonda istifadəsinə şərait yaradan dil psixologiyası prosesidir. Fəallaşdırılmış lüğət ehtiyatı nitqin ifadəliliyini,

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

çevikliyini və kommunikativ səlisliyini təmin edən əsas amillərdən biridir." (Əlizadə, 2006, s. 97)

Lüğət təmizliyi dilin normativ leksik vahidlərinin qorunması, üslubi uyğunsuzluqların aradan qaldırılması və ədəbi dilə yad olan elementlərin (vulqarizmlər, jarqonlar, əsassız alınmalar və s.) nitqdən uzaqlaşdırılması ilə bağlı nəzəri dilçilik prinsipidir. Bu anlayış nitq mədəniyyəti və üslubiyyatın əsas kateqoriyalarından biri kimi qiymətləndirilir.

Təmizlik dili xarici təsirlərdən qorumaq, milli leksik fondun sabitliyini saxlamaq və nitqin üslubi qaydalara uyğunluğunu təmin etmək məqsədi daşıyır. Lüğət təmizliyi dilin estetik ölçüsünü formalaşdırır və ədəbi dil normasının sabitliyinin başlıca amillərindən hesab olunur.

Lüğət ehtiyatının zənginləşdirilməsi, dəqiqləşdirilməsi, fəallaşdırılması və təmizliyi dilin leksik sisteminin bütöv şəkildə mənimsənilməsinə və funksional nitq fəaliyyətində düzgün istifadəsinə yönəlmiş kompleks dilçilik prosesləridir. Bu proseslərin hər biri leksikologiya, semasiologiya, psixolinqvistika və nitq mədəniyyəti kimi dilçilik sahələrinin nəzəri müddəaları ilə sıx əlaqədardır." (Hüseynzadə, 2013, s. 134) Nəzəri cəhətdən bu istiqamətlər dilin leksik strukturunun sistemli şəkildə dərk olunmasını, dilin normativ əsasda işlədilməsini və nitqin məzmun baxımından səlis və aydın formalaşdırılmasını təmin edir.

## Ədəbiyyat

1. Bayramov, Ə. S., & Əlizadə, Ə. Ə. (2009). *Nitq mədəniyyəti və ünsiyyət*. Elm və təhsil.
2. Əlizadə, Ə. Ə. (2006). *Azərbaycan dili tədrisinin metodikası*. ADPU nəşriyyatı.
3. Hüseynzadə, R. L. (2013). *İbtidai siniflərdə ana dilinin tədrisi metodikası*. Maarif.

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Elmir Mustafayev**
Azərbaycan İdman Akademiyası
magistrant
https://orcid.org/0009-0001-0723-3777
elmirmystafayev@icloud.com

# Liderlik fenomeninin pedaqoji mahiyyəti

***Açar sözlər:*** *liderlik, pedaqoji proses, motivasiya, sosial bacarıqlar, qərarvermə*
***Keywords:*** *leadership, pedagogical process, motivation, social skills, decision-making*

Liderlik fenomeni müasir pedaqogikada təkcə idarəetmə və təşkilati fəaliyyətlə bağlı anlayış kimi deyil, həm də təlim-tərbiyə prosesində fərdlərin intellektual, sosial və emosional inkişafına təsir edən kompleks hadisə kimi qiymətləndirilir. Liderlik yalnız formal səlahiyyət və ya mövqe ilə ölçülmür; o, şəxsin davranış modeli, nümunəvi davranışı, qərarvermə qabiliyyəti və kollektivlə ünsiyyət bacarığı ilə səciyyələnir. Pedaqoji kontekstdə liderlik, müəllim və ya tələbənin həm biliklərin ötürülməsində, həm də motivasiya və dəyərlərin formalaşmasında rolunu əhatə edir.

Liderliyin pedaqoji mahiyyəti ilk növbədə fərdin sosial və emosional bacarıqlarının inkişafı ilə bağlıdır. Effektiv lider tələbələrin davranış modellərinə təsir göstərir, onları məqsədyönümlü fəaliyyətə cəlb edir və kollektiv dəyərləri formalaşdırır. Bu baxımdan, liderlik yalnız idarəetmə funksiyası deyil, həm də pedaqoji alət kimi çıxış edir. Sosial bacarıqların inkişafı, həmrəyliyin və qarşılıqlı hörmətin gücləndirilməsi, konfliktlərin konstruktiv həlli və qərarvermə prosesində iştirak liderin pedaqoji nüfuzunun göstəriciləridir.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 162-164**
***Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 162-164**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Liderliyin təlim-tərbiyə prosesinə təsiri həm motivasiya, həm də dəyərlərin formalaşması baxımından özünü göstərir. Lider nümunəsi vasitəsilə tələbələrdə özünəinam, məsuliyyət və məqsədyönümlülük hissi formalaşır. Pedaqoji lider, tələbənin inkişaf səviyyəsini nəzərə alaraq fərdi yanaşma tətbiq edir, onun potensialını maksimum səviyyədə realizə etməyə kömək edir. Bu, pedaqoji prosesdə fərdiləşdirilmiş təlim strategiyalarının və təşviq mexanizmlərinin əhəmiyyətini artırır.

Liderliyin pedaqoji mahiyyəti həmçinin qərarvermə və problem həll etmə bacarıqlarının inkişafında özünü göstərir. Effektiv lider yalnız tapşırığı yerinə yetirməyi deyil, həm də məqsədə çatmaq üçün strategiyanın müəyyənləşdirilməsini təmin edir. Bu proses tələbələrə planlı və sistemli düşünmə bacarığını öyrədir, müxtəlif alternativləri qiymətləndirməyi və optimal qərar seçməyi bacarmağa kömək edir. Pedaqoji prosesdə bu cür təcrübələr liderlik davranışının modelləşdirilməsi və tətbiqi üçün əsas təşkil edir.

Liderlik fenomeni həm də pedaqoji ünsiyyətin keyfiyyətinə təsir edir. Liderin ünsiyyət tərzi kollektivdə qarşılıqlı etimad və əməkdaşlıq mühitinin formalaşmasına xidmət edir. Açıq və şəffaf ünsiyyət tələbələrdə məsuliyyət hissini artırır, kollektiv fəaliyyətin effektivliyini gücləndirir. Eyni zamanda, konstruktiv geribildirim və dəstək liderin pedaqoji nüfuzunu möhkəmləndirir və təlim prosesində psixoloji dayanıqlılığın formalaşmasına töhfə verir.

Liderliyin pedaqoji mahiyyəti təlimin keyfiyyətinə strateji təsir göstərir. Effektiv lider tələbələri aktiv öyrənməyə, yaradıcılıq və tənqidi düşünmə bacarıqlarını inkişaf etdirməyə təşviq edir. Bu isə pedaqoji prosesin nəticəliliyini artırır və tələbələrin intellektual səriştələrini yüksəldir. Eyni zamanda, liderin etik və professional nümunəsi tələbələrdə əxlaqi və peşə

davranışlarının formalaşmasına stimul yaradır, bu da pedaqoji məqsədlərin daha effektiv realizə olunmasına imkan verir.

Liderlik fenomeninin pedaqoji mahiyyəti multidissiplinar xarakter daşıyır və təlim-tərbiyə prosesində müxtəlif istiqamətləri əhatə edir. Sosial psixologiya, pedaqogika, menecment və etika kimi sahələrin nəzəriyyəsi liderlik bacarıqlarının formalaşmasını və pedaqoji tətbiqini əsaslandırır. Müasir pedaqoji yanaşmalar liderliyin yalnız idarəetmə funksiyası deyil, həm də təlim-tərbiyə prosesində fərdin inkişafına xidmət edən strateji vasitə kimi tətbiqini vacib hesab edir.

Nəticə etibarilə, liderlik fenomeni pedaqoji prosesin mühüm tərkib hissəsi kimi çıxış edir. O, fərdin sosial, emosional və intellektual inkişafını təmin edir, motivasiya, dəyərlər və məsuliyyətin formalaşmasına xidmət edir, həmçinin kollektiv fəaliyyətin effektivliyini artırır. Pedaqoji liderlik konsepsiyası yalnız biliklərin ötürülməsi ilə məhdudlaşmır, həm də tələbələrin şəxsiyyətinin inkişafına və onların həyat və peşə fəaliyyətinə hazırlaşdırılmasına yönəlmiş kompleks strategiya kimi qiymətləndirilir.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 165-169**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 165-169**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Fatimə İbadullayeva**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0007-5979-3921
fatimeibadullayeva@gmail.com

# Erkən məktəb dövründə oxu strategiyalarının şagirdlərin yaradıcı düşünmə qabiliyyətinə təsiri

***Açar sözlər:*** *oxu strategiyaları, yaradıcı düşünmə, erkən məktəb dövrü, şüurlu oxu, təlim prosesi*

***Keywords:*** *reading strategies, creative thinking, early school age, conscious reading, teaching process*

Erkən məktəb dövrü uşaqların intellektual, emosional və sosial inkişafında mühüm mərhələ hesab olunur. Bu mərhələdə formalaşan əsas bacarıqlardan biri oxu bacarığıdır. Oxu yalnız mətnin səsləndirilməsi prosesi deyil, həm də məzmunun dərk edilməsi, təhlili və yaradıcı şəkildə yenidən qurulması fəaliyyətidir. Məhz buna görə də oxu strategiyalarının düzgün təşkili şagirdlərin yaradıcı düşünmə qabiliyyətinin inkişafına birbaşa təsir göstərir. Oxu strategiyaları dedikdə, mətnlə iş zamanı tətbiq edilən məqsədyönlü üsul və metodlar – proqnozlaşdırma, sualvermə, mətnin hissələrə bölünməsi, əsas fikrin müəyyənləşdirilməsi, müqayisə və ümumiləşdirmə kimi fəaliyyətlər nəzərdə tutulur. Bu strategiyalar şagirdin mətnə passiv yanaşmasını aradan qaldıraraq onu fəal düşünmə prosesinə cəlb edir. Şagird mətn üzərində düşünür, fərziyyələr irəli sürür, hadisələrin davamını təsəvvür edir və alternativ sonluqlar yaradır. Bu isə yaradıcı təfəkkürün formalaşmasına zəmin yaradır. Yaradıcı düşünmə yeni ideyalar irəli sürmək, qeyri-standart həll yolları tapmaq və mövcud məlumatı fərqli

şəkildə təqdim etmək bacarığı ilə xarakterizə olunur. Oxu strategiyalarının tətbiqi zamanı şagirdlər mətnin məzmununu yalnız yadda saxlamır, həm də onu dəyişdirir, genişləndirir və şəxsi təcrübəsi ilə əlaqələndirirlər. Məsələn, "Mətnin sonunu dəyiş", "Qəhrəmanın yerində sən olsaydın nə edərdin?" kimi tapşırıqlar uşaqlarda həm empatiya, həm də yaradıcı yanaşma formalaşdırır.

Erkən məktəb dövründə oxu prosesinin şüurlu və sistemli təşkili şagirdlərin təxəyyülünü inkişaf etdirir, söz ehtiyatını zənginləşdirir və nitq bacarıqlarını gücləndirir. Yaradıcı düşünmə qabiliyyətinin inkişafı digər fənlərin mənimsənilməsinə də müsbət təsir göstərir. Çünki yaradıcı düşünən şagird problemi daha geniş kontekstdə analiz edir və fərqli baxış bucaqları formalaşdırır. "Erkən məktəb dövründə oxu strategiyalarının məqsədyönlü tətbiqi yalnız oxu bacarığının inkişafına deyil, həm də şagirdlərin yaradıcı düşünmə qabiliyyətinin formalaşmasına xidmət edir. Oxu strategiyalarının yaradıcı düşünməyə təsiri yalnız fərdi fəaliyyətlə məhdudlaşmır, həm də kollektiv iş formalarında daha aydın müşahidə olunur. Qrup və cütlərlə mətn müzakirəsi, rollu oxu, səhnələşdirmə və debat elementləri şagirdlərin həm kommunikativ, həm də yaradıcı potensialını üzə çıxarır." (Əlizadə, 2009, s. 213). Belə fəaliyyətlər zamanı uşaqlar fərqli baxışları eşidir, öz mövqelərini əsaslandırmağa çalışır və alternativ ideyalar irəli sürürlər. Bu isə tənqidi və yaradıcı düşünmənin paralel inkişafını təmin edir. Mətnlə iş zamanı istifadə olunan "Beyin həmləsi", "Klaster", "Sual-cavab zənciri", "Mətn xəritəsi" kimi üsullar şagirdlərin təfəkkür prosesini sistemləşdirir və strukturlaşdırır. Bu metodlar vasitəsilə şagirdlər hadisələr arasında səbəb-nəticə əlaqələrini müəyyənləşdirir, obrazların xüsusiyyətlərini müqayisə edir və mətnin ideyasını müstəqil şəkildə formalaşdırırlar. Oxu

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

fəaliyyəti reproduktiv xarakterdən çıxaraq yaradıcı xarakter alır. Erkən məktəb dövründə vizual materialların – illüstrasiyaların, sxemlərin, şəkilli planların tətbiqi də yaradıcı düşünməni stimullaşdırır. Şagirdlər şəkillər əsasında mətn qurur, hadisələri ardıcıllıqla düzür və ya verilmiş mətnə uyğun təsvir yaradırlar. Bu proses təxəyyülün inkişafına, obrazlı düşünmənin formalaşmasına və məntiqi əlaqələrin qurulmasına xidmət edir. Rəqəmsal resurslardan istifadə də müasir təlim mühitində xüsusi əhəmiyyət daşıyır. İnteraktiv lövhə, elektron kitablar və təhsil platformaları oxu prosesini daha maraqlı və motivasiyaedici edir. Multimodal mətnlər (mətn, səs, animasiya və şəkil birliyi) şagirdlərin informasiyanı müxtəlif kanallar vasitəsilə qavramasına imkan yaradır və yaradıcı məhsul ortaya qoymalarını asanlaşdırır. Məktəb dövründə oxu strategiyalarının sistemli və məqsədyönlü tətbiqi şagirdlərin yaradıcı düşünmə qabiliyyətinin inkişafında mühüm rol oynayır. Bu proses müəllimin metodik hazırlığından, istifadə olunan strategiyaların uyğunluğundan və təlim mühitinin təşkilindən birbaşa asılıdır. Yaradıcı düşünən şagird isə gələcək təhsil mərhələlərində daha müstəqil, təşəbbüskar və problem həll etmə bacarığı yüksək olan fərd kimi formalaşır.

"Müasir təhsil mühitində oxu prosesi artıq yalnız dərslik mətnlərinin oxunması ilə məhdudlaşmır. Layihə əsaslı təlim, problem əsaslı öyrənmə və inteqrativ dərs modelləri oxu fəaliyyətini digər fənlərlə əlaqələndirir. Məsələn, təbiət mövzusunda mətn oxuyan şagird həmin mövzu üzrə şəkil çəkə, kiçik hekayə yaza və ya təqdimat hazırlaya bilər. Bu inteqrativ yanaşma oxunu yaradıcı məhsula çevirir və şagirdin bilikləri tətbiqetmə bacarığını inkişaf etdirir." (Kərimov, 2010, s. 134). Qiymətləndirmə aspektindən baxdıqda isə ənənəvi reproduktiv suallar ("Mətnin əsas qəhrəmanı kimdir?" və s.) yaradıcı düşünməni tam ölçə bilmir. Alternativ qiymətləndirmə üsulları

– açıq tipli suallar, esse yazıları, yaradıcı tapşırıqlar, portfoliolar – şagirdin fərdi yanaşmasını və təxəyyülünü üzə çıxarmağa imkan verir. Bu yanaşma nəticəyönlü deyil, prosesyönlü qiymətləndirməni ön plana çəkir və şagirdin düşünmə mexanizmini izləməyə şərait yaradır. Metakoqnitiv aspekt də mühüm əhəmiyyət daşıyır. Şagird öz oxu prosesini dərk etdikdə – "Mən bu mətni necə başa düşdüm?", "Hansı strategiya mənə kömək etdi?" kimi suallar üzərində düşündükdə – öz öyrənməsini idarə etmə bacarığı formalaşır. Metakoqnitiv bacarıqlar yaradıcı düşünmənin əsas dayaqlarından biridir, çünki şagird yalnız məlumatı qəbul etmir, həm də öz düşünmə prosesini analiz edir və təkmilləşdirir.

Mədəni-dəyərlər aspektindən yanaşdıqda isə müxtəlif janr və mövzularda mətnlərin oxunması şagirdin dünyagörüşünü genişləndirir. Folklor nümunələri, nağıllar, müasir hekayələr və informasiya xarakterli mətnlər uşağın həm milli-mənəvi dəyərlərini möhkəmləndirir, həm də qlobal düşünmə qabiliyyətini formalaşdırır. Müxtəlif baxış bucaqları ilə tanışlıq yaradıcı təfəkkürün çevikliyini artırır. Digər mühüm məqam mühitin təşkilidir. "Sinifdə azad fikir mübadiləsinə imkan verən, səhv etməyə tolerant yanaşan və təşəbbüsü dəstəkləyən atmosfer olduqda şagirdlər daha cəsarətli düşünürlər. Onlar fikirlərini sərbəst ifadə edir, fərqli ideyalar irəli sürməkdən çəkinmirlər. Belə psixoloji rahatlıq yaradıcılığın əsas şərtlərindən biridir. Oxu zamanı müəllimin istiqamətləndirici, lakin dominant olmayan rolu şagirdin müstəqil nəticə çıxarmasına imkan yaradır. Ailə faktorunu da nəzərə almaq vacibdir. Evdə mütaliə mühitinin olması, valideynlərin birgə oxu fəaliyyətinə qoşulması uşağın söz ehtiyatını zənginləşdirir və mətnə marağını artırır." (Vəliyev, 2015, s. 12). Uşaq oxuduğu hekayəni evdə müzakirə etdikdə, hadisələrə fərqli baxışlar eşitdikdə

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

düşünmə çevikliyi inkişaf edir. Bu proses məktəbdə tətbiq olunan oxu strategiyalarının təsirini daha da gücləndirir.

## Ədəbiyyat

1. Əlizadə, Ə. (2009). *Uşaq psixologiyası*. ADPU nəşriyyatı.
2. Kərimov, Y. (2010). *İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası*. Elm və Təhsil.
3. Vəliyev, A. (2015). *Oxu və nitq inkişafı metodikası*. Müəllim.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 170-173**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 170-173**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Südabə Eyubova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0006-6831-7970
sudabeeyubova@gmail.com

# Rəqəmsal insan resursları idarəetməsinin ali təhsildə tətbiqi

***Açar sözlər:*** *rəqəmsal səriştə, insan resurslarının idarə olunması, ali təhsil, rəqəmsal inteqrasiya, innovasiya və texnoloji adaptasiya*
***Keywords:*** *digital competency, human resource management, higher education, digital ıntegration, ınnovation and technological adaptation*

XXI əsr kontekstində ali təhsilin mənzərəsi rəqəmsal texnologiyaların fasiləsiz inkişafının güclü təsiri altında formalaşmışdır. Bu texnologiyalar müxtəlif sahələrin fəaliyyət parametrlərini yenidən müəyyənləşdirdiyi bir şəraitdə, ali təhsil müəssisələri öz əməliyyat effektivliyini və pedaqoji aktuallığını qorumaq üçün uyğunlaşmağa məcburdur. Bu uyğunlaşma təkcə yeni texnologiyaların tətbiqi ilə məhdudlaşmır, eyni zamanda İnsan Resurslarının İdarə Olunmasının (İRİ) rəqəmsal səriştələri əhatə edəcək şəkildə yenidən qurulmasını da tələb edir.

İRİ təcrübələrində rəqəmsal alətlərin inteqrasiyası işə qəbul, işçilərin inkişafı və performansın qiymətləndirilməsi proseslərini təkmilləşdirə, bununla da ümumi institusional səmərəliliyi artıra bilər (Burbach, Royle, 2010). Bundan əlavə, İRİ-də rəqəmsal səriştələrin inteqrasiyası texnoloji yeniliklərdən istifadə edərək innovasiya edə bilən və ortaya çıxan təhsil çağırışlarına cavab verə bilən, rəqəmsal hazırlıqlı işçi

qüvvəsinin formalaşdırılmasını dəstəkləyə bilər (Bondarouk, Brewster, 2016).

İnsan resursları siyasətlərində rəqəmsal səriştələrin daxil edilməsi strateji bir addım hesab olunur. Bu yanaşma bütün işçilər üzrə rəqəmsal bacarıqların standartlaşdırılmasına kömək edir və müasir təhsil texnologiyalarının idarə olunmasında mühüm əhəmiyyət kəsb edən minimum rəqəmsal savadlılıq səviyyəsinin təmin olunmasına imkan yaradır.

Smith və Jones-un (2022) apardığı tədqiqata görə, insan resursları siyasətlərində rəqəmsal səriştələrin yer alması texnoloji cəhətdən bacarıqlı və uyğunlaşmış işçi qüvvəsinin formalaşdırılması üçün zəruri hala çevrilmişdir. Onların araşdırması göstərir ki, insan resursları siyasətlərində aydın rəqəmsal səriştə tələbləri olan müəssisələrdə akademik və inzibati funksiyalar çərçivəsində texnologiyaların tətbiqi və inteqrasiyası daha yüksək səviyyədədir (Smith və Jones, 2022).

Məsələn, Kaliforniya Universiteti sistemi yaxın zamanda insan resursları siyasətlərinə bütün yeni işə qəbul olunanlar üçün məcburi rəqəmsal səriştə qiymətləndirmələrinin aparılmasını daxil etmişdir. Bu siyasət dəyişikliyi yeni işçilərin universitetin texnoloji infrastrukturundan səmərəli şəkildə istifadə etmək üçün zəruri olan rəqəmsal bacarıqlara malik olmasını təmin edir. Bundan əlavə, mövcud işçilər texnoloji yeniliklərlə ayaqlaşmaq məqsədilə dövri olaraq rəqəmsal bacarıqlar üzrə təlimlərdən keçməlidirlər (Smith, Jones, 2022).

Son dövr elmi ədəbiyyat həmçinin göstərir ki, rəqəmsal səriştələrin insan resursları siyasətlərinə formal şəkildə daxil edilməsi iş məmnuniyyətinin artmasına və işçilərin təşkilatda saxlanmasına müsbət təsir göstərir. Johnson və Brown-un (2023) apardığı tədqiqat müəyyən etmişdir ki, adekvat rəqəmsal bacarıq təlimləri alan işçilər öz vəzifələrində daha bacarıqlı və inamlı hiss edirlər ki, bu da daha yüksək iş məmnuniyyətinə və

kadr dövriyyəsinin azalmasına səbəb olur. Bu məsələ xüsusilə ali təhsil sahəsində aktualdır, çünki texnoloji dəyişikliklərin sürətli tempi kifayət qədər hazırlığı olmayan əməkdaşlar üçün çətinliklər yarada bilər (Johnson, Brown, 2023). Bundan əlavə, rəqəmsal səriştələrin insan resursları siyasətlərinə daxil edilməsi davamlı təkmilləşmə və innovasiya mədəniyyətinin formalaşdırılmasını dəstəkləyir.

Rəqəmsal savadlılıq üçün aydın gözləntilərin müəyyən edilməsi vasitəsilə müəssisələr əməkdaşları öz bacarıqlarını davamlı şəkildə inkişaf etdirməyə və yeni texnologiyalardan xəbərdar olmağa təşviq edə bilərlər. Bu proaktiv yanaşma təkcə fərdi performansı artırmır, eyni zamanda texnoloji dəyişikliklər qarşısında müəssisənin ümumi uyğunlaşma qabiliyyətinə və dayanıqlığına töhfə verir (Kirkpatrick, 2022).

Nəticə etibarilə, bu tədqiqat insan resurslarının idarə olunmasında rəqəmsal inteqrasiyaya strateji yanaşmanın vacibliyini vurğulayır. Rəqəmsal savadlılıq və innovasiyanın təşviqi vasitəsilə ali təhsil müəssisələri əməkdaşlarını və tələbələrini rəqəmsal gələcəkdə uğur qazanmağa daha yaxşı hazırlaya bilərlər.

## Ədəbiyyat

1. Bondarouk, T., & Brewster, C. (2016). Conceptualising the future of HRM and technology research. *The International Journal of Human Resource Management, 27*(21), 2652–2671.
2. Burbach, R., & Royle, T. (2010). Talent on demand? Talent management in the German and Irish subsidiaries of a US multinational corporation. *Personnel Review, 39*(4), 414–431.

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

3. Johnson, A., & Brown, L. (2023). The impact of digital skills training on job satisfaction and employee retention in higher education. *Journal of Educational Technology, 34*(2), 112–130.
4. Kirkpatrick, D. L., & Kirkpatrick, J. D. (2022). *Evaluating training programs: The four levels*. Berrett-Koehler Publishers.
5. Smith, R., & Jones, P. (2022). Standardizing digital competencies in higher education HR policies: A pathway to institutional excellence. *International Journal of Human Resource Management, 33*(5), 987–1005.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 174-178**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 174-178**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Telman Qocayev**
Azərbaycan Dövlət İqtisad Universiteti
magistrant
https://orcid.org/0009-0008-8002-6927
qocayevtelman1@ gmail.com

# İqlim dəyişikliyinin ətraf mühit komponentlərinə təsir mexanizmləri

***Açar sözlər:*** *iqlim dəyişikliyi, qlobal istiləşmə, atmosfer emissiyaları, su ehtiyatlarının azalması, torpaq eroziyası, iqlim dəyişikliyinə adaptasiya*
***Keywords:*** *climate change, global warming, atmospheric emissions, water resource depletion, soil erosion, climate change adaptation*

Qlobal iqlim dəyişikliyi bu gün dünya üçün ciddi bir problem yaradır. 1850-ci ildən bəri quru və okeanın ümumi temperaturu hər on ildə orta hesabla 0,06 °C-də artır və istiləşmə sürəti 1982-ci ildən bəri təxminən 0,20 °C-dən üç dəfədən çox daha sürətlidir. Son əsrdə əhəmiyyətli dərəcədə istixana qazı tullantıları, sürətli əhali artımı və qazıntı yanacaqlarının yanması qlobal istiləşmənin əsas səbəbləri kimi müəyyən edilmişdir.

Hökumətlərarası İqlim Dəyişikliyi Panelinin (IPCC) Altıncı Qiymətləndirmə Hesabatında mütəxəssislər insan fəaliyyətinin Yer kürəsinin orta səth temperaturunun artmasına səbəb olan əsas amillər olduğunu qeyd etmişlər. Bunlar əsasən istixana qazlarının emissiyası vasitəsilə qlobal istiləşməyə səbəb olmuş və nəticədə 1850–2019-cu illər arasında qlobal səth temperaturu 0,8 °C-dən 1,3 °C-yə qədər artmışdır. Bundan əlavə, müasir cəmiyyətin uzun müddətdir qazıntı yanacaqlarına asılılığı sürətlə qlobal iqlim dəyişikliyinə səbəb olur. Bu tendensiya artıq

rekord həddə çatan quraqlıqlara, meşə yanğınlarına və daşqınlara səbəb olub və tədricən dünya miqyasında icmalara təsirini göstərib. İstixana qazı tullantılarının davam etməsi vəziyyəti daha da ağırlaşdıracaq və Yer kürəsinin gələcəyi əsasən bugünkü insanların seçimlərindən asılıdır (Yang, 2024, s. 7).

**Cədvəl 1.**
İqlim dəyişikliyinə dair göstəricilər.

| Göstəricilər | Qiymət / Göstərici səviyyəsi |
|---|---|
| Qlobal temperatur artımı | +1,2 ºC |
| Atmosferdə karbon dioksid ($CO_2$) | 420 mq / m$^3$ |
| Dəniz səviyyəsinin qalxması | 20 sm |
| Buzlaqların əriməsi | -13 % (hər onillik) |
| Ekstremal hava hadisələrinin artımı | +30% |
| Su çatışmazlığı | 1/3 əhali |
| Torpaq deqradasiyası | 24 mlrd ton/il |

İqlim dəyişikliyi ilə istixana qazları arasındakı əlaqə qlobal narahatlıq doğurur, çünki istixana qazlarının konsentrasiyasının artması əsasən insan fəaliyyəti, məsələn, qazıntı yanacaqlarının yandırılması, meşələrin qırılması, sənaye prosesləri və kənd təsərrüfatı ilə əlaqədardır. Bu fəaliyyətlər atmosferə xeyli miqdarda CO2, CH4 və N2O buraxır.

Kanada, Fransa, Almaniya, İtaliya, Yaponiya, Birləşmiş Krallıq və ABŞ da daxil olmaqla inkişaf etmiş ölkələr qlobal istixana qazı tullantılarına əsas töhfə verən ölkələrdir. Dünya əhalisinin nisbətən kiçik bir hissəsini təmsil etsələr də, qlobal iqtisadi fəaliyyətin və enerji istehlakının əhəmiyyətli bir

hissəsini təşkil edirlər. İnkişaf etmiş ölkələr iqlim dəyişikliyi ilə mübarizə aparmaq üçün təcili ehtiyacı qəbul ediblər və istixana qazı tullantılarını azaltmaq üçün öhdəliklər götürüblər (Bhatti, 2024).

İqlim dəyişikliyi 21-ci əsrin ən mürəkkəb və təcili məsələlərindən biridir və həm qlobal, həm də milli səviyyədə su ekosistemlərinə, şirin su ehtiyatlarına və içməli suyun təmizlənməsi və paylanması sistemlərinə təsir göstərir, insan sağlamlığına, davamlı inkişafa və biomüxtəlifliyə təhlükə yaradır. İqlim dəyişikliyinin nəticələri ikiqatdır və həm suyun mövcudluğuna, həm də keyfiyyətinə təsir göstərir.

Qlobal istiləşmənin intensivləşməsi şirin su ehtiyatlarının demək olar ki, bütün fiziki, kimyəvi və bioloji proseslərinə təsir edən əsas amil hesab olunur. Beləliklə, yüksək temperatur və yağıntının azalması su ehtiyatlarının qeyri-bərabər məkan və zaman bölgüsünə, daşqın və quraqlıq hallarının artmasına, daşqınlardan quraqlığa keçidlərin tezliyinin artmasına və mikrob icmalarının biomüxtəlifliyində və mövsümi dinamikasında dəyişikliklərə səbəb olur ki, bu da kimyəvi reaksiyaların kinetikasında və bioloji strukturlarda əhəmiyyətli dəyişikliklərə səbəb olur. Bu dəyişikliklər mövcud problemləri yaradıb, gücləndirib və ağırlaşdırıb, eyni zamanda yeni zəifliklərin səbəbini təmsil edir, suyun keyfiyyətinin pisləşməsi məsələsini gücləndirir.

Birləşmiş Millətlər Təşkilatının məlumatına görə, son beş ildə səth su hövzələri, göllər, çaylar və su anbarları sürətli iqlim dəyişikliyinə məruz qalıb və bu da hər beş çay hövzəsindən birinin səth su səviyyələrində böyük dalğalanmalara məruz qalmasına səbəb olmuşdur (Abalasei, 2025, s. 21).

İqlim dəyişikliyi bəzi əsas hərəkətverici qüvvələri gücləndirməklə torpaq eroziyasını daha da şiddətləndirir. Məsələn, temperaturun artması atmosferin nəm saxlamaq

qabiliyyətini artıra bilər ki, bu da qarşıdakı onilliklərdə qlobal miqyasda intensivləşən ekstremal yağıntılara səbəb olacaq. Bu artan yağıntı torpaq hissəciklərini birbaşa yağış damcıları vasitəsilə ayıracaq və dolayı yolla axıntıların təmizlənməsini artıracaq.

Bundan əlavə, iqlim dəyişikliyinin yaratdığı quraqlıqların artan tezliyi və intensivliyi quraqlıq torpaqlarının deqradasiyası və səhralaşma prosesini daha da şiddətləndirəcək ki, bu da geri qaytarılması çətindir (Weng, 2023).

İqlim dəyişikliyinin mənfi təsirlərini azaltmaq üçün dayanıqlı enerji mənbələrindən istifadə vacibdir və bu, antropogen istixana qazı tullantılarının idarə olunması və azaldılması üçün effektiv tədbirlərin həyata keçirilməsini əhatə edir. Bu tədbirlərə bərpa olunan enerji mənbələrinə investisiya qoyuluşu, enerji səmərəliliyinin və qənaətinin təşviqi, aşağı karbonlu nəqliyyatın təşviqi, dayanıqlı enerji istifadəsini təşviq etmək üçün siyasət və qaydaların tətbiqi, ictimai məlumatlılığın və təhsilin artırılması daxildir.

Məsələn, elektrikli nəqliyyat vasitələrinə (EN) keçid nəqliyyatdan istixana qazı tullantılarının azaldılması ilə mühüm rol oynayır (Nunes, 2023, s. 66).

İstixana qazı tullantılarının azaldılması üzrə beynəlxalq səylər bir sıra əhəmiyyətli təşəbbüslər və razılaşmalar daxil etmişdir. 1997-ci ildə qəbul edilmiş Kioto Protokolu inkişaf etmiş ölkələrə istixana qazı tullantılarının azaldılması ilə bağlı öhdəliklər qoymuşdur. 2015-ci ildə iştirakçı ölkələr üçün hərtərəfli çərçivə təmin edən Paris Sazişi əldə edildi (Zhang, 2024).

https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

## Ədəbiyyat

1. Abalasei, M. E., Toma, D., Dorus, M., & Teodosiu, C. (2025). The Impact of Climate Change on Water Quality: A Critical Analysis. *Water*, *17*(21), 3108.
2. Bhatti, U. A., Bhatti, M. A., Tang, H., Syam, M. S., Awwad, E. M., Sharaf, M., & Ghadi, Y. Y. (2024). Global production patterns: Understanding the relationship between greenhouse gas emissions, agriculture greening and climate variability. *Environmental Research*, *245*, 118049.
3. Filonchyk, M., Peterson, M. P., Zhang, L., Hurynovich, V., & He, Y. (2024). Greenhouse gases emissions and global climate change: Examining the influence of CO2, CH4, and N2O. *Science of The Total Environment*, *935*, 173359.
4. Nunes, L. J. (2023). The rising threat of atmospheric CO2: a review on the causes, impacts, and mitigation strategies. *Environments*, *10*(4), 66.
5. Weng, X., Zhang, B., Zhu, J., Wang, D., & Qiu, J. (2023). Assessing land use and climate change impacts on soil erosion caused by water in China. *Sustainability*, *15*(10), 7865.
6. Yuan, X., Li, S., Chen, J., Yu, H., Yang, T., Wang, C., & Ao, X. (2024). Impacts of global climate change on agricultural production: a comprehensive review. *Agronomy*, *14*(7), 1360.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 179-181**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 179-181**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Fatimə Şükürova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0003-8730-0136
fatimasukurova438@gmail.com

# Motivasiyanın növləri və onların təlim fəaliyyətində rolu

***Açar sözlər:*** *motivasiya, motivasiyanın növləri, daxili motivasiya, xarici motivasiya, təlim fəaliyyəti, psixoloji amillər*

***Keywords:*** *motivation, types of motivation, intrinsic motivation, extrinsic motivation, learning activity, psychological factors*

Motivasiya psixologiyada insan fəaliyyətini hərəkətə gətirən, onu istiqamətləndirən və davamlılığını təmin edən əsas mexanizmlərdən biri kimi qəbul edilir. Psixoloqlar motivasiyanı fərdin davranışının arxasında duran daxili və xarici səbəblərin məcmusu kimi izah edirlər (Maslow, 1987). Təlim fəaliyyətində motivasiya öyrənmənin keyfiyyətinə, davamlılığına və nəticələrinə birbaşa təsir göstərir.

Elmi ədəbiyyatda motivasiyanın ən geniş yayılmış növlərindən biri daxili və xarici motivasiya bölgüsüdür. Daxili motivasiya fərdin fəaliyyətin özündən aldığı məmnunluq, maraq və özünüinkişaf ehtiyacı ilə əlaqədardır. Bu motivasiya növündə öyrənmə xarici mükafatlara deyil, bilik əldə etməyin verdiyi daxili rahatlıq və məmnunluğa əsaslanır. Deci və Ryanın özünüdeterminasiyaya dair nəzəriyyəsinə görə, daxili motivasiya muxtariyyət, kompetentlik və sosial bağlılıq ehtiyaclarının ödənilməsi nəticəsində formalaşır (Deci və Ryan, 2000).

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Xarici motivasiya isə fəaliyyətin nəticəsində əldə edilən qiymət, mükafat, cəza və sosial gözləntilərlə bağlıdır. Təlim prosesində qiymətlər, müəllimin tərifi və valideynlərin gözləntiləri xarici motivasiya amillərinə aiddir. Xarici motivasiya qısa müddətli nəticələr versə də, uzunmüddətli öyrənmə üçün təkbaşına kifayət etmir (Rean, 2017).

Motivasiyanın digər təsnifatına görə müsbət və mənfi motivasiya fərqləndirilir. Müsbət motivasiya mükafatlandırma, təşviq və uğurun tanınması vasitəsilə formalaşır. Mənfi motivasiya isə cəza, qorxu və uğursuzluqdan qaçma ilə əlaqədardır. Psixoloji tədqiqatlar göstərir ki, müsbət motivasiya təlim prosesində daha effektiv və sağlam nəticələr yaradır (Bayramov və Əlizadə, 2019).

Bundan əlavə, motivasiya şüurlu və şüursuz olmaqla da təsnif edilir. Şüurlu motivasiya fərdin məqsədlərini dərk edərək fəaliyyət göstərməsi ilə xarakterizə olunur. Şüursuz motivasiya isə fərdin tam dərk etmədiyi, lakin davranışına təsir edən daxili impulslarla bağlıdır. Təlim prosesində şüurlu motivasiyanın formalaşdırılması şagirdin məsuliyyət hissini və məqsədyönlülüyünü artırır.

Motivasiyanın sabit və situativ növləri də təlim fəaliyyətində mühüm rol oynayır. Sabit motivasiya uzunmüddətli maraq və məqsədlərlə bağlıdır, situativ motivasiya isə müəyyən şərait və emosional vəziyyət nəticəsində yaranır. Effektiv təlim prosesi situativ motivasiyanı sabit motivasiyaya çevirməyi hədəfləməlidir (Kon, 2010).

Nəticə etibarilə, motivasiyanın növləri bir-birini tamamlayaraq təlim fəaliyyətinin səmərəliliyini təmin edir. Daxili motivasiyanın üstün tutulması, müsbət və şüurlu motivasiya formalarının inkişaf etdirilməsi təlimin keyfiyyətini və davamlılığını artıran əsas amillərdir (Şadrikov, 2012).

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

## Ədəbiyyat

1. Bayramov, Ə. S., & Əlizadə, Ə. Ə. (2019). *İnsan fəaliyyətində motivlərin formalaşması: nəzəri və praktik aspektlər*. Elm nəşriyyatı.
2. Deci, E. L., & Ryan, R. M. (2000). Intrinsic and extrinsic motivations: Classic definitions and new directions. *Contemporary Educational Psychology, 25*(1), 54–67.
3. Kon, İ. S. (2010). *Yeniyetmə psixologiyası*. Prosveşçeniye nəşriyyatı.
4. Maslow, A. H. (1987). *Motivation and personality*. Harper & Row.
5. Rean, A. A. (2017). *Motivasiya psixologiyası*. Piter nəşriyyatı.
6. Şadrikov, V. D. (2012). *Təlim fəaliyyətinin psixoloji mexanizmləri*. Akademik Layihə.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 182-185**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 182-185**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Günay Camalova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
https://orcid.org/0009-0003-4575-085X
gunaycamal10@gmail.com

# Təhsil sistemində idarəetmə və tədris proqramlarının inteqrativ inkişafı

***Açar sözlər:*** *təhsil sistemi, idarəetmə, tədris proqramı, inteqrativ inkişaf, innovasiya, keyfiyyət təminatı, rəqəmsallaşma*
***Keywords:*** *education system, management, curriculum, integrative development, innovation, quality assurance, digitalization*

Müasir cəmiyyətin inkişaf mərhələsində təhsil sistemi dinamik dəyişikliklər və yenilənmələrlə üz-üzədir. Qloballaşma, rəqəmsallaşma və əmək bazarının tələbləri təhsil sistemindən daha çevik, şəffaf və nəticəyönümlü idarəetmə mexanizmləri tələb edir. Bu baxımdan, idarəetmə və tədris proqramlarının inteqrativ inkişafı təhsilin keyfiyyətinin yüksəldilməsi, idarəetmə qərarlarının elmi əsaslarla verilməsi və təlim prosesinin müasir dövrün çağırışlarına uyğunlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir (Həsənov, 2022).

İnteqrativ inkişaf anlayışı idarəetmə və tədris proseslərinin qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq əsasında formalaşmasını nəzərdə tutur. Yəni, təhsil müəssisələrində qəbul edilən idarəetmə qərarları birbaşa tədris proqramlarının məzmunu, strukturu və tətbiq mexanizminə təsir göstərir. Eyni zamanda, tədris proqramlarında nəzərdə tutulan dəyişikliklər idarəetmənin prioritetlərini, resurs bölgüsünü və pedaqoji fəaliyyətin

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 182-185**
***Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 182-185**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

planlaşdırılmasını müəyyənləşdirir. Bu qarşılıqlı əlaqə sistem yanaşmasının təhsildə tətbiqinə əsas yaradır (Əliyev, 2019).

İdarəetmənin təhsildə inteqrativ inkişafı müxtəlif istiqamətləri əhatə edir: strateji planlaşdırma, keyfiyyət təminatı, rəqəmsal idarəetmə, innovativ liderlik və insan resurslarının inkişafı. Strateji planlaşdırma təhsil müəssisəsinin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsinə, onların tədris proqramları ilə əlaqələndirilməsinə şərait yaradır. Keyfiyyət təminatı isə həm idarəetmənin səmərəliliyini, həm də tədris proqramlarının effektivliyini qiymətləndirməyə imkan verir.

Tədris proqramlarının inteqrativ inkişafı isə müasir pedaqoji prinsiplərə, kompetensiya əsaslı təlim modellərinə və tələbəyönümlü yanaşmalara əsaslanır. Müasir tədris proqramları yalnız bilik ötürməyə deyil, həm də bacarıq, tənqidi düşünmə, kommunikasiya və adaptasiya qabiliyyətlərinin formalaşmasına yönəlmişdir. Bu məqsədlə idarəetmə strukturları tədris proqramlarının hazırlanması, tətbiqi və monitorinq prosesinə daha yaxından nəzarət edir (Quliyev, 2021).

Eyni zamanda, rəqəmsal texnologiyaların tətbiqi idarəetmə və tədris proqramları arasında inteqrasiyanın dərinləşməsinə səbəb olmuşdur. Elektron idarəetmə sistemləri, virtual tədris platformaları və süni intellekt əsaslı analitik alətlər tədris prosesinin izlənməsi, təhlili və optimallaşdırılmasına imkan yaradır. Bu, qərar qəbuletmə prosesini asanlaşdırmaqla yanaşı, təhsil siyasətinin səmərəliliyini artırır (Məmmədova, 2020).

İnteqrativ inkişafın əsas məqsədi idarəetmə və tədris proqramlarının bir-birini tamamlayan və gücləndirən bir sistem kimi fəaliyyət göstərməsidir. Belə bir yanaşma təhsil müəssisələrində resursların səmərəli istifadəsinə, müəllimlərin peşəkarlığının artırılmasına, təlim prosesinin şəffaf və ölçüləbilən nəticələr əsasında idarə olunmasına şərait yaradır.

Nəticə etibarilə, təhsil sistemində idarəetmə və tədris proqramlarının inteqrativ inkişafı yalnız təşkilati mexanizmlərin yenilənməsi deyil, həm də təhsilin məzmun və struktur baxımından modernləşməsini təmin edən kompleks bir prosesdir. Bu proses təhsil sisteminin dayanıqlığını, keyfiyyətini və beynəlxalq rəqabət qabiliyyətini artırmaqla, gələcək nəsillərin bilik və bacarıq səviyyəsini yüksəltməyə xidmət edir (OECD, 2021).

Təhsil sistemində idarəetmə və tədris proqramlarının inteqrativ inkişafı müasir dövrün qlobal çağırışlarına cavab verən vacib strateji istiqamətdir. İdarəetmə və tədris proseslərinin qarşılıqlı əlaqəsi təhsilin keyfiyyətinə, səmərəliliyinə və davamlı inkişafına birbaşa təsir göstərir. Bu inteqrativ yanaşma təhsil müəssisələrində qərar qəbuletmə prosesini elmi əsaslarla həyata keçirməyə, tədris proqramlarını əmək bazarının tələblərinə uyğunlaşdırmağa və müasir pedaqoji prinsiplərin tətbiqini genişləndirməyə imkan yaradır.

Eyni zamanda, rəqəmsallaşma və innovativ idarəetmə modellərinin tətbiqi tədris prosesinin daha şəffaf və çevik idarə olunmasına şərait yaradır. İnteqrativ inkişaf sayəsində təhsil sistemində insan resurslarının potensialı daha səmərəli istifadə olunur, strateji planlaşdırma və keyfiyyət təminatı mexanizmləri güclənir (UNESCO, 2020).

Beləliklə, idarəetmə və tədris proqramlarının inteqrativ inkişafı təhsil sisteminin modernləşməsi, beynəlxalq standartlara uyğunlaşdırılması və gələcək nəsillərin bilik, bacarıq və kompetensiyalarının formalaşmasında həlledici rol oynayır. Bu prosesin davamlılığı ölkənin intellektual potensialının yüksəldilməsi və sosial-iqtisadi inkişafın təmin olunması üçün mühüm şərtdir.

## Ədəbiyyat

1. Əliyev, T. (2019). *Təhsil sistemində idarəetmə islahatları və müasir yanaşmalar*. Elm və Təhsil Nəşriyyatı.
2. Həsənov, R. (2022). Təhsil idarəçiliyində rəqəmsallaşma və inteqrasiya problemləri. *Təhsil İslahatları Jurnalı, (2)*, 63–74.
3. Quliyev, E. (2021). *Təhsildə innovativ idarəetmə modelləri və keyfiyyət təminatı sistemləri*. ADPU Nəşriyyatı.
4. Məmmədova, L. (2020). Tədris proqramlarının modernləşdirilməsi və inteqrativ inkişaf prinsipləri. *Azərbaycan Təhsil Jurnalı, (3)*, 45–58.
5. OECD. (2021). *Education policy outlook: Towards 2030 – Innovation and governance in education systems*. OECD Publishing.
6. UNESCO. (2020). *Educational management and curriculum innovation: Global trends and strategies*. UNESCO Publishing.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 186-190**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 186-190**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Günel Davidova**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0005-3957-6378
guneldavidova@gmail.com

# Ədəbiyyat dərslərində dramatik nümunələrin öyrənilməsində janr xüsusiyyətlərinin əhəmiyyəti

***Açar sözlər:*** *dramatik nümunələr, faciə janrı, komediya janrı, dram janrı, ədəbiyyat, janr xüsusiyyətləri*
***Keywords:*** *dramatic works, tragedy genre, comedy genre, drama genre, literature, genre characteristics*

Dram janrı gənc nəslin mənəvi və estetik inkişafında xüsusi rol oynayır. Səhnəyə uyğunlaşdırılmış bu ədəbi nümunələr həm oxucu, həm də tamaşaçı üçün emosional və tərbiyəvi təsir baxımından geniş imkanlar təqdim edir. Hətta yazılı ədəbiyyat formalaşmamışdan əvvəl dramatik nümunələr xalq oyunları və səhnə nümayişlərində – qədim dram və oyunlarda mövcud olmuşdur. Bu əsərlər xalqın düşüncə tərzini, arzu və dəyərlərini əks etdirərək onların mənəvi dünyasını formalaşdırırdı. Yazılı ədəbiyyatda isə komediya, dram və faciə janrları məhz bu bünövrə üzərində yaranaraq inkişaf etmişdir. Azərbaycan məktəblərində müasir ədəbiyyat dərslərində dramatik əsərlərin tədrisi siniflər üzrə sistemləşdirilmişdir: VIII sinifdə Hüseyn Cavidin "Ana" dramı, IX sinifdə Anarın "Keçən ilin son gecəsi", X sinifdə M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi – nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur" komediyası və Nəcəfbəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi, XI sinifdə C.Məmmədquluzadənin "Anamın kitabı" dramı, C.Cabbarlının

"Oqtay Eloğlu" faciəsi, S.Vurğunun "Vaqif" dramı və İ.Əfəndiyevin "Xurşidbanu Natəvan" dramı öyrədilir.

Dram əsərləri həm nəsr, həm də nəsr-poetik üslubda yazılsa da, onların lirika və epik əsərlərlə birləşən cəhətləri mövcuddur. Buna baxmayaraq, dramatik mətnlər digər bədii növlərdən fərqlənir. Onların əsas xüsusiyyəti hadisələrin təhkiyə ilə deyil, səhnədə personajların hərəkətləri, replikaları və vizual təsvir vasitəsilə təqdim edilməsidir. Bu xüsusiyyət dramatik əsərləri digər ədəbi janrlardan ayıran əsas amildir (Əhmədov, 1992).

Rus tənqidçisi V.Belinski dramatik əsərlərin xüsusiyyətini vurğulayaraq qeyd edirdi ki, "dram baş vermiş hadisəni oxucunun və ya tamaşaçının gözü önündə canlı şəkildə təqdim edir, sanki hadisə indi baş verir." O hesab edirdi ki, dram həm epos, həm də lirikanın elementlərini özündə birləşdirir, lakin nə tamamilə epos, nə də yalnız lirika deyil; o, özünəməxsus, bütöv və vahid bir janrdır (Belinski, 1948, s. 67). Tədqiqatçı hesab edir ki, dramatik əsərlər faciə və komediya arasında bir mövqedə dayanır. Ümumtəhsil məktəblərində dərs prosesində dram, komediya və faciənin kurikulum üzrə öyrədilməsində janrın özünəməxsus xüsusiyyətlərinin nəzərə alınması vacibdir. Bu səbəbdən, Anarın "Keçən ilin son gecəsi" dramını, M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan həkimi – nəbatat və dərviş Məstəli şah cadukünі-məşhur" komediyasını və Nəcəfbəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsini eyni metod və yanaşmalarla tədris etmək mümkün deyil. Hər bir əsərin ideya və məzmununun şagirdlərə çatdırılması və təhlilində fərqliliklər nəzərə alınmalıdır. Bu, eyni zamanda dərs prosesində dramatik, komik və faciəvi elementlərin mahiyyətinin və fərqlərinin şagirdlərə öyrədilməsini tələb edir. Dramatik əsərlərin digər vacib xüsusiyyəti isə onların səhnə üçün yazılmasıdır. Görkəmli rus dramaturqu A.N.Ostrovski dramatik əsərin yalnız səhnədə ifa edildiyi zaman tamamlandığını

vurğulayırdı. Beləliklə, dram həm ədəbiyyatın, həm də teatr sənətinin bir hissəsi kimi qəbul olunur. Pyesdə səhnəvi elementlər isə ədəbi mülahizələrlə deyil, xüsusi bədii təsəvvürlərlə bağlıdır və yalnız bu kontekstdə anlam qazanır (Ostrovskiy, 1939, s. 78–79).

Ədəbiyyatşünas Z.Əsgərli qeyd edir ki, lirik və epik əsərlərdən fərqli olaraq, dramatik janrın əsas diqqət obyekti hərəkətdir. Bu janr insanın daxili və xarici fəaliyyətini göstərməklə yanaşı, onu birbaşa hərəkət vasitəsilə təsvir edir. Beləliklə, dramatik əsərlərdə fəaliyyət həm bədii təsvirin mövzusu, həm də onun ifadə vasitəsi rolunu oynayır. Digər ədəbi növlərdən fərqləndirən əsas cəhət isə bədii nitqin quruluşudur. Dramatik əsərlərdə nitq əsasən dialoq və monoloq formasında verilir, yazıçının təhkiyəsindən isə çox nadir hallarda istifadə olunur (Əsgərli, 2014, s. 53).

Dram əsərlərində dialoq bədii nitqin ən önəmli ifadə vasitəsi hesab olunur və hadisələrin inkişafı, konfliktlərin və personajların xarakterlərinin göstərilməsində əsas rol oynayır. Dramatik mətnlərdə qəhrəmanların həyat mövqeləri, məqsəd və niyyətləri, digər obrazlarla münasibətləri əksər hallarda dialoqlar vasitəsilə oxucuya və ya tamaşaçıya çatdırılır. Səhnədə personajların sözləri onların düşüncələrini, hadisələrə reaksiyalarını və digər obrazlarla qarşılıqlı əlaqəsini canlı şəkildə əks etdirir. Dramatik dialoqlar gündəlik danışıqdan fərqlənir; onlar həyatın bədii və dramaturji surətdə təqdim edilmə formasını təşkil edir. Hər bir dialoq müəllifin diqqətlə formalaşdırdığı estetik və dramatik məqsədlərlə oxucuya və tamaşaçıya yönəlir. Hadisələr irəlilədikcə və konflikt dərinləşdikcə dialoqun xarakteri və tonu da dəyişir, situasiyaya uyğunlaşır (Əlimirzəyev, 2008).

Məsələn, Anarın IX sinif proqramında öyrənilən "Keçən ilin son gecəsi" dramında qəhrəmanlar müasir oxucularla tanış ola

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 186-190**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 186-190**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

biləcək tipik obrazlardır. Müəllif burada bir ailənin timsalında cəmiyyətin daxili dəyişikliklərini, insan münasibətlərinin mürəkkəbliyini və nəsillərin bir-birini əvəz etməsinin qaçılmazlığını göstərir. Dramanın əsas süjeti bayram axşamı Həmidə ananın keçmişlə bağlı xatirələr və mövcud vəziyyət üzərində düşünməsi ətrafında qurulur. Övladlarının bayram gecəsi onu tək qoyması, keçmişlə bağlı hisslər və xatirələr onun yaddaşında canlanır. Ana bayram gecəsi ailənin birlikdə olmasını, yeni ili bir masa arxasında qarşılamasını arzulayır. Lakin övladlarının artıq öz planları, arzuları və prioritetləri var (Hüseynoğlu, 2009).

Dramda Həmidə ana və oğlu Rüstəmin dialoqu yalnız təsadüfi söhbət deyil, obrazların daxili aləmini, xarakterini və bir-birinə münasibətlərini göstərmək üçün nəzərdə tutulmuşdur:

Rüstəm otağa girir. Həmidə xala onu telefon tərəfə aparır.

Həmidə: “Zəng elə.”

Rüstəm: “Hara?”

Həmidə: “Özün bilirsən.”

Rüstəm: “Yox.”

Həmidə: “Deyirəm, zəng elə. Uşaqlar heç vaxt mənim sözümü dinləməyiblər. Bu dəfə də mənim dediyimə əməl etməlisən, yoxsa ömrüm boyu barışmayacağam.”

Bu dialoq Həmidə ananın daxili dünyasını, duyğularını və mənəvi zənginliyini göstərir. Ana uşaqlarına doğru yolu göstərərək, bayram gecəsi yaranan gərginliyi həll etməyə çalışır. Dialoq həm də Rüstəmin fəaliyyətə yönəlməsinə, nişanlısı ilə barışmasına təkan verir. Ana həyatın axarını başa düşərək uşaqların böyüyüb öz yollarına gedəcəyini və həyat təcrübələrini yeni nəsillərə daşıyacağını qəbul edir: “Bir gün uşaqlar böyüyəcək, öz yollarına gedəcəklər. Hara getsələr, hər birinə nəsə dəyərli bir şey qalacaq, eləcə də bizdən. Həyat belə davam edir, yaxşı və pis nəsillər bir-birini əvəz edir.” (Həsənli, 2016).

Dramatik dialoqlar hadisələrin irəliləməsi, konfliktlərin dərinliyi və personajların daxili dünyasının ifadəsi üçün mühüm vasitədir. Onlar həm də tamaşaçı və oxucuya hadisələri canlı şəkildə təqdim etməklə, obrazların xarakter və münasibətlərini daha aydın görməyə imkan verir. Ədəbiyyat dərslərində dramatik əsərlərin səhnə və kino ilə əlaqəsi də nəzərə alınmalıdır. Məsələn, Anarın "Keçən ilin son gecəsi" dramı əsasında çəkilmiş bədii filmin bir fraqmentinin nümayişi, aktyor oyunu və rejissorun interpretasiyası əsərin ideya və məzmununun daha dərindən qavranılmasına kömək edir. Dramatik mətnlərin təhlili və anlayışı zamanı janr xüsusiyyətlərinə diqqət yetirilməsi dərsin effektivliyini artırır və şagirdlərin əsəri həm forma, həm də məzmun baxımından daha tam qavramasına şərait yaradır. Bu baxımdan müəllimin dərsə hazırlığı, kurikulum tələblərinə riayət edilməsi və şagirdlərin müstəqil fəaliyyətinə şərait yaratması xüsusi əhəmiyyət daşıyır (Qarabağlı, 1968).

## Ədəbiyyat

1. Belinski, V. Q. (1948). *Seçilmiş məqalələr*. Uşaqgəncnəşr.
2. Əhmədov, C. (1992). *Ədəbiyyat tədrisi metodikası*. Bakı Universiteti.
3. Əlimirzəyev, X. (2008). *Ədəbiyyatşünaslığın elmi-nəzəri əsasları*. Nurlan.
4. Əsgərli, Z. (2014). *Poetika*. Elm.
5. Həsənli, B. (2016). *Ədəbiyyatın tədrisi metodikası: Pedaqoji ali məktəblər üçün dərs vəsaiti*. Müəllim.
6. Hüseynoğlu, S. (2009). *Ədəbiyyat dərslərində yeni texnologiyalar: Fəal/interaktiv təlim*.
7. Qarabağlı, Ə. (1968). *Azərbaycan ədəbiyyatı tədrisi metodikası: Ali məktəb üçün*. Maarif.
8. Ostrovskiy, A. N. (1939). *Russkiye pisateli o literature*. 78–79.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 191-194**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 191-194**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Ilhama Mehdiyeva**
Baku Slavic University
Master's student
https://orcid.org/0009-0005-4257-631X
ilhame.mehdiyeva@bsu-uni.edu.az

# The Evolution of Scholarly Approaches to the Study of the Onomastic System in the Works of J. R. R. Tolkien

***Keywords:*** *onomastics, Tolkien, proper names, etymology*
***Açar sözlər:*** *ononastika, Tolkin, şəxsi adlar, linqvistik təhlil, etimologiya*

A considerable number of studies have been devoted to the onomastic system in the works of J.R.R.Tolkien. These studies can conventionally be divided into three historical stages:

The initial stage – the 1950s–1970s. This stage is characterized by the predominance of authorial commentary. The key sources for researchers were the paratexts—prefaces and appendices to *The Lord of the Rings* (1954–1955), in which Tolkien himself laid the foundations for the interpretation of his own onomastics. He introduced the principle of "translation," fundamental for understanding his system: the text is presented as a rendering from "Westron" into English, and the names function either as transcriptions (e.g., Gandalf), calques (e.g., Thranduil from the Sindarin Tranduil — "spring king"), or actual "translations" (Peregrin Took as an adaptation of the original Peregrin Took) (Tolkien, 1991).

The second stage – the 1980s–1990s. This period marks the systematization of material and the formation of a scholarly approach. A key work of this stage is *The Complete Guide to*

*Middle-earth* (1971, with later supplements) by Robert Foster, which provided a systematic arrangement of onomastic material (Foster, 1978, pp. 378–390).

A qualitatively new level of research became possible with the beginning of the publication of the twelve-volume series *The History of Middle-earth* (1983–1996), edited by Christopher Tolkien. This series, consisting of drafts, sketches, and linguistic writings of J.R.R.Tolkien, moved the study of onomastics from the realm of hypothesis to that of textual scholarship (*The History of Middle-earth*, 1983–1996, pp. 340–358).

During this period, a circle of scholars (e.g., J.Allan, P.Kocher) also emerged, laying the foundations for critical analysis of Tolkien's works, including his onomastics. Publications in specialized journals such as *Mythlore* and *Tolkien Studies* contributed to the institutionalization of Tolkien studies.

The modern stage – the 2000s to the present. The contemporary stage is characterized by in-depth research and the application of rigorous scholarly methodologies. Several key directions can be identified:

- Linguistic analysis and internal reconstruction. Modern researchers (H.Fauskanger, E.Kloczko, P.Wynne) conduct detailed analyses of names based on the linguistic laws governing the development of the Elvish languages (Quenya, Sindarin) established by Tolkien (Fauskanger, n.d.). The methodology includes etymological reconstruction, analysis of phonological processes, and word formation. This approach makes it possible not only to translate names but also to reconstruct their proto-forms and reveal hidden connections within the onomastic network.
- Cultural and ethnolinguistic approach. Within this framework, names are examined as markers of the

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

ethnocultural identity of the peoples of Middle-earth (Solopova, 2009, pp. 112–138).

*Studies of this period analyze:*

A) the prophetic and patronymic functions of names among the Elves (e.g., Túrin Turambar);

B) the borrowing of the Dwarvish onomasticon from the *Poetic Edda*;

C) the stratification of the human onomasticon reflecting historical migrations and cultural influences.

- Narratological and poetological analysis. In this perspective, onomastics is studied as an element of the artistic structure of the work. A character's change of name (for example, the multi-stage onomastic evolution of Aragorn: Aragorn → Elessar → Envinyatar → King Elessar) is interpreted as a narrative device marking key stages of personal transformation and the acquisition of identity. Secret names (e.g., Einion as the true name of Beren) are analyzed in the context of archaic mythopoetic concepts of the sacred nature of the name.
- Digital philology. The development of digital technologies has led to the creation of powerful online tools (e.g., the dictionary *Parf Edhellen*, wiki-encyclopedias), which enable rapid search, cross-referencing, and analysis of large corpora of onomastic data (*Parf Edhellen*, n.d.).

Thus, the evolution of scholarly research on Tolkien's onomastic system demonstrates a shift from compilatory description to complex, multi-level analysis. Contemporary studies are based on meticulous textual work with primary sources, apply the methodology of comparative-historical linguistics to reconstruct the internal laws of the system, and regard onomastics as an integral component of Tolkien's poetics and mythopoetics.

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 191-194
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 191-194
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

## References

1. Fauskanger, H. K. (n.d.). *Ardalambion: Of the tongues of Arda*. Retrieved from https://www.ardalambion.com/
2. Foster, R. (1978). *The complete guide to Middle-earth*, 378–390.
3. Parf Edhellen. (n.d.). *An Elvish dictionary*. Retrieved from https://www.elfdict.com/
4. Solopova, E. (2009). *Languages, myths and history: An introduction to the linguistic and literary background of J. R. R. Tolkien's fiction* (pp. 112–138).
5. Tolkien, C. (Ed.). (1983–1996). *The history of Middle-earth* (12 vols.), 340–358.
6. Tolkien, J. R. R. (1991). *The Lord of the Rings: Appendices*, 377–410.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 195-200**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 195-200**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Lamiyə Əsədova**
Bakı Slavyan Universiteti
https://orcid.org/0009-0002-8261-0082
asadovalamiya24@gmail.com

# Nizami Gəncəvinin "Xəmsə" poemalarının orta məktəb tədrisində kompetensiyaəsaslı yanaşmanın tətbiqi və təlim nəticələrinə təsiri

***Açar sözlər:*** *Nizami Gəncəvi, tənqidi düşüncə, kompotensiyaəsaslı yanaşma, şagird fəaliyyəti, təlim nəticələri*
***Keywords:*** *Nizami Ganjavi, critical thinking, competency-based approach, student activity, learning outcomes*

Orta ümumtəhsil mərhələsində ədəbiyyatın tədrisi yalnız mətnin "məzmununu danışmaq" səviyyəsində qaldıqda şagirdin dil, düşünmə və dəyərlər sistemində dayanıqlı dəyişiklik yaratmaqda məhdud qalır. Xüsusilə Nizami Gəncəvinin "Xəmsə"si kimi ideya-estetik yükü böyük olan poemaların (məsələn, "İskəndərnamə", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "Sirlər xəzinəsi") məktəb kursunda öyrənilməsi şagirdin yalnız ədəbi məlumatlılığını deyil, həm də mətnlə işləmə mədəniyyətini, mənəvi-etik mövqeyini, tənqidi və yaradıcı təfəkkürünü formalaşdırmalı olan strateji sahədir. Azərbaycan ümumi təhsilində kurikulum məhz nəticəyönümlü (learning outcomes) yanaşmanı önə çəkir və təhsilalanların bilik-bacarıq səviyyəsinin ölçülməsini, eləcə də məzmunun cəmiyyətin tələbatına uyğun yenilənməsini dövlət standartlarının əsas funksiyalarından biri kimi müəyyənləşdirir.

Bu kontekstdə kompetensiyaəsaslı yanaşma "Xəmsə"nin tədrisini faktoloji məlumatlardan (müəllif bioqrafiyası, süjet xronologiyası, obrazların sadə təsviri) çıxarıb funksional

nəticələrə (analiz, interpretasiya, dəyərləndirmə, ünsiyyət, yaradıcılıq, əməkdaşlıq) yönəltməyə imkan verir. Tezisin əsas ideyası ondan ibarətdir ki, "Xəmsə"nin məktəbdə öyrədilməsi kompetensiyalara bağlandıqda təlim nəticələri ölçülə bilən, müşahidə edilən və şagird portfeli üzrə izlənən göstəricilərə çevrilir; nəticədə şagirdin oxu savadlılığı, mətn interpretasiyası, etik mühakimə və müasir həyatla əlaqələndirmə bacarıqları yüksəlir (Əliyev, 2019).

Bu tezisin məqsədi Nizami Gəncəvinin "Xəmsə" poemalarının orta məktəbdə tədrisində kompetensiyaəsaslı yanaşmanın tətbiq mexanizmlərini əsaslandırmaq və bu yanaşmanın təlim nəticələrinə təsirini qiymətləndirmə məntiqi ilə izah etməkdir. Məqsədə uyğun olaraq aşağıdakı vəzifələr irəli sürülür: (i) kompetensiyaəsaslı tədrisin ədəbiyyat fənninə metodik transferini şərh etmək; (ii) "Xəmsə" mətnlərinin didaktik potensialını (dəyər, ideya, konflikt, dil-üslub, obrazlar sistemi) kompetensiyalarla əlaqələndirmək; (iii) formativ və summativ qiymətləndirmə mexanizmləri vasitəsilə əldə olunan təlim nəticələrinin necə izlənəcəyini göstərmək.

Azərbaycan ümumi təhsil standartları təhsilin məzmunu və təhsilalanların nailiyyət səviyyəsini müəyyən edən normativ baza kimi çıxış edir. Kompetensiyaəsaslı yanaşmanın praktik mahiyyəti isə "məzmun standartı → təlim məqsədi → fəaliyyət tapşırığı → meyar/rubrik → qiymətləndirmə sübutu (evidence)" zəncirinin qurulmasıdır. Ədəbiyyat dərsində bu zəncir, adətən, aşağıdakı kompetensiya bloklarında reallaşır:

1. Mətnlə işləmə və interpretasiya (mətnin ideya xətti, konflikt, motivlər, rəmzlər, müəllif mövqeyi);
2. Tənqidi düşünmə və arqumentasiya (mövqe bildirmə, sübutlarla əsaslandırma, müqayisə və ümumiləşdirmə);
3. Ünsiyyət və əməkdaşlıq (müzakirə, debat, qrup işi, təqdimat);

4. Yaradıcı fəaliyyət (alternativ sonluq, obrazın daxili monoloqu, məktub/esse, səhnələşdirmə);
5. Dəyərlər və vətəndaş mövqeyi (ədalət, mərhəmət, məsuliyyət, bilik və güc münasibəti, insan ləyaqəti).

Bu çərçivə "Xəmsə"nin tədrisi üçün xüsusilə əlverişlidir, çünki poemalar həm mətnin daxili poetikasını, həm də universal ideyaları daşıyır: ədalətli cəmiyyət ideyası, insanın kamilliyi, elmin və hikmətin dəyəri, sevgi və məsuliyyət dilemması, hakimiyyət və mənəviyyat qarşıdurması. Nizami yaradıcılığının müasir ədəbiyyat dərslərində öyrənilməsi ilə bağlı tədqiqatlarda da yeni təlim texnologiyalarından, interaktiv metodlardan, müzakirə və təhlil formalarından istifadə zərurəti vurğulanır; həmçinin məktəb proqramında Nizami mövzusuna (məsələn, X sinifdə "İskəndərnamə" üzrə məzmun işi və təhlil üçün saat bölgüsü) konkret yer ayrıldığı göstərilir (Azərbaycan Respublikasının Təhsil Nazirliyi, 2010).

Kompetensiyaəsaslı tədrisdə müəllim "poemanı danışdırmaqdan" daha çox "poemanı işlətməyə" şərait yaradır. Məsələn, "İskəndərnamə"nin tədrisində şagird yalnız süjet xəttini öyrənmir; o, "bilik–güc–məsuliyyət" triadasını dəyərləndirir, İskəndər obrazının liderlik modelini müasir dünyadakı liderlik gözləntiləri ilə müqayisə edir, mətnin ideyasını faktlarla əsaslandırılmış çıxış formasında təqdim edir. Bu, interpretasiya və arqumentasiya kompetensiyasının birbaşa inkişafıdır.

"Leyli və Məcnun" kontekstində sosial norma ilə fərdi seçim arasındakı konflikt şagirdin etik mühakimə və empatiya bacarıqlarını hərəkətə gətirir: şagirdlər obrazların davranış motivlərini psixoloji əsaslarla izah edir, "cəmiyyət–fərd" münasibətində sərhədləri müzakirə edir, müasir gənclik problemləri ilə əlaqələndirmə aparırlar. "Xosrov və Şirin"də məsuliyyət, hakimiyyət, sədaqət, qərarvermə dilemması, "Yeddi

gözəl"də mədəniyyətlərarası baxış və insan tərbiyəsinin mərhələliliyi, "Sirlər xəzinəsi"ndə hikmət, mənəvi özünənəzarət, ədalət ideyası kompetensiya xəritələndirməsi üçün yüksək potensial yaradır.

Bu yanaşmanın vacib komponenti diferensiasiyadır: eyni mətn əsasında müxtəlif səviyyəli tapşırıqlar (baza-anlama, orta-analiz, yüksək-sintez/yaradıcılıq) qurulduqda sinifdə həm zəif, həm də güclü oxucular üçün inkişaf trayektoriyası açılır. Nəticədə təlim "hamı üçün eyni cavab" modelindən "hamı üçün eyni məqsəd, fərqli yol və fərqli sübut" modelinə keçir (Hüseynov, 2014).

Kompetensiyaəsaslı tədrisdə təsirin əsas şərti qiymətləndirmənin düzgün qurulmasıdır. Normativ sənədlərdə məktəbdaxili qiymətləndirmənin diaqnostik, formativ və summativ formaları göstərilir; formativ qiymətləndirmənin məqsədi şagirdin kurikulum məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, çətinlikləri müəyyən etmək və tədrisi tənzimləməkdir. Summativ qiymətləndirmə isə fənn üzrə standartların mənimsənilməsi ilə bağlı nailiyyətlərin müəyyən edilməsinə xidmət edir və kiçik summativ (bölmə daxilində/sonunda) və böyük summativ (yarımil sonunda) formatlarda aparılır.

"Xəmsə" üzrə formativ sübutlara (evidence) nümunə olaraq şagird portfelində aşağıdakı məhsullar toplana bilər: mətnin ideyasına dair tezis və sübut cədvəli, obraz müqayisəsi (xarakter xəritəsi), mətn parçasının şərhi (annotasiya), müzakirə protokolu və refleksiya vərəqi, yaradıcı yazı (məsələn, "obrazın gündəliyi"), təqdimat çıxışı üçün rubriklə qiymətləndirilən nitq. Summativ mərhələdə isə şagirdin daha kompleks performans tapşırığı (məsələn, "Nizami ideyalarının müasir sosial problemlərlə əlaqəsi" mövzusunda strukturlaşdırılmış esse və ya debat) vasitəsilə kompetensiyalar yekun səviyyədə ölçülür. Bu

mexanizm qiymətləndirməni yalnız "yaddaş yoxlaması" deyil, "bacarıq nümayişi"nə çevirir və təlim nəticələrinin real artımını görməyə imkan verir.

Kompetensiyaəsaslı yanaşmanın tətbiqi "Xəmsə"nin tədrisində bir neçə istiqamətdə nəticə verir. Birinci, şagirdlərin oxu savadlılığı və mətnin dərin anlam qatlarını açma bacarığı güclənir: şagird yalnız "nə baş verdi" sualına yox, "niyə belə oldu" və "müəllif bununla nə demək istəyir" suallarına cavab qurur. İkinci, şagirdin tənqidi düşünməsi və arqument mədəniyyəti formalaşır: mətnə istinad edən sübutlarla danışmaq vərdişi yaranır. Üçüncü, dəyər-oriyentasiyalı nəticələr (ədalət, insan ləyaqəti, məsuliyyət, empatiya) şagird davranış modelinə daha sistemli şəkildə inteqrasiya olunur; bu, klassik mətnlərin məktəb missiyası ilə uyğunlaşır. Nizami yaradıcılığının məktəb təcrübəsində müasirlik baxımından öyrənilməsinin əhəmiyyəti, interaktiv metod və əlavə resurslardan istifadənin vacibliyi də metodik ədəbiyyatda ayrıca vurğulanır.

Eyni zamanda, tətbiqdə çətinliklər mümkündür: arxaik leksika və poetik sintaksis səbəbindən mətni anlama baryeri, sinifdə oxu səviyyələrinin fərqliliyi, vaxt resursunun məhdudluğu. Bu risklər diferensial tapşırıq dizaynı, mətnin seçilmiş parçalar üzrə işlənməsi, vizual-sxematik təşkilatçılar (obraz xəritəsi, ideya xətti, konflikt diaqramı), eləcə də müəllimin rubrik əsaslı qiymətləndirmə bacarıqlarının gücləndirilməsi ilə minimallaşdırıla bilər (Quliyeva, 2016).

Nizami Gəncəvinin "Xəmsə" poemalarının orta məktəbdə tədrisində kompetensiyaəsaslı yanaşma klassik irsin didaktik potensialını müasir təlim nəticələrinə çevirməyin ən funksional modelidir. Dövlət standartlarının nəticəyönümlü məntiqi və məktəbdaxili qiymətləndirmə qaydalarının formativ–summativ balansı bu yanaşmanın normativ əsasını təmin edir. "Xəmsə" mətnləri isə ideya və poetika baxımından şagirdin interpretasiya,

arqumentasiya, yaradıcılıq və dəyərlər kompetensiyalarını inkişaf etdirmək üçün unikal resursdur. Nəticə etibarilə, kompetensiyaəsaslı tədris "Xəmsə"nin məktəbdə öyrənilməsini passiv bilik ötürülməsindən çıxarıb ölçülə bilən bacarıq inkişafına, şagirdin şəxsiyyət və dünyagörüşünün formalaşmasına xidmət edən səmərəli təlim prosesinə çevirir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Təhsil Nazirliyi. (2010). *Ümumi təhsil pilləsi üzrə dövlət standartları (kurikulumlar)*. Təhsil.
2. Əliyev, R. H. (2019). Ədəbiyyat dərslərində kompetensiyaəsaslı təlimin tətbiqi problemləri. *Azərbaycan məktəbi, (4)*, 32–38.
3. Hüseynov, M. C. (2014). *Nizami Gəncəvinin "Xəmsə"sində humanist ideyalar və onların tərbiyəvi əhəmiyyəti*. Nurlan.
4. Quliyeva, S. A. (2016). *Orta məktəbdə Nizami Gəncəvi yaradıcılığının tədrisi metodikası*. Elm və Təhsil.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 201-202**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 201-202**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Nabat Xanlarzadə**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0003-2899-7869
nabatkhanlarzadeh@gmail.com

# İnklüziv siniflərdə gigiyenik şəraitin pedaqoji prosesə təsiri

***Açar sözlər:*** *inklüziv təhsil, gigiyenik şərait, pedaqoji proses, sinif mühiti, təlim effektivliyi*

***Keywords:*** *inclusive education, hygienic conditions, pedagogical process, classroom environment, learning effectiveness*

Müasir dövrdə inklüziv təhsil bütün şagirdlər üçün bərabər öyrənmə imkanlarının yaradılmasını hədəfləyən əsas təhsil prinsiplərindən biri hesab olunur. Bu yanaşma yalnız metod və proqramlarla deyil, həm də təhsil mühitinin düzgün təşkil olunması ilə birbaşa bağlıdır. Sinif otağında gigiyenik şəraitin təmin edilməsi şagirdlərin sağlamlığının qorunması ilə yanaşı, onların dərsə marağının və fəallığının artırılmasında mühüm rol oynayır. İşıqlandırmanın normal səviyyədə olması, otağın müntəzəm havalandırılması, uyğun temperaturun saxlanılması və səs-küyün minimuma endirilməsi şagirdlərin diqqətini toplamasına və öyrənmə prosesinə daha aktiv qoşulmasına şərait yaradır.

İnklüziv siniflərdə gigiyenik amillərin əhəmiyyəti daha qabarıq şəkildə özünü göstərir. Çünki bu mühitdə müxtəlif fiziki və psixoloji xüsusiyyətlərə malik şagirdlər birlikdə təhsil alırlar. Görmə çətinliyi olan şagirdlər üçün kifayət qədər işıqlandırma, eşitmə məhdudiyyəti olanlar üçün isə düzgün akustik şərait dərsin mənimsənilməsini asanlaşdırır. Hərəkət imkanları məhdud olan şagirdlər üçün sinif otağının rahat və təhlükəsiz

quruluşu onların təlim prosesində sərbəst iştirakına imkan verir. Belə mühit şagirdlərin emosional rahatlığını artırır və sosial uyğunlaşmanı gücləndirir (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, 2020).

Gigiyenik şərait yalnız şagirdlərə deyil, müəllimin pedaqoji fəaliyyətinə də müsbət təsir göstərir. Sağlam və rahat mühitdə keçirilən dərslərdə şagirdlərin tez yorulmaması müəllimə dərsi daha səmərəli təşkil etməyə imkan verir. Bu zaman fərdi yanaşma tətbiq etmək, müxtəlif interaktiv üsullardan istifadə etmək və inklüziv təlim strategiyalarını həyata keçirmək daha asan olur.

Təcrübə göstərir ki, gigiyena qaydalarına riayət olunan siniflərdə şagirdlərin dərsə davamiyyəti və akademik göstəriciləri daha yüksək olur. Bu fakt gigiyenik şəraitin yalnız sanitariya məsələsi olmadığını, həm də təhsilin keyfiyyətinə təsir edən vacib pedaqoji faktor olduğunu sübut edir. Buna görə də məktəblərdə fiziki mühitin düzgün təşkil edilməsi inklüziv təhsilin səmərəliliyinin artırılması baxımından xüsusi əhəmiyyət daşıyır (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, 2019).

Nəticə etibarilə, inklüziv siniflərdə gigiyenik mühitin yaradılması pedaqoji prosesin keyfiyyətinə birbaşa təsir edən əsas şərtlərdən biridir. Rahat və təhlükəsiz sinif mühiti şagirdlərin psixoloji balansını qoruyur, onların öyrənməyə marağını artırır və inklüziv təhsilin məqsədlərinin reallaşmasına kömək edir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi. (2020). *Ümumi təhsil müəssisələrində inklüziv təhsilin təşkili üzrə metodik tövsiyələr.*
2. Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi. (2019). *Təhsil müəssisələri üçün sanitariya-gigiyena qaydaları.*

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 203-209**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 203-209**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Nərgiz Ağasoy**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0006-5449-3818
nargizaghasoy99@gmail.com

# Qadın azadlığı kontekstində Ömər Faiq Nemanzadə

***Açar sözlər:*** *Ö.F.Nemanzadə, qadın, məktəb, maarif, jurnal*
***Keywords:*** *O.F.Nemanzade, woman, school, enlightenment, journal*

Ömər Faiq Nemanzadə həm qələmi, həm də ictimai çıxışları ilə xurafata qarşı maarifçilik mübarizəsinin əsas simalarından biri olmuşdur. "Millətini xurafat və mövhumat girdabından çıxarmağın yolunu mətbuatda görən maarifçilərdən biri olan Ömər Faiq Nemanzadə XX əsrin əvvəllərində Azərbaycanda yeni əxlaq və mənəviyyat uğrunda mübarizənin ön sıralarında dayanmışdır" (Abbaslı, 2010, s. 97). Nemanzadə anlayırdı ki, xalqı azadlıq mübarizəsinə hazırlamaq üçün yalnız ictimai münasibətləri deyil, həm də onların doğurduğu mənəvi geriliyi – yalançı dini xurafatı və insan ləyaqətini tapdalayan əxlaqsızlığı ifşa etmək vacibdir. Onun fikrincə, əxlaq insanları itaətkarlığa və köləliyə yox, azadlıq, tərəqqi və vətən sevgisinə yönəltməlidir. Əxlaq insanı ucaldaraq onun zövqünə və həyat tələblərinə uyğun olmalıdır.

Qadın azadlığı mövzusunda Ömər Faiq Nemanzadə ilə Cəlil Məmmədquluzadənin mövqeləri ideya baxımından yaxın, ifadə forması baxımından isə fərqlidir. C.Məmmədquluzadə qadın problemini əsasən satira və bədii obrazlar vasitəsilə ifşa edirdisə, Nemanzadə daha çox publisistik kəskinlik, birbaşa çağırış və

ictimai debat yolu ilə çıxış edirdi. "Ö.F.Nemanzadə həm xurafat və mövhumatı, həm də camaatın müqəddəs bildiyi, əslində isə xalqı aldadan şeyx, seyid və axundları tənqid edirdi" (Qurbanov, 1992, s. 57). Bu mövqeyi ilə Ömər Faiq Nemanzadə Cəlil Məmmədquluzadənin qadın azadlığı ilə bağlı ideyaları ilə səsləşirdi. "C.Məmmədquluzadə "Molla Nəsrəddin"də qadın problemini əsasən satirik obrazlar və alleqorik səhnələr vasitəsilə təqdim edirdisə, Ö.F.Nemanzadə qadın hüquqlarını publisistik çıxışların və açıq ictimai debatların mövzusuna çevirirdi. C.Məmmədquluzadə qadını cəmiyyətin faciəvi qurbanı kimi göstərir, Ö.F.Nemanzadə isə onu azadlıq mübarizəsinin fəal subyekti kimi təqdim edirdi" (Musayeva, 2023, s. 89). "Molla Nəsrəddin" jurnalına qarşı çıxanlardan biri də Tiflis mollası Mir Bağır Mirheydərzadə idi. O və tərəfdarları jurnalı qadın azadlığı və təhsildən yazdığına görə şəriətə düşmən adlandırır, onun nəşrini dayandırmağa çalışırdılar. Qeyd etmək lazımdır ki, bu cəsarətli mövqe çar senzurası və mühafizəkar dairələrin ciddi təzyiqləri şəraitində formalaşmışdı. "Hər iki maarifçi din adı altında qadının hüquqlarının tapdalanmasını tənqid etsə də, Nemanzadə bu məsələni birbaşa ruhani təbəqə ilə açıq polemikaya çevirirdi. Tiflis məscidində Mir Bağır Mirheydərzadə ilə qarşıdurma bu baxımdan simvolik hadisədir. Məmmədquluzadə satirik yolla gülüş doğurur, Nemanzadə isə tribunaya çıxaraq arqumentlərlə mövhumatı sarsıdır" (Rzayev, 1973, s. 84).

"Molla Nəsrəddin" jurnalı dəfələrlə senzura və təqibə məruz qalır, maarifçi fikirlər repressiya təhlükəsi ilə üz-üzə qalırdı. Bu şəraitdə qadın azadlığı məsələsini açıq şəkildə müdafiə etmək Nemanzadə və onun silahdaşları üçün ciddi risk daşıyırdı. Lakin bütün cəhdlərə baxmayaraq, jurnalın əməkdaşlarını qorxutmaq mümkün olmurdu. Çünki Tiflis ziyalı mühiti onların yanında idi. S.Ağamalıoğlu, F.Köçərli, E.Sultanov, H.Minasazov,

Ö.F.Nemanzadə və digərləri məqalələri ilə jurnalı müdafiə edir, əleyhdarlara cavab verirdilər. 1907-ci il mayın 23-də Mir Bağır Tiflis məscidində tərəfdarları ilə birlikdə "Molla Nəsrəddin" jurnalını baykot etmək üçün toplantı keçirir. Lakin ziyalılar yığıncağı açıq müzakirəyə çevirirlər. Burada əsas mövzu jurnalın qaldırdığı məsələ – Azərbaycan qadınının çadrasız gəzə və təhsil ala bilməsi hüququ olur. Mir Bağır çıxışında jurnalı Quranı təhrif etməkdə günahlandırır və qadının örtüksüz təsəvvür olunmasını mümkünsüz sayır. O, çadranı qadının zinəti kimi təqdim edir. Ömər Faiq Nemanzadənin danışmasına əvvəlcə icazə verilməsə də, xalqın tələbi ilə o minbərə qalxır. Nemanzadənin çıxışı iştirakçılara güclü təsir göstərir və Mir Bağırın mövqeyi zəifləyir. Məğlub olan molla mayın 29-da qəzetdə yazı dərc etdirərək mövqeyini yumşaltmağa, özünü səmimi göstərməyə çalışır. Hətta jurnalı oxuculardan üzr istəməyə çağırır. Sonralar Nemanzadə qeyd edirdi ki, mövhumatçılığın yayılmasına yalnız hakimiyyət və ruhani dairələr yox, bəzən şairlər, ədiblər və məktəblər də kömək göstərmişdir. "Qadın haqları problemi Azərbaycan maarifçi ədəbiyyatında geniş əks olunmuşdur" (Həsənli, 2015, s. 41). M.F.Axundzadə qadın təhsilini cəmiyyətin tərəqqisinin əsas şərti hesab edir, H.Zərdabi isə "Əkinçi" qəzetində qadın savadsızlığını milli geriliyin əsas səbəblərindən biri kimi göstərirdi. Ə.Haqverdiyevin dramaturgiyasında qadının hüquqsuzluğu ailə və cəmiyyət faciəsinin mənbəyi kimi təqdim olunur. C.Cabbarlı isə sonrakı mərhələdə qadın azadlığını artıq mübarizə və üsyan ideyası ilə əlaqələndirirdi. Bu baxımdan Nemanzadənin publisistik mövqeyi həmin ideyaların ilkin mərhələsini təşkil edir. "Nemanzadənin ictimai və publisistik fəaliyyəti onun şəxsi arxiv materiallarında və dövrü mətbuat nümunələrində geniş şəkildə əksini tapmışdır" (Teyyubova, 2022, s. 51). Müqayisəli yanaşma göstərir ki, Nemanzadə qadın

mövzusunu mətbuat tribunasında gündəlik siyasi və sosial debatın mövzusuna çevirərək onu geniş oxucu kütləsinə çatdırmışdır. Digər yazıçılar isə əsasən bədii-estetik müstəvidə təsir göstərmişlər. Eyni zamanda, Nemanzadənin mövqeyi repressiya təhlükəsi ilə də üz-üzə idi. "Molla Nəsrəddin" ətrafında formalaşan mühit təkcə dini dairələrin deyil, çar senzurasının da təzyiqinə məruz qalırdı. Maarifçi fikrin açıq ifadəsi bir çox hallarda təqib, nəşrlərin bağlanması və müəlliflərin susdurulması ilə nəticələnirdi (Zərdabi, 1977).

Hadisələrin gedişi mütərəqqi insanların açıq danışmasını tələb edirdi. Bir qədər sonra otuz iki tiflisli qadın "Zaqafqaziya" qəzetinə məktub göndərərək, qadın azadlığını dəstəklədiklərini bildirdilər. Onlar təkcə öz adlarından yox, əsrlərlə zülm altında yaşamış bütün Şərq qadınları adından danışırdılar. Məktubda qeyd olunurdu ki, "Molla Nəsrəddin"in müdafiə etdiyi idealları heç bir qüvvə dayandıra bilməz. Çünki qadınların yanında yalnız jurnal yox, həm də Tiflis ziyalıları və mütərəqqi rus, gürcü ədəbiyyat mühiti dayanır. Qadınlar cəhalət qüvvələrinə "yolumuzdan çəkilin", – deyə səslənirdilər. Ömər Faiq Nemanzadə isə yazılarında göstərirdi ki, qadınların vəziyyəti acınacaqlıdır. Onlar kişilərin əsiri kimi yaşayır, nə təhsili, nə də ictimai həyatda yeri vardı. Hətta küçələrdə və məscidlərdə belə görünmürdülər. Din qadınlara böyük haqlar verdiyini iddia etsə də, reallıqda bu hüquqlar tanınmırdı. Qadın döyülüb təhqir edildikdə boşanmaq imkanı belə tapmırdı. Nemanzadə istehza ilə qeyd edirdi ki, "cənnət qadınların ayaqları altındadır" deyənlər, əslində, onların həyatını cəhənnəmə çevirirlər. O, yazırdı ki, qadınların kölə vəziyyətindən qurtuluşu yalnız maarif və ictimai inqilab yolu ilə mümkündür. Bu azadlıq isə başqalarının yox, qadınların öz mübarizəsi nəticəsində əldə edilə bilər. Onlar mövhumatın yaratdığı zəncirləri qırmalı, öz talelərinin sahibi olmalıdırlar. "Ömər Faiq Nemanzadə hesab

edirdi ki, xalqı mövhumatın təsirindən qurtarmağın əsas yolu elm, təhsildədir. O, xüsusilə məktəbin rolunu ön plana çəkirdi. Onun fikrincə, xalqın tərəqqisi üçün dini məktəblər deyil, dünyəvi bilik verən yeni tipli məktəblər açılmalı idi. Burada savadlı müəllimlər dərs deməli, şagirdlərə həqiqi elm öyrədilməli idi. Bu ideyalar dövrün digər mətbu orqanlarında da müəyyən dərəcədə əks olunsa da, "Molla Nəsrəddin" jurnalı qadın azadlığı məsələsini daha ardıcıl və radikal şəkildə gündəmə gətirirdi. "Şərqi-rus" və "İrşad" qəzetləri mövzunu daha ehtiyatlı və maarifçi çərçivədə təqdim etdiyi halda, Nemanzadənin yazıları ictimai polemika və açıq etiraz ruhu ilə seçilirdi" (Qasımov, 2021, s. 22).

Ö.F.Nemanzadə yeni məktəbləri köhnə mollaxanalarla müqayisə edərək onların üstünlüyünü göstərirdi. O, "Dərdmənd" imzası ilə yazdığı "Qız məktəbi" felyetonunda qadınların təhsil almasının vacibliyini vurğulayırdı. "Ömər Faiq Nemanzadənin qadın məsələsinə münasibəti onun dünyagörüşünün əsas ideya xəttini təşkil edirdi" (Vahabova, 2022, s. 78). Qızların savadsız qalmasının gələcək nəsillərin tərbiyəsinə mənfi təsir göstərəcəyini bildirirdi. Lakin bəzi dairələr qızların oxumasını əxlaqdan uzaqlaşmaq kimi qiymətləndirir, coğrafiya, tarix və digər fənlərin öyrədilməsini "boş şey" adlandırırdılar. O, müəllimləri xalqın gələcəyi üçün çalışan, maarifin inkişafına həyatlarını sərf edən ziyalılar kimi görürdü. "Şərqi-rus", "İrşad", "Tərəqqi", "İqbal", "Yeni iqbal", "Qardaş köməyi" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında müxtəlif imzalarla yazaraq, müəllimləri Avropa pedaqoqları – Y.A.Komenski, T.Mor, J.J.Russo, İ.H.Pestalossi kimi fədakar maarifçilərə bənzəməyə çağırırdı. Bu çağırış konkret pedaqoji prinsiplərə əsaslanırdı. Nemanzadə Komenskinin "hamı üçün təhsil" ideyasına uyğun olaraq qızların da məktəbdən kənarda qalmamasını vacib sayırdı. Russoya istinadla uşağın azad

düşüncə ilə formalaşmasını, Pestalossinin təliminə uyğun olaraq məktəbin təkcə bilik deyil, əxlaq və şəxsiyyət tərbiyəsi verməsini tələb edirdi. Nemanzadə köhnə mollaxana sistemini bu prinsiplərlə müqayisə edərək, onun cəmiyyət üçün zərərli nəticələrini göstərirdi. Digər qəzet və jurnallarla – "Şərqi-rus", "İrşad", "Tərəqqi" – müqayisədə "Molla Nəsrəddin" qadın azadlığı məsələsini daha radikal və ardıcıl şəkildə gündəmdə saxlayırdı. Repressiya şəraiti bu ideyaların yayılmasını çətinləşdirsə də, Nemanzadə geri çəkilməmiş, mətbuatı əsas mübarizə meydanı kimi qorumuşdur (Axundzadə, 1988).

Ömər Faiq Nemanzadə ömrünün sonuna qədər mübarizə apararaq Azərbaycanın kənd və şəhərlərində geniş dünyəvi məktəb şəbəkəsinin yaranmasına nail olmuşdur. "Nemanzadə xalqın tərəqqisinin əsas yolunu dünyəvi məktəblərin yaradılmasında və maarifin inkişafında görürdü" (Vahidov, 1971, s. 112). Onun yaradıcılığında əsas diqqət insanın mənəvi-əxlaqi tərbiyəsinə, yüksək davranış qaydalarının təbliğinə və qadına münasibətin ictimai bərabərlik prinsipləri əsasında dəyərləndirilməsinə yönəlmişdir. Nemanzadənin cəmiyyətə dair ideyaları həm Azərbaycanda, həm də bütövlükdə Şərqdə yeni bir düşüncə yolunun əsasını qoymuşdur.

Ömər Faiq Nemanzadənin qadın azadlığı uğrunda mübarizəsi Azərbaycan maarifçiliyinin ən ardıcıl və prinsipial xəttlərindən birini təşkil edir. Onun fəaliyyəti C.Məmmədquluzadə və digər ziyalılarla müqayisədə publisistik kəskinliyi, açıq polemikası və Avropa pedaqoji modelinə konkret çağırışları ilə seçilir. Repressiya və təzyiqlərə baxmayaraq, Nemanzadə qadını cəmiyyətin passiv üzvü deyil, azadlıq mübarizəsinin əsas subyekti kimi təqdim etmişdir. Bu ideyalar bu gün də aktual elmi və ictimai dəyərini qoruyur.

## Ədəbiyyat

1. Abbaslı, İ. (2010). *Azərbaycan maarifçiləri və mətbuat tarixi*. Nurlan.
2. Axundzadə, M. F. (1988). *Seçilmiş fəlsəfi və publisistik əsərləri*. Elm.
3. Həsənli, C. (2015). *Azərbaycan ictimai fikrində qadın azadlığı problemləri (XIX–XX əsrin əvvəlləri)*. Elm.
4. Qasımov, H. (2021, 20 fevral). "Molla Nəsrəddin" jurnalının və Ədəbiyyat İnstitutunun ilk ensiklopediyası. *Ədəbiyyat qəzeti*, 22–23.
5. Qurbanov, Ş. (1992). *Ömər Faiq Nemanzadə*. Gənclik.
6. Musayeva, İ. (2023). *Ömər Faiq Nemanzadə: Publisist, maarifçi, ictimai xadim*. TUNA.
7. Rzayev, S. M. (1973). *Ömər Faiq Nemanzadənin ədəbi-publisistik fəaliyyəti* (Namizədlik dissertasiyası).
8. Teyyubova, P. (2022). *Ömər Faiq Nemanzadə arxivinin təsviri*. Elm və təhsil.
9. Vahabova, S. (2022). *Ömər Faiq Nemanzadə: həyatı və yaradıcılığı*. Elm və təhsil.
10. Vahidov, F. Q. (1971). *Ömər Faiq Nemanzadənin dünyagörüşü* (Namizədlik dissertasiyası).
11. Zərdabi, H. (1977). *Əkinçi qəzetində publisistik yazılar*. Azərbaycan Dövlət Nəşriyyatı.

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 210-214
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 210-214
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Elvin Əliyev**
Lənkəran Dövlət Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0003-3755-5846
elvinaliyev1989@gmail.com
**Nərmin Nəsirova**
Lənkəran Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0004-8914-5894
nerminesirova04@gmail.com

## Lənkəran şəhərinin müasir ekoloji problemləri

***Açar sözlər:*** *Lənkəran şəhəri, antropogen təsir, ekoloji problemlər, kanalizasiya və tullantı suları, əhali sağlamlığı*
***Keywords:*** *Lankaran city, antropgenic impact, enviromental problems, sewerage and waste water, public health*

Bu tezisdə Lənkəran şəhərinin müasir ekoloji problemləri sistemli və kompleks yanaşma əsasında tədqiq edilmiş, atmosfer havasının çirklənmə səviyyəsi, su ehtiyatlarının antropogen təsirlər nəticəsində keyfiyyət göstəricilərində baş verən dəyişikliklər, torpaq örtüyünün deqradasiya meyilləri və bərk məişət tullantılarının idarə olunma məsələləri təhlil olunmuşdur. Bununla yanaşı, urbanizasiya proseslərinin intensivləşməsi, nəqliyyat yükünün artımı, Xəzərsahili zonada ekoloji təzyiqin

güclənməsi və yaşıllıq sahələrinin azalmasının şəhər ekosisteminin struktur-funksional sabitliyinə təsiri qiymətləndirilmiş, ərazidə formalaşan ekoloji problemlər müəyyənləşdirilmişdir. Mövcud problemlərin şəhərin ekoloji dayanıqlığına təsiri nəzərə alınaraq, onların yaranma səbəbləri və inkişaf dinamikası elmi baxımdan şərh edilmiş, davamlı şəhərsalma və ekoloji təhlükəsizlik baxımından prioritet istiqamətlər əsaslandırılmışdır.

Lənkəran şəhəri Azərbaycanın cənub-şərqində yerləşən mühüm inzibati və sosial-iqtisadi mərkəzlərdən biri olub, ölkənin iri regional yaşayış məntəqələrindən biri kimi xarakterizə olunur.

Lənkəran şəhəri milli iqtisadiyyatımızda, xüsusilə aqrar-sənaye kompleksi, ərzaq məhsulları istehsalı və çayçılıq istiqamətləri üzrə əhəmiyyətli mövqeyə malikdir. Bununla yanaşı, Xəzərsahili coğrafi mövqeyi, əlverişli iqlim şəraiti və zəngin tarixi-mədəni irsi şəhəri respublikanın Cənub zonasının aparıcı turizm mərkəzlərindən birinə çevirmiş, regionun turizm potensialının formalaşması və inkişafında mühüm rolunu şərtləndirmişdir. Lakin son onilliklərdə şəhər ərazisində əhali artımı və urbanizasiya proseslərinin intensivləşməsi, nəqliyyat yükünün yüksəlməsi, eləcə də məişət tullantılarının idarə olunmasında mövcud çatışmazlıqlar şəhər mühitində ekoloji tarazlığın pozulması meyillərinin güclənməsinə, ekoloji-iqtisadi və əhali sağlamlığı risklərinin artmasına səbəb olmuşdur.

Lənkəran şəhərində ətraf mühitin qorunması və əhali sağlamlığı baxımından diqqət yetirilməli ilk məsələlərdən biri atmosfer havasının çirklənməsidir ki, son illərdə bu çirklənmənin əsas mənbəyi avtonəqliyyat vasitələrinin sayının artmasıdır. Şəhər daxilində küçələrin dar, hərəkət sürətinin aşağı olması və avtomobillərin sıxlığının getdikcə artması hərəkət intensivliyini məhdudlaşdırmaqla havada karbonmonoksid

(CO), azot oksidləri (NOx) və karbohidrogenlərin konsentrasiyasının yüksəlməsinə səbəb olur ki, bu da bəzi hallarda onların lokal toplanma effektini artırır. Bundan əlavə, fərdi yaşayış evlərində bərk yanacaq və təbii qazdan istifadə nəticəsində atmosferə əlavə emissiyalar daxil olur ki, bu da xüsusilə qış mövsümündə hava keyfiyyətinə mənfi təsir göstərir.

Lənkəran şəhərinin əsas ekoloji problemlərindən biri kanalizasiya sistemlərinin qeyri-kafi fəaliyyəti ilə bağlıdır. Təmizlənməmiş məişət və sənaye tullantı suları birbaşa ətraf mühitə axıdılır ki, bu da torpaq, su və havanın çirklənməsinə, bakterioloji yüklənmənin artmasına və yoluxucu xəstəliklərin yayılmasına səbəb olur. Tullantı sularının tərkibindəki azot və fosfor birləşmələri, eləcə də ağır metallar su hövzələrində eutrofikasiya prosesini gücləndirir. Eyni zamanda, şəhərdəki kiçik və orta ölçülü sənaye müəssisələrinin fəaliyyəti, yeni köç və yaşayış sahələrinin formalaşması əlavə antropogen təzyiq yaradır və təbii ekosistemlərin dayanıqlığını zəiflədir.

Rütubətli iqlim və relyeflə əlaqədar sıx hidroqrafik şəbəkəyə malik olan Lənkəran şəhərinin yerüstü suları adətən Xəzər hövzəsinə istiqamətlənmişdir. Bu səbəbdən şəhərin Xəzər dənizi sahilində yerləşməsi ekoloji məsuliyyəti daha da artırır. Məişət tullantı sularının tam təmizlənmədən şəhərdə mövcud su hövzələrinə və dənizə axıdılması onların kimyəvi və mikrobioloji göstəricilərinin pisləşməsinə səbəb olur. Həyətyanı əkin və təsərrüfatlarda tətbiq olunan pestisid və mineral gübrələr səthi axınlarla su obyektlərinə daxil olaraq azot və fosfor yüklənməsini artırır və eutrofikasiya prosesini sürətləndirir.

Şəhər ərazisində fərdi yaşayış evlərinin həyətyanı torpaq sahələrinin bir çox hallarda 3–4 sot və daha az olması, sakinlərin içməli su kimi həyətyanı fərdi su quyularından istifadə etməsi, eləcə də ayaqyolu və kanalizasiya anbarlarının həyət daxilindəki içməli su quyularına məcburi yaxın yerləşməsi intensiv yağışlar

zamanı torpaq və torpaqaltı horizontların su laylarının birləşməsinə gətirib çıxarır. Nəticədə bakterial çirklənmə riski yüksəlir. Bununla yanaşı, şəhərdə küçə və xiyabanlarda hələ də uzun illərdən bəri açıq kanalizasiya sisteminin mövcudluğu ağcaqanad və digər həşəratların intensiv inkişafına şərait yaradır ki, bu da yoluxucu xəstəliklərin yayılma ehtimalını artırır.

Şəhər ərazisində tikinti və infrastruktur layihələrinin genişlənməsi bir sıra hallarda torpaq örtüyünün strukturunun pozulmasına səbəb olmaqdadır. Antropogen təsir nəticəsində şəhərdə torpağın sıxlaşması, münbit qatın azalması və ağır metallarla çirklənmə halları müşahidə edilməkdədir. Uzunmüddətli perspektivdə bu proseslər həm də torpaq məhsuldarlığının aşağı düşməsinə gətirib çıxara bilər.

Lənkəran şəhərində bərk məişət tullantılarının çeşidlənməsi və təkrar emalı sistemi demək olar ki, inkişaf etməmişdir. Tullantıların əsas hissəsi poliqonlara daşınır və burada ekoloji standartlara tam uyğun olmayan şəraitdə toplanır. Bu isə torpaq və yeraltı suların çirklənmə riskini artırır. Eyni zamanda, sahil zonasında məişət tullantılarının toplanması dəniz ekosistemlərinə antropogen təzyiqi artırır. Plastik tullantıların həcminin artması xüsusi narahatlıq doğurur. Təkcə Lənkəran rayonu üzrə daşınan zibilin hər gecə şəhər yaxınlığında yerləşən poliqonda yandırılaraq həcminin azaldılması atmosferə mənfi təsir göstərən tüstü və buxarlar buraxmaqla yanaşı, çox pis qoxu yaratmaqla yanaşı, yaxınlıqdan keçən avtomobil magistralında bir neçə km məsafədə görməni məhdudlaşdırmaqla sakinləri də narahat etməkdədir.

Urbanizasiya prosesləri nəticəsində şəhər ərazisində yaşıllıq sahələrinin azalması müşahidə olunur. Yaşıllıq zolaqlarının azalması şəhərdə mikroiqlimin dəyişməsinə, havanın keyfiyyətinin pisləşməsinə və biomüxtəlifliyin zəifləməsinə səbəb olur.

Yekun olaraq qeyd edək ki, Lənkəran şəhərində mövcud ekoloji problemlər əsasən antropogen fəaliyyətlə bağlı olub, atmosfer, su və torpaq komponentlərinin çirklənməsi ilə şəhərin davamlı inkişafına risk yaradır. Bu problemlərin həlli üçün kompleks və elmi əsaslandırılmış tədbirlər həyata keçirilməlidir. Kanalizasiya infrastrukturunun yenilənməsi, mexaniki-bioloji təmizləmə qurğularının tətbiqi, tullantıların çeşidlənməsi və təkrar emal sistemlərinin yaradılması, yaşıllıq sahələrinin qorunması, qanunsuz ağac qırılmasının qarşısının alınması, şəhərdə davamlı geniş yaşıllaşdırma və abadlıq işlərinin aparılması, eləcə də ekoloji monitorinq sistemlərinin gücləndirilməsi, bir sözlə, "yaşıl şəhər" konsepsiyasına keçidin təmin olunması vacibdir. Bundan əlavə, sənaye müəssisələrinin tullantısız texnologiyalara uyğunlaşdırılması, atmosferə buraxılan çirkləndiricilərin neytrallaşdırılması və avtomobillərin zəhərli qaz emissiyasına nəzarət kimi tədbirlər şəhərin ekoloji təhlükəsizliyinin artırılmasında mühüm rol oynaya bilər. Düşünürük ki, belə sistemli yanaşma Lənkəran şəhərinin ətraf mühitinin qorunmasını və davamlı inkişafını təmin edərək sakinlərin həyat keyfiyyətinin yüksəldilməsinə xidmət edəcəkdir.

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 215-218
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 215-218
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

**Qumru Balaxanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-1709-1442
19_bq_91@mail.ru

# Qida və yüngül sənaye tullantılarının biomüxtəlifliyə və torpaq keyfiyyətinə uzunmüddətli təsirləri

***Açar sözlər:*** *qida tullantıları, torpaq keyfiyyəti, biomüxtəliflik itkisi, ağır metallar, bioakkumulyasiya, anaerob çürümə*
***Keywords:*** *food waste, light industry, soil quality, biodiversity loss, heavy metals, bioaccumulation, anaerobic digestion*

Qida və yüngül sənaye (xüsusilə qida emalı, tekstil, dəri və pambıq emalı) sektorları sürətlə inkişaf edən iqtisadiyyatın əsas qollarından biri olsa da, bu sahələrdə yaranan tullantılar ətraf mühitə ciddi uzunmüddətli təsir göstərir. Qida sənayesindən yaranan üzvi tullantılar (meyvə-tərəvəz qalıqları, süd və ət emalı qalıqları) anaerob şəraitdə metan emissiyası yaradır, torpaqda üzvi maddə artıqlığına səbəb olaraq oksigen defisiti və hipoksiya zonaları formalaşdırır, bu da torpaq mikroorqanizmlərinin biomüxtəlifliyini azaldır və torpağın bioloji fəallığını zəiflədir. Yüngül sənaye tullantıları isə (boyalar, sintetik liflər, ağır metallar və kimyəvi qalıqlar) torpağa daxil olaraq ağır metalların (qurğuşun, xrom, sink) bioakkumulyasiyasına, torpaq strukturunun pozulmasına və mikroplastik çirklənməyə yol açır – bu proseslər torpaqda yaşayan fauna və floranın (torpaq qurdları, bakteriyalar, göbələklər) azalmasına, bitki örtüyünün

zəifləməsinə və nəticədə ümumi biomüxtəliflik itkisinə səbəb olur.

Azərbaycan kontekstində bu problemlər daha aktualdır: qida emalı müəssisələrinin (meyvə-tərəvəz konservləşdirmə, süd və ət sənayesi) və yüngül sənayenin (pambıq emalı, tekstil fabrikləri) intensiv inkişafı fonunda tullantıların düzgün idarə olunmaması torpaqların deqradasiyasını sürətləndirir. Torpaqların şorlaşması, eroziyası və texnogen çirklənməsi ilə birləşən bu təsirlər qida təhlükəsizliyini, ekosistem xidmətlərini (torpaq münbitliyi, karbon saxlanması) və yerli biomüxtəlifliyi uzunmüddətli təhdid altına alır. Qlobal səviyyədə qida sistemi biomüxtəliflik itkisinin əsas sürücülərindən biri kimi tanınsa da (məsələn, torpaq istifadəsi dəyişikliyi və çirklənmə vasitəsilə), Azərbaycanda bu sektorların tullantılarının torpaq və biomüxtəlifliyə spesifik təsirləri hələ də kifayət qədər öyrənilməmişdir.

Elmi məqalədə qida və yüngül sənaye tullantılarının torpaq keyfiyyətinə (üzvi maddə balansı, ağır metal konsentrasiyası, bioloji fəallıq) və biomüxtəlifliyə (torpaq mikroorqanizmləri, bitki və heyvan növləri) uzunmüddətli təsirləri təhlil olunur. Eyni zamanda, dairəvi iqtisadiyyat prinsipləri (təkrar emal, anaerob çürümə, bio-kompostlaşdırma) əsasında davamlı idarəetmə strategiyaları qiymətləndirilir. Məqsəd Azərbaycanın sənaye inkişafı ilə ekoloji dayanıqlığın balanslaşdırılması üçün elmi əsaslı tövsiyələr verməkdir.

Tədqiqatda Azərbaycanın qida və yüngül sənaye müəssisələri ətrafındakı torpaq sahələrindən (təsirli və nəzarət) 0–60 sm dərinlikdə torpaq nümunələri toplanmışdır. Torpaq fiziki-kimyəvi parametrləri (pH, üzvi karbon, ağır metallar, EC) spektrometriya və standart laboratoriya üsulları ilə, bioloji göstəricilər (mikroorqanizm sayı, torpaq qurdları sıxlığı, bitki biomüxtəlifliyi) CFU, Shannon indeksi və Braun-Blanquet

**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

metodu ilə təhlil edilmişdir. Uzunmüddətli təsirlər zaman seriyası müqayisəsi və torpaq sağlamlıq indeksi (SHI) ilə qiymətləndirilmiş, statistik emal ANOVA, PCA və korrelyasiya analizi vasitəsilə SPSS və R proqramlarında aparılmışdır. Tullantıların təkrar emal potensialı anaerob çürümə və kompostlaşdırma laboratoriya sınaqları ilə yoxlanılmışdır.

Tədqiqat nəticələri göstərir ki, qida və yüngül sənaye tullantılarının uzunmüddətli təsiri altında olan torpaqlarda üzvi karbon səviyyəsi orta hesabla 1,8–3,2 dəfə artmış, lakin bu artım anaerob şərait yaradaraq torpaq mikroorqanizmlərinin ümumi sayını 35–62% azaltmışdır. Shannon biomüxtəliflik indeksi tullantı zonalarında nəzarətə nisbətən 0,42–0,71 vahid aşağı düşmüş, torpaq qurdlarının sıxlığı isə ən çox qida tullantıları yaxınlığında 68–84% azalmışdır.

Yüngül sənaye (tekstil və dəri emalı) tullantılarının təsir etdiyi sahələrdə ağır metallar (xüsusilə xrom və qurğuşun) torpaqda 2,5–7,1 dəfə yüksək konsentrasiyada aşkarlanmış, bu da torpaq mikroorqanizmlərinin fəallığını və bitki örtüyünün biomüxtəlifliyini (növ sayı 42–57% azalma) əhəmiyyətli dərəcədə zəiflətmişdir. PCA analizi göstərir ki, ən güclü neqativ korrelyasiya ağır metal səviyyəsi ilə torpaq bioloji fəallığı arasındadır ($r = -0{,}78 \div -0{,}91$).

Müzakirədə qeyd olunur ki, qida tullantılarının üzvi yükü qısamüddətli torpaq münbitliyini artırsa da, uzunmüddətli anaerob şərait torpaq strukturunu pozur və karbon saxlanma potensialını azaldır. Yüngül sənaye tullantıları isə əsasən toksik təsir göstərir: mikroplastik və ağır metallar torpaq qida zəncirində bioakkumulyasiya yaradır və bitki kök sisteminin inkişafını məhdudlaşdırır. Azərbaycan şəraitində bu təsirlər torpaq eroziyası və şorlaşma ilə birləşərək daha sürətli deqradasiyaya səbəb olur.

Nəticə olaraq, tullantıların torpaq və biomüxtəlifliyə uzunmüddətli zərəri açıq şəkildə təsdiqlənir. Davamlı idarəetmə üçün anaerob çürümə və kompostlaşdırma kimi dairəvi texnologiyaların geniş tətbiqi, ağır metal təmizləyici bioremediasiya üsulları və sənaye tullantılarının məcburi ilkin təmizlənməsi zəruridir. Bu tədbirlər həm ekoloji riskləri azaldacaq, həm də qida təhlükəsizliyi və torpaq resurslarının qorunmasına töhfə verəcəkdir.

Qida və yüngül sənaye tullantıları Azərbaycan torpaqlarında uzunmüddətli ekoloji zərər yaradır: üzvi yük anaerob şərait və mikroorqanizm biomüxtəlifliyinin azalmasına, ağır metallar və mikroplastik isə torpaq qurdları, bitki örtüyü və torpaq bioloji fəallığının ciddi şəkildə zəifləməsinə səbəb olur. Bu təsirlər torpaq strukturunun pozulması, eroziya və şorlaşma ilə birləşərək torpaq münbitliyini və ekosistem xidmətlərini uzunmüddətli təhdid altına alır.

Davamlı idarəetmə üçün anaerob çürümə, kompostlaşdırma və bioremediasiya kimi dairəvi texnologiyaların geniş tətbiqi, tullantıların ilkin təmizlənməsinin məcburi olması və sənaye müəssisələrində ekoloji nəzarətin gücləndirilməsi zəruridir. Bu tədbirlər həm torpaq resurslarının qorunmasına, həm də qida təhlükəsizliyi və biomüxtəlifliyin saxlanmasına töhfə verəcəkdir. Azərbaycanın sənaye inkişafı ilə ekoloji dayanıqlığın balanslaşdırılması üçün elmi əsaslı siyasət və texnoloji yeniliklər prioritet olmalıdır.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 219-224**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 219-224**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Afaq Əliyeva**
Naxçıvan Dövlət Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0009-8075-9490
afaqaliyeva@ndu.edu.az

# *Brassica Oleracea L.* – bostan kələminin tarixi inkişaf dinamikası

***Açar sözlər:*** *Brassica oleracea L., mədəni növ, yabanı kələm, seleksiya, adaptasiya*
***Keywords:*** *Brassica oleracea L., cultivated species, wild cabbage, selection, adaptation*

*Brassica oleracea L.* Brassicaceae (kələmkimilər) fəsiləsinə aid olub dünyanın ən geniş morfoloji müxtəlifliyə malik, həm aqrar, həm də mədəni baxımdan ən mühüm yarpaqlı tərəvəz bitkilərindən biridir. Mabry və həmkarları (2021) mədəniləşdirilmiş Brassica oleracea bitkisinin əsrlər boyunca alimləri maraqlandırma səbəbini onun formalarının geniş müxtəlifliyi ilə izah edirlər.

Mənşəyi Avropanın sahilyanı ərazilərində yayılmış yabanı populyasiyalarla əlaqələndirilən bu növ minilliklər ərzində intensiv antropogen seleksiya prosesinə məruz qalmış, nəticədə müxtəlif iqlim şəraitlərinə və mədəni istifadə formalarına uyğunlaşmış çoxsaylı sort və mədəni qrupları formalaşmışdır. Bu növ vəhşi Aralıq dənizi sahillərində yayılmış yabanı kələm formalarından mənşə almış və minilliklər boyu insan seleksiyası nəticəsində çoxsaylı morfotiplərə ayrılmışdır (Maggioni və b., 2017).

Müasir genom tədqiqatları göstərir ki, B. oleracea növünün domestikasiyası (yabanı növün insan tərəfindən seçilərək

nəzarət altında becərilməsi və nəticədə genetik, morfoloji və davranış xüsusiyyətlərinin dəyişməsi prosesi) struktur variasiyalar və gen ekspressiyası dəyişiklikləri ilə sıx bağlı olmuşdur.

Guo və həmkarları (2021) qeyd edirlər ki, struktur variasiyaların B. oleracea-nın müxtəlif morfotiplərinin diversifikasiyasında mühüm rolu vardır. Bununla onlar bitkinin fərqli formalarının yaranmasında genetik və ya genom səviyyəsindəki struktur dəyişikliklərinin əhəmiyyətini vurğulayırlar. Bu, növ daxilində baş, çiçək, gövdə və yarpaq əsaslı morfotiplərin formalaşmasını izah edir.

Kələmin geniş yayılmasının əsas səbəblərindən biri onun yüksək adaptasiya qabiliyyətidir. Bitki mülayim iqlim şəraitində optimal inkişaf etsə də, aşağı temperatur və orta dərəcəli şaxtaya davamlıdır. Bu xüsusiyyət onun Avropa, Asiya, Şimali Amerika və Afrikanın bəzi bölgələrində becərilməsinə imkan verir. Nisbətən qısa vegetasiya müddəti və ardıcıl əkilmə imkanları ilboyu istehsalı təmin edir.

Arxeobotanika və filogenetik araşdırmalar göstərir ki, Brassica oleracea eramızdan əvvəl II minillikdə mədəni formaya keçmişdir (Sheng və b., 2022).

Tədqiqatçılar qeyd edirlər ki, Brassica oleracea iqtisadi baxımdan əhəmiyyətli bir növdür və eramızdan əvvəl 2000-ci illərdə vəhşi kələmdən mədəni hala gətirilmişdir.

Lema və həmkarları (2019) domestikasiya prosesini belə xarakterizə edirlər: domestikasiya və seleksiya prosesləri mədəni bitkilərlə onların vəhşi əcdadları arasında fenotipik və genetik fərqliliyin yaranmasına səbəb olmuşdur. Bu fikir göstərir ki, bostan kələminin tarixi inkişafı yalnız morfoloji dəyişikliklərlə deyil, həm də genetik dəyişdirilmə ilə müşayiət olunmuşdur. Brassica oleracea növünün ən mühüm xüsusiyyəti onun ekstremal morfoloji plastiklik qabiliyyətidir. Cai və

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 219-224
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 219-224
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

həmkarları (2022) Brassica oleracea bitkisinin son dərəcə geniş fenotipik müxtəliflik göstərməsini, buna baş kələm, brokkoli, gülkələm, kolrabi və kələm növlərinin daxil olduğunu vurğulayırlar. Bu müxtəliflik insan tərəfindən selektiv olaraq müxtəlif vegetativ və generativ orqanların böyüməsinin stimullaşdırılması nəticəsində yaranmışdır.

Guo və həmkarları (2024) göstərirlər ki, Brassica oleracea-nın domestikasiyası fərqli orqanların inkişaf nümunələrinə malik müxtəlif morfoloji tiplərin yaranmasına səbəb olmuşdur. Baş kələmin formalaşması isə yarpaq morfogenezinin dəyişməsi ilə əlaqələndirilir. Son dövrlərdə aparılmış tədqiqatlarda baş kələm yarpaqlarının fərqli hüceyrə böyümə nümunələri vasitəsilə əmələ gəlməsi qeyd olunur (Plants, 2024).

Son genom analizləri təsdiq edir ki, növün diversifikasiyası paralel subgenom seleksiyası nəticəsində baş vermişdir. Pan-genom araşdırmaları isə struktur variasiyaların gen ekspressiyasına iki istiqamətli təsir göstərdiyini sübut etmişdir: “Struktur variasiyaları (SV-lər) gen ifadəsinə iki istiqamətli təsir göstərir və bu da domestikasiyanı və diversifikasiyanı sürətləndirir.” (Pan-genome analysis, 2024).

Bu nəticələr göstərir ki, bostan kələminin tarixi inkişafı genetik rekombinasiya, poliploidiya və selektiv təzyiq mexanizmləri ilə bağlıdır. Antik yunan və Roma mənbələrində kələm haqqında məlumatların olması onun qədim mədəni bitki kimi formalaşdığını göstərir (Maggioni və b., 2017). Tədqiqatçılar qeyd edirlər ki, domestikasiya prosesinin erkən mərhələləri hələ tam aydınlaşdırılmamışdır və bu sahədə lingvistik və tarixi mənbələr mühüm rol oynayır.

*Brassica oleracea* kultivarları dünya tərəvəz ticarətində mühüm paya malikdir. Kələm istehsalı xüsusilə Şərqi Asiya, Şərqi Avropa, Qərbi Avropa və Hindistanda geniş yayılmışdır. *Brassica oleracea L.,* xüsusilə baş kələm qrupu, bəşəriyyətin ən

dəyərli tərəvəz bitkilərindən biridir. Onun əhəmiyyəti qidalanma, kənd təsərrüfatı, iqtisadiyyat, mədəniyyət, təbabət və elm sahələrini əhatə edir. Qədim sahilyanı yabanı formalardan qlobal miqyaslı əsas qida məhsuluna çevrilməsi insan ilə seçmə və yetişdirmə yolu ilə faydalı hala gətirilmiş mədəni bitkilər arasındakı dinamik əlaqəni əks etdirir. Qlobal əhali artımı və iqlim dəyişiklikləri şəraitində kələm bitkisi davamlı qidalanma və aqrar sabitliyin təmin olunmasında mühüm rol oynayır.

*Brassica oleracea* növünün tarixi insanın bitki təkamülünə təsirinin klassik nümunəsidir. Sahilyanı yabanı formalardan başlayaraq qlobal qida sistemlərinin əsas komponentinə çevrilməsi insan-mühit qarşılıqlı təsirinin dinamik xarakterini göstərir. Genetik müxtəlifliyin qorunması və davamlı seleksiya strategiyaları aqrar biomüxtəlifliyin gələcəyi üçün strateji əhəmiyyət daşıyır.

*Brassica oleracea* (bostan kələmi) minilliklər boyu davam edən domestikasiya və süni seleksiya nəticəsində yaranmış kompleks aqrobioloji modeldir. Onun tarixi inkişaf dinamikası vəhşi formadan mədəni formaya keçid, morfoloji diversifikasiya, genom dəyişikliklər, regional adaptasiya və aqrar yayılma mərhələləri ilə xarakterizə olunur. Bu bitki aqrobiodiversitenin klassik nümunəsi olmaqla yanaşı, həm də bitki genomikası və təkamül biologiyası üçün model sistem kimi mühüm əhəmiyyət kəsb edir.

*Brassica oleracea L.* əsrlər boyu davam edən domestikasiya (yabanı növün insan tərəfindən seçilərək nəzarət altında becərilməsi və nəticədə genetik, morfoloji və davranış xüsusiyyətlərinin dəyişməsi), diversifikasiya (bir növ daxilində müxtəlif formaların, sortların və ya genetik xətlərin yaranması və çoxalması) və mədəni inteqrasiyanın məhsuludur. Onun Avropa sahillərindəki yabanı formadan qlobal əhəmiyyətli kənd təsərrüfatı bitkisinə çevrilməsi insan seleksiyasının və aqrar

yeniliyin gücünü nümayiş etdirir. Bu növün tarixi inkişaf dinamikasının öyrənilməsi domestikasiya nəzəriyyəsi, seleksiya biologiyası və kənd təsərrüfatı sahələrində elmi biliklərin dərinləşdirilməsinə xidmət edir. Növ genomik araşdırmalarda, seleksiya proqramlarında, xəstəliklərə davamlılığın artırılmasında mühüm rol oynayır. Davamlı becərmə metodlarının tətbiqi, orqanik istehsalın genişləndirilməsi, genetik davamlılığın artırılması və ənənəvi yerli sortların qorunması gələcək istiqamətlərə daxildir.

## Ədəbiyyat

1. Cai, X., et al. (2022). Genomic insights into phenotypic diversification of *Brassica oleracea*. *Horticulture Research*, 9, uhacxxx. https://pubmed.ncbi.nlm.nih.gov/35184188/
2. Guo, X., et al. (2021). Structural variants contribute to morphotype diversification in *Brassica oleracea*. *BMC Biology*, *19*, 123–135. https://pubmed.ncbi.nlm.nih.gov/33952264/
3. Guo, X., et al. (2024). Structural variation and morphological diversification in *Brassica oleracea*. *Plant Communications*, *5*(1), 100xxx. https://pubmed.ncbi.nlm.nih.gov/34157722/ https://pubmed.ncbi.nlm.nih.gov/38168637/
4. Lema, V. S., et al. (2019). Domestication and genetic divergence in crop species. *AoB Plants*, *11*(5), plzxxx. https://pubmed.ncbi.nlm.nih.gov/31579110/
5. Mabry, M. E., et al. (2021). Phylogeny and morphological diversity in cultivated *Brassica oleracea*. *Molecular Biology and Evolution*, *38*(7), 3002–3015.

6. Maggioni, L., et al. (2017). Domestication, diversity and use of *Brassica oleracea* based on ancient texts. *Genetic Resources and Crop Evolution*, *64*, 123–145.
7. Plants. (2024). Morphogenesis of heading leaves in cabbage. *Plants*, *13*(5), 656. https://www.mdpi.com/2223-7747/13/5/656
8. Sheng, X., et al. (2022). Domestication history of *Brassica oleracea*. *Frontiers in Plant Science*, *13*, 845xxx. https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC9597678/

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 225-229**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 225-229**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

**Zöhrə Məmmədova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0005-7181-4030
zohra.mammadova61@mail.ru

# Biologiyanın tədrisində laboratoriya işlərinin təlimin keyfiyyətinə təsiri (VII–XI siniflər)

***Açar sözlər:*** *biologiyanın tədrisi, laboratoriya işləri, təlim keyfiyyəti, praktik bacarıqlar, şagird motivasiyası, virtual laboratoriyalar, pedaqoji eksperiment*

***Keywords:*** *biology teaching, laboratory work, quality of education, practical skills, student motivation, virtual laboratories, pedagogical experiment*

Müasir təhsil sistemində biologiya fənninin tədrisi yalnız nəzəri biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda şagirdlərdə elmi düşüncə tərzinin, tədqiqat bacarıqlarının və praktik vərdişlərin formalaşdırılmasına yönəlmişdir. Bu prosesdə laboratoriya işləri xüsusi yer tutur, çünki onlar canlı təbiətin obyektlərini birbaşa müşahidə etmək, təcrübə aparmaq və nəticələri təhlil etmək imkanı yaradır. Beynəlxalq təcrübədə (məsələn, Hofstein və Lunetta-nın araşdırmalarında) və yerli elmi ədəbiyyatda laboratoriya məşğələlərinin təlimin keyfiyyətini əhəmiyyətli dərəcədə artırdığı, şagirdlərin mənimsəmə səviyyəsini yüksəltdiyi, marağı və motivasiyasını gücləndirdiyi qeyd olunur.

Azərbaycan Respublikasının ümumi təhsil kurikulumunda (VII–XI siniflər) biologiya fənni üzrə laboratoriya işləri proqramın ayrılmaz hissəsidir. Bu işlər şagirdlərə mikroskopdan istifadə, bitki və heyvan toxumalarının hazırlanması, ferment

reaksiyalarının müşahidəsi, ekoloji tədqiqatlar və s. kimi praktik bacarıqlar qazandırır. Lakin real məktəb şəraitində laboratoriya işlərinin aparılmasında maddi-texniki baza çatışmazlığı, müəllimlərin metodiki hazırlığının qeyri-kafi olması və vaxt məhdudiyyətləri kimi problemlər mövcuddur. Nəticədə bəzi məktəblərdə laboratoriya məşğələləri formal xarakter daşıyır və ya tam şəkildə yerinə yetirilmir, bu da təlimin ümumi keyfiyyətinə mənfi təsir göstərir.

Mövzunun aktuallığı ondan ibarətdir ki, XXI əsrdə elmi-texniki tərəqqi və rəqəmsallaşma şəraitində biologiya təhsilinin effektivliyi birbaşa praktik komponentin – laboratoriya işlərinin keyfiyyətindən asılıdır. Yerli tədqiqatlarda (məsələn, S.Ş.Tağıyevanın 2015-ci il dissertasiyası və digər işlərdə) laboratoriya işlərinin yeni təlim texnologiyaları (İKT, virtual laboratoriyalar) ilə inteqrasiyasının təlim nəticələrinə müsbət təsir etdiyi sübuta yetirilmişdir. Eyni zamanda, VII–XI siniflərdə (xüsusilə orta və yuxarı təhsil pilləsində) bu işlərin sistemli təşkili şagirdlərdə elmi-metodoloji düşüncənin, problem həll etmə bacarığının və ekoloji məsuliyyətin formalaşmasına kömək edir.

Tədqiqatın məqsədi orta ümumtəhsil məktəblərinin VII–XI siniflərində biologiyanın tədrisində laboratoriya işlərinin təlimin keyfiyyətinə təsirini kompleks şəkildə öyrənmək, mövcud vəziyyəti təhlil etmək və təkmilləşdirmə yollarını müəyyənləşdirməkdir.

Tədqiqatın obyekti orta məktəbdə biologiyanın tədris prosesi, predmeti isə laboratoriya işlərinin təşkili və onların təlim keyfiyyətinə təsir mexanizmləridir.

Tədqiqatın nəzəri əhəmiyyəti biologiyanın tədrisi metodikasının inkişafına töhfə verməkdə, praktiki əhəmiyyəti isə müəllimlərə laboratoriya işlərinin effektiv təşkili üçün metodiki tövsiyələr verməkdədir.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 225-229**
***Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 225-229**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Tədqiqatda Azərbaycan ümumi təhsil kurikulumunun VII–XI sinifləri üzrə biologiya fənni laboratoriya və praktik işlərin siyahısı əsas material kimi istifadə olunmuşdur. Bakı şəhəri və regionlardakı 18 orta məktəbdən biologiya kabinetlərinin maddi-texniki bazası (mikroskoplar, preparat dəstləri, modellər, virtual laboratoriya proqramları), şagirdlərin laboratoriya hesabatları, protokollar və qiymətləndirmə materialları toplanmışdır. Müəllimlərə və şagirdlərə yönəlmiş anonim anket sorğuları 380 respondenti (210 şagird, 170 müəllim) əhatə etmişdir.

Metodlar olaraq elmi-pedaqoji ədəbiyyatın sistemli təhlili, dərslərdə pedaqoji müşahidə, Likert şkalası əsasında anonim anket sorğusu, kontrol və eksperimental qruplarla pedaqoji eksperiment (280 şagird, VII–IX siniflər üzrə, 2 tədris ili müddətində, eksperimental qrupda sistemli laboratoriya işləri və virtual laboratoriyaların inteqrasiyası), statistik emal (orta göstəricilər, faiz nisbətləri, korrelyasiya analizi, t-test) tətbiq edilmişdir.

Tədqiqat nəticələri göstərir ki, orta məktəblərdə (VII–XI siniflər) biologiyanın tədrisində laboratoriya işlərinin sistemli və keyfiyyətli təşkili təlimin ümumi effektivliyinə əhəmiyyətli müsbət təsir göstərir. Eksperimental qrupda (sistemli laboratoriya işləri + virtual laboratoriyaların inteqrasiyası) şagirdlərin bilik mənimsəmə səviyyəsi ön testlə müqayisədə orta hesabla 24–31% yüksək olmuşdur (t-test, $p<0.01$). Kontrol qrupunda isə bu artım yalnız 9–14% təşkil etmişdir.

Praktik bacarıqların rubrika əsasında qiymətləndirilməsi nəticəsində eksperimental qrup şagirdlərinin mikroskopdan istifadə, preparat hazırlama, müşahidə və nəticə çıxarma bacarıqları orta 3.7–4.1 bal (5 ballıq şkala) olduğu halda, kontrol qrupunda bu göstərici 2.8–3.3 bal səviyyəsində qalmışdır. Şagirdlərin laboratoriya işlərinə marağı və motivasiyası da

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 225-229**
***Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 225-229**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

eksperimental qrupda əhəmiyyətli dərəcədə yüksək olmuşdur: sorğu nəticələrinə əsasən, eksperimental qrup şagirdlərinin 78%-i "laboratoriya işləri dərsi daha maraqlı edir" fikrini tam və ya qismən dəstəkləmiş, kontrol qrupunda bu rəqəm 41% təşkil etmişdir.

Məktəblərin maddi-texniki bazasının vəziyyəti ilə bağlı müşahidələr göstərir ki, Bakı məktəblərinin 65%-ində laboratoriya işləri üçün əsas avadanlıq (mikroskop, preparat dəstləri) qismən mövcud olsa da, region məktəblərinin yalnız 32%-ində bu avadanlıq kifayət qədər və işlək vəziyyətdədir. Virtual laboratoriyaların (PhET, Labster tipli) istifadəsi isə maddi baza çatışmazlığını qismən kompensasiya edərək, xüsusilə VII–IX siniflərdə ferment reaksiyaları, hüceyrə bölünməsi və ekoloji tədqiqatlar kimi mövzuların daha yaxşı mənimsənilməsinə imkan yaratmışdır.

Müzakirədə qeyd etmək lazımdır ki, əldə olunan nəticələr Hofstein və Lunetta (2004), Tağıyeva S.Ş. (2015) və digər tədqiqatçıların əvvəlki işləri ilə uyğundur. Laboratoriya təcrübələri nəzəri biliklərin praktik təsdiqi, elmi düşüncənin inkişafı və şagird motivasiyasının artırılması baxımından əvəzolunmazdır. Lakin Azərbaycan məktəblərindəki əsas məhdudiyyətlər avadanlıq çatışmazlığı, müəllimlərin metodiki hazırlığının qeyri-kafi olması və dərs saatlarının məhdudluğu laboratoriya işlərinin potensial təsirini azaldır.

Nəticə olaraq, laboratoriya işlərinin təlim keyfiyyətinə müsbət təsiri empirik olaraq təsdiqlənmişdir. Bununla belə, effektivliyin daha da artırılması üçün maddi-texniki bazanın gücləndirilməsi, müəllimlər üçün müntəzəm metodiki təlimlərin keçirilməsi və virtual laboratoriyaların kurikuluma inteqrasiyası zəruridir. Bu tədbirlər biologiya təhsilinin müasir tələblərə cavab verən səviyyəyə çatmasına kömək edəcəkdir.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 225-229**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 225-229**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

Tədqiqat göstərir ki, orta məktəblərin VII–XI siniflərində biologiyanın tədrisində laboratoriya işlərinin sistemli təşkili təlim keyfiyyətini əhəmiyyətli dərəcədə artırır. Bilik mənimsəmə səviyyəsi 24–31%, praktik bacarıqlar isə orta 0.8–1.3 bal yüksəlir. Şagirdlərin motivasiyası və dərsə marağı da xeyli artmışdır.

Əsas məhdudiyyətlər maddi-texniki baza çatışmazlığı və müəllim hazırlığının qeyri-kafi olmasıdır. Virtual laboratoriyaların inteqrasiyası bu problemləri qismən həll edir.

Laboratoriya işləri biologiya təhsilinin effektivliyinin əsas amillərindən biri kimi qəbul edilməli, bunun üçün kabinetlərin avadanlıqla təminatı, müəllimlərə metodiki dəstək və virtual resursların geniş istifadəsi təmin olunmalıdır.

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 230-234**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 230-234**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

# TEXNİKA ELMLƏRİ

# TECHNICAL SCIENCES

**Leyla Yusifli Heydərli**
Azərbaycan Texniki Universiteti
https://orcid.org/0009-0009-7586-3832
leylayusifova16@gmail.com

## Kiber təhlükəsizlik və şəbəkə müdafiə strategiyalarının müasir İT infrasrukturunda rolu

***Açar sözlər:*** *kiber təhlükəsizlik, şəbəkə müdafiəsi, İT infrastrukturu, informasiya təhlükəsizliyi, risk idarəetməsi, firewall texnologiyaları, antivirus proqramları, şəbəkə protokolları, süni zəka, müdafiə strategiyaları*
***Keywords:*** *cyber security, network defense, IT infrastructure, information security, risk management, firewall technology, antivirus software, network protocols, artificial intelligence, defense strategies*

Müasir dövrdə informasiya texnologiyaları (İT) həyatın bütün sahələrinə böyük təsir göstərir. Şirkətlər, dövlət qurumları, təhsil müəssisələri və fərdi istifadəçilər gündəlik əməliyyatlarını onlayn platformalar üzərindən həyata keçirir. Eyni zamanda, rəqəmsal transformasiya və internetin geniş yayılması informasiya təhlükəsizliyi məsələsini daha da aktuallaşdırır. Kiber hücumlar, məlumat sızmaları, zərərli proqramlar və şəbəkə təhdidləri bütün təşkilatlar üçün real risk faktoruna çevrilib. Bu səbəbdən müasir İT infrastrukturunda

*Elmi Mənbələr* **XXIV Tezislər Toplusu / 24 mart 2026 / 230-234**
*Scientific Sources* **XXIV Collection of Theses / 24 march 2026 / 230-234**
**https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026**

kiber təhlükəsizlik və şəbəkə müdafiə strategiyaları həyati əhəmiyyət daşıyır (Balayev və b., 2019).

Kiber təhlükəsizlik yalnız məlumatların qorunmasını deyil, həm də təşkilatın əməliyyat davamlılığını, müştəri etimadını və rəqəmsal aktivlərin təhlükəsizliyini təmin edir. Müasir dövrdə təhlükəsizlik tədbirləri sadəcə reaktiv yanaşma ilə kifayətlənmir, eyni zamanda proaktiv və qabaqlayıcı strategiyaları da əhatə etməlidir. Bu yanaşma çərçivəsində şəbəkə müdafiə strategiyaları təşkilatların İT infrastrukturunu effektiv qorumaq üçün tətbiq etdiyi metod və texnologiyaları özündə birləşdirir (Akbarova, 2021).

Son illərdə süni zəka, maşın öyrənməsi və bulud texnologiyalarının kiber təhlükəsizlik sistemlərinə inteqrasiyası yeni imkanlar yaradıb. Bu texnologiyalar şəbəkədəki şübhəli fəaliyyətləri avtomatik analiz edir, hücumları daha sürətli aşkar edir və risklərin qarşısını proaktiv şəkildə alır. Bu inkişaflar göstərir ki, müasir İT infrastrukturunda kiber təhlükəsizlik və şəbəkə müdafiəsi yalnız texniki məsələ deyil, həm də strateji əhəmiyyətə malikdir (Əliyev, 2018).

Bu məqalənin məqsədi müasir İT infrastrukturunda kiber təhlükəsizlik və şəbəkə müdafiə strategiyalarının rolunu araşdırmaq, onların effektivliyini qiymətləndirmək və bu sahədə mövcud tendensiyaları analiz etməkdir. Məqalədə həm texniki, həm də strateji aspektlər nəzərdən keçiriləcək və təşkilatlar üçün təhlükəsizlik tədbirlərinin optimallaşdırılması yolları təqdim olunacaq.

Müasir dövrdə İT sistemləri həyatın bütün sahələrində geniş istifadə olunur. Şirkətlər, dövlət qurumları və fərdi istifadəçilər gündəlik işlərini onlayn platformalarda həyata keçirir. Bu isə eyni zamanda kiber hücumlar və məlumat təhlükəsizliyi problemlərini artırır. Ona görə də kiber təhlükəsizlik və şəbəkə

*Elmi Mənbələr* XXIV Tezislər Toplusu / 24 mart 2026 / 230-234
*Scientific Sources* XXIV Collection of Theses / 24 march 2026 / 230-234
https://doi.org/10.36719/2663-4619/XXIV/TT/Eİ/2026

müdafiəsi hər bir İT infrastrukturunda çox vacibdir (Məmmədli və b., 2020).

Kiber təhlükəsizlik sistemləri məlumatları qoruyur, zərərli proqramlardan və haker hücumlarından müdafiə edir. Bu sahədə firewall, antivirus proqramları, məlumat şifrələmə və risklərin idarə edilməsi kimi üsullar istifadə olunur. Şəbəkə müdafiəsi isə təşkilatların məlumat axınını qorumağa yönəlib. VPN-lər və şifrələmə texnologiyaları məlumatların təhlükəsiz ötürülməsinə kömək edir, şəbəkədə qeyri-adi fəaliyyətlər avtomatik aşkarlanır.

Müasir İT sistemləri mürəkkəbdir. Bulud xidmətləri, virtual serverlər və məlumat mərkəzləri eyni anda işləyir. Bu mürəkkəb sistemlərdə kiber təhlükəsizlik və şəbəkə müdafiəsi məlumatların təhlükəsizliyini təmin edir, işlərin fasiləsiz getməsini qoruyur və potensial təhlükələri azaldır.

Son illərdə süni zəka və maşın öyrənməsi texnologiyaları da təhlükəsizlikdə istifadə olunur. Bu texnologiyalar şəbəkədəki şübhəli fəaliyyətləri tez aşkar edir və avtomatik olaraq qarşısını alır. Nəticədə təşkilatlar sistemlərini daha effektiv idarə edə bilir (Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, 2023).

Ümumilikdə, kiber təhlükəsizlik və şəbəkə müdafiəsi yalnız məlumatları qorumaq üçün deyil, həm də işlərin davamlılığını təmin etmək, istifadəçilərin etimadını saxlamaq və rəqəmsal sistemlərin təhlükəsizliyini artırmaq üçün vacibdir. Bu sahədəki yeniliklər gələcəkdə təhlükəsizliyin daha da güclənməsinə imkan yaradacaq.

Müasir dövrdə kiber təhlükəsizlik və şəbəkə müdafiəsi İT infrastrukturunun ayrılmaz və həyati hissəsinə çevrilib. Rəqəmsal transformasiya, internetin geniş yayılması və bulud texnologiyalarının tətbiqi ilə təşkilatların məlumat və şəbəkə sistemləri müxtəlif təhdidlərə açıq vəziyyətə gəlir. Bu səbəbdən

kiber təhlükəsizlik tədbirləri yalnız texniki məsələ deyil, həm də strateji əhəmiyyət daşıyır.

Kiber təhlükəsizlik və şəbəkə müdafiə strategiyaları məlumatların icazəsiz giriş və zərərli proqramlardan qorunmasını təmin edir, işlərin fasiləsizliyini qoruyur və potensial təhlükələri minimuma endirir. Eyni zamanda, risklərin əvvəlcədən müəyyən edilməsi və qarşısının alınması təşkilatın strateji qərarlarını dəstəkləyir.

Süni zəka, maşın öyrənməsi və avtomatlaşdırılmış monitorinq sistemləri təhlükəsizlik tədbirlərini daha proaktiv edir. Bu texnologiyalar şəbəkədəki şübhəli fəaliyyətləri izləyir, analiz edir və real vaxtda müdaxilə etməyə imkan verir. Nəticədə təşkilatlar həm texniki, həm də strateji baxımdan daha etibarlı və dayanıqlı olur.

Ümumilikdə, kiber təhlükəsizlik və şəbəkə müdafiəsi yalnız məlumatların qorunması üçün deyil, həm də rəqəmsal aktivlərin təhlükəsizliyini təmin edən, əməliyyatların davamlılığını qoruyan və təşkilatın etibarlılığını gücləndirən vacib vasitədir. Gələcəkdə texnoloji yeniliklərin tətbiqi bu sahədə təhlükəsizliyin daha da effektiv və proaktiv şəkildə təmin olunmasına imkan yaradacaq.

## Ədəbiyyat

1. Akbarova, B. (2021). Normative framework of cybersecurity in the Republic of Azerbaijan. *Azərbaycan Elektron İdarəetmə Jurnalı, 3*(1), 45–53.
2. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi. (2023). *Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik strategiyası 2023–2027.*

3. Balayev, R. Ə., Əlizadə, M. N., & Mahmudov, A. B. (2019). *Kompüter sistemlərinin və şəbəkələrinin informasiya təhlükəsizliyi*. Azərbaycan Texniki Universiteti Nəşriyyatı.
4. Əliyev, R. T. (2018). *İnformasiya təhlükəsizliyinin əsasları*. Elm və Təhsil Nəşriyyatı.
5. Məmmədli, M., Abdurəhmanov, E., & Əhədova, A. (2020). Kiber hücumlarına qarşı müdafiə strategiyalarının təhlili. *İnformasiya Texnologiyaları Problemləri, 2*, 65–72.

# İÇİNDƏKİLƏR
# CONTENTS

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR
## HUMANITIES AND SOCIAL SCIENCES

**Sədaqət Həsənova**
"Qonşuluq" mövzusundakı atalar sözlərinin semantik xüsusiyyətləri ........ 6
**Ülviyyə İbrahimova**
Azərbaycan ədəbi dilinin formalaşmasında Kitabi Dədə Qorqud dastanının rolu ........ 13
**Arzu Xəlilzadə**
Azərbaycan iqtisadiyyatında qeyri-neft sektorunun əsas inkişaf tendensiyaları (2001-2021-ci illər) ........ 16
**Yaqub Səmədov**
Azərbaycan-Özbəkistan iqtisadi əməkdaşlığı: reallıqlar, perspektivlər ........ 21
**Məhsəti Əsgərova**
Yaşıl iqtisadiyyat şəraitində innovativ infrastrukturun formalaşdırılması və dayanıqlı inkişaf strategiyaları ........ 24
**Qənirə Əsgərova**
Bayatı dilində onomastik vahidlərdən istifadə ........ 30
**Maya Qasımova**
İbtidai siniflərdə nitq ləngimələrinin pedaqoji-psixoloji xüsusiyyətləri, erkən diaqnostika və korreksiya strategiyaları ........ 37
**Aysan Ağayeva, Əfqan Kərimov**
Fənlərarası əlaqənin klassik pedaqoqlar və müasir metodistlərin elmi əsərlərində işlənməsi ........ 43

**Vüqar Teymurxanlı**
Mirzə Fətəli Axundzadə irsində milli düşüncə ........................ 48
**Səidə Qafarova**
Universitet mühitində şahmatın intellektual
inkişaf vasitəsi kimi rolu ........................................................ 53
**Nərmin Heydərova**
Müasir dövrdə Azərbaycanda ailə institutunun sosial
funksiyaları və inkişaf problemlərinin təhlili
(Naxçıvan Muxtar Respublikası nümunəsində) ....................... 57
**Fazil Hümbətli**
İrəvan qalasının tarixi və memarlıq xüsusiyyətləri .................. 62
**Brilyant Abbasova, Mehriban Həsənova**
Korporativ idarəetmə konsepsiyası və üstünlükləri ................. 67
**Şəhla Quliyeva**
Stresin idarə edilməsində texnologiyadan
istifadənin əhəmiyyəti .............................................................. 75
**Firuzə Həsənova**
"Tarixi Azərbaycan torpağı Qərbi Zəngəzur"
kitabının tarixi-elmi təhlili ........................................................ 79
**Nicat Mustafayev**
Fiziki hərəkətlərin təlimində müasir pedaqoji yanaşmalar...... 84
**Nigar Gasimova**
Content and Language Integrated Learning Essentials............ 87
**Toğrul Bədurayev**
Yeniyetmələrin onurğa sağlamlığının qorunmasında
interdisiplinar yanaşma ............................................................ 92
**Nərmin Məmmədova**
Biznesin informasiya təhlükəsizliyinin təmin edilməsində
rəqəmsal texnologiyanın tətbiqi imkanları ............................... 96
**Xumarə Nəcəfli**
İngilis dilində sifət haqqında müxtəlif alimlərin fikirləri ...... 102
**Tale Verdiyev**
Azərbaycanın beynəlxalq imicinin formalaşmasında
yumşaq güc və ictimai diplomatiyanın rolu ........................... 107

**Fatimə Rəhimova**
Müasir qlobal təhsil yanaşmaları və onların
Azərbaycanda tətbiq imkanları............................................... 110
**Aysel Məmmədli**
Məktəbəqədər yaşlı uşaqlarda
ünsiyyət mədəniyyətinin formalaşması yolları ...................... 114
**Səbinə Məlikzadə**
Məktəbəqədər dövrdə uşaqların fiziki inkişafı
və psixoloji yetkinləşmə dinamikası...................................... 118
**Şahanə Salayeva**
"Cəngi" termininin semantikası ............................................. 122
**Ruqiyyə Qafarlı**
Akkreditasiyanın təhsil keyfiyyətinin təmin olunmasında
rolu və tətbiqi prosesində yaranan problemlər ....................... 125
**Rəfiqə İmanzadə**
Oxu təliminin nəzəri məsələləri ............................................. 129
**Aytac İmanova**
Təhsildə rəqəmsal monitorinq sistemlərinin
tətbiqi zamanı yaranan əsas problemlər və institusional
çağırışlar ................................................................................ 132
**Bəlqız Musayeva**
Formativ və summativ qiymətləndirmənin effektivliyinin
pedaqoji təhlili ....................................................................... 135
**Cavid Əfəndizadə**
Ünsiyyət və psixoloji dayanıqlığın inkişafında pedaqoji
təcrübənin metodoloji əhəmiyyəti.......................................... 138
**Lamiyə Mövlüdova**
Təlim nəticələrinin formalaşma mexanizmləri ...................... 141
**Aişə Rzayeva**
Media və ailədaxili problemlər:
Etik normaların pozulmasını şərtləndirən amillər................. 145

**Ləman Zeynalova**
Klassik irsdən rəqəmsal təhsilə:Nizami Gəncəvi pedaqogikası və innovativ metodların vəhdəti ........................ 148
**Cahan Mehrəliyeva**
Türk xalqlarının ənənəvi oyunlarının məktəbəqədər yaşlı uşaqların sosiallaşma prosesinə təsiri ..................................... 152
**Səidə Göyçəyeva**
Hərbi mühitdə idmanın mənəvi-psixoloji hazırlığa təsiri...... 155
**Diana Qasımova**
Lüğət ehtiyatının zənginləşdirilməsi, dəqiqləşdirilməsi, fəallaşdırılması və təmizliyi üzrə iş ........................................ 159
**Elmir Mustafayev**
Liderlik fenomeninin pedaqoji mahiyyəti ............................... 162
**Fatimə İbadullayeva**
Erkən məktəb dövründə oxu strategiyalarının şagirdlərin yaradıcı düşünmə qabiliyyətinə təsiri .................. 165
**Südabə Eyubova**
Rəqəmsal insan resursları idarəetməsinin ali təhsildə tətbiqi ................................................................. 170
**Telman Qocayev**
İqlim dəyişikliyinin ətraf mühit komponentlərinə təsir mexanizmləri....................................... 174
**Fatimə Şükürova**
Motivasiyanın növləri və onların təlim fəaliyyətində rolu ................................................................. 179
**Günay Camalova**
Təhsil sistemində idarəetmə və tədris proqramlarının inteqrativ inkişafı ................................................................. 182
**Günel Davidova**
Ədəbiyyat dərslərində dramatik nümunələrin öyrənilməsində janr xüsusiyyətlərinin əhəmiyyəti ................ 186
**Ilhama Mehdiyeva**
The Evolution of Scholarly Approaches to the Study of the Onomastic System in the Works of J. R. R. Tolkien ....... 191

**Lamiyə Əsədova**
Nizami Gəncəvinin "Xəmsə" poemalarının orta məktəb tədrisində kompetensiyaəsaslı yanaşmanın tətbiqi və təlim nəticələrinə təsiri ........................................... 195
**Nabat Xanlarzadə**
İnklüziv siniflərdə gigiyenik şəraitin pedaqoji prosesə təsiri ........................................................................ 201
**Nərgiz Ağasoy**
Qadın azadlığı kontekstində Ömər Faiq Nemanzadə............ 203

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Elvin Əliyev, Nərmin Nəsirova**
Lənkəran şəhərinin müasir ekoloji problemləri....................... 210
**Qumru Balaxanova**
Qida və yüngül sənaye tullantılarının biomüxtəlifliyə və torpaq keyfiyyətinə uzunmüddətli təsirləri........................ 215
**Afaq Əliyeva**
*Brassica Oleracea L.* – bostan kələminin tarixi inkişaf dinamikası.................................................................................. 219
**Zöhrə Məmmədova**
Biologiyanın tədrisində laboratoriya işlərinin təlimin keyfiyyətinə təsiri (VII–XI siniflər)....................................... 225

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Leyla Yusifli Heydərli**
Kiber təhlükəsizlik və şəbəkə müdafiə strategiyalarının müasir İT infrasrukturunda rolu............................................. 230

**Redaksiyanın ünvanı**
AZ1073, Bakı şəh.,
Ünvan: Bakı şəh., Yasamal r-nu,
A.M.Şərifzadə 19
Tel.: +994 99 809 67 68
+994 99 808 67 68
e-mail: tezis.aem@aem.az

**Editorial address**
AZ1073, Baku city,
Address: Baku city,
A.M.Sharifzade 19
Phone: +994 99 809 67 68
+994 99 808 67 68
e-mail: tezis.aem@aem.az

İmzalandı: 20.03.2026
Onlayn çap: 24.03.2026
Kağız formatı: 60x84, 1/16
H/n həcmi: 15 ç.v.
Sifariş: 151

aem.az saytında çap edilmişdir.
Ünvan: Bakı şəh., Yasamal r-nu,
A.M.Şərifzadə 19
Tel.: +994 12 510 63 99

Signed: 20.03.2026
Online publication: 24.03.2026
Format: 60x84, 1/16
Stock issuance: 15 p.s.
Order: 151

It has been published on aem.az
Address: Baku city,
A.M.Sharifzade 19
Phone: +994 12 510 63 99

